**Azərbaycan Milli Elmlər Akademiyası**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

**ƏBDÜRRƏZZAQ BƏY DÜNBÜLİ**

# MƏASİRİ-SULTANİYYƏ

**(Azərbaycana aid fəsillər)**

**Bakı – 2023**

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 19 yanvar 2023-cü il tarixli 1 №-li iclasının qərarı ilə nəşr edilir.

Fars dilindən tərcümə edən: **Hacı Rauf Şeyxzamanlı**

Elmi redaktor: **Şahin Fərzəliyev (Şahin Fazil)**
*tarix üzrə elmlər doktoru, professor*

Elmi məsləhətçi: **Tahirə Həsənzadə**
*tarix üzrə elmlər doktoru, dosent*

*Görkəmli tarixçi, təzkirəçi və şair Əbdürrəzzaq bəy Dünbülinin "Məasiri-sultaniyyə" əsəri İranda Qacarların hakimiyyətə gəlməsinə və birinci İran-Rus müharibəsinə həsr edilib. Salnamə şəklində təsvir edilmiş hadisələr müəllifin özünün müşahidələri əsasında qələmə alınıb. Kitabda təqdim olunan məlumat Azərbaycan tarixini öyrənmək üçün xüsusi əhəmiyyət kəsb edir.*

**Əbdürrəzzaq bəy Dünbüli. "Məasiri-sultaniyyə".**
Bakı. "Kitab çapı.az". 2023. 310 səh.

# ÖN SÖZ

“Məasiri-sultaniyyə”nin[1] müəllifi Əbdürrəzzaq bəy kürd mənşəli qədim Dünbülilər nəslinin nümayəndəsidir. Atası Nəcəfqulu xan 40 ilə yaxın Təbrizin bəylərbəyisi olmuş, ümumilikdə isə Dünbülilər yüz ildən artıq Təbrizin və Xoyun hakimləri olmuşdular.

*Bu tayfanın vətəni Diyarbəkirdir, Dünbüli adını da həmin ərazidəki Dünbül dağına görə alıblar.* Qədim zamanlarda yəzidi olmuş Dünbülilər köç edərək əvvəl Mosula, ardınca Xoya gəlib çıxmışdılar və o zamanlar etiqadları da dəyişmiş, bir qismi şafei məzhəbli sünni, əksəriyyəti isə şiə olmuşdular. *Nadir Mirzə Qacar* özünün *“Tarixü coğrafiyi-darüssəltəneyi-Təbriz”* əsərinin *“Dünbüli tayfasının əvvəli və axırı haqqında”* fəslində bu nəsil barədə ətraflı məlumat vermişdir.[2] Əbdürrəzzaq bəyin özü h.q. 1176-cı (bəzi mənbələrdə 1167-ci)[3] ildə Xoy şəhərində dünyaya gəlmişdi. On yaşında ikən atası onu girov kimi Şiraz şəhərinə, o vaxt, özünün təbiri ilə desək, İranın vəkilürrəayası Kərim xan Zəndin yanına göndərmişdi. Gənc Əbdürrəzzaq o vaxtdan istedadlı şair kimi tanınmağa başlayır. Tale elə gətirir ki, İranın gələcək padşahı *Ağa Məhəmməd xan Qacar* da Şirazda girov saxlanılır. Onlar orada tanış olurlar və, əlbəttə, bu tanışlıq gələcəkdə Əbdürrəzzaq bəyin karına gəlir. Belə ki, Kərim xan Zəndin vəfatından sonra Dünbülini İsfahana göndərirlər və Ağa

---

[1] Məasiri-sultaniyyə – hökmdar abidələri.

[2]Bax: Şahzadə Nadir Mirzə Qacar. “Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri”. Fars dilindən tərcümə edən Hacı Rauf Şeyxzamanlı. “Elm”. Bakı. 2019.

[3]Miladi təqvimilə 1762/63 (və ya 1753/54)

Məhəmməd xan 1785-ci ildə İsfahanı ələ keçirəndən sonra onu digər Dünbülilərlə bərabər *Təbrizə* köçürür. Bir azdan onun qohumlarından biri olan *Xudadad xan* Təbrizin hakimi təyin olunandan sonra Əbdürrəzzaq bəyin də vəziyyəti yaxşılaşır. O, Naibüssəltənənin "divani-inşa"sında[1] işləməyə başlayır. Lakin "Məasiri-sultaniyyə"də də adı gedən *Sadiq xan Şəqaqi* fitnə törədib Xudadad xanı öldürür. Bir müddət sonra artıq hakimiyyətə gəlmiş *Fətəli şah Qacar* Əbdürrəzzaq bəyin nadincliyindən çəkinərək onu Marağa hakimi *Əhməd xan Müqəddəmin* yanına yollayır. Orada "Məftun" təxəllüsü ilə ədəbi fəaliyyətlə məşğul olan Əbdürrəzzaq Dünbüli bir gün Əhməd xana istehza təriqi ilə bir həcv yazır. Bundan qəzəblənən Əhməd xan Fətəli şaha şikayət məktubu yazır və Məftunun beytini məktubunda göstərir. Sözügedən həcv zarafatı sevən Fətəli şahın xoşuna gəlir və o, beytin müəllifini hüzuruna çağırır. Beləliklə *Əbdürrəzzaq bəy Tehrana köçür*. Vəliəhd Abbas Mirzə 1803-cü ildə Təbrizə gedəndə onu özü ilə aparıb *möhürdar vəzifəsinə təyin edir*. O vaxtdan ömrünün sonuna qədər Dünbüli *Təbrizdə yaşamış,* 1241-ci ildə həccə getmiş və müqəddəs yerlərdən qayıdandan sonra 1242-ci (bəzi mənbələrdə 1243-cü)[2] ildə Təbrizdə vəfat etmişdir.

Əbdürrəzzaq bəy Dünbüli belə macəralı və keşməkeşli ömür sürdüyünə baxmayaraq, heç vaxt öz şair və yazıçı qələmini yerə qoymazdı. Bizə onun bir çox iri həcmli əsəri məlumdur ki, sonuncusu *"Nigaristani-Dara" təzkirəsi* ölümünə yaxın vaxtda tamamlanmışdı. Əsərlərin müxtəlif

---

[1]Divani-inşa – Təbrizdə oturan naibüssəltənənin hökumətində əmrlərin və digər sənədlərin hazırlanması, qeydə alınması və əyalətlərə göndərilməsi ilə məşğul olan idarə.

[2]Miladi təqvimilə 1826/27 (və ya 1827/28)

səpkidə və dillərdə yazılması həqiqətən heyranedicidir. Onun ədəbi irsinə yuxarıda adı çəkilən kitabdan başqa digər təzkirələr: "Təcziyyətül-əhrar və təsliyyətül-əbrar" (burada müəllif öz müasirləri olan şairlər, alimlər və maarifçilər haqqında məlumatla yanaşı Dünbülilər nəsli barədə yazmış və sonda öz nəzm və nəsr əsərlərindən nümunələr gətirmişdir), "Hədaiqül-cinan" (Şirazdakı həyat, orada həmin vaxt yaşamış ədiblər haqqında məlumat və həmçinin Kərim xan Zəndə həsr olunmuş hissə), ərəb dilində "Rövzətül-adab və cənnətül-əlbab" (ərəb şairləri haqqında), "Hədiqə" (yenə də ərəb şairləri barədə və onlara məxsus bəzi əsərlərin fars dilində izahı), "Həqaiqül-ənvar" (ərəb və əcəm şairləri), "Hədaiqül-üdəba" (yenə ərəb və əcəm şairləri, onların yazdıqları şeir nümunələri, müxtəlif hökmdarların siyasəti, vəzirlərin ədəb qaydaları, üsuli-din, əxlaq, tarix və lüğət); nəzm əsərləri: "Külliyati-divan və qəzəliyyat", Muxtar Səqəfiyə həsr ounmuş "Humayun-namə" məsnəvisi, "Naz və niyaz" məsnəvisi daxildir.

Yeri gəlmişkən xatırlatmaq istərdik: Şahin Fazil Əfqanıstanda işlərkən *polşalı missioner, həkim və tarixçi Yan Tadeuş Kruşinskinin*[1] *"Xristian səyyahın tarixi" ("Tarixe-səyyahe-məsihi")* adlı əsərini əldə etmiş və onun Azərbaycan dilinə tərcüməsinə başlamışdır.[2] Kruşinski Səfəvilərin süqutu ərəfəsində Polşadan İrana gələrək 1708-1726-cı illər ərzində burada baş vermiş bir sıra mühüm tarixi hadisələri adıçəkilən kitabında təsvir etmişdir. Azərbaycan Səfəvilər dövlətinin ovaxtkı paytaxtı İsfahan şəhərində yaşayıb fəaliyyət göstərən müəllif *həmin əsərində*

---

[1] Bəzi mənbələrdə *Yudaş Tadeuş Krusinski*

[2] Bax: Y.T.Kruşinski. "Xristian səyyahın tarixi". Fars dilindən tərcümə edən Şahin Fazil. Bakı, "Azərnəşr", 1993.

*Azərbaycanın İran, Rusiya, Cənubi Qafqaz, Dağıstan və Türkiyə ilə qarşılıqlı münasibətlərinə, Səfəvilər dövlətinin süqutuna geniş yer vermişdir.* Onun latın dilində yazdığı dəyərli kitabı sonralar müxtəlif dillərə, o cümlədən ingilis, fransız, alman, türk, fars və başqa dillərə tərcümə olunmuş, geniş tədqiqata cəlb edilmişdir.[1] Həmin əsəri Əbdürrəzzaq Dünbüli Məftun həmçinin Tehranda fars dilinə tərcümə etmişdir. Onun özünün bu barədə verdiyi məlumatda oxuyuruq: "Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti zamanı məsihi millətindən olan bir səyyah (yəni Y.T.Kruşinski – Ş.F.) İsfahana gələrək orada iyirmi altı ilə qədər zamanın qəzavü qədərini müşahidə etdi. O, zamanın hadisələrindən təcrübə edən və məsləhətə qail olan bir şəxs idi. O, ruzigarın isti-soyuğuna düşmüş Qəndəhar əfqanlarının İsfahanı ələ keçirdikləri hadisələr haqqında *böyük diqqətlə latın dilində [bir əsər] yazdı.* Həmin əsər İstanbula çatdı, Rum xandgarının (sultanının – Ş.F.)saray adamlarından olan *İbrahim adlı bir şəxs onu türk dilinə çevirərək, "Darüt-təb'a" İstanbul basmaxanasında "Bəsirətnamə" adı altında çap etdirdi.* Həmin kitabın bir nüsxəsi İran dövlətinin nəvvabı (şahzadəsi – Ş.F.) və vəliəhdi olan naibüssəltənənin (Fətəli şahın oğlu Abbas Mirzənin – Ş.F.) əlinə düşdü. O cənabın şərafətli əmrinə görə bu ibrətamiz kitabın fars dilinə tərcüməsi cahana pənah verən sarayın bəndəsi olan mənə – *Nəcəfəli (Nəcəfqulu) Əbdürrəzzaqa tapşırıldı*"[2]. "Tarixe-səyyahe-məsihi" əsəri fars dilinə

---

[1]Y.T.Kruşinski. Tarixe-səyyahe-məsihi (fars dilində). Kabil, 1984. Qeyd: güman ki, "Tarixe-səyyahe-məsihi" əsərin əsl adı deyil və kitab tərcüməçi Fəqir Məhəmməd Xeyirxah tərəfindən belə adlandırılmışdır (Ş.F.).

[2]Tarixe-səyyahe-məsihi, "Məftunun müqəddiməsi" hissəsi, ss. 1-2, 11.

*“Bə sirətnamə” və “İbrətnamə”* adları ilə tərcümə olunmuşdur. Həmin əsərin iki nüsxəsinin fotosurəti (“İbrətnamə” – 108 səhifə, “Bəsirətnamə” – 205 səhifə) Əfqanıstan Milli Arxivində saxlanılmaqdadır. Əbdürrəzzaq Dünbülinin tərcüməsi, onun özünün yazdığına görə, əsərin osmanlı dilinə edilmiş tərcüməsi üzrə həyata keçirilmişdir.

Bundan əlavə Əbdürrəzzaq bəy Fətəli şahın ömrü və əməlləri barədə bəhs edən “Came’i-xaqani”nin və Dünbülilər nəslini tərənnüm edən “Riyazül-cənnət”in müəllifidir. Əlbəttə, bütün yuxarıda adı çəkilən əsərlərin sırasında “Məasiri-sultaniyyə”nin xüsusi yeri vardır.

“Məasiri-sultaniyyə” kitabında müəllif müfəssəl şəkildə Qacarlar nəslinin mənşəyi, Ağa Məhəmməd xanın hakimiyyətə gəlməsi, Fətəli şahın XIX əsrin 20-ci illərinədək hökmranlığı (qalan dövrün də üzərinə işıq salmağı nəzərdə tutan müəllif məqsədinə çatmadan vəfat etdi), *həmin dövrdə Rusiyanın Qafqaza və Azərbaycana ordu yeritməsi və birinci İran-rus müharibəsi barədə* məlumat verir. *Təbii ki, hadisələrin bilavasitə onların şahidi tərəfindən təsvir edilməsi “Məasiri-sultaniyyə”nin əsas məziyyətlərindəndir.* Əsərin dili farsdilli ədəbiyyat üçün xas olan gözəl ibarələrlə, mədhiyyələrlə, mübaliğələrlə və müqayisələrlə zəngin olsa da, əslində *“Məasiri-sultaniyyə” çox ciddi, qərəzsiz, faktlara əsaslanmış bir salnamə şəklində yazılmışdır.* Biz tərcümə əsnasında müəllifin yazı üslubunu mümkün qədər dəyişikliksiz saxlamağı qarşımıza məqsəd qoyduq ki, oxucu burada təsvir olunan hadisələrin şərhinə qayıdaraq onlara o dövrün adamının gözü ilə baxa bilsin. Bununla belə, müasir oxucu üçün yaxşı tanış olmayan bəzi məqamları səhifəaltı şərhlərdə və kitabın sonundakı qeydlərdə açıqlamağı lazım bildik. Əbdürrəzzaq bəy kitab üzə-

rindəki işi h.q. 1236-cı ilin zilhiccə ayında[1] tamamlamışdı. Təqribən o vaxt kitab ilk dəfə Tehranda daşbasma üsulu ilə çap olunmşdu. *Öz dövrünün ən tərəqqipərvər dövlət xadimi olan Abbas Mirzə Naibüssətənənin təşəbbüsü ilə Avropadan yeni çap dəzgahları gətiriləndən sonra "Məasiri-sultaniyyə" Təbrizdə Molla Məhəmmədbaqir Təbrizinin mətbəəsində h.q. 1241-ci ilin rəcəb ayının əvvəlində[2] yenidən çap olunmuşdu.* Yeri gəlmişkən, hazırkı tərcümə məhz həmin mətbəədə o vaxt işıq üzü görmüş nüsxədən, eləcə də 2005-ci ildə *doktor Qulamhüseyn Zərgərinijadın* hazırladığı və ətraflı şərhlər verdiyi kitabdanyerinə yetirilmişdir. Biz bəzi amilləri nəzərə alaraq hazırkı nəşrdə əsərin müxtəsər, yəni əsasən Azərbaycana aid hissələrinin tərcüməsini dəyərli oxucuların diqqətnə təqdim etmişik. "Məasiri-sultaniyyə" bundan əvvəl ərəb və ingilis dillərinə tərcümə olunduğu halda, nə qədər qəribə olsa da, indiyə qədər Azərbaycan oxucularının əksəriyyəti Azərbaycan xalqının və torpağının bölünməsinə baiskar olmuş rus istilası barədə yalnız rus mənbələrindən məlumat ala bilmişdilər. Biz bu tərcüməmizlə həmin boşluğu qismən doldurmağa səy göstərdik.

***Şahin Fazil və Rauf Şeyxzamanlı***

[1]Miladi təqvimilə 1821-ci ilin iyulunda
[2]Miladi təqvimilə 1826-cı ilin martında

## Bismillahir-rəhmanir-rəhim

## [Müəllifin dibaçəsi (ixtisarla)]

Həmdü səna olsun o Allaha ki, kamil hikmətin tələbi ilə yaranışın lareyb karxanasında bir ovuc torpaqdan pak Adəmin heykəlini düzəldib qırx sübh mayalamadan və İlahi əllərlə şərəfləndirmədən sonra o torpağa ruh bəxş etdi.

Səna ilə həmd olsun kainat Sahibinin töhfəsinə, bütün mövcudatın tacına, vəlilərin şahına və vəsilərin, ailənin və övladların fəxrinə.

Qüdrətli padşah[1], türk ilə əcəm hökmdarı, padşah taxtında əyləşib Bəni-Adəmə fərman verən, dərviş ürəkli xosrov, kölgəli səmanın günəşi, cah-calalın ərşi, ay işığının camalı, zavalsız günəşin kamalı, möhtəşəmliyin dayağı, qüdrətin mayası, dövlətin zinəti – onun əzəmətinin kölgəsi qiyamət gününədək xalqların üstündən əskilməsin.

Sübhanəllah, onun vəsfi göz önünə, ona deyilən təşəkkürlər dilə gəlir, onun xeyirxah əməllərindəndir ki, Azərbaycan əhlinin üzərinə minnət qoyub, dövlət qapısını geniş açıb və nemətlər paylayıb. Dünya məlikzadəsi, ədalətli hakim, müzəffər padşahzadə, burada islamın hamisi, ənamların sığınacağı və hər cür ümidin mayası[2].

Alicənablıq əli toxunduğu yer başdan-başa naz-nemətə qərq olar, təkəbbür ayağı basıldığı yer isə zərrə-zərrə cəhənnəm odunda yanar.

Dünya meydanı bu halda olarkən və dünyada yaşayanların işi bu cür davam edərkən uca səltənətin eyvanından bu dəyərsiz bəndə ***Əbdürrəzzaq ibn Nəcəfquluya*** bir

---

[1]Fətəli şah Qacar nəzərdə tutulur.
[2]Vəliəhd Abbas Mirzə nəzərdə tutulur.

fərman yetişdi ki, hökmdarların həyatında baş vermiş mühüm hadisələrin qələmə alınmasına və bu əbədi dövlətin gözəl işlərinin fəxr tacına düzülməsinə başlansın. Bu bəndə də məşhur "Əlmə'mur – mə'zur"[1] ifadəsini əsas tutaraq münşilərə xas olan mübaliğə ilə kəlməpərdazlığı kənara qoyub humayun dövrdə göstərilmiş qəhrəmanlıqlardan və günü-gündən böyüyən dövlətdə baş vermiş hadisələrdən ibarət bir icmalı təhrir ilə təqrir[2] sapına çəkdi, şahənşah həzrətlərinin mühüm əməlləri ilə xilafət vəliəhdinin müharibə-mücadiləsini barmaqların vasitəsilə qələmlə səhifə üzərində bəyan etdi və beləliklə ***"Məasiri-sultaniyyə"***[3] adlı kitabı ərsəyə gətirdi. Hekayənin əvvəlində şan-şövkətli Qacar tayfasının tərcümeyi-halı və bu igidlər tayfasını hərtərəfli tanıtdırmaq üçün bir neçə söz gəlir.

---

[1]Bu ifadənin təqribi mənası belədir: əmri yerinə yetirənin işi üzürlü sayılır.
[2]Təhrir ilə təqrir – yazıb bəyan etmə.
[3]Məasiri-sultaniyyə – hökmdar abidəlləri.

Cəlair türkləri ən böyük, hörmətli və əsil-nəcabətli ellərdəndirlər. Saba noyon Cəlairdən, Sərtaq Sabanın oğlu, Qacar isə Sərtaq noyonun oğludur. Türk Qacar tayfalarının içində üç tayfa olub. Biri Suldusdan, biri Tanqutdan, biri də Cəlairdəndir. Suldusdan olan İrana gəlməmişdi. Tanqutdan olan lap az idilər, cəmi otuz-qırx ailə. Onlar digər monqol tayfalarına qoşuldular və nə adları qaldı, nə bir nişanəsi. Cəlairdən olanlar isə dövlət və hörmət sahibi oldular və Ceyhun çayının sahilindən Reyə qədər hər yer Sərtaqın hökm ilə fərmanı altında idi və Abaqa xanın ixtiyarına və atabəyiƏrğun xana keçdi və bu barədə yaxında gələcək. Ərğun xan ondan[1] tərbiyə almışdı və ona məxsus Sərtaq məmləkəti Muğanda Qızılağacdan Nişapura qədər uzanmışdı. O özü Cürcanda[2] otururdı, nəsli Cürcanda və Mazandaranda artmışdı. Qazan xanın dövründə və ondan da əvvəl Taycunun tümənindəki[3] həzarədən[4] olub.

Qazan xan oğlu Taycunu cəzalandırandan sonra[5] Taycunun tümənini Qacara tapşırdı, onu əzizlədi və ona etimad göstərdi. Atasının vilayəti onun əlində idi. Keçmişdə Cəlairin övladlarına "kuyank"[6] deyərdilər və çinlilərin dilində bu sözün mənası böyük xan və padşahdır. Onlar Çingiz xanın tufanvari qiyamında sol tərəfdə mövqe tutmuşdular. Qalanı almaqda, düşməni yenməkdə, şiri ovlamaqda və

---

[1]yəni Abaqa xandan

[2]Cürcan – İranın Gürgan şəhəri. Bir vaxtlar onun adı Astrabad (və ya İstrabad) olmuşdu

[3]Tümən – on min nəfərlik hərbi birləşmə.

[4]Həzarə – min nəfərlik hərbi hissə.

[5]Bağdadı alandan sonra Qazan xan Taycunu edam etmişdi.

[6]Kuyank – monqolca qui-ong (ölkə şahı) sözündəndir.

rəqibi məğlub etməkdə şöhrət qazanmışdılar. Çingiz xanın dövründə onların böyüyü Muqli kuyank olub. Oktay qaanın zamanında onun oğlu Buğal kuyank atasının yerində oturmuşdu və böyük qəhrəmanlıqlar nümayiş etdirmişdi. Qubilay qaanın dövlətində onlardan Hətun noyan böyük əmir olub və Cəlair qövmündən Qədanın oğlu Eylükə bayrağının kölgəsində olan ucsuz-bucaqsız ordusu ilə Çingiz xanın fərmanına əsasən Oktay qaanın atabəyi rütbəsinə yüksəlmişdi. Atabəyin mənası lələdir. Böyük əmirlərdən olan Əmir Ərğunu Eylükəyə nökərlik və qulluq etməyə qoydu ki, onun əmrinə tabe və onun fərmanına amadə olsun. Əmir Ərğun fəsahətli, ağıllı və cəsarətli adam olduğuna görə onun işi yuxarı getdi və nüfuzu artdı. Mənku qaanın dövründə Mənksar noyan böyük yarğuçı Cəlairdən olub. Yarğuçı divan başçısına, günahkarları sorğu-suala tutub cəzalandırana deyərdilər və qanunlar, hökmlər də onun ixtiyarında idi. Kəlayın oğulları Əruq və Buqa Hulaku xanla bir yerdə İrana gəldilər və Abaqa xanın qulluğunda idilər. Onlar o uca padşahın, böyük əmirin tərbiyəsinə məşğul olurdular. Saba noyanın oğlu,  Ərğun xanın uşaqlıq illərində Xorasanda və Mazandaranda əmirülümәra olmuşdu. Sərtaq noyanın Qacar adlı bir oğlu var idi. Qacar nəsli ondan gəlir və bu ali sülalə Qacarın Xorasandakı, Mazandarandakı və Astrabaddakı övladlarından başlayır. Merkit[1] fürsət tapıb Çingiz xanın evini qarət edəndə Çingiz xanın arvadını[2] ki, o zaman bətnində Cucini[3] daşıyırdı, Unk xanın yanına gön-

---

[1]Merkit böyük monqol ittifaqını təşkil edən beş eldən birinin adıdır.
[2]Bu xanımın adı Börtə olub.
[3]Cuci xan (təqr.1182-1227) – Çingiz xanın sonuncu oğlu. Atasının dövründə Monqol dövlətinin hökmdarlarından və ordunun baş sərkərdələrindən olub.

dərdi. Çingiz xanın atası Yəsuge Bahadırla Unk xanın arasında bineyi-qədimdən dostluq və məhəbbət əlaqəsi olub, Unk xan ona oğul deyərdi. Buna görə o qadına öz oğullarının gəlinləri kimi mehribanlıqla baxardı, ona ehtiram göstərərdi, onunla nəzakət və şəfqətlə rəftar edərdi. Əmirlər ona deyərdilər ki, o qadını almalıdır. O isə cavabında deyərdi ki, o xanım onun gəlinidir və ona xəyanət gözü ilə baxmamalıdır. Çingiz xan ki, ondan belə insanlıq gördü və Unk xanın qədim qanunlara sadiq olduğunu mülahizə etdi, Sərtaqın atası Saba noyanı ki, Qacarın cəddi və dünyanı fəth etmiş padşahın sirdaşı və etibar etdiyi bir şəxsi olmuşdu, xanımını tələb etmək üçün Unk xanın yanına göndərdi. Unk xan Saba noyanı hörmət-izzətlə qəbul etdi, onun gəlişini yüksək dəyərləndiridi və Çingiz xanın xanımını ona təhvil verib yola saldı. İş elə gətirdi ki, xatunu yolda doğum sancısı tutdu və Cuci xan dünyaya gəldi. Yol qorxulu olduğuna görə uşaqdan ötrü dayanıb beşik və libas düzəltmək üçün macal tapmadılar. Bir az undan xəmir yoğurub yeni doğulan körpəni bu xəmirə bürüdülər və qucağa alıb atasının yanına apardılar ki, heç bir yeri ağramasın. Bu səbəbən uşağa Cuci adını qoydular: yəni, qəflətən dünyaya gələn.

Çingiz xan dövləti və monqolların hökmranlığı zəifləyəndən sonra Cəlair tayfasından Şeyx Həsən noyan və oğlu Sultan Üveys ki, nəsəblərini Sultan Qazana və Sultan Məhəmməd Xudabəndəyə bağlayırlar, bir müddət İranda hökmranlıq ediblər və onların əməlləri müxtəlif tarix kitablarında zikr olunur.

Xülasə, Qacar nəsli öz rəşadətləri və cəsarətləri ilə məşhurlaşmış, Şah İsmayıl Səfəvinin və Şah Təhmasibin hakimiyyəti dövründə sərkərdəlik və sərhəd qoruma işlərində həmişə başını uca tutmuş və dünya meydanında əzm ilə

qəhrəmanlıq nümayiş etdirərək şan-şövkət sahibi olmuşdu. Sultanlıq növbəsi Şah Abbas Səfəviyə çatanda isə o camaatın çoxluğundan əndişəyə düşüb onları pərən-pərən saldı. Bir hissəsini Mərvə köçürdərək özbəklərlə üz-üzə qoydu, bir hissəsini Gəncəyə və İrəvana məmur etdi, bir hissəsini isə əsl vətənləri olan[1] Astrabadda türkmənlərlə qarşı-qarşıya yerləşdirib sərhədi qorumağı tapşırdı[2].

*Ölkənin xaqanı Fətəli xanın aliməqam cəddi haqqında*

Süleymanməkan xaqanın aliməqam cəddi yomut tayfasını[3] başına yığıb Mübarəkabad[4] qalasının üstünə getdi və Fətəli xanın[5] ən yaxın adamlarından olan bir dəliqanlı keşikçibaşı Əsləməs(?) bəy Qacar darvazadan Mübarəkabada daxil olub və Məhəmməd xan Türkmana və onun vəziri Mirzə Əhmədə həmlə edib hər ikisini ədəmabada[6] göndərdi. Bundan sonra o xoşbəxtin[7] ulduzu parlamağa başladı və o, Astrabad şəhərini özünə darülimarə[8] etdi. O zamanlar Findirisklə Ramiyanı[9] Şəkər bəy adlı bir Cahanbəyli kürdü

---

[1]Qacarların vətəni Astrabadın olması Səfəvi mənbələrdə təsdiqlənmir.
[2]Qacarların Şah Abbas tərəfindən göstərilən üç istiqamətə köçürülməsi fikri əsasən Qacar mənbələrində bəyan edilir.
[3]Yomut – müasir Türkmənistanda və İranın şimalında yaşayan bir türkmən tayfasıdır.
[4]Mübarəkabad – İranın Qum ostanında bir kənddir.
[5]Fətəli xan Qovanlu-Qacar (1686-1726) – Qacar xanı, Astrabad və Mübarəkabad hakimi, Fətəli şah Qacarın atası Hüseynqulu xanın babası.
[6]Ədəmabad – o dünya.
[7]Yəni Fətəli xanın
[8]Darülimarə – iqamətgah.
[9]Findirisk və Ramiyan – Gürganda yer adlarıdır.

öz ixtiyarına keçirmişdi. Onun yerli camaata verdiyi zülm ilə əziyyət həddini aşmışdı və o, həmçinin bir çox əyan-əşrafın ölümünə bais olmuşdu. Belə vəziyyəti müşahidə edən Qacar başçıları o həzrətin[1] xidmətinə getməyə tələsərək bu əyalətlərlə əmirliklərin o cənabın əlinə keçməsini istəmişdilər. O həzrət bu işdən kənara çəkildi. Nəticədə Fəzləli bəy Şambayati, Məhəmmədhüseyn xan Qaramusalu və keşikçibaşı Məhəmmədtəqi bəy digər başçılar və rəislərlə birgə o həzrəti əmirlik taxtına əyləşdirdilər və Şəkər Kürdü qovmaq üçün nəvvab Fətəli xanın rikabında Siparvadiyoluna düşüb qələbə və iqtidar vadisinə daxil oldular və uzun sürən dava-dalaşdan sonra onun həyatının şirin dadlı şərbətinə hənzəlın[2] acılığını qatıb qantökən qılıncın zərbəsilə ona ölüm zəhərini içirtdilər və həyatın eyibindən qurtardılar. Lakin bundan sonra nəvvab Fətəli xana qarşı pis fikrə düşən Fəzləli bəylə Məhəmmədtəqi bəy özlərinə layiq paylarını aldılar və yollarını ədəm çölünə saldılar. Nəvvab Fətəli xan öz bədxahlarını yox etməklə bu ədavəti aradan götürəndən sonra Astrabadın və o irəmvari bölgənin yan-yörəsini abadlaşdırmağa üz qoydu.

### *Sərdar Fətəli xanın Şah Sultan Hüseyn Səfəviyə əfqanları qovmağa kömək etmək üçün İsfahana getməsi haqqında*

Səfəvilər sülaləsinə xüsusi hüsn-rəğbəti və sədaqəti olan Fətəli xan qacarlardan min nəfər döyüşkən igidi başına toplayıb İsfahanı mühasirəyə almış Qəndəhar əfqanları qovmağa tələsdi və Şah Sultan Hüseyni əfqanlar tərəfindən

---

[1]Yəni Fətəli xanın

[2]Hənzəl – əbucəhl qarpızı, itxiyarı, acıxiyar. Qarpız cinsinə aid, dadı çox acı olan bitki növü (*Citrullus colocynthis*).

mühasirəyə alınmış vəziyyətdə tapdı. Hər gün qəhrəmancasına döyüşdü və düşmənin üzərinə sərt həmlələrə keçdi. İsfahanda padşahın hüzuruna çoxlu axtarma[1] gətirdi. Padşahın əmirləri ağılsız-tədbirsiz adamlar idilər. Onlar bu işi Allahın bir mədədi kimi bilməli, şücaətin büruzu və əlaməti kimi dəyərləndirməli, onu çoxlu ənamlarla və fəxrli xələtlərlə ruhlandırmalı və sabitqədəm etməli, özləri də əfqanlarla müharibəyə hazırlaşıb din və dövlət düşmənlərini qovmağa atılmalı idilər. Onlar isə bədniyyət olub şaha ərz etdilər ki, qacarlar qoşunu bahadır döyüşçülərdən və igidlər meşəsinin şirlərindən ibarətdir, Fətəli xanın özünə gəldikdə isə, o, rəhbər olmaq iddiası ilə dilavərlik meydanına ayaq basıb və ölkəni fəth etmək məqsədi ilə bayraq qaldırıbdır. Əgər göstərdiyi bu qəhrəmanlıqlarına görə bəyənilib alqışlansa, zəbt etdiyi yüyəni onun əlindən almaq çətin olacaqdır. Dövləti ağır günlərini yaşayan və bəxtinə zəlillik ilə bədbəxtlik ləkəsi düşmüş Şah Sultan Hüseyn bu şüursuzların sözlərini bəyənib onun işinə etina və etibar göstərmədi. Nəvvab Fətəli xan o yaramazların sözlərindən və əməllərindən incimiş, ürəyində olan bütün ümidini itirmiş və onların işindən məyus olmuşdu. Buna görə o, öz diyarına qayıtdı, əfqanlar isə İsfahanı istila etdilər və iş o yerə çatdı ki, onların çoxsaylı qoşunu Əşrəf Əfqanın işarəsi ilə Tehrana gedib Rey məmləkətinə olmazın əzabını verdilər. Fətəli xan İbrahimabadda və Ramində müzəffər ordusunun başında əfqanlarla üz-üzə gəlmiş və orada onların arasında günortadan axşamadək döyüş baş vermişdi. Axşam iki ləşgər istirahət üçün öz düşərgəsinə çəkilmişdi. Həmin gecə nəvvab Fətəli xana xəbər çatmışdı ki, İsfahan işğal olmamışdan qabaq oranı tərk etmiş Şah Təhmasib Mazan-

---

[1]Axtarma – qənimət.

darana gedib. Nəvvab Fətəli xan Səfəvilər sülaləsinə xüsusi hörməti olduğundan *min yüz otuz yeddinci ildə*[1] İbrahimabaddan döyüş bayrağını hərəkətə gətirdi, amma yolda ikən xidmətinə ərz etdilər ki, Şah Təhmasibin əmirləri şahın yanında ona qara yaxmaqla şahın könlünü incidiblər. Nəvvab Fətəli xan bu sözü eşidən kimi yürüşünü dayandırıb Astrabad yolunu tutdu. Əmirlər isə cürbəcür fitnə-fəsad işləri ilə Şah Təhmasibi Mazandaranın Əşrəfində[2] sərdarla üz-üzə qoydular. Səflər döyüş üçün düzüldü və böyük dava baş verdi, saysız-hesabsız adamlar qırıldılar. Ağılsız-başsız əmirlərin hər birisi ayrı yerə qaçdı, şah isə əsir olub sərdarın əlinə keçdi[3]. Fətəli xan yenə də sədaqətini tərk etməyib təzim və təkrim adətini yerinə yetirməklə yüksəkməqam şahı özü ilə Astrabada apardı[4]. Özü böyük qoşun yığıb Şah Təhmasibin rikabında Xorasana yollanaraq müqəddəs yerləri özlərinə tabe etdilər[5]. Həmin vaxt Nadir şah Şah Təhmasibin yanına gəldi. O, Nəvvab Fətəli xanı öz işinə əngəl törəyən adam kimi tanıyıb ona tələ qurdu və *min yüz otuz doqquzuncu ilin səfər ayının on dördündə*[6]

---

[1]Miladi təqvimilə 1724/25

[2]Müasir Mazandaran ostanında yerləşənƏşrəf şəhərinin indiki adı Behşəhrdir.

[3]Digər tarixi kitablarda (məs. “Zübdətüt-təvarix”, “Əhsənüt-təvarix”, “Tarixi-Zülqərneyn” və s.) bu döyüşün Fətəli xanın Şah Təhmasibin üstünə gəlməsi nəticəsində baş verməsi iddia edilir.

[4]Yenə də digər mənbələrə nəzər salarkən Fətəli xanın şahla bir qalib tərəf kimi rəftar etməsi və bəylərbəyi vəzifəsini ondan zorla alması üzə çıxır.

[5]Əslində Məşhəd şəhərini (müəllif “müqəddəs yerlər” yazarkən, yəqin ki, məhz bu şəhəri nəzərdə tutmuşdu) Fətəli xan Qacarın qətlindən sonra ələ keçirmişdilər.

[6]Miladi təqvimilə 11oktyabr 1726

başıpozuq əmirlərdən bir neçəsi ilə birlikdə Fətəli xanı aradan götürdü. O, nəzərə çarpacaq tərzdə qısa müddətdə böyük tərəqqiyə nail oldu: Əfqanı İsfahandan və Şirazdan, Rumiyəni[1] Nəhavənddən və Azərbaycandan, Rusiyanı isə Gilandan qovdu və Hindistanı almaq üçün qoşun çəkdi. Bundan sonra, heç tərəddüd etmədən, Şah Təhmasibi ədəm vadisinə, Fətəli xanın yanına göndərdi[2].

*Yeri cənnət olan xaqan Məhəmmədhəsən xan haqqında*

Nəvvab Fətəli xanın iki möhtərəm oğlu olub: biri cənnətməkan Məhəmmədhəsən xan, digəri isə hələ uşaqlıqda bu fani dünyanı tərk etmiş Məhəmmədhüseyn xandır. Böyük övladı və üzüyünün firuzə daşı bəzi vaxtlarda Astrabadda, bəzi zamanlarda isə türkmən tayfasında böyüyüb boya-başa çatmışdı. Cavanlıq və həyat gülüstanının çiçəklənməyə başladığı günlərinin bir günündə Qaramusalu Məhəmmədhüseyn xanın oğlu Məhəmmədzaman bəylə at üstündə gəzərkən mübahisə etdi, türkmənlərin qaramalları olan yerə getdi, türklərdən və türkmənlərdən bir dəstə yığıb Astrabada tərəf yürüdü və şəhəri ələ keçirtdi. Atasının şəhərdə canişini olan Məhəmmədzaman bəy oradan qaçıb özünü Behbud xanın yanına çatdırdı. O vaxtlar Behbud xan Nadir şah Əfşar tərəfindən Astrabadın və Mazandaranın sərdarı yerinə təyin olunmuş və altı-yeddi min nəfərlə Ətəkin[3] kənarında məskunlaşmışdı. Sərdar öz iti qılıncını

[1]Rumiyə – Rum, Osmanlı dövləti.
[2]Digər mənbələrdə Şah Təhmasibin Nadir şah (o vaxt hələ Nadir xanın) Hindistan yürüşündə olarkən Nadirin oğlu Mirzənin əmri ilə öldürülməsi iddia edilir.
[3]Ətək – Türküstan (Xarəzm) ilə Xorasan arasında bir çöldür.

tez siyirib üzünü Astrabada qoydu. Gürgan çayı sahilində bir dava qızışdı və o, döyüşdə yenilərək qaçmağa məcbur oldu. Bu xəbər Mosulda Nadir şahın qulağına çatdı və o, Məhəmmədhəsən xan Qacarı təyin etdi. Məhəmmədhəsən xan Behbud xanın ordusundan qalan bir dəstə adamı və astrabadlıları yığıb şəhərə girdi. Şəhəri dağıtdı, adamların kəllələrindən bir bürc tikdirdi və Qacar tayfasından bir neçəsini qətlə yetirdi. Məhəmmədhəsən xan bunun əvəzini çıxmağa macal tapmayıb yenidən çölə qayıtdı və Nadir şahın vücud qəsri türklərin bədnam qılıncla alt-üst olmayana qədər oralara ayaq basmadı.

Yalnız ondan sonra Məhəmmədhəsən xan türkmən çölündən Astrabada qayıtdı və bu şəhəri əsasını qoyduğu dövlətin paytaxtı etdi, Mazandaran ilə Gilanı öz hakimiyyəti altına keçirtdi və iyirmi minə yaxın nəfərdən ibarət müntəzəm ordu qurdu. Belə söyləyirlər ki, Nadir şah Həsənəli xan Müəyyirülməmalikə[1] demişdi: – Sən heç ömründə on dörd misqallıq yaqut görmüsən? Demişdi: – Görməmişəm. Demişdi: – On dörd misqallıq[2] yaqut həman o Məhəmmədhəsən xandır ki, bizim əlimizdən çıxdı.

Xülasə, Məhəmmədhəsən xanın var-dövləti gündən-günə artmaqda idi. Bir gün Kərim xan Zənd lorlardan və bəxtiyarilərdən ibarət qırx minlik ordu toplayıb Astrabada üz qoydu. Hər gün Nəvvab Məhəmmədhəsən xanın ordusu lorların kəşfiyyat dəstələrindən adamları tutub gətirirdi. Qırx gün ərzində o camaatdan on beş min nəfər qacar tacdarının əlində heç oldu. Ondan savayı on-on iki min nəfər

[1]Ehtimal var ki, mətnin bu yerində səhvə yol verilib və söhbət Nadir şahın dövlətində zərbxananın başçısı *Hüseynəli* xanMüəyyirülməmalikdən gedir.
[2]Misqal – təqribən 4,5 qrama bərabər olan çəki vahidi.

də pusqulara düşüb ələ keçmişdi. Şücaəddin xan Zənd şücaətli qəhrəmanlar tərəfindən qətlə yetirildi. Onda Kərim xan Zənd yol yükünü, ağruğunu[1], toplarını, zənburəklərini[2] və hökmdarlıq ləvazimatlarını qoyub Astrabadın həndəvərindən qalxdı və İsfahana tərəf qaçdı.

Böyük hökmdar saysız-hesabsız qənimətlər əldə edəndən sonra İraqa səfər etmək arzusunda olduğunu buyurdu və Astrabaddan Mazandaranın Əşrəfinə yönəldi. Kərim xan Zənd Astrabadın üstündə olduğu vaxtlar Larican camaatı lorların qoşununda xidmət etmək istədiklərini bildirmişdilər. Kərim xanın qayıdışından sonra onlar üzlərini itaətdən döndərib yağılıq (ədavət) təbilini çalmağa başladılar. Həzrət hökmdar öz alicənablıqları, paklıqları, qeyrətləri, mərdlikləri və himmətləri ilə seçilən Məhəmmədvəli xanı və Mazandaran hakimi Müqim xan Saruyini çağırıb Laricanı yenməyi tapşırdı. Ordu Mazandaranın Amülü üzərinə irəlilədi, lakin laricanlılarla döyüş baş verməmişdən qabaq Məhəmmədvəli xan öz pis nəfisliyi və mərdimazarlığı üzündən Amül vilayətində yolsuzluğun bünövrəsini qoydu və əlini amüllülərin namusuna və arvad-uşağına uzatdı. Mazandaranlılar Məhəmmədvəlinin bu hərəkətlərinə tab gətirməyib onu tutub həbs etdilər və yığışıb Müqim xanın yanına getdilər, onu özlərinə əmir seçdilər, yağılıq təbilini ucadan çaldılar, Saridə[3] iqamət saldılar və muxtariyyət, özünüidarə yoluna keçdilər. Həzrət hökmdar yol yükünün ardınca Əşrəfdən hərəkət buyurub Müqim xanın və Mazandaran əhlinin üzərinə cumdu. Müqim xan zənburəkin zərbə-

---

[1]Ağruq – türk mənşəli sözdür, mənası ev ləvazimatı, yola düşəndə özünlə aparılan şey-şüydür.
[2]Zənburək – adətən dəvənin üstündə daşınan kiçik top.
[3]Sari – hal-hazırda İranın Mazandaran ostanının mərkəzidir.

sindən yerə yıxılaraq ələ keçirildi, mazandaranlılar isə dağılıb meşələrə qaçdılar. Müqim xan hökmdarın əmri ilə odda yandırıldı, bir neçə tanınmış mazandaranlının malı isə müsadirə edildi. Onlardan bəziləri mühəssillərə[1] iyirmi min tümən verdilər, bəziləri də qətlə yetirildilər.

### *Məğfur Xaqan[2] Məhəmməd şahın Kərim xan Zəndin vəfatından sonrakı fəthləri və əməlləri haqqında, bu kitab yazılmağa başlayan gündən o cənabın şəhadətinə qədər*

Kərim xan Zənd *hicri min yüz doxsan üçüncü ilin səfər ayının on üçündə çərşənbə axşamı günü[3]* əcəl saqisinin əlindən ölüm zəhərini içib dünyasını dəyişdi. Məğfur Xaqan Məhəmməd şah dinin himayəsi altında yenilməz Şiraz qalasından çıxıb yüyənini sərhəd ölkəsinə, Astrabada tərəf yönəltdi və şad-xürrəm halda uğur və bəxtəvərlik taxtına çıxdı. Düşmənlərini qovdu və vilayəti abadlaşdırdı. O kəramət saçan günəşin qoyduğu izlərdən və ildırımvari qığılcım vuran səltənətşüarın gördüyü işlərdən bir qismi bunlardır.

Kərim xan Zəndin ölümündən sonra məğfur Xaqan öz əziz qardaşları Cəfərqulu xan və Mehdiqulu xanla, eləcə də qohum-əqrəbalardan bəziləri ilə üç gün ərzində sürətlə çaparaq Şirazdan İsfahana gəldi, oradan da qaçağan atlarının yüyənini Mazandarana tərəf yönəltdi. Tehranda Cəhanbəylu kürdü Abdal xanı və Rey ilə İsfahan mahallarında məskunlaşan digər kürd el və oymaqların başçılarını

---

[1]Mühəssil – vergi toplayan.
[2]Məğfur Xaqan – günahları bağışlanmış xaqan, yəni Ağa Məhəmməd şah Qacar (1742-1797), Qacarlar sülaləsinin birinci hökmdarı.
[3]Miladi təqvimilə 2 mart 1779

müzəffər rikabına gətirdi.[1] O cənabın digər qardaşları Mustafaqulu xan və Mürtəzaqulu xan Kərim xan Zəndin vəfatı xəbərini eşidən kimi Mazandarana gəlib Barfüruş adlı yerdə oturdular. Onlar əvvəl qardaşlarının uğurlarına sevindilər, lakin sonra fitnə-fəsad ucbatından inadkarlıq və düşmənçilik yolunu tutub böyük qardaşlarının irəliləyişini əngəlləmək üçün səngər qazdılar, bəzi adamlarını isə məğfur Xaqanın gəlişinə maneə törətmək tapşırığı ilə Səvadkuha təyin etdilər. Bu arada o cənabın digər qardaşı Rzaqulu xan o həzrətin rikabından ayrılıb Mazandarana qaçdı və öz vəfasızlığını nümayiş etdirdi. Məğfur Xaqan Cəfərqulu xanı Mürtəzaqulu xanın yanına göndərib ona belə sözlərlə müraciət etmişdi ki, olan olub, keçən keçib, əgər onlar bizim görüşmək xahişimizi qəbul etməsələr, biz çox məyus olarıq. Hələ ki bizim tərəfimizdən bu cür sıxılmağa, çəkinməyə bais olmuş, çiyrinməyə və qeylü qal salmağa səbəb olmuş bir iş çıxmayıb. Odur ki, indi ixtilafdan və nifaqdan əl çəkib ittifaq və birlik yolu ilə getməliyik. Lakin Mürtəzaqulu xana verilmiş bu nəsihət heç bir fayda vermədi. O, inadkarlıq göstərdi və qardaşlar arasında döyüş başladı. Rzaqulu xan Mürtəzaqulu xandan ayrılıb Barfüruşa getdi və Mürtəzaqulu xan məğlub oldu.[2]

---

[1]500 ev cəhanbəylulardan başqa digər kürd tayfalarından da Ağa Məhəmməd xana qoşulanlar olmuşdu. Qacar xanı onların yardımı ilə artıq rəhmətə getmiş Kərim xan Zənd üçün aparılan Mazandaran və İraq vergilərinə yiyələndi. Həmin pul hakimiyyət uğrunda apardığı mübarizədə onun karına gəldi.

[2]Burada anlaşılmazlıq var. Bundan öncə deyilmişdi ki, Rzaqulu xan Ağa Məhəmməd xandan ayrılıb Mazandarana getmişdi, Mustafaqulu xanla Mürtəzaqulu xan isə o vaxt Barfüruşda oturmuşdular. Belə çıxır ki, Rzaqulu xan Mürtəzaqulu xandan ayrılıb onun oturduğu yerə gəldi?!

Məğfur Xaqan Barfüruşa getdi, Əlimurad xan isə Mazandaranı ələ keçirməyə iddia etdi. O, ona qoşulmuş Larican camaatını aldadıb lorlardan və zəndlərdən ibarət yaxşı silahlanmış qoşunu Astrabada yönəltdi. Onlar məğfurXaqandan biabırçı zərbə alaraq Tehrana qayıtdılar. Məğfur Xaqan İsfahana getməyə meyilli olmuşdu. Rzaqulu xan başsoyuqluq edib yenə fəsad törətməyə başladı. Məğfur Xaqan onun üstünə Cəfərqulu xanı göndərdi. Rzaqulu xan çarəsizlikdən aliməqam böyük qardaşına qoşuldu və and içdi ki, bir də qardaşına xilaf getməz. Məğfur Xaqan onun qüsurlarını bağışlayıb yenidən üzünü İsfahana çevirdi, Tehranın həndəvərinə gəldi, Cəfərqulu xanı böyük dəstə adamla Qəzvinə yolladı, Dülab məhzilində kiçik qardaşı Mehdiqulu xana Larican camaatını cəlb etməyi tapşırdı. Onun gedişindən sonra Rzaqulu xan humayun ordudan fərarilik edib Firuzkuh və Dəmavənddə laricanlıların yanına gəldi və bununla fəsadla fəlakətin binasını qoydu. Məğfur Xaqan eviçi düşmənini aradan götürməyi hər şeydən mühüm bilib Mazandarana tərəf meyilləndi. Məğfur Xaqan Tehranın yaxınlığında dayandığı vaxt Mürtəzaqulu xanla Rzaqulu xan görüşüb yolda Qəzvindən qardaşının xidmətinə qayıdan Cəfərqulu xanı darmadağın etdilər. Onun xidmətçilərindən bəziləri qətlə yetirildilər, özü isə Astrabadda qardaşına qoşulub oradan qardaşı Rzaqulu xanın üstünə getmək tapşırığını aldı, onu Kücur adlı yerdə yenib əsir götürdü və məğfur Xaqanın hüzuruna gətirdi. Mürtəzaqulu xan Mustafaqulu xanı bir dəstə adamla məğfur Xaqanın yanına göndərib qulluğunda olduğunu bildirdi. Məğfur Xaqan Sariyə döndü və oradan Barfüruşa gedib orada dayandı. Cəfərqulu xanla Mustafaqulu xana Gilanı istila etməyə məmur etdi, Rzaqulu xana isə laricanlıların

rəğbətini qazanmağı tapşırdı. O cahildə yenidən hərdəmxəyallığı və fitri tündxasiyyətliliyi tüğyan etməyə başladı. Növbəti dəfə üsyan əlamətləri zahir oldu. *Hicri min yüz doxsan beşinci ilin zihiccətül-həram ayında*[1] qəflətən Barfüruşa daxil olub əlahəzrətin divanxana binasını əhatəyə aldı və boyundan yuxarı tullanıb məğfur Xaqanı əsir etdi. Cəfərqulu xan, Mürtəzaqulu xan, Əliqulu xan, Mehdiqulu xan və Qacarlardan başqa əmirlər və xanlar bu xəbəri eşidən kimi yığışıb Rzaqulu xanın üstünə yeridilər. İki dəfə döyüşdülər və onu darmadağın edib əmirlərini, ordu başçılarını və onların köməkçilərini qətlə yetirdilər. Onda o, fərar etməyə qərar verib İraqa getdi və Əlimurad xan Zəndə qoşuldu. Bir az onun yanında qalandan sonra vəfasızlıq göstərib ondan ayrıldı və Şirazdakı Sadiq xan Zəndin yanına getdi. Bir azdan sonra onunla da yolları ayrı düşdü, Şirazdan Xorasana qaçdı və müqəddəs Məşhəddə vəfat etdi.

Xülasə, Rzaqulu xan qaçandan sonra məğfur Xaqan onun qardaşını çox əzizləmişdi, amma Mürtəzaqulu xan onun-bunun fəsadçılığına uyaraq onu heç feyziyab etməzdi. Məğfur Xaqanona peyğam göndərdi ki, məsləhət budur ki, biz qardaşlar ittifaq qurub sidqi-ürəklə bir-birimizin arxasında duraq və alçaq düşmənlərin üstündən tozu süpürək[2]. Yenə də ittifaq ilə ittihad sözü qəbul olunmadı. Mürtəzaqulu xan Əliabadın[3] yarım fərsəngliyində səngər qazıb yolu kəsməyə əl atdı. Rzaqulu xan Qacar məğfur Xaqanın əmrini yerinə yetirərək bir həmləyə o səngəri ələ keçirtdi.

---

[1]Miladi təqvimilə noyabr/dekabr 1791

[2]Yəni düşmənləri yerə basdıraq

[3]Əliabad – Gürgan (əvvəlki Astrabad) şəhərinə yaxın yerləşən bir kənddir.

Məğfur Xaqan Mürtəzaqulu xanı Sari qalasında mühasirəyə aldı. Cəfərqulu xan bəxt ulduzu parlayan qardaşın xidmətinə vardı. Mürtəzaqulu xan çoxlu çək-çevirdən və saysız dava-dalaşdan sonra arxa qapıdan çıxıb qardaşını qarşıladı. Məğfur Xaqan onu cəzalandırmaqdan vaz keçdi, Astrabadı yan-yörəsi ilə birlikdə ona bağışladı və məiyyətlərini də əzizlədi. Bunun ardınca Laricanla Sarinin işini qaydaya salıb Simnan vilayətinin ixtiyarına verdi, özü isə Damğan və Bistam istiqamətində hərəkətə keçdi. O tərəflərin böyükləri itaət yolunun saliki oldular, Qadir xan Ərəb xidmətinə vardı və əzizləndi. Bistam Cəfərqulu xanın tiyulu, Simnan isə Əliqulu xanın soyurqalı oldu. Xanməhəmməd xan Qacar da xidmətə gəldi və onun təəhhüdü ilə Mürtəzaqulu xan Qacarlardan olan bir dəstə əmirlə möhtərəm qardaşının xidmətinə gəlmək şərəfinə nail oldular. Məğfur Xaqan Mürtəzaqulu xana Dəşt və Gilan istiqamətinə üz tutub oranı ələ keçirməyi əmr buyurdu. Mürtəzaqulu xan öz döyüşçüləri ilə Gilanın üstünə getdi. Hidayət xan mücadilə və müharibə qapısından çölə çıxdı, qırx beş gündən sonra aman diləyib peşkəş göndərdi və xidmət etməyə boyun oldu. Məğfur Xaqan Mürtəzaqulu xanı hüzuruna çəkdi və Mazandarandan Astrabada yolladı.

*Hicrətin min yüz doxsan yeddinci ilində*[1] Hidayət xan müqavimətə tab gətirə bilməyib Şirvana qaçdı. Məğfur Xaqan Gilandan divan vəsaitini alıb Qəzvin, Sultaniyyə və Zəncan məsələsinə əncam verəndən sonra yerə düşmək üçün Girandəşti şərəfləndirdi və oradan üzünü Sultaniyyəyə çevirdi. O, payız fəslində yüyənini Mazandarana döndərdi, *gələn ilin* yazında isə Tehran qalasına üz tutdu və oranı mühasirəyə aldı. Əlimurad xan Zənd Həmədanda idi. Mu-

---

[1]Miladi təqvimilə 1783

rad xan Zəndi Mazandarana təyin etdi. Məğfur Xaqan Cəfərqulu xanı təyin etdi, o isə basıb əzdi və ordusunu dağıdıb səpələdi. Bu arada Əlimurad xan Zənd İsfahandan Şiraza gedib doqquz aydan sonra Şiraz qalasını mühasirəyə aldı, Sadiq xan Zəndi oğulları, yaxınları və köməkçiləri ilə birlikdə darmadağın edib Kərim xanın oğlu Əbülfəth xanı görmə bəzəyindən məhrum etdi[1] və o tərəflərdə işə əncam verərək İsfahana döndü. İşi saz idi, ona görə də həşəmət və təmtəraqla Mazandaranla Astrabadı işğal etmək məqsədilə hərəkətə keçdi. Özü Tehranda oturub hər tərəfdən bir ordu göndərmişdi. Oğlu Şeyx Veys xanı bir dəstə əmirlər və döyüşçülərlə Astrabadı almağa məmur etdi. Mazandaran zəndilər və lorlar qoşununun təcavüzündən xarabalığa dönmüşdü. Şeyx Veys xan özü Saridə dayandı, Məhəmmədzahir xan Zəndi isə bir dəstə atlı ilə Astrabada təyin etdi. Bu arada Mürtəzaqulu xanla Mustafaqulu xan məğfur Xaqanla müxalif olub Şeyx Veys xana qoşuldular və Məhəmmədzahir xanla birgə Astrabadın üzərinə getdilər. Bir ay müddətində Astrabadı mühasirədə saxlamışdılar. Məğfur Xaqan Astrabad və Qacar dilavərlərini dəstə-dəstə böyük və kiçik yollara sədd çəkməyə təyin etdi ki, Şeyx Veys xanın və onun saymaqla bitməyən ordusunun gediş-gəliş və azuqə yolunu kəssinlər. Onların ordusunun içində qəhətçilik və böyük bahaçılıq əmələ gəlmişdi, ordu pərən-pərən olmuş, Məhəmmədzahir xan isə tutulub öldürülmüşdü. Əmirləri və döyüşçüləri ilə Saridə dayanan və tab gətirə bilməyən Şeyx Veys xan qaçıb Tehranda Əlimurad xana qoşuldu. Mürtəzaqulu xan da qayıdıb Əlimurad xanın yanına gəldi və Qumun yaxınlığında Əlimurad xanın vəfatı xəbərini eşitdi, oradan

[1]Yəni gözlərini çıxartdırdı

Qəzvin yolu ilə Rəştə tələsdi, bir az oralarda dayanıb Hacıtərxana[1] getdi, rus padşahı Yekaterinaya müraciət etdi və bu fani dünya ilə vidalaşana qədər o yerlərdə yaşadı. Nəşini İrana gətirdilər.

Xülasə, istisqa[2] xəstəliyindən əziyyət çəkən Əlimurad xanın halı Şeyx Veys xan məğlub olandan, Məhəmmədzahir xan isə qətlə yetiriləndən sonra daha da pisləşdi və o, Tehrandan İsfahana tərəf yola düşdü və İsfahanın həndəvərində ruh onun bədənini tərk etdi. Ana tərəfdən qardaşı olan Sadiq xan Zəndin oğlu Cəfər xan Zənd ki, Kürdüstan ilə Xəmsə[3]sərhədində vəzifəsini yerinə yetirirdi, Zəncandan İsfahana gəlib təsəllüt və istibdad bayrağını yüksəldi və böyük qardaşının yerinə taxtda əyləşdi.

*Min yüz doxsan doqquzuncu ilin rəbiüləvvəlin 14-də*[4]məğfur Xaqan Astrabaddan İraqa yola düşdü. Əvvəl Qum şəhərini aldılar, oradan Kaşana, Kaşandan isə İsfahana döndülər. İraqın xanları və hakimləri onun xidmətinə təşrif gətirdilər. Cəfər xan Zənd İsfahanda tab gətirə bilməyib Şiraza getdi. Məğfur Xaqan bəxtiyari[5] dağlılarının üzərinə, ardınca Fərahana və Gəzaza irəlilədi. Kəhiz adlı yerdə onların səngərlərini dağıdıb çoxunu qazilərin qılıncına mal etdi.

*Min iki yüz birinci ildə*[6] qoşunu Gilana çəkdi və oranı ələ keçirtdi. Hidayət xan Ənzəlidən Bakıya qaçarkən qu-

---

[1]Hacıtərxan – Həştərxan.
[2]İstisqa – bədən boşluqlarına suyun yığılması xəstəliyi.
[3]Xəmsə – Zəncan şəhərinin əvvəlki adlarından biri.
[4]Miladi təqvimilə 25 yanvar 1785
[5]Bəxtiyari – İranda Xuzistan və Bəhbəhan arasında yaşamış köçəri tayfa.
[6]Miladi təqvimilə 1787

lamlardan biri onu gülləsinə hədəf seçib başını məğfur Xaqanın hüzuruna gətirdi.

*Min iki yüz ikinci ildə*[1] Əli xanı xəyanət etdiyinə görə İsfahanda kor etdi, öz qoşununa bəxtiyari tayfasını talamağı tapşırdı. Cəfər xan Zənd Şirazdan Yəzdə gedib Mir Məhəmməd xan Təbəsiyə biabırcasına məğlub oldu və Şiraza qayıtdı. Mir Məhəmməd xan qürurlanaraq İsfahana gəldi. Məğfur Xaqan ona qulaqburması verməyi Cəfərqulu xana tapşırdı və İsfahanın Rudəşt bölgəsində onların arasında qızğın döyüş baş tutdu. Güclərini sınayandan sonra Mir Məhəmməd xan yenilərək Təbəsə[2] qaçdı. Məğfur Xaqan Farsa getmək məqsədilə Məşhədi-madəri-Süleymana[3] qədər irəlilədi, oradan İsfahana döndü, İsfahandan isə Tehrana qayıtdı.

*Min iki yüz üçüncü ildə*[4] Cəfər xan Zənd öz əmioğulları əlindən həlak oldu. Onun oğlu Lütfəli xan Lar məmləkətini almağa məmur olmuşdu. Oradan qayıdıb atasının qatillərini tutub öldürdü. Məğfur Xaqan Farsı almağa yönəldi və Şiraz ətrafında Lütfəli xan larlılardan və farslılardan[5] iyirmi minlik ordu qurub döyüşmək üçün onun qarşısına çıxdı. Məğfur Xaqan Şirazın Bərdi məscidinin yanında səf bağladı. Bir saat savaşandan sonra Cəfərqulu xan döyüşdə qəhrəmanlıq göstərib Fars ordusunu yendi və onlar fəryad çəkəçəkə dağılıb Şiraz qalası tərəfinə qaçdılar. Lütfəli xanın on səkkiz min piyadası və bir dəstə əmiri tutulub əsir düşdülər.

---

[1]Miladi təqvimilə 1787/88

[2]Təbəs – Xorasanda bir şəhərdir.

[3]Məşhədi-madəri-Süleyman – Əhəmənilər sülaləsinin hökmdarlarından Böyük Kuruşun qəbri olması ehtimal edilən yer. Fars ostanındadır.

[4]Miladi təqvimilə 1788/89

[5]Lar – Fars ostanında bir şəhərdir.

O il Şiraz qalasını almaq müyəssər olmadı. Məğfur Xaqan eyş-işrət paytaxtına döndü.

*Min iki yüz dördüncü ildə*[1]məğfur Xaqan Azərbaycanı zəbt etmək üçün yola düşdü. İlin sonunda Sadiq xan Şəqaqinin[2] böyük Xaqanla görüşməsi yaddaşda iz qoydu. Məğfur Xaqan bir gecədə iyirmi dörd fərsəng qət edib bir həmlə ilə Sərabı xarab etdi, od vurdu, qarət və tarac etdi, oradakı evləri yandırdı. Sadiq xan Şəqaqi qaçıb Qarabağa getdi. Qaracadağ hakimi Mustafaqulu xan və Xoy hakimi Hüseynqulu xan Dünbüli Təbrizdə onun qulluğuna gəldilər. Hər evdən qənimət aldı və həmçinin Hüseynqulu xan Dünbülini Təbrizə hakim qoydu. Urmiya hakimi Məhəmmədqulu xan Əfşar qorxuya düşüb Aşnu mahalına qaçdı. Məhəmməd xan İzzəddinlu üç min nəfərlə Urmiyaya göndərildi və oranın köç və dövlətini humayun ordugaha daşıdı. Məhəmmədqulu xan Əfşar da xatircəm olandan sonra humayun orduya qoşuldu. Bu əsnada Lütfəli xanın üsyan qaldırması xəbəri gəldi. Məğfur Xaqan Azərbaycandan İraqa döndü. Yetişən xəbərlərdən məlum oldu ki, Lütfəli xan iyirmi min nəfər süvari və piyada ilə Şirazdan çıxıb Qomşənin yaxınlığına çatdı. Xaqan rütbəli əlahəzrət, məğfur Xaqanın vəliəhdi Sultan Fətəli şah məğfur Xaqanın əmrilə Çəməni-Kəndümanda[3] dayanmışdı. Lütfəli xan əlahəzrət vəliəhdlə döyüşdü. Gecə Əbdürrəhim xan Şirazi qardaşı Hacı İbrahim xanın işarəsi və razılığı ilə itaəti ədavətlə əvəz edib Lütfəli xanın ordugahında üsyan qaldırdı və Lütfəli xan öz ordugahını qoyub iki yüz nəfərlə Şiraza

---

[1]Miladi təqvimilə 1789/90

[2]Sadiq xan Şəqaqi – 1786-1800-ci illərdə kürd şəqaqi tayfasının başçısı olmuşdu.

[3]Çəmən-Kəndüman – Şirazın qərbində yerləşən kənddir.

qaçdı. Hacı İbrahim xan qala qapısını bağlayıb onun Şiraza daxil olmağına maneçilik törətdi. Lütfəli xan qəm-kədər içində Şirazın ətrafında sərgərdan oldu. Hacı İbrahim xan vəziyyəti məğfur Xaqanın dərgahına ərz edib sərdarlıq iddiasını irəli sürdü, Mustafa xan Dəvəlu-Qacarı Mirzə Rzaqulu Münşi Nəvayi ilə və daha üç min nəfərlə Şiraza təyin buyurdu. Mirzə Rzaqulu Şiraza daxil olub saysız var-dövlət və hesabsız ləl-cəvahirət yığıb İsfahana göndərdi. Lütfəli xan üzünü Bəndər Rigə[1] qoydu və orada özü hazırlıq görüb yenidən Şiraza tərəf qayıtdı. Hacı İbrahim xan Mustafa xanı bundan agah etdi, o isə yeddi yüz nəfər süvarini başına yığdı. Lütfəli xan onun müqabilində ayağını yerə bərk basaraq Mustafa xanı ələ keçirməyə yaxın idi. Son məqamda qəhrəmanlıq göstərib səy və təlaşla o mərəkədən xilas ola bildi. Hacı İbrahim xan ərz edəndən sonra Canməhəmməd xan Dəvəlu məğfur Xaqanın ordusundan böyük dəstə ilə Şiraza məmur oldu. Bu arada Lütfəli xan sayı iki min nəfərə çatmış qoşunu ilə Canməhəmməd xana qarşı Bərdi məscidində döyüşüb zəfər çaldı və bəzi xanlar orada əsir düşdülər.

*Min iki yüz altıncı ildə*[2] məğfur Xaqan Şirazı tutmaq üçün Tehrandan qalxdı. İrəc adlı yerdə Lütfəli xan humayun orduya gecə basqını etdi, amma işi baş tutmadı və oradan qaçdı. Hacı İbrahim xan Şirazi Farsın əyanəşrafı ilə onu qarşılamağa çıxdı. Məğfur Xaqan Şiraz qalasına daxil oldu və Kərim xanın övladlarını, Əlimurad xanı, Lütfəli xanı və digər Zəndiyyə böyüklərini və əmirlərini yığıb Astrabad və Mazandaran tərəfə köçürtdü.

---

[1]Bəndər Rig – Buşehr tərəfdə bir liman şəhəridir.
[2]Miladi təqvimilə 1791/92

*Min iki yüz yeddinci ildə*[1] öz vəliəhdi nəvvab Fətəli şahın[2] ordusunu yollayıb bütün Kirmanı, Bəmi və Nərmaşiri işğal etdi və Kərim xan Zəndin tikdiklərindən olmuş Şiraz qalasını sökməyə əmr verdi. Ardınca yomut və kukəlan[3] tayfalarını cəzalandırıb onlara qulaqburması verməyə yönəldi, onlardan bir çoxunu öldürdü və ya əsir aldı və o camaatın kəllələrindən təpələr düzəltdi.

*Min iki yüz səkkizinci ildə*[4] Xorasanı zəbt etmək əzmində olarkən Kirman əhalisinin qarışıqlıq salması və o irəmvari bölgədə qanın su yerinə axması xəbəri gəldi. Həmin hadisənin təfsilatı belə oldu ki, Lütfəli xan çox sərgərdanlıq edəndən sonra Təbəsdən Qayinə[5] qaçdı və orada tamamilə gözdən itdi. Kirman əhalisi, Kirmanın hakimi Mürtəzaqulu xan və pişnamazı Molla Abdullah Lütfəli xanı əmiləri və əmioğulları, habelə sahibsiz veyllənən zəndilərdən bir neçə nəfərlə bir yerdə Kirmana gətirib aranı qarışdırmağa başladılar. Bəm və Sistan əfqanlarından ibarət böyük dəstə də onlara silahdaş oldu. Məğfur Xaqan bu fitnə-fəsada son qoymaq üçün nəhəng ordusu ilə Kirmanı ələ keçirməyə qalxdı. Kirman qalasına yaxınlaşıb oranı mühasirəyə alandan sonra şəhərin dövriyyəsində dərin xəndək qazdırdı və həmçinin qala bürclərinin müqabilində saysız-hesabsız bürclər tikdirdi. Tərəflər gecə-gündüz hərbi əməliyyatlar keçirtdilər, həm içəridən, həm çöldən lağımlar atdılar. Mühasirə müddəti beş ay çəkdi. Qalada qəhətlik əmələ gəldi.

---

[1]Miladi təqvimilə 1792/93

[2] Müəllif bu şəxsi taxtda əyləşdiyi 1797-ci ilə qədər baş verən hadisələrin təsvirində də bəzən "şah" adlandırır, lakin, əlbəttə, o dövrdə Fətəli şah "xan" olmuşdu.

[3]Yomut və kukəlan – türkmən tayfaları.

[4]Miladi təqvimilə 1793/94

[5]Təbəs və Qayin – Xorasanda yer adlarıdır.

Hətta doqquz min nəfər şəhərdən çıxarıldı, ancaq yenə də xeyri olmadı. Onda hökm oxundu ki, əmirlər ordu ilə yürüş edib qalanı alsınlar və yerli əhalini iti qılıncdan keçirsinlər. *Hicri min iki yüz doqquzuncu ilin rəbiüləvvəlin iyirmi doqquzunda*[1] *cümə günü* yürüşə keçdilər, bürclərə qalxdılar və şəhəri zəbt edib qətlə-qarətə əl atdılar. Elə güman etdilər ki, Lütfəli xan qətlə yetirilənlərin arasındadır, amma o, axşam çağı bir neçə xidmətçisi ilə Kirmandan çıxıb Bəm yolunu tutmuşdu. Sistanlılar o yerdə Lütfəli xanın atının ardınca düşüb onu yerə yıxdılar, özünün də əl-qolunu bağlayıb məğfur Xaqanın hüzuruna gətirdilər. Kor edəndən sonra Tehrana göndərdi və öldürdü. Kirman əhalisindən də bir çoxunu qətlə yetirdi. Kirmanlıların qanı su yerinə axırdı. Məğfur Xaqanın atasından qalmış və Lütfəli xana məxsus ləl-cəvahiratdan Taci-mah və Dəryayi-nur adlı ikisi, habelə digər daş-qaşlar yenidən məğfur Xaqanın əlinə keçdi.

*Min iki üyz doqquzuncu ildə*[2] Azərbaycana səfərə çıxdı, Qarabağı işğal etdi və İbrahimxəlil xan Cavanşiri tutmağa müvəffəq oldu. Həmin il Şuşi[3] adı ilə məşhur Pənahabad qalasını almaq mümkün olmadı və orada Gürcüstanı zəbt etmək üçün bayrağını ucaltdı. Fövri həmlə ilə Gürcüstan valisi İrakli xanı əzib Tiflis qalasına girdi. Sayı bilinməyən mallar, aya bənzər cavan qızlar, bədəni gümüş kimi ağ olan oğlanlar, gülyanaqlı qadınlar – cəmisi on beş min nəfər döyüşçülərin əlinə keçdi. İrakli xan Kartli-Kaxetə qaçdı. Məğfur Xaqan doqquz gün Tiflisdə qalıb Gəncəyə yola düşdü. Şəki və Şirvan vilayətini itaətə gətirdi. Mustafa xan Şirva-

---

[1]Miladi təqvimilə 24 oktyabr 1794
[2]Miladi təqvimilə 1794/95
[3]Yəni Şuşa. Mətndə Şuşa şəhərinin adı Şuşi şəklində verilib.

ni[1] Fit[2] dağına qaçdı. Məğfur Xaqan Tehran darüssəltənəsinə qayıtdı.

*Hicri min iki yüz ikinci[3] ildə* taxta əyləşib tacı başına qoydu və Xorasanı ələ keçirmək niyyəti ilə böyük ordunun qələbənişan bayrağını qaldırdı. Nadir şah Əfşarın[4] nəticəsi, Şahrux Mirzənin[5] oğlu Nadir Mirzə[6] Qəndəhara qaçdı və Teymur şah Əfqanın oğlunun ətəyindən yapışdı. Məğfur Xaqan müqəddəs Məşhədi-Rəzəvinin həndəvərinə yetişən-

---

[1]Mustafa xan Şirvani – Mustafa xan Xançobanlı (1768-1844). 1792-1820-ci illərdə Şirvan xanı olmuşdu.

[2]Fit dağı – Şamaxının şimal şərqindədir.

[3]Əslində *min iki yüz onuncu* olmalıdır.

[4]Nadir şah Əfşar (1688-1747) – Səfəvilər sülaləsinin tənəzzülə uğradığı vaxtda, İkinci Şah Təhmasibin hakimiyyəti dövründə baş vəzir olmuş bu şəxs bir müddətdən sonra onu taxt-tacdan uzaqlaşdırmış, yerinə kiçikyaşlı oğlu Üçüncü Şah Abbası otuzdurmuşdu, bir azdan sonra isə Muğan düzündə, Suqovuşan deyilən yerdə təşkil olunmuş qurultayda özünü şah elan etdirmişdi. İran tarixinə ən möhtəşəm hökmdarlardan biri kimi düşmüş Nadir şahın vaxtında Osmanlı, rus və əfqan işğalçıları ölkə ərazisindən qovulmuş, dövlət sərhədləri dəfələrlə genişlənmişdi.

[5]Şahrux Mirzə – Nadir şahın nəticəsi və Şah Sultan Hüseyn Səfəvinin nəvəsidir. Nadir şahın qardaşı oğlu İbrahim xanın qətlindən sonra Məşhəddə taxtda əyləşdi, lakin Seyyid Məhəmməd adlı bir şəxs tərəfindən devrildi və kor edildi. Ardınca öz sərdalarından birinin köməyi ilə yenidən hakimiyyətə gəldi. O, Ağa Məhəmməd şaha tabe olmayan yeganə yerli hakim olduğuna görə Ağa Məhəmməd şah Xorasana gəlib onu əsir etdi və işgəncə verib Nadir şahın xəzinəsinin yerini öyrəndikdən sonra Tehrana göndərdi. 63 yaşlı Şahrux Mirzə yolda vəfat etdi.

[6]Nadir Mirzə – bir müddət özünün kor atası Şahrux Mirzənin naibi olmuş və Məşhəddə hakimiyyət başçısı olmuşdu. Ağa Məhəmməd şah Qacarın qətlindən sonra əfqan padşahın köməyi ilə yenidən hakimiyyətə gəldi, lakin bir müddət keçdikcə əsir düşdü və Tehrana aparılıb Fətəli şah Qacarın hökmü ilə edam olundu.

dən sonra asanlıqla Məşhəd qalasını da ələ keçirdi və Şahrux Mirzəni tutub ondan ona Nadir şahdan qalan xəzinəni tələb etdi. O isə çoxlu cəvahirləri və xəzinələri təhvil verəndən sonra xəstələnib axirət dünyasına köçdü.

*Min iki yüz on beşinci ildə*[1] Azərbaycana qoşun çəkdi. Nəvvab şahzadə Abbas Mirzə, Məhəmmədqulu Mirzə, Hüseynqulu xan və Süleyman xan onun xidmətində idilər. Şuşa qalasını zəbt etmək əzmilə yola düşdü. Hüseynqulu xanı, Süleyman xanı, Hacı İbrahim xan Şirazini və əmirlərdən bir neçəsini qalaya yaxın yerləşən Adınabazarda başına yığıb onlara ağruğu tapşırdı, özü isə bir dəstə döyüşcü ilə, habelə əvvəlki il sədaqətini göstərib onun xidmətinə gəlmiş Sadiq xan Şəqaqi ilə Araz çayını bir göz qırpımında keçdi. İbrahimxəlil xan onun irəliləyişi xəbərini eşidən kimi təşvişə düşüb pərişan oldu və möhkəm bünövrəli qalanı qoyub Dağıstana tərəf qaçdı. Məğfur Xaqan çöldən və içəridən heç bir maneə görmədən Şuşa qalasına daxil oldu. Müsəlmanlardan və ermənilərdən çoxlu əşyalar və hədsiz xəzinələr aldı.

Hər iqbalın[2] sonrası zaval olar və hər baharın ardınca dey[3] gələr. *Zihiccətül-həram ayının iyirmi biri*[4], şənbə günü, sübhi-sadiqin günəşin doğmasına yaxın bir məqamında padşah dərgahının xidmətçilərindən və qulamlarından iki-üç nəfəri ki, səhvən sultanlıq çayında boy atmış ədavət və xəbislik ağacının barları olmuşlar, həmin gecənin sabahısı tələf olacaqlarını bilib öz canlarının qorxusundan onu qətlə

---

[1]Miladi təqvimilə 1800/1801

[2]İqbal – (burada) işi yaxşı gətirmə, yüksəlmə.

[3]Dey – İranın günəş ilinin 10-cu ayı (22/23 dekabr – 20/21 yanvara müvafiqdir).

[4]Miladi təqvimilə 5 may 1801

yetirmək niyyətilə yastığının başına gizlicə gələrək onu yatan vəziyyətdə gördülər və böyük hökmdarı xəncərlə şəhid edib padşahın gecə geyindiyi libasını qana bulaşdırdılar. Ağıllıların da ağlına sığışmayan, böyük cəsarət və amansızlıq tələb edən bu iş o bədbəxt cahillərin əlindən baş verəndən sonra şahlıq tacını səltənətin digər var-dövləti ilə, o cümlədən qızıllı-gümüşlü bazubəndlər, zinətləndirilmiş vurub-kəsən qılınc, cəvahiratla dolu sandıqça və hər parçası dövran sahiblərinin sinəsini və çiyinlərini bəzəyən və hər qismi dənizin və qurunun sərmayəsi olan başqa əşyaları götürüb Sadiq xan Şəqaqinin yanına apardılar və bu dəhşətli və qandonduran hadisəni ona təqrir etdilər. O, əvvəl inanmadı, lakin şahın zinətlərini onun qabağına qoyanda həmin əcayib vaqiəni yəqin edib bütün əşyaları götürdü.

Elə ki sübh günəş doğdu, qaladakı ordunun əmirləri ilə döyüşçüləri məsələdən xəbər tutub iztirab dənizinə qərq oldular, bir yerdə qərar tuta bilmədilər və hərə bir dərəyə getdilər. Keşikçibaşı Məhəmmədhüseyn xan Qacar və münşiyül-məmalik Mirzə Rzaqulu[1] bu xəbərdən agah olan kimi hökm sahibinin yataq otağına gəlib taxtın yaraşığı olan o şərafətli cismi qan dəryasında üzən gəmi şəklində gördülər, şərafətli bədəni aparmağa macal tapmadılar, dəhşət səbəbindən yerdə qalan qiymətli daş-qaşları yığdılar və süvarilər dəstəsinin bir neçə başçısı ilə bərabər Naxçıvan və Marağa yolu ilə saraya çatdılar. Bu xəbər yayılandan sonra böyük ordu səpələndi. Şahzadələri müşayiət edən Hüseynqulu xan, Süleyman xan və bir çox əmir ilə xan ağruğu yerə töküb öz başlarını və saray yolunu itirdilər. Hacı İbrahim

---

[1]Hacı Mirzə Rzaqulu Nəvayi Ağa Məhəmməd xan Qacarın və Fətəli şah Qacarın dövründə möhürdar, xəzinədar, rabitə vəziri, Xorasan vəziri və digər vəzifələrdə çalışmışdı.

xan Şirazi bir dəstə rəis-başçı və Mazandaran tüfəngçiləri ilə birlikdə şahzadələrin malını atıb Ərdəbil və Zəncan yolu ilə Tehrana yola düşdü və Ərdəbilin yaxınlığında şahsevən Nəcəfqulu xan öz eli ilə və süvariləri ilə ona qoşuldu. Bütün şahzadələr, Hüseynqulu xan, Süleyman xan və onlarla həmrah olanlar Rəşt yolu ilə, başqaları isə ayrı yollarla dərə-təpələri aşıb böyük məşəqqətlə və hədsiz əziyyətlə özlərini Tehran darülxilafətinə çatdırdılar və qalanın həndəvərində dayandılar. Asəfəbənzər[1] vəzir Mirzə Məhəmmədşəfi ki, o vaxt vəzifə başında olmamış və yerinə Hacı İbrahim xan Şirazi təyin olunmuşdu, əksəriyyəti Mazandaran əhalisindən ibarət olan və onun əmrinə itaət edib onun sözü ilə oturub-duran qala qoruyucularını yaranmış vəziyyətə və yeri cənnət olan Xaqanın vəsiyyətinə müvafiq olaraq Tehran bəylərbəyi Mirzə Məhəmməd xana tərəfdaş edərək əmirlərlə əsgərlərin bütövlükdə Tehrana daxil olmalarına əngəl törətdi. Çarəsiz qalan bütün əmirlərlə döyüşçülər hasarın xaricində çadırlar qurub öz mövqelərini möhkəmlətməyə çalışdılar və intizar nəzərlərini içəridən və çöldən xoşbəxt Xaqanın gəldiyi yola yönəltdilər. Həmin vaxt İrəvanda olan Əliqulu xan da qardaşının qəmə salan əhvalatını eşidən kimi yanında olan silahlıları götürüb Xoy, Marağa və Təbriz yolu ilə İraqa gəldi və Şəhriyar bölüyündən olan və Tehrandan beş fərsəxlik məsafədə yerləşən Əlişah İvəzkəndində padşahlıq şahini özünü göylərdə uçan kimi təsəvvür edərək xəyal qanadlarını çalıb tale ovlağından havaya qalxdı və həmin məkanı özünə iqamətgah seçdi. Bir neçə gündən sonra əməli-salehlər şahənşahına

---

[1]Rəvayətə görə Süleyman peyğəmbərin (ə) Asəf ibn Bərxiyə adlı çox müdrik vəziri olmuşdu.

məxsus qələbəçalan bayraqlarının darülelm[1] Şirazdan hərəkəti müjdəsi əmirlərlə döyüşçülərin ölmüş ürəklərini yenidən cana gətirdi.

*Sadiq xan Şəqaqinin fitnəsi haqqında*

Yeri cənnət olan padşahın qatilləri şaha məxsus əşyaları Sadiq xana gətirəndən sonra Sadiq xan Şuşa qalasından çıxıb üzünü böyük orduya tutdu və yanında o xəyanət törədən əbləhləri və əyridüşünən səfehləri gördü. O, yanında hazır olan şəqaqi kürdlərindən ibarət bir dəstə ilə Araz çayından keçdi. Onda şahın Azərbaycan əhalisindən olan səpələnmiş ordusu öz canları qorxusundan onun ətrafında toplanıb böyük ordunun arxasınca düşdülər, Sərabi-xəraba yetişdilər və döyüş hazırlığını görməyə başladılar. Zahirdə arvad-uşaqlarını Qəzvin qalasından xilas etmək bəhanəsilə, batində isə yüksək məqama yetişməyin xam xəyalı ilə İran hökmdarına məxsus möhür üzüyünü barmağına, tacını başına keçirib Sulduz, Marağa və Təbriz nahiyələrindən Ərdəbil və Muğan hüdudlarına qədər səpələnmiş şəqaqi tayfasını yığıb qardaşlarından birini Təbrizə, digərini Qaracadağ əyalətinə hakim qoydu, özü isə bayrağını İraqa tərəf yönəltdi. O, Qəzvinə çatan kimi yerli əhali və oranın başçıları qala qapısını onun üzünə bağlayıb əlini tüfəngə atdılar və öz mərdlikləni göstərdilər. Sadiq xan şəqaqilər qoşunu ilə Qəzvin qalasının xaricində çadırlar qurdular. Bu vaxt onun bədbəxt ulduzlu rəislərindən sursat baratı adı ilə bir sənəd Qəzvinin kəndləri üçün yazıldı, məst olmuş üsyan ayıldı, miskinlərin məskənini və vətəndaşların vətənini xarabazarlığa çevirdilər, azacıq müddətdə Qəzvinin yan-yörə-

[1]Darülelm – elm şəhəri, elm mərkəzi.

sini qarət və talan süpürgəsi ilə süpürdülər, hər yerə soxuldular, mənasız atəşlə hər guşəyə od vurdular və biçarələrin daxmalarında yeməyə daşdan yumşaq nə tapdılarsa, hamısını yandırdılar. Xülasə, orada düşərgə salandan sonra iki-üç dəfə qalaya yürüş etdilər və hər iki tərəfdən çox adam öldürüldü və əsir düşdü. Sadiq xan qalanın alınmasında israrlı idi, Qəzvinin başçıları isə məsələnin həllini Qacar əmirlərini qovmağa və Firiduntəkin sultan üzərində qələbə çalmağa bağlayıb vaxtı uzatmaqla qüdrətli və xoşbəxt Xaqanı müşayiət edən alayın gəlişinin intizarını çəkirdilər. Azərbaycanda isə onun qardaşı Cəfər xanın zülmündən Qaracadağ əhlinin ürəyi lalə kimi al qana boyanmış və kababtək yanmışdı. Dözümlü Təbriz camaatı onun başqa qardaşı Məhəmmədəli Sultanın qəddarlığı və amansızlığı dərdindən cana gəlmişdi və Təbrizin gəda-güdaları qardaşın evini əhatəyə alıb cənnətlik şahın ordusunun yığdığı mallardan və aldığı qənimətlərdən özlərinə pay apardıar. Rəislər, zəka və bəsirət sahibləri guşənişin olub bəxtlərinin açılması intizarında qalmışdılar. Qəzvinin həndəvərində dayandığı vaxt hər iki qardaşını Təbrizdən və Qaracadağdan başçısız qalmış Xoy qalasını dağıtmağa təyin etdi. Onlar isə Təbrizin və Qaracadağın rəiyyətlərindən və döyüşçülərindən, türklərindən və taciklərindən, əsnaflarından və ustalarından çoxlu adam yığıb üzü Xoya yollandılar.

Ölkənin Xaqanı ordu başçılarını və hökmdarın sarayına yaxın olanları yığıb və xəzinələrin qapısını açıb döyüşkən və davakar bir ordu təşkil etdi və ağılsız düşmənlə vuruşmaq üçün qalxıb çadırların üstündən pərdəni götürdü və din mürtəddinin dərsini vermək əzmilə əjdəha boyda nəhəng bayrağı qaldırıb Qəzvinə tərəf hərəkətə keçdi. Qəzvinin həndəvərində sağ qolu, sol qolu, mərkəzi, cinahları və pus-

quları qurdu. Sadiq xan da şəqaq və nifaq başçılarını başına yığıb yerin altından üfüqlərin sultanı qarşısında peyda oldu. İki tərəfin döyüşən mərdləri cürət ayaqlarını bahadırlıq meydanına qoydular. İlkin mərhələdə kürd qoşunu igidlik ayağını möhkəm yerə basıb canfəşanlığını ortaya qoydu. Lakin onların polad qılıncı düşmən ovuna çıxmış İsgəndər səddindən də möhkəm dilavərlərlə üz-üzə gəldi və qorxmaz şirlərin qarşısında Yəcuc-Məcucun üzü döndü. Sadiq xan yenilib qaçdı və rəzillik torpağı o təklənmişin başına töküldü. Hökmdarın ordusu onların üzərinə cumdu və döyüş baş verən səhranın toz-torpağı onların qanı ilə boyandı. [Sadiq xan] Ümidini qardaşlarının hünər və ağıl hesabına Xoy qalasını ələ keçirdiklərinə, habelə Təbrizın divarını möhkəmlətdiklərinə bağlamışdı ki, zərurət yarandıqda oraya pənah aparsın. O, Səraba yetişdi, amma bundan qabaq Hüseyn xan Dünbülinin kiçik qardaşları Sadiq xanın qardaşlarının yola düşmələrindən agah oldular. Həmin gün Hüseyn xan Qəzvində, Cəfərqulu xan isə müzəffər rikabda idilər və Dünbülilər dəstəsi şah ordusunun bölünməsi nəticəsində bir-birindən ayrı düşdülər və navxudasız[1] gəmi kimi oldular. Onlar yenidən bir yerə yığışıb Sadiq xanın qardaşları ilə döyüşə girdilər. Bəxti açılmış şahənşah ordusu sağ cinah-sol cinah tərtib etməyə heç ehtiyac duymayıb bir həmləyə onları rüsvaycasına darmadağın etdi. Sadiq xanın qardaşları heç nəfəsini dərməyə belə macal tapmayıb Təbriz qalası istiqamətində qaçdılar və ikicə saata dörd fərsəxlik[2] məsafəni yüksək sürətlə qət edərək Təbrizə çatdılar. Əcayib təsadüf elə gətirdi ki, Sadiq xan müzəffər ordudan kötək

---

[1]Navxuda – gəmi başçısı, kapitanı.
[2]Fərsəx (və ya fərsəng) – ağac, təqribən 6 kilometrə bərabər uzunluq ölçüsü.

aldığı gün onun qardaşları da yenildilər və ürəkləri iki-üç gün Təbriz divarları arasında civə kimi qalxıb düşəndən sonra gedib Sərabda Sadiq xana qoşuldular. Şəqaqi kürdlərin bədsoylu camaatı pərən-pərən düşəndən sonra ölkə Xaqanının çöhrəsində fəth nişanəsi zühur etdi. Padşahın qulamları yeri cənnət olan Xaqanın qatillərini buxovlayıb ölkə Xaqanının xidmətinə gətirdilər və şəhriyarın fərmanı ilə onları siyasət etdilər.

Cənnətlik Xaqanın qatillərinin əlindən səltənətin nişanələri Sadiq xanın əlinə düşdüyünə görə Süleymantəkin Xaqanın divanı həmin ləl-cəvahiratı qaytarmağı İbrahim xan İzzəddinlu Qacara tapşırdı və Sadiq xan ədalətpənah dərgaha yazılı surətdə üzrxahlıq edərək günahını boynuna alandan sonra səltənətin nişanələrini və rəmzlərini İbrahim xana təslim etdi. İbrahim xan möhtərəm hüzura daxil olandan sonra dünyaya ağalıq edən saraydan xətaları örtən və günahları bağışlayan hakimdən Sərab ilə Gərmrudun hökumətinə təyinat xəbəri gəldi. Müzəffər ordu Zəncanda dayanarkən Azərbaycanın əmirləri ilə hakimləri tərəfindən itaət ərizələri daxil oldu və zəmanənin şahənşahı tərəfindən hamıya hüsn-rəğbət nişanələri əta edildi. Müqəddəs rikabda olmuş Məhəmməd xan İrəvani Çuxur-Səədin hakimi, İsmayıl xan Qacar onunla bərabər İrəvan qalasının kutvalı[1], hamıdan çox Bahirünnurun[2] hüzurunda canfəşanlıq nümayiş etdirmiş Cəfərqulu xan Dünbüli isə Təbriz darüssəltənəsinin və Xoyun hakimi məqamlarına yüksəldilər. Günahları bağışlanmış Xaqanın nəşini gətirmək üçün Heydərqulu xan İzzəddinlu-Qacar yazılı fərmanla Qarabağ hakimi İbrahim xanın yanına yollandı. Zəfər nişanlı bayraq Zəncandan

[1]Kutval – qalabəyi.
[2]Bahirünnur – (burada) hökmdar.

Tehran darüssəltənəsinə hərəkət etdi. Nizamüddövlə Süleyman xan Qacar Gilanın işlərini nizama salmaq üçün Rəşt darülmərzinə yola düşdü. *Min iki yüz on ikinci ilin rəbiüləvvəlin iyirmi dördündə*[1] ölkə Xaqanı təntənəli qədəmləri ilə səltənət taxtını zinətləndirdi. Dövlətin mərkəzində bir neçə gün qalandan sonra cənnətlik sultanın cənazəsini Azərbaycanın Qur'an hafizlərinin və Davudavazlı qarelərinin, habelə əyan-əşraflarının müşayiətilə darülxilafətə çatdırdılar. Ölkənin Xaqanı bütün əmirləri və döyüşçüləri ilə bir yerdə günahları bağışlanmışın mafəsini qarşılamağa çıxdı. Sultanın, əmirlərin və döyüşçülərin gözündən sel kimi göz yaşı axdı. Cənazəni qızıldan mafəyə qoyub Məhəmmədəli xan  Qacarın rəhbərliyi və Mirzə Musa Münəccimbaşının, Molla Mustafa Qəmşənin, İbrahim xan İzzəddinlunun, qarelərin və hafizlərin müşayiətilə Əlinin şəhadət yeri olan müqəddəs Nəcəfə min-min salam-dua ilə yola saldılar. Bağdad valisi Süleyman paşa onu qarşılamağa tələsdi və vacib təzim-təkrimi yerinə yetirdi. Ardınca mütəhhər cənazəni Nəcəfi-əşrəfə aparıb bir xəzinə kimi o pak torpaqda dəfn etdilər. *Yunut yılının yazında, hicri min iki yüz on ikinci ildə*[2] ölkə Xaqanı səltənət taxtına xoşbəxtanə əyləşdi.

### *Taxta xoşbəxt surətdə əyləşmənin ikinci ilində*[3] *baş verənlər və dünya qədər geniş hökmdar alayının üsyançıları cəzalandırmaq üçün Azərbaycana hərəkət etməsi*

[1]Miladi təqvimilə 16 sentyabr 1797
[2]Miladi təqvimilə 1797/98
[3]Miladi təqvimilə 1798/99

Novruzi-feyruzu bayram edəndən sonra ölkə Xaqanı dünyanı işıqlandıran çöhrəsini dövlət işinə çevirdi. İlkin olaraq əfv edib Sadiq xan Şəqaqinin cərimələrini sildi və o[1], Xaqanın fərmanına əsasən Sərab ilə Gərmrudun hakimi yerinə əyləşdi. Əbədi dövlətin yetişdirməsi olan Cəfərqulu xan Dünbüli o vaxtlar Təbriz ilə Xoyun başçısı məqamına yüksəlmişdi. Əlahəzrət Xaqan onu öz rikabından mürəxxəs edib özü Marağa yolu ilə Təbrizə gəldi. Sadiq xan batində xain olduğu səbəbdən və həmçinin Cəfərqulu xanla çoxdandan ədavət etdiyinə görə onunla düşmənçilik etmək yolunu seçdi. O[2] isə böyük dəstəni başına yığıb Şəqaqi tayfasının üstünə getdi və Sərabı xarab etdi. Sadiq xan tab gətirə bilməyib vətəni ilə vidalaşaraq yüyənini Muğan yoluna döndərdi, oradan Şirvana tərəf yollandı və bir az o yan-yörələrdə pərişan halda sərgərdan olub belə bir xəyala düşdü ki, xəyanət yolu ilə Cəfərqulu xanı xaqanlıq dərgahından məhrum edəcək. Cəfərqulu xan əlahəzrətin bolluq süfrəsindən həddindən artıq bəhrələndiyinə görə azadlığa bərabər olan bəndəlik sürahinin içindəkini başına çəkmişdi[3]. Bunu dərk edən Sadiq xan üçün gediş-gəliş yolu açıldı və o, Şirvandan Səraba tələsib Cəfərqulu xanla çəkişmənin binasını qoydu. Məhəmmədqulu xan Əfşar da ağlın kəmliyi və öz rəyinin yoxluğu ucbatından alçaq yaltaqlıq və səfeh hərəkətlər edib onun dalınca düşdü. Məhəmməd xan Zəndin üsyanı xəbəri onları daha da cürətləndirdi və onların müxalif avazları hökmdarın qulluqçularının qulağına çatdı. Hər kəs başına qarğa dəstəsi kimi bir güruh yığıb Təbrizin, Urmiyanın və Sərabın çəmənliklərində eyş-işrətə məşğul

[1]Yəni Sadiq xan
[2]Yəni Cəfərqulu xan
[3]Yəni ağın qarasını çıxartmışdı, həddini aşmışdı.

olmuş və qəmi ürəyindən silib üsyan bayrağını qaldırmışdı. Məhəmmədqulu xan Əfşarın qardaşı oğlu Hüseynqulu xan əmisinin bu hərəkətini görəndən sonra qəm yeyib əlahəzrətin sarayına yollandı və humayun taxtın payasına gəlmək icazəsini alaraq həqiqəti ərz etdi. Ölkə Xaqanı onu əzizləyib qiyamçıları məzəmmət etməyə qalxdı.

Nəvvab Məhəmmədvəli xan Qacarı böyük silahlılar dəstəsi ilə Əlişükürün[1] sərdarlığına və Zəki xan Zəndin oğlu Məhəmməd xanın şər əməllərinin qarşısını almağa təyin etdi. Həmçinin qərara gəldi ki, Hüseynqulu xan Əfşar dünyaya ağalıq edən saraydan rüsxət alaraq əfşarlar tayfasından olan öz havadarlarını yığıb Urmiya qalasını mühasirəyə alsın və əmisini bildiyi və bacardığı yolla ələ keçirsin. Nizamüddövlə Süleyman xan Qacarı isə zəfərin pənah gətirdiyi orduya mənqəlay[2] qoydu.

Qələbə bayrağı onun arxasında dalğalandı. Bir neçə gündən sonra Çəməni-Sultaniyyədən[3] çıxan zəfər ordusu Azərbaycan üsyançılarının xırmanına od saldı. O üç nəfər bədayaqdan Sadiq xan ki, dəfələrlə öz qəlbinin qızılını döyüş zərbxanasında sınaqdan keçirmişdi, məqsədi Cəfərqulu xanla ədavət etmək olduğuna görə öz dostlarının yardımından üzünü döndərib çar-naçar dövlətin dostlarına qoşuldu və Süleyman xanı öz günahlarının şəfisi[4] etdi. O isə rədd əlini sinəsinə qoymadı, əlahəzrətə ərz edib onun üçün əfv ilə aman istədi və şahənşahın dərgahından Sadiq xana

---

[1]Əlişükür – İran Kürdüstanında bir yerdir.
[2]Mənqəlay – ordunun əsas hissəsinin önündə gedən dəstə və onun başçısı.
[3]Çəməni-Sultaniyyə (və ya Cəməni-Sultan) – Qacarlar dövründə padşahların yay iqamətgahı. Bu kənd Bürucirdə yaxın yerdədir.
[4]Şəfi – başqasının günahını bağışlamaq üçün vasitəçi olan.

ümidverici müjdə gəldi. Cəfərqulu xanla Məhəmmədqulu xanın şirazəsi tamamilə söküldü və oturduqları qayıq heyrət girdabında batdı. Biri Rum diyarına, o birisi isə Urmiya qalasına pənah apardı. Hələ xoşbəxt ordunun irəliləməsindən öncə Urmiyaya getmiş Hüseynqulu xan Əfşar qullarağası Məhəmmədəli bəy Ərəbin və bilbas[1] tayfasının yardımı ilə öz əmisini tutub qalanı ələ keçirtdi və bu hadisənin təfərrüatlarını ali taxtın payasına ərz etdi. Şahənşahın hökmü ilə münşiyülməmalik[2] Mirzə Rzaqulu onun mallarının zəbti işinə, Əşrəfxan Dəmavəndi isə bürcün və qalanın mühafizəsinə təyin edildilər. Zəfərçalan qafilə məhərrəm ayının altısında Marağa və Sulduz yolu ilə Urmiya şəhərinin həndəvərinə yetişdi və o yerlərin başçıları ilə böyükləri Məhəmmədqulu xanın hökumətinə mənsub malları, avadanlığı və başqa şey-şüyü qalib orduya nəsib etdilər. İllər boyu yığılmış qızıl-gümüş ilə at-qatır bir günün içində tarac oldu. Urmiya məsələsinə əncam verəndən sonra *məhərrəmül-həramın on yeddisində* müzəffər bayraqlar Salmas yolu ilə Xoy tərəfə rəvan oldular.

### *Üfüqlər hökmdarının dərgahına yaxın olanların qulağına Hüseynqulu xanın tüğyan etməsi xəbərinin yetişməsi və humayun qafilənin Azərbaycandan İraqa yola düşməsi*

Hərçənd ölkələri fəth edən Xaqanın ürəyində gizlənmiş arzusu Azərbaycan ölkəsinin gülüstanındakı fitnə-fəsad

---

[1]Bilbas – Kürdüstanda yaşamış və öz quldurluğu ilə tanınmış bir tayfadır.
[2]Münşiyülməmalik – Qacarlar dövründə bütün münşilərə başçılıq etmiş şəxs. Onun vəzifəsi ölkənin möhürlənmiş sənədlərini Ali möhürə göndərməkdən ibarət olmuşdu.

kol-kosunu qəzəb qılıncı ilə kəsmək imiş (araqarışdıranların mövcud olması evə yaraşıq gətirməz), o, hərəkət bayrağını bu gözəl məkana döndərmək istəyən vaxt qardaşı Hüseynqulu xanın itaətsizlik göstərməsi xəbəri onun qulağına çatdı. Onda o, nifaq əhlini yerində otuzdurmaq niyyətilə aləmi gəzən atın yüyənini İraq səmtinə yönəltdi. Bu işin tarixçəsi belə idi ki, ölkə Xaqanı Sadiq xanın məsələsinə əncam verəndən sonra Tehran darülmülkünə qayıtmış, Hüseynqulu xanın başını Fars məmləkətinin hakimliyi ilə zinətləndirmiş və oranın kəm-kəsirini düzəltməyi ona tapşırmışdı. O, Şiraza gələndən sonra əvvəl-əvvəl itaət boyunduruğunu boynuna salıb bəndəlik bayrağını başının üstündə tutmuşdu. Lakin sonralar güc-qüvvət topladıqca əlahəzrətlə qardaşlıq münasibəti onun ürəyinə istibdad xəyalını və başına mənasız sevda saldı. Yaşın və hakimlik sahəsində təcrübənin azlığı ucbatından, habelə xidmətində olanların və o məmləkətdə araqarışdıranların təhriki səbəbindən şahənşahın hökmü ilə oraya təyin olunmuş Mirzə Nəsrüllahı və Farsın işinə əngəl törədə biləcək bəzi başçılarını tutub zindana atdı və gözlərinə mil çəkdi. Bunun ardınca bir dəstə süvarini Lar qalasında oturan Canməhəmməd xan Qacarı tutmağa göndərdi. Canməhəmməd xan Lardan çıxıb üzü İraqa tərəf qaçdı. Hüseynqulu xan bu xəbəri eşidən kimi Şirazdan onun arxasınca düşdü, lakin yubanıb çata bilmədi. O, Kaşana yetişdi, lakin Şiraza qayıtmağı özünə sığışdırmadı, çarəsiz halda İraqa getməyə hazırlıq görməyə başladı, ağruğunu Mirzə Əli Gəraylının müşayiətilə Yəzdə yolladı, şəhərin və məhbusların mühafizəsini qulamı Rüstəm bəy Bayata tapşırdı, özü isə bütün camaatı ilə məhərrəmül-həram ayının ortalarında İsfahan darüssələnəsinə daxil oldu. Orada zahirən bu hərəkətdən əsl

məqsədi Həzrətin astanbusisi[1] olması haqda sözləri ilə xalqı aldatdı, ürəyindəkilərini isə dilinə gətirmədi və hətta əgər ağzıyavalardan birisi bu məsələdən ötrü ağzını açsaydı, onun bənövşəvari dilini dartıb çıxardardı. Gözəl xasiyyətli şəhriyar tərəfdən İsfahanın mühafizəsinə təyin olunmuş Məhəmmədəli xan Qacar ondan bir düşmənçilik əlaməti zahir olmadığına və dövlət kargüzarlarından da onun hərəkətinə qadağa qoymaq işarəsi gəlmədiyinə görə ona qarşı vuruşmağın işə zərər vuracağını düşünərək İsfahan bəylərbəyisi Məhəmmədhüseyn xanla və şəhər divanının məmurları ilə birgə şəhəri tərk edib yaxınlıqda oturdu. Gözü şərif hökmün gələcəyi yolda idi. Hüseynqulu xanın Şiraz əhalisinin önündə İsfahana daxil olması haqqında yenidən ali taxta ərz etdilər və bu xəbər Xoyda möhtərəm qulaqlara çatdı. Ölkə Xaqanı Süleyman xana Azərbaycanın hakimləri və sərkərdələri ilə yerində qalmağı tapşırdı. Qibleyi-aləmin özü isə bütün ordusu ilə İraqa yollandı və Təbrizin Ərvənəq mahalında Məhəmməd xan Zəndi gördü. Onu taxtın payasına gətirdilər və işin başlanğıcında onun ələ keçməsi yaxşı əlamət oldu. Bu əhvalatın qısa icmalı belədir ki, Məhəmməd xan bacalan[2] tayfası ilə bundan öncə qələmin yazdığı kimi Silaxor[3] qalasında oturub xalqı tərəddüdə salmaqla məşğul idi. Onu zərərsizləşdirməyə məmur olmuş Məhəmmədvəli xan Silaxora gəlib döyüşə başladı. Uzun vuruşmadan sonra Məhəmməd xan öz köməkçiləri və əlaltıları ilə döyüş meydanından qaçdı və Dizful ilə Şüştər arasında feylilər[4] dəstəsinin əlinə keçdi. Vali Həsən xanın göstərişi

---

[1]Astanbusi – astan öpmək, müqəddəs və ya hörmətli yerə baş çəkmək.
[2]Bacalan – bir kürd tayfasıdır.
[3]Silaxor – Luristanda bir yerdir.
[4]Feyli – lor tayfalarından biri.

ilə onu görmə qabiliyyətindən məhrum edib zəncirli-buxovlu hökmdarın dərgahına gətirdilər. Dövranın hakimi məhkəməsinin hökmü ilə onu Süleyman xana tapşırdılar.

Gərmrudun Miyanəc mənzilində İbrahimxəlil xan Cavanşirin kiçik oğlu Əbülfəth xana Xaqana xidmət edənlərin sırasına qoşulmaq səadəti nəsib oldu. Zəncan tərəfdə ölkə Xaqanı məiyyətlərinin qulağına belə bir xəbər çatdı ki, üfüqlərin hökmdarı Xoydan İraqa hərəkət edəndən sonra Süleyman xanın çadırı ətrafında bir məşvərət oldu, gülpayi qəbiləsinin başçısı Əli Hümmət xan və nankəli[1] tayfasının sərkərdəsi Xanbaba xan tamamilə yoldan çıxdılar. Bu fəsadı müzakirə etmək üçün bir iclas təşkil olundu və ziddiyyət aradan qalxdı. Hamılıqla peyman bağladılar ki, hər halda Süleyman xanı özlərinə böyük və başçı kimi tanısınlar və öndər olmaq məsələsində bir başqasının adını dilə gətirməsinlər.

Alicənab Xaqan bu qovğanı çəngin naləsindən və rübabın fəryadından da kiçik dəyərləndirib o saat yola düşməyi qarşısına məqsəd qoydu və Çəməni-Sultaniyyədə ordu rəisləri və əsgər başçıları ilə məşvərət şurası düzəltdi. Xaqanın işıqsaçan rəyi dinlənəndən sonra qərara gəldilər ki, qılıncı siyirib İraq vilayətini şər tikanından təmizləsinlər. Uca hökmə əsasən rəis olmaq şərəfi Məhəmmədvəli xanın payına düşdü. O, ordu ilə Əlişükürdən və Bürucirddən[2] Gülpayigana[3] daxil olub köməyə gələnləri və yeni hökmü gözləsin. Ardınca zəfərçalan bayraqlar Sultaniyyədən hərəkətə gəldilər. Süleyman xanın ordusunu pərakəndə salmaq hökmü

---

[1]Nankəli – Tehran, Qəzvin və digər bölgələrdə yaşamış kürd elatlardandır.
[2]Bürucird – Həmədanla Kərəc arasında yeləşən şəhərdir.
[3]Gülpayigan – İranın mərkəz hissəsində yerləşən şəhərdir.

oxundu. Bu vaxt mənzillərdən[1] birində dövlət məmurlarına xəbər çatdı ki, Vəlixan şərəfli hökmə müvafiq olaraq Bürucirddən çıxıb Gülpayiganın həndəvərinə gələrkən Hüseynqulu xanın İsfahandan irəliləməsi xəbəri yetişdi. O, ölkə Xaqanının iltifatı sayəsində özünü başqalardan əskik saymazdı və Hüseynqulu xanın yanına getdi. Hüseynqulu xanın müxalifət sədaları İraqda həm böyüyün, həm kiçiyin qulağına çatdığına və bu avazın İsfahanda da yayıldığına görə o, Hüseynqulu xana bir neçə nəsihətamiz namə və ibrətverici məktub göndərərərək onu itaətə dəvət etdi, lakin o,[2] cəhalət yolunu seçməsi ucbatından cavab vermədi. Bunun ardınca özü ilə görüşüb öyüd-nəsihət verməyə çalışdı, amma faydası olmadı, bəlkə hətta millət onun düz yola gəlməyinə ümidini itirdi. Onda üzünü gözəl xasiyyətli şəhriyarın ordusuna çevirdi ki, o həzrət rəhm göstərər və mehriban əlaqəsini nifrət və qəzəb qılıncı ilə kəsməz, çünki o həzrəti təbiəti xoş, əfvi geniş, qəlbi təmiz və rəyi dürüst bir adam kimi tanıyırdı. O, xəlvətcə Fərahanın Saruq mənzilində tacdar qürrətül-eynin[3] hüzuruna gəldi və Hüseynqulu xanın başı bəd, sonu betər əməlindən hekayət etdi. Üzrlü səbəb kimi onu buyurdu ki, Fars məmləkətinin gəliri onun xərcləri üçün kifayət olmadığına görə cürət edib bu cür müxalif addımlar atdı. Əgər ürəyi geniş və mülkü sonsuz olan torpaq bağışlayan Xaqan Kirman məmləkətini də onun iqtasına[4] əlavə buyursa və öz böyük himməti ilə bu kiçik könlü alsa, o da başını itaət yoluna qoyub fitnə-fəsad işlərindən vaz keçər. Əlahəzrət cavabda buyurdu ki, Kir-

---

[1]Mənzil – (burada) hərəkətdə olan ordunun durma yeri, dayanacaq.
[2]Yəni Hüseynqulu xan
[3]Yəni hökmdarın
[4]İqta – bağışlanmış yer, torpaq.

man vilayətinin əlavə edilməsinə etirazı yoxdur və əgər ondan şərafətli rəyə və dövlətin mənafeyinə müxalif bir iş çıxmasa, əslində bizim və onun mülkümüz birdir. Lakin sonucda Hüseynqulu xan Kirmanla kifayətlənməyib İsfahanı da tələb etdi. Həzrət Xaqan onun tərsliyini və bədməzac olduğunu görüb onun bu bəhanəbazlığının yolunda sədd çəkdi. Onda o, başqa bir bəhanə gətirdi və hər kəsə aydın oldu ki, onun arzusu məişətini yaxşılaşdırmaq yox, həngamə salmaq imiş. O biri gün ordusuna sıralara düzülməyi və döyüşə hazır olmağı və mülkün bölünməsi işini başkəsən qılıncın və başəzən əmudun dili ilə görməyi əmr etdi.

Cəlallı dərgahda oturanların ərzinə çatdı ki, Hüseynqulu xan özünün yolunu azmış təbəələri ilə birlikdə ədavət kəmərini bağlayaraq ölkələri fəth edən hökmdarı yandırıb məhv edən atəşə tutmaqdan ötrü öz ağruğunu həmin mənzildə qoyub Mehdiqulu xan Qacarla Hacı İbrahim xan Şirazini ordugahı qorumağa təyin buyurdu, orduya isə işarə etdi ki, atlanaraq yüksüz yola düşsünlər. Bundan agah olan şəhriyar öz ordusunun igidləri ilə Hüseynqulu xanın ordugahının iki fərsəngliyində hünər çadırını göyə ucaltdılar. *Səfərül-müzəffər ayının iyirmi səkkizi, şənbə günü* hərb sıraları döyüş üçün düzüldülər. Əlahəzrət bir daha Mirzə Musa Münəccimbaşını[1] Hüseynqulu xanın yanına göndərdilər ki, onu mülayim olmağa və itaətə dəvət etsin. Hüseynqulu xan ağıllı nəsihətçinin ağlabatan öyüdünü eşidəndən sonra qəflət yuxusundan oyanıb və qürur məstliyindən ayılıb anladı ki, Süha[2] Günəşin müqabilində işıqsız, sərçə də şahinin caynağında gücsüz qalar. Çarəsizlikdən özünü Xos-

---

[1]Mirzə Musa Münəccimbaşı – bir əsrə yaxın Gilanın hakimləri olmuş münəccimbaşılar nəslindəndir.
[2]Süha – Böyük Ayı bürcündə kiçik ulduzun adıdır.

rov kimi vüqarlı hökmdarın hüzuruna gətirdi və qaanın əfvini öz qələtlərinin və yaramazlığının düzəldəni etdi. İxtiyarsız qabağa qaçdı və əlahəzrətin üzəngisini öpdü. Saf ürəkli Xaqan əlini onun boynuna qoyub əlini tutdu və döyüş meydanından ziyafət eyvanına apardı. Vəlixanı da şəhriyarın hüzuruna gətirdilər. Hökmdarın əmrilə cəzasını verdilər.

O gecə səhərədək hər iki qoşun yerində qaldı. O biri gün Hüseynqulu xanın düşərgəsindəki ləşgər yerindən qalxaraq humayun düşərgəyə keçdi. Ölkə Xaqanının hökmünə müvafiq olaraq onların ağruğu dünyanı fəth edən orduya təslim oldu və zəfər bayrağı oradan yola düşdü. Hüseynqulu xanla ittifaqda olan Fars və İraq xanları ilə rəisləri Xaqanın ehsan süfrəsindən faydalanıb əfv oldular, güzəşt aldılar və hökmdarın icazəsilə öz diyarlarına qədəm qoydular.

Baş verənlər haqqında xəbər ətrafa yayılan kimi onun əhali arasında çaxnaşmaya bais olacağı təhlükəsi ortaya çıxdı. Buna görə əmirlərdən bir neçə nəfər vilayətlərə təyin olundu, o cümlədən həmin vaxt İsfahandan məiyyətlərə qoşulmuş Məhəmmədəli xan Qacar Farsın hüdudlarına, Hüseynqulu xan Kirmana, Novruz xan İzzəddinlu isə Kühgiluyəyə[1] və Bəhbəhana yollandılar. Müzəffər qafilə Qum darülimana yetişdi və büqeyi-teyyibəni ziyarət edəndən sonra rəbiüləvvəl ayının ortalarında Tehran darülxilafətinin qüruru dövran hökmdarının qədəmlərindən göyün ən yüksək yerinə çatdı.

### *Qacar qəsrinin tikilməsi və bəzi digər məsələlər haqqında*

[1]Kühgiluyə – İranın cənubunda bir ostandır.

Padşah dünyanı bəzəyən əmr verdi ki, əsasən Tehranın yarım fərsəngliyindəki münbit torpaq sahəsində cənnətvari bir bağ salınsın və həmin bağda cürbəcür ağaclarla çiçəklər əkilsin, oradakı təpənin zirvəsində isə ürəkaçan bir saray tikilsin. Bu əmrə əsasən bağbanlar bağın hər yerində meyvə ağacları, bahar və payız vaxtı açılan reyhanlar və qızılgüllər əkdilər, bənnalar isə onun yuxarı hissəsində sarsılmaz bürclərə və möhkəm divarlara malik ürəkaçan behiştvari imarət bina etdilər. Onun eyvanının qarşısında günəşli geniş göl saldılar və o gölün ortasındakı bulaqdan axan şəffaf su asiman aynasından da parlaq olmuşdu.

Bu arada həzrətin sirdaşlarının və məiyyətlərinin qulağına belə bir xəbər çatdı ki, Hüseyn xan Dünbülinin can quşu əbədi yuvaya uçdu və Cəfərqulu xan vaxtilə onunla birlikdə Xoyu tutmuş Xoy şəhərin qara camaatının dəvətilə oraya cumub Xoy qalasına daxil oldu və qardaşının yerində əyləşdi. Bir neçə gün keçəndən sonra Xaqanın dərgahına onun yazdığı itaət ərizəsi yetişdi ki, əgər padşahlıq günəşinin rəhmi gəlsə, məni böyük qardaşımın ardıcılı yerində görsün, mən də xidmət etməyi və can qoymağı öhdəmə alıram. Dünya padşahı dəfələrlə onun dəcəlliyinin şahidi olsa da və onun həmişə müxalif məqamda olmağı günəşəbənzərin ürək güzgüsündə öz əksini tapsa belə, məsələyə son qoymaq üçün fərman gəldi ki, əgər itaətin izharında sadiq qalsa və həzrətə qulluq etməyə həvəsli olsa, dünya kimi möhkəm saraya öz oğlunu yollasa və yaxşı xidmət edərkən qələtlərini aradan götürsə, əlahəzrət də ona müvafiq inayət göstərər.

O günlərdə Hüseynqulu xan öz əməllərinə görə cəzalanmaqdan qorxaraq gizlicə Xorasana getmək istədi. Onun tabeliyində olanlar ona qarşı çıxdılar. Onda o ərizə yazıb

şikayət etdi ki, Səmnanın gəliri mənim xərcim üçün kifayət deyil və əgər buna başqa bir vilayət əlavə edilsə gəlir xərcə müvafiq olar. Onun bu xahişi qəbul dərəcəsinə yetişdi və Kaşan hakimiyyətinin parıltısı və gəliri onun ixtiyarına verildi. Övladsızlığından ötrü daim qəmgin olduğuna görə hörmətli şahzadə Məhəmmədtəqi Mirzəni onunla birlikdə Kaşana yolladılar ki, həmişə əmisinin yanında olsun və Hüseynqulu xanın şahzadəni oğulluğa götürməyindən ürəyi açılsın, o qəmin buxovundan da canını qurtarsın. Səmnan vilayətini xoşbəxt şahzadə Məhəmmədvəli Mirzəyə tapşırdı, Qəzvin vilayətini isə şahzadeyi-azadə Məhəmmədəli Mirzəyə inayət etdi.

### *Naibüssəltənə vəlxilafət Abbas Mirzənin bayraqlarını Azərbaycana tərəf döndərməsi, Hövdər qalasının alınması və Cəfərqulu xanın məğlub olması*

Bundan öncə də bəhs olunduğu kimi, Allahın kölgəsi əlahəzrət Xorasana hərəkət etməkdən əvvəl Naibüssəltənə vəlxilafət Abbas Mirzəyə Azərbaycan məmləkətinin başçılarını tənbeh etməyi tapşırmışdılar. Əlahəzrət Xaqan Tehran darüssəltənəsinə daxil olandan sonra məlumatlı adamlar dünyanın pənah gətirdiyi sarayda oturanların qulaqlarına bir xəbər çatdırdılar ki, əzəmətli şahzadə Təbriz darüssəltənəsinə gələndən sonra bir neçə gün ordunu nizama salmağa məşğul olub oradan Çəməni-Yamatərəf irəlilədi. Cəfərqulu xan qardaşı Hüseyn xanın vəfatından sonra Xoy qalasına gəldi, oğlunu göylərə qədər ucalmış dərgaha göndərdi, xidmət və itaət etməyi öhdəsinə aldı. Naibüssəltənə bu öhdəliyi əsas tutaraq həzrətin adamlarından birini o qəflət badəsini içəni imtahandan keçirməkdən ötrü

onun yanına göndərdi və ona səadəti dərk etməyin yolunu göstərdi. Lakin o, inadkarlıqda və nifaq salmaqda israrlı idi. Çar-naçar ona qulaqburması verməyin lazım olduğunu bilib qələbə bayraqlarını Çəməni-Yamdan qaldırıb döyüşmək əzmilə Salmas səmtinə irəlilədi. Cəfərqulu xan aliməqam şahzadənin o yan-yörəyə hərəkətindən xəbər tutan kimi qardaşlarından birini Xoy qalasında qoyub kömək üçün zəlalətə batmış qoşun yığmaqdan ötrü əsli-nəsəbi bilinməyən kürdlərin arasına getdi və İrəvan əhalisindən, habelə yezidi tayfasından və cürbəcür naxələflərdən on beş min nəfər toplayıb boynunda haqqı olanın haqqını naz-nemətə dəyişmək həvəsinə düşdü və davaya yollandı.

Xoy ilə Salmas mahallarının adamları və malqarası qiyamət təsirli ordunun həmləsindən xoflanaraq istehkamlı məkanlara, o cümlədən bu tərəflərin qalalarının içində mətinliyi və alınmazlığı ilə seçilən Hövdər qalasına ki, göylərə ucalmış binaları, cürbəcür malları və igid sakinləri ilə məşhur idi, pənah gətirdilər. Qüdrətli hökmdarlardan heç birinə bu qalanı ələ keçirmək müyəssər olmamışdı. Hər yandan və hər tərəfdən poladciyər ordu bu özülü möhkəm qalanı almaq üçün onun üzərinə hücuma keçdi. Cəfərqulu xan bu yenilməz istehkamın və möhkəm sığınacağın qorunması işini səpiki(?) kürdü Abdalağaya tapşırmışdı. O, ayağını asilik dairəsinə basıb qılıncla süngü istehsalına başlamışdı. İldırım sürətli ordu həmlə edib bir ləhzədə o möhkəm hasarı aşdı və odsaçan silahları o yerin torpağını havaya sovurdu. Həmin alçaqların əksəriyyəti həlak badəsini içməli oldular. O diyar əhalisinin illər boyu oraya gətirib üst-üstə yığdığı mallar bir anda qarət hədəfinə çevrilib tarac oldu.

Hövdər qalasının məsələsi həll olandan sonra müzəffər ordu üzünü oranın rəhbərlərinə qulaqburması verməyə qoy-

du. Cəfərqulu xan on beş min döyüşçü və Xoydan gətirdiyi toplarla rəşadət və qorxmazlıq nümayiş etdirərək bir mənzildən artıq sürüb şahzadənin tayı-bərabəri olmayan ordusu ilə döyüşmək üçün onunla üzbəüz dayandı. Onun işarəsilə ətrafdakı əhali bir neçə gün Salmas çölünə su gətirib tökmüşdü ki, şahzadə ordusunun süvariləri öz atları ilə palçıqda batıb nicat tapa bilməsinlər. Nəticədə onun məkri ilə hiyləsinin faydası öz başına gəldi. Onun süvariləri atlarını irəli sürərkən palçıqda ilişdilər və dərhal sivri qılınclara mal oldular. *Rəbiüləvvəlin yeddisi* Salmasın Dilməqanı yaxınlığında Naibüssəltənə Nizamüddövlə Süleyman xan Qacarla, İbrahim xan Qacarla, habelə Təbriz və Marağa bəylərbəyisi Əhməd xan Müqəddəmlə birgə ordunun sağ və sol cinahlarını, qəlbini[1], ön və arxa hissələrini və pusqularını düzdü. İki tərəfin döyüşçüləri dəstə-dəstə qədəmlərini irəli atdılar, dava-dalaş məşəli alovlandı, bəla atəşi göylərə qalxdı və məhşərdən xəbər verən sipahın sarsıdıcı zərbələrindən qiyamətin surəti bu dünyada göz önünə gəldi, Zöhrənin[2] toplarından, zənburəklərindən və tüfənglərindən püskürən od Mərrixin[3] torpağını suya, Zühəlin[4] cismini isə kababa döndərdi. Axırda Naibüssəltənənin ordusu müxalifləri üzərində zəfər çaldı, Cəfərqulu xan başına gələn bu müsibətdən qaçıb Çüxur-Səədin hündür qalalarından olan Maku qalasına pənah apardı. Çoxlu silah-sursat, topxana və vardövlət ələ keçdi. İgidlər təqib etdilər və əllərinə keçən hər birisini iti qılınclarından keçirtdilər və bir xeyli əsir tutub uğurlu şahzadənin hüzuruna gətirdilər. Ordu əmirləri ilə Sa-

---

[1]Yəni mərkəzini
[2]Zöhrə – Venera planeti.
[3]Mərrix – Mars planeti.
[4]Zühəl – Saturn planeti.

ray əyanları bu xidmətə görə ənamlarla ehsanlar aldılar. Hər yerə səs salmış bu qələbədən sonra Azərbaycan torpağında əmin-amanlıq bərqərar oldu. Məşhur şahzadə Xoy bölgəsinə daxil olub Pirqulu xan Qacar Şam-Bayatıya oranı tapşırdı. Qalib qafilə Xoydan hərəkət edib Təbrizə gəldi. Cəfərqulu xanın faydasız gediş-gəlişi nəticəsində öz diyarlarından ayrı düşmüş, bəziləri isə yoxsulluğa batmış yerli rəiyyətlər Naibüssəltənənin bərqərar etdiyi ədalətli üsuli-idarə şəraitində arxayınlıqla və rahatlıqla bir-birinin ardınca öz məskənlərinə qayıtmağa başladılar. Su şahzadənin ədalət bağından tarlalara və zəmilərə gəldi. Ruzigar Xaqanının dünya qədər geniş sarayına bu mühüm zəfərin müjdəsini göndərdilər. Xidmətçilər dünya hökmdarının ənam xəzinəsindən aldıqları qızıl telli xələtlər geyindilər və onun iltifat ilə etibar kasalarından məst etməyən ləzzətli şərab içdilər.

### *Uğurlu min iki yüz on beşinci ildə[1] şahzadə Abbas Mirzə Naibüssəltənənin Azərbaycan istiqamətinə təyin edilməsi*

Abbas Mirzə Naibüssəltənə dünyanı lərzəyə gətirən və fəth edən ordusu ilə və həmçinin Süleyman xan, İbrahim xan və Rzaqulu xan Qacarla birlikdə Azərbaycan diyarında yaranmış çətinlikləri aradan qaldırmağa təyin olunmuşdu. O, bu səfərdə Naxçıvanın və İrəvanın bəzi işlərini də nizama saldı.

### *Hicrətin min iki yüz on altıncı ilində[2] baş vermiş hadisələr*

[1]Miladi təqvimilə 1800/01
[2]Miladi təqvimilə 1801/02

*Qısa olaraq ərəb şeyxi Əbdüləziz haqqında*

Əbdüləziz ərəb tayfalarından olan bir cahil tayfanın şeyxidir. Onun qısa əhvalatı belədir ki, o, qəbilənin başçısı olub və Əbdülvəhhab adında birisi də o tayfanın böyüklərindən idi və Bəsrə mahalı əhlindən Bu Cəhlin[1] tayı olan Məhəmməd adlı birinin yanında şagirdlik etmişdi. Axırda təhsil almaqdan ötrü İsfahana gəldi və ömrünü oradakı mədrəsələrdə fiqhi, üsulu və nəhvü sərfi[2] öyrənməyə sərf etdi və elə qərara gəldi ki, hər millətin əqidələrindəki incəliklərinə bələddir. Amma o, İblisin əməli nəticəsində yolunu azmışlardan oldu. Etiqadı bu idi ki, Allah-təala təkdir və peyğəmbərləri, eləcə də içində şəkk-şübhəsi olmayan Kitabı göndərmişdir. Sonuncu Axirüzzəman Peyğəmbərin vəfatından sonra Allahın kitabı yetər və hər dövrdə adamların içindən bir müctəhid çıxıb müşkülləri həll edər. Bir dövr Əbu Bəkr, bir dövr Ömər, bir dövr Osman və bir dövr Heydər Əmirülmöminin, başqa çağda Şafei, başqa vaxtda Əbu Hənifə, bir zaman da imam Cəfər (əleyhissəlam). Əgər bir müctəhid vəfat etsə, digəri onun yerinə gələr və müxtəlif məsələlərə dair Kitabüllahdan açıqlamarlar verər ki, adamlar onun sözünə əməl etsinlər. Məzarların və qəbirlərin üstündə hündür qübbələr tikmək, oraya hədiyyələr və nəzirlər gətirmək, türbələri qızıl və gümüşlə bəzəmək, onları ziyarət etmək, o şəni böyük olanlar zümrəsinin ziya-

---

[1]Bu Cəhl – cəhalətin atası. Bu ləqəbin sahibi 572-624-cü illərdə Məkkədə yaşamış, öz cahilliyi, inadkarlığı və müsəlmanlara qarşı qatı düşmən mövqedə olmağı ilə məşhurlaşmışdı.

[2]Nəhvü sərf (və ya sərfü nəhv) – qrammatika (hərfi tərcüməsi: sintaksis və morfologiya).

rətgahlarını öpmək, o torpaqdan möhür daşı düzəltmək və onunla namaz qılmaq şəriətdə bidətdir və Allaha şərik qoşmaqdır və bu cür davrananlar kafir hökmündədirlər və Haqq-təalanın Qur'anda müşrik adlandırdığı o qəbildəndirlər ki, öz əlləri ilə bütlər düzəldib onları özləri ilə Allah arasında bir vasitəçi biliblər, onları təvaf ediblər, onlara xidmət göstəriblər, onların qarşısında səcdə qılıblar və onlara sitayiş ediblər, bilavasitə Allahı deyil, onları şəfaət verən və vasitəçi kimi tanıyıblar.

O, füruüddinə dair bu cür boş-boş səylər göstərərək İsfahandan öz qəbilənin içinə gəldi və bu qəbildən olan sözləri öz şeyxinə söylədi. Əbdüləziz hökmranlıq etməyə iddialı olmuşdu. Məlumdur ki, beynində hamıdan üstün olmağı hədəfləyən hər kəs yeni dindən və təzə ayindən öz məqsədi üçün tez istifadə edər. O, həmin sözləri qəbul edərək məzhəbdən və sünnətdən döndü, ərəbləri bu dinə dəvət etdi və öz məzhəbini yaymaqdan ötrü ətrafdakı bədəvi ərəblərlə dava-dalaşa girdi. Gah düşmənə yenildi, gah da düşməni yendi və sonda güc və dövlət toplamağı bacardı. Dəriyədə[1] dəmir qalxan kimi mətin bir qalanın binasını qoyub talan-tarac yolu ilə öz payını və sərvətini gündəngünə artırdı və bədəvi ərəb qəbilələrinin əksəriyyətini öz əli altına saldı. O qocalarkən oğulları yetişdilər. Bu mənhusların ən böyüyünün adı Səud idi. O, igidliyi və mərdliyi hesabına yüksəlməyi bacarıb tədbirli və uzaqgörən olaraq nizə və qılınc gücü ilə bədəvi ərəblərin çoxunu öz hökmünə və fərmanına tabe etdirdi. Bunun ardınca o, bidət saydığı din imamlarının (əleyhiməssəlam) türbələrini və ziyarətgahlarını viran etmək, habelə bütpərəst və müşrik hesab et-

---

[1]Dəriyə – o vaxtkı Nəcddə, müasir Səudiyyə Ərəbistanı ərazisində, Ər-Riyada yaxın yerləşən bir şəhərdir.

diyi zəvvarları və mücavirləri[1] qətlə yetirmək xəyalına düşüb bir neçə dəfə Nəcəfi-əşrəfə qəsd etdi. O, Haqq nurunun atəşinə yol tapa biləcəyini güman edirdi, lakin Haqqın qol gücü, xüzaə[2] və digər şiə ərəblərinin sayıqlığı və qalanın möhkəmliyi sayəsində oxu daşa dirəndi.

Nadir şah Əfşarın hakimliyi çağından bu xoşbəxt şahənşahın[3] dövləti dövrünədək[4] ki, əlhəmdülillah, İran xalqı tam əmin-amanlıq şəraitində yaşamaqdadır və vətəndən ayrı düşmüş hər birisi üzünü öz diyarına çeviribdir, altmış ilə yaxın İranın və Hindistanın bütün vilayətlərinin varlı-dövlətli adamları ölkələrini bürümüş fitnələrin üzündən vətənlərini tərk edib pak imamların astanına pənah aparırdılar ki, onların canları ilə halal və haram malları bu qonşuluğun bərəkəti sayəsində zalımların əlinə keçməkdən və tələf olmaqdan eyməndə qalsın[5].

Nəcəf, Kərbəla və Kazimeyn kimi müqəddəs məşhədlərdə[6] qəriblərin çoxluğundan yerli sakinlər üçün yer qalmırdı və onlar[7] haram yeməyin, eyş-işrətə məşğul olmağın, şəhvani hisslərə qapılmağın, nəfsə qulluq etməyin məqamı deyil, zöhdün, təqvanın və dünya malından əl çəkib axirət aləminə üz çevirməyin məskəni olan bu məkanda uzun müddət yaşayıb o qədər sələmçilik, murdarçılıq, qəbih

---

[1]Mücavir – (burada) müqəddəs şəxsin məzarı ilə qonşuluqda yaşayan.
[2]Xüzaə – Yəməndən Məkkəyə tərəf köçmüş ərəb qəbilələrindəndir. Mühəmməd peyğəmbərin (s) tərəfdarları olmuşdular.
[3]Yəni Fətəli şah Qacarın
[4]Yəni Nadir şahın qətlə yetirilməsi (1747) ilə Fətəli şahın taxtda əyləşməsi (1797) illəri arasında və əslində bu dövr hicri təqviminə görə 52 ilə bərabərdir.
[5]Yəni qorunsun
[6]Məşhəd – şəhadət yeri.
[7]Yəni təzə gələnlər

əməllər və rüsvayçı işlər törətdilər ki, əgər digər islam ölkələrində onlardan birinə yol verilsəydi, onlar məzəmmət, qınaq və intiqam hədəfinə çevriləcəkdilər. Get-gedə bütün bu ziyarətgahlarda, o cümlədən Kərbəlada laqeydlik və həyasızlıq o dərəcəyə çatmışdı ki, şəriətdə haram sayılanlar halal hesab edildi və gizlicə işlədilən günahların üzərindən pərdə götürüldü. Nə Allahdan utanardılar, nə də gizli sirrləri bilən və görən höccətüllahdan çəkinərdilər. Nə böyük xətalar və günahlar yeridir! Başları mal yığmağa məşğul olduğundan ildə bircə dəfə də pak astanın ziyarətinə getməzdilər ki, qadağan olunmuşları tərk etməklə, ibadətlərini yerinə yetirməklə və həsənatları, yaxşı işləri üst-üstə toplamaqla batinləri saflaşsın. Allaha yaxın olan adamlar lazım idi ki, heç bir xəbisliyə bulaşmayan bu müqəddəs torpaqda qorxmaz əllə nəfsləri çirklənməkdən və mal yığmaq aludəliyindən pak etsinlər və millətin gözü və könlü önündə nadan Səudun iti qılıncının üstündən qəflət pərdəsini götürsünlər. Nəticədə xoşbəxt tale bu bəd əməllərinə görə onlardan üzünü çevirdi və Büxtünnəssər Bəni-İsraili istila etdiyi kimi Səud da Əbdüləzizin işarəsi ilə oraya hakim oldu. Bu da belə baş verdi ki, Nəcəfi-əşrəfin hasarını yarmaqda Əbdüləzizin qılıncı küt, əl-ayağı da süst çıxdığına görə Kərbəlanı dağıtmağa və kərbü bəla[1] məkanı olan və möhkəm hasarı olmayan bu yerin əhalisini qətlə yetirməyə səy göstərdi. Onun işarəsilə *həmin ilin zihiccə ayında*[2] Səud özünün on iki min nəfərlik başıpozuq ordusunu yığıb heç kimə xəbər vermədən sübh tezdən səhradan çıxıb Kərbəlaya basqın etdi. Əllərinə keçən qocadan-cavandan hamını rəhmsiz qılıncdan keçirib öldürdülər, qadınların namusuna

---

[1]Kərbü bəla – qəm ilə bəla.

[2]Miladi təqvimilə 1802-ci ilin aprel ayında

və ismətinə baxmadan hamısını soyundurub lüt-üryan etdilər və həzrət Seyyidüşşühədanın (əleyhissəlam) pak zərihini və nurlu sənduqəsini həyasız əllərilə qanmazcasına daşa basıb sındırdılar. Onun bağlarını qopartdılar, astanın xəzinəsini, qızıl və gümüş qəndillərini, müqəddəs rövzənin xalılarını və digər əşyalarını qarət etdilər, zərli kərpicləri və eyvandakı aynaları qırdılar, qapı-divarı sökdülər, xəzinənin hər xanəsində olan qızılları, inciləri, daş-qaşları, müxtəlif ölkələrdən gətirilmiş nəfis əşyaları bir an içində oğurlayıb apardılar. Qan küçə-məhəllələrdə sel kimi axdı və bu pak torpaqda yenə də aşura günü və Kərbəla hadisəsi yaşandı. Etibarlı mənbələrdə verilən məlumata görə öldürülənlərin miqdarı beş min nəfərə yaxın idi, talan olunmuş malların hesabını isə Allahdan başqa heç kim bilməz ...

Xülasə, bu faciədən sonra intiqamını Bəhram kimi alan hökmdar[1] öz qulluqçusu İsmayıl bəy Bayatı bir məktubla Bağdada Süleyman paşanın yanına göndərdi. Məktubda yazırdılar ki, əgər İran ordusunun Osmanlı dövlətinə daxil olması o ali dövlətin başçılarının xatirində (əslində heç bir səbəbi olmayan) narahatlıq yaratmasa, bildirilir ki, Cənab Barinin köməyi ilə nə qədər ki, vəhhabi tayfasının işi kök salmayıb və onun çarəsini asanlıqla qılmaq çətin məsələyə dönməyib, o fəsadçılığa son qoyulmalıdır. Süleyman paşa cavabında ərz etdi ki, o bədniyyət tayfanın fəsadlı xassəsinin səbəbləri Osmanlı dövlətində hərtərəfli araşdırılmışdır. Yaxın zamanda bu yerlərdə onlardan heç əsər-əlamət də qalmayacaqdır və İran ordusunun bu işi görmək üçün zəhmət çəkməyinə bir hacət olmaz. Pak rövzənin təmiri və ziyarətgahda tələf olanların əvəzinin çıxması da bu

---

[1]Yəni Fətəli şah Qacar

dövlətin öhdəsindədir. İnşallah, bu yaxınlarda əməliyyata başlanılacaqdır.

Təəssüf ki, həmin arada Süleyman paşa fani aləmdən baqi dünyaya köçdü. Bağdadın və Bəsrənin işi tam durğunluq vəziyyətinə düşdü. Osmanlı dövləti başçılarının o tayfanın məsələsinə çarə qılmaq üçün fürsəti olmadı və onların şər işləri günbəgün artdı.

*Taxta xoşbəxt əyləşmənin yeddinci ili olan hicrətin min iki yüz on doqquzuncu ilində[1] baş vermiş hadisələr*

Günəşli taca və göylərə ucalmış taxta malik xosrov şad və xürrəm halda gözəl novruzu bayram etmək xatirinə əzəmətli ayağını bər-bəzəkli taxta qoydu və cavahir səpən əlini dinar-dirhəm paylamaq üçün açdı, əmirlərə və orduya ənam ilə ehsan buyurdu. Novruz bayramını qeyd edəndən sonra diqqətini məmləkət və millət quruculuğuna yönəltdi. İrəvan bəylərbəyi Məhəmməd xan Qacar bəzən fərmana tabe olmamağa və itaət boyunduruğunu boynundan atmağa səy göstərdiyinə görə və dövlət övliyalarına xas olan vəfa ilə sədaqət göstərmədiyinə görə yersiz qorxunun onun yaxasından yapışması səbəbindən hökmdara yaxınlaşmaq istəmirdi və qalanın möhkəmliyini artırmağa çalışmırdı. Nəticədə o, həmin vaxt Gəncəyə və Tiflisə yol tapmış Rusiyanın iqtidarının böyüməsinə razı olub meydanı düşməndən birdəfəlik boşaltmağı istəmirdi. Padşah özünün məmləkəti bəzəyən rəyini bildirərək İrəvan qalasını yadlardan boşaltmağı, oradakı bürclərlə barıları döyüşçülərlə doldurmağı və ardınca dürüst əzmlə və sabit qədəmlə düşmənin üzərinə hücuma keçməyi istədi. Bundan sonra Azərbaycan

[1]Miladi təqvimilə 1804/05

məmləkətində nizam-intizam yaratmaq və İrəvan mahalını yadellilərdən təmizləmək, habelə yaranmış fəsadları islah etməkdən ötrü azad şahzadə Abbas Mirzə Naibüssəltənə vəlxilafəti otuz min piyada və süvari ilə İrəvana yolladı. Bundan öncə qeyd olunduğu kimi, nəvvab Naibüssətənənin vəziri, qaimməqam, sədri-dövlət, əsilzadələr sülaləsinin nümayəndəsi Mirzə Büzürg[1] adı ilə məşhur Mirzə İsaya Tehran darülxilafətinin məsələlərinə məşğul olub o behiştvari diyarın hökmdarı nəvvab Həsənəli Mirzənin işlərini nizama salmağı tapşırıldığına görə saf ürəkli, Asəf rəyli, məmləkətin yaraşığı sədr Mirzə Şəfini[2] müzəffər rikabda xidmətə təyin etdi. O, həmçinin qacar əmirlərindən bir çoxunu, o cümlədən Süleyman xan Qovanlunu, Mehdiqulu xan Qovanlunu, Mehdiqulu xan Dəvəlunu, Rzaqulu xanı, Pirqulu xanı, Əli xanı, Nəcəf xanı, Allahverdi xan Qacarı, Azərbaycan xanlarını və səltənətin məmurlarını çadırlardan, evlərdən və xeymələrdən aparıb qala zənburəkləri, işrət avazlı nağaralar və ildırım səsli kərnaylarla birlikdə rikaba qoşdu. Firiduna[3] bənzər şahzadə Tehran qalasından çölə çıxan kimi zəfərçalan Xaqan əziz oğlu ilə vidalaşmaq, müzəffər ordugahı nəzərdən keçirmək, çadırların qurulmasını, əmirümləranı və ordunun nizam-intizamını müşahidə etmək üçün şahzadənin mənzilini Süleymanvari əzəməti ilə zinətləndirdilər.

Bundan sonra *zihiccətül-həram ayında* humayun qafilə xoşbəxt tale arxasınca Azərbaycan səmtinə hərəkətə keçdi. Qəzvinə daxil olan gün şahzadə Məhəmmədəli Mirzə izzət

---

[1]Mirzə Büzürg – Böyük Mirzə

[2] Mirzə Məhəmmədşəfi Mazandarani – Fətəli şah Qacarın dövründə 20 ilə yaxın İranın sədri-əzəmi olmuşdur.

[3]Firidun – Firdovsinin “Şahnamə” əsərinin qəhrəmanı.

və təmkinlə qəbul etmə mərasimini keçirib mehribanlıq və qonaqpərvərlik adətləri üzrə qarşısına çıxdı. Zəfərlə bəzənmiş bayraq Azərbaycana tərəf dalğalandı. O hüdudlara gözəl qədəmlərin nur ilə ziyası düşən kimi Azərbaycanın bəylərbəyiləri və digər hakimləri hökmdara layiq peşkəşlərlə xidmətinə gəldilər və müxtəlif lütf və iltifatlar alaraq ümidvarlıq mərtəbəsinə yüksəldilər. Naibüssəltənə həmişə öz himmətini rəiyyətlərin və təbəələrin rifahına yönəltdiyinə görə zülmə nifrət və ədalətə hörmət göstərən vəzir təklif irəli sürdü ki, ordunun İrəvan vilayətinədək keçdiyi hər yanı zəmi və əkin yeri olan mənzillərlə mərhələlərdə vilayətin malları və zəmiləri qiyamətəsər ordunun iqtidarı himayəsi altında qalsın və humayun qəzəbin qorxusundan bir dərvişin əlindən bircə qoyun belə alınmasın, rəhmsizliyə yol verilməsin və atların ayaqları altında bircə buğda dənəsi də tələf olmasın.

Nəvvab Naibüssəltənənin hökmünə əsasən sədri-dövlət Təbriz darüssəltənəsindən vədə ilə hədəni ehtiva edən və eyni vaxtda şirnikləndirmə, təhdid və qəzəblə dolu, Cəmşid kimi əzəmətli şahənşahın sarayına xidmət etmək üçün gəlməyə çağıran, xosrovlara xas lütfkarlıq və padşahlara məxsus mərhəmət izhar edən, peyğəmbərcəsinə fəsahətli dillə yazılmış nəsihətamiz məktubları İrəvan Çuxur-Səədi bəylərbəyisi Məhəmməd xan Qacara göndərmişdi. Onu[1] bürümüş heyvani qorxu onun payına düşmüş səadəti dərk etməyə mane oldu və şahzadənin yürüşü xəbərini eşidən kimi o, rəiyyətləri, kənd əhlini və İrəvanın ətrafındakı sakinləri köçürərək bəzilərini qalanın içinə, bir başqaları isə Bayəzid və Van tərəfə yolladı. Bundan öncə abadlaşdırdığı vilayəti öz əli ilə xarab və viran etdi, oranın əhalisini Rum vilayə-

[1]Yəni Məhəmməd xanı

tinin hər yanına səpələdi, qalanın qapılarını bağladı, özü də hasarla divarın arxasında oturdu və etibar etdiyi bir nəfəri Tiflisə yola salıb Rusiyadan yardım istəyərək onları Naibüssəltənəyə qarşı müharibəyə səslədi və İran ordusu üzərində qələbə çalandan sonra qalanı ruslara təslim etməyi söz verdi.

### *Gəncə ermənilərinin müxalif olmaları səbəbindən Gəncə qalasının Rusiyanın əlinə keçməsi*

Ruslar Gürcüstanı öz iqamətgahlarına çevirəndən sonra oranın genişliyi və o füsunkar məkandakı ab-havanın sağlamlığı o tayfanı valeh etdi. Onlar yaxın və qonşu vilayətlərə də soxulmaq həvəsinə düşüb dəfələrlə əlçatmaz Cara və Talaya qoşun yeritdilər və hüdudlarda günahsızların qanını zəlil və rəzil torpağa tökdülər. *Min iki yüz on səkkizinci ilin mübarək ramazan ayında*[1] rus qoşunları bayraqlarını Gəncə qalasına istiqamətləndirəndə oranın hakimi Cavad xan bu hərəkət barədə qüdrətli hökmdarın sarayına ərz etmişdi. Qoşun padşah astanından dərhal onun köməyinə yollanmışdı. Ancaq yol uzaq olduğundan qalaya Səid bəy Qulam adlı çapardan başqa heç kəs gəlib çıxmamışdı. İşpoxdur[2] öz ordusu ilə gəlib qalanı mühasirəyə alaraq Gəncə əhalisini işgəncə toruna salmışdı. Cavad xan əvvəl bir-iki dəfə öz qorxmazlığı ilə qalanın xaricində onların odpüskürən toplarının şamına pərvanəsayağı cumub mərdliyini nümayiş etdirdi. Sonda ortaya xəyanətlərini qoyub

[1]Miladi təqvimilə 1803-cü ilin sonu

[2]İşpoxdur – Rus ordusunun başçısı gürcü əsilli general Sisianov. Onun ordudakı vəzifəsi “inspektor”, yəni müfəttiş adlandırdığına görə Azərbaycanda ona istehza ilə “İşpoxdur” adını qoymuşdular.

dava məkanında və döyüş meydanında ondan ayrılmış və ruslara qoşulmuş Nəsib bəy Şəmsəddinlunun və Gəncə ermənilərinin müxalif mövqe tutmaları səbəbindən *şəvvalın birində*[1] sübh çağı ermənilərin bələdçiliyi ilə hər tərəfdən hücuma keçib keşikçilərin mühafizəsiz qoyduqları qülləyə dırmaşaraq alovpüskürən tüfənglərlə qalanın havasını tüstü ilə doldurdular. Onun ardınca qalanın içərisinə tökülüb üç saat qətl ilə qarət etdilər, qanı torpaqla qarışdırdılar, Cavad xana bir oğlu və çoxsaylı dəstəsi ilə bərabər şəhadət şərbətini içirtdilər və qana boyanmış xəncərlər tufanı qan dalğasını göyün üst qatına qaldırdı. Qalanın alınmasından və qılınc qurbanlarının həm əsilzadələrdən, həm də qara camaatdan olanların çölə qovulmasından sonra müsəlmanların sığınacaq tapdıqları o divarlararası ərazini əhalidən boşaltdılar, özləri isə pusqularda və keçidlərdə oturdular.

Bu heyrətamiz hadisələr baş verəndən sonra İşpoxdurun təkəbbürü və lovğalığı daha da artdı. O, Qarabağ və İrəvan hakimlərinə elçilər göndərib onları itaətə çağırdı, qalaları və bütün ərazilərini təslim etməyi istədi. Qarabağ və İrəvan hakimləri zahirdə əlahəzrət şaha itaət və qulluq etmək yolunu tutsalar da, batində öz xidməti vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq və başısoyuqluq göstərirdilər. Bu məqamda şahənşah Xorasanı ələ keçirməyə məşğul olurdu ki, ərşəbənzər taxtın ayaqları altında duranlar həmin xəbəri ona ərz etdilər və bu xəbər müqəddəs Məşhədi-Rəzəvinin alınması müjdəsi ilə üst-üstə düşdü. Yazıldığı kimi, nəvvab Naibüssəltənə böyük ordu ilə dərhal Azərbaycana yürüş etməyə tələsib İrəvan qalasını mühasirəyə aldı. Allahül-məlikül-mənnanın köməyi ilə bu əhvalat tezliklə qələm vasitəsilə təsvir ediləcək və onun incəlikləri bəyan olunacaqdır.

---

[1]Miladi təqvimilə 14 yanvar 1804

### *Mehdiqulu xana İrəvan camaatını köçürmək tapşırığının verilməsi və onun dəstəsinin Firiduntəkin şahzadənin xidmətinə varması*

Nəvvab Naibüssəltənə *səfər ayının on dördündə* ordusu ilə Təbriz darüssəltənəsindən İrəvana yola düşdü. İrəvan qalasının yarım fərsəxliyində Zəngi çayının kənarına çatan kimi ləngimədən möhkəm səngər qurdular. Qalaya daxil olan gün oranın sakinləri ilə həmahənglik yaratdılar və top-tüfəng sədaları məscidin firuzəyi rəngli günbəzin üstündən göylərə qalxdı. Nəvvab Naibüssəltənənin ürəyi həmişə ölkənin yenidən qurulması və ərazilərin abadlaşdırması üçün döyünürdü. O, hərtərəfli məsələni araşdırıb tələb etdi ki, İrəvanın rəiyyətləri və malqarası hökmdarın ucu-bucağı bilinməyən mərhəmətinə pənah gətirsinlər, onları tam əmin-amanlıq şəraitində yeni məkana yerləşdirsinlər və müzəffər ordunun hücumundan mühafizə etsinlər. Buna görə iki ali dövlət arasındakı razılaşmaya, yekdillik və dostluq mərasimlərinin davam etməsinə, birlik və ittifaq qaydalarının möhkəmlənməsi istəyinə əsaslanaraq Osmanlı vilayətlərinin sərhədyanı hakimlərindən, həm də yaxın və uzaq məntəqələrin paşalarından İrəvan vilayətinin elini və malqarasını tələb etdi. Şahzadə Mehdiqulu xan Dəvəlu-Qacarı altı min yaraqlı süvari ilə Qars tərəfə göndərdilər ki, onlara qarşı ənənəvi mərifətini və mülayimliyini nümayiş etdirərək onların canlarına üfüqlər sultanının lütf ilə kəraminin ümid toxumunu salsın. Onların köçməkdən imtina etmələri halda və bu işdə qarşılıqlı anlaşma əldə olunmadığı təqdirdə onlarla iti qılıncın dili ilə danışsın, qadın və kişi xeylaqdan olanları əsir edib əl-qollarını bağlasın, onların mallarını

qarət və tarac etsin. Mehdiqulu xan o yanlara gələn kimi oranın paşaları ixlas və sədaqət qədəmləri ilə irəli gəlib ona layiq xidmət etməyə hazır olduqlarını bildirdilər, Kəngərlu və Qacar ellərini köçürüb malları, mal-davarı və qaramalı ilə birlikdə Mehdiqulu xanın ixtiyarına verdilər. O, bunları düzüb İrəvana yolladı. İşpoxdur iyirmi min odlu silah tutan piyadası, beş-altı min atlısı və otuz lülə topla İrəvanın Pənbək mahalında Mehdiqulu xanı və onun döyüşçülərini tutmaq üçün pusquda durdular. Qaniçən ordu dəstə-dəstə mal-davarı və qaramalı sürməkdə olarkən Mehdiqulu xan xidmətində olan yeddi yüz nəfər süvari ilə Yəcuc səddinə dirəndilər. Rusiya döyüş avazını çaldı və qorxunc selə əngəl oldu, ordunun qalan hissəsi isə tayfa-qəbilələri ordugaha çatdırıb özü də orduya qoşuldu.

### *İşpoxdurun irəvanlı Məhəmməd xanın imdadına yetməsi və Xaqanın ordusu ilə vuruşması*

İşpoxdur İrəvanın Pənbək mahalında bir neçə gün dayandı və oradan *rəbiüləvvəl ayının sonlarında bazar günü axşam vaxtı* böyük izdihamla hay-küy salıb öz qürur yükünü qaldırıb apardı. Rus ordusunun bir dəstəsi o tərəflərə daxil olarkən kilsə ətrafının boş olduğunu güman edərək oraya yaxınlaşdılar. Orada olan müzəffər ordunun bir neçə piyada əsgəri əllərində tüfəng tutub sakitcə durmuşdular və həmin anda divarın yanında tüfənglərini onların ürəklərinə açıb bir neçəsini yaralı, bir neçəsini isə cansız hala saldılar. Müzəffər ordunun qarovulçuları bu xəbəri nəvvab Naibüssəltənəyə çatdırdılar. Həmin vaxt günəşin batmağına yaxın idi. Nəvvab Naibüssəltənə qoçaq, hər şeydən agah və dünyanın pənah gətirdiyi sarayın fədailərindən

olmuş Əliqulu xana bir neçə igid döyüşçünü götürüb, Üçkilsə civarında pusquda durub rusların hərəkətlərini izləməyi tapşırdı. Həmin güruh səhər açılanadək gözləri yolda, qulaqları səsdə oldular və bircə an belə asudə qalmadılar. Bazar ertəsinin səhəri dünyanı lərzəyə salan ordunun süvariləri ilə piyadaları cürbəcür silahlarla yaraqlandılar. O gün iki səngər boşaldığına görə güman etdilər ki, İrəvan qalasının sakinləri fürsəti qənimət bilib qəflətən öz əyri gözlərini orada qalan şey-şüyə sala bilərlər. Nəvvab Naibüssəltənə ehtiyatı əldən verməyərək Təbriz ilə Marağa hakimi Əhməd xan Müqəddəmin vəziri Mirzə Məhəmmədşəfini piyadalardan və atlılardan ibarət bir dəstə ilə səngərlərin mühafizəsinə təyin etdi. İslam ordusunun hissələri tutduqları mövqedən hərəkətə keçib nəvvab Naibüssəltənənin göylərə ucalmış bayrağının kölgəsi altında toplanıb sağ və sol cinahlardan döyüş meydanına tələsdilər. Hərbi təbillərin səsi və neylərin avazı Yer kürəsini lərzəyə gətirdi. Rus sərdarı İşpoxdur Üşkilsə həndəvərində şahzadənin bu yürüşünü görüncə səflərin düzülüşünə və sıraların nizamlanmasına məşğul olmağa atılıb əjdəha kimi qorxunc toplarını və pələngvari piyadalarını üç qalada yerləşdirdi ki, hər qala o birisindən iki yüz addım aralı dayanmışdı. O özü isə cəhənnəm odunu püsgürən topların arasına şölə kimi əyləşdi. İki ordu üz-üzə gələn kimi ilk məqamda Rusiya dünyanı titrədən toplarını hərəkətə gətirib Əlbürz dağını yarmağa yarayan güllələri atmağa başladı. Odpüskürən tüfənglərin gurultulu ildırımının şölə qığılcımları göyün üst qatına çatmışdı. İslam ordusu bu halı müşahidə edərkən Naibüssəltənə vəlxilafətin fərmanı ilə sıra-sıra hərəkət etməyə başladı. Şahsevən, xocavənd və əbdülməliki tayfalarının süvariləri öz sırasından ayrılıb səlsəl sürətilə öz

səmənd atlarını atəş açmış o üç qaladan birinin üstünə sürdülər. Rus qoşunu üç tərəfdən top-tüfəng güllələrini dolu kimi onların üstünə yağdırdılar. Döyüş mərəkəsinin süvariləri atlarını bu atəş şölələrinin arasından sürüb qantökən qılınclarının tiyəsi ilə qanı düşmənin təpəsindən uca göyün ən üst nöqtəsinə fışqırtdılar. Top-tüfənglərinin çaxdıqları ildırımdan və yaydıqları tüstüdən döyüş meydanı gah işıqlanan, gah da qaranlıqda batan oldu, qəzəbli pələngə bənzəyən rus piyadalarının ayaqları altından yer qaçdı və onlar bir qaladan o biri qalaya atıldılar. Müzəffər ordu o dəstənin qoyduğu yeri qarət və talan etməyə əl atdı, bir neçəsini də tutub yaxaladı. Vuruşmanın çətinliklərini və döyüşçülərin ələ keçirilməsini görən İşpoxdur böyrü üstə yıxılıb hər dəqiqə işarə verib piyadalarını səy etməyə çağırırdı. Günortanın hökmdarı qərb xəlvətxanasına tərəf meyil göstərəndən sonra zülmət pərdəsi bəsirət sahiblərinin gözləri önündə bir maneəyə çevrildi. Bu vaxt nəvvab şahzadənin göstərişi ilə islam ordusu vuruşmaqdan əl çəkdi və dava-dalaş meydanından çıxıb dincəlmək üçün öz sığınacağında mövqe tutdu. İki tərəfin arasında bir çox yaralı və ölü qalmışdı. Rusiyanın və atlı qazaqların bir dəstəsi əsir düşmüşdü. Üç gün ard-arda tərəflər vurub-qırmağa məşğul oldular. Fəthə şahidlik etmək heç kimə qismət olmadığına görə hər iki qoşun öz ordugahına çəkilib tədarük etməyə başladı. Qüruru başından aşan İşpoxdur ki, özünü zəmanənin igidləri siyahısının başında görürdü və bu səfərin başlanğıcında rus imperatoruna məktub yazıb İrəvanı istila etməyi öhdəsinə almışdı, işin gedişatını müşahidə edərkən sarsıntı keçirtdi və döyüş meydanından çəkilib ümidsizlik dişləri ilə barmaqlarını gəmirməyə vadar

oldu. İslam ordusunun qəhrəmanları isə kin pusqusunda və ədavət marığında durdular.

### *Vəzir Mirzə Məhəmmədşəfinin təşviqi ilə İrəvan bəylərbəyi Məhəmməd xan Qacarın itaətə gəlməsi*

Canına qorxu girdiyindən şər və yamanlıq qüvvələrinin köməyi ilə bu ədavətin alışmasına səbəb olmuş İrəvan bəylərbəyi Məhəmməd xan Qacar özünü cəhənnəm odunun odununa çevirmişdi. Lakin sonradan peşmanlıq barmağını düz seçim dişləri arasına salıb, qəflət məstliyindən ayıq və nadanlıq yuxusundan oyaq olub sədaqət ilə səfa səmtinə döndü və itaət ilə vəfa yoluna qədəm qoydu. O, dərgahda oturanlardan misli görünməmiş vəzirin qalaya buyurmağını istədi, onda olan xof atəşini dövranın Asəfinin oxuduğu moizələrin və təskinliyin pak suyu ilə söndürməyi rica etdi, əməllərinin və hərəkətlərinin qəbahətinə göz yummağı və üstünü güzəşt pərdəsi ilə örtməyi dilədi, günahların əfv olunmasından sonra tam arxayınlıqla yüksək mənsəbli hökmdarın xidmətinə can atıb onun hüzuruna gəlməkdən feyziyab olmağını arzuladı. Vəzir Mirzə Məhəmmədşəfi qalada onunla görüşüb kamına çatmış şahənşahın axırı görünməyən mərhəməti və nəvvab Naibüssəltənənin sonu bilinməyən rəhmi ilə mükafatlandırılacağına ümidvar etdi və ordugahına qayıtdı. Cənab vəzirin ordugahına gəlişindən sonra Məhəmməd xan öz oğlunu peşkəşlərlə Naibüssəltənənin xidmətinə yollayaraq onun qulluğunda canfəşanlıq göstərəcəyini öhdəsinə aldı.

### *Rus qoşununun İrəvan qalasının üzərinə yürüşü və qala əhalisi ilə müharibə etməsi*

Nəvvab Naibüssəltənə səngərdən köç edib Qırxbulaq mənzilində əyləşdi. İşpoxdur Məhəmməd xanın xoşbəxt dövlətin başçılarına boyun əydiyini eşidib və onun uca səma astanının xadimlərinə nə cür itaət etdiyindən xəbərdar olub bir yerdə qərarlaşa bilməyərək heyrət və iztirab içində qalmışdı. O, öz işini hiylə ilə kələk üzərində qurdu və bir səhər qəflətən onunla nəvvab Naibüssəltənənin ordugahı arasındakı yola çıxdı. Bu hərəkəti müşahidə edən şahzadə özünün "səhra gözəli" dəvəsinə mindi. O gün ordu əmirləri dava-dalaşla bağlı düşüncələrini kənara qoyub istirahət çadırında dincəlməkdə idilər, ordu əhli isə minik və yük heyvanlarını ətrafdakı çölə buraxmışdılar. Tələm-tələsik atlıdan-piyadadan əlinə keçənləri yığıb və dərin dərənin qarşısında sıralara düzüb ordugahın kənarında döyüşün başlanmasını elan etdi və top-tüfəngdən atəş açdı. Nəticədə rus qoşunu daha cəld və çevik hərəkət etdi, islam ordusu isə şey-şüyün qorunması haqqında düşünməli oldu. Üstəlik qazaqlardan və şəmsəddinlu tayfasından ibarət müxtəlif silahlı dəstələr nəvvab Naibüssəltənənin ordugahına daxil olub fürsətdən istifadə edərək malları qarət etməyə başladılar. Sarsıntı keçirmiş döyüşçülər ordugaha qayıdıb ağruğu aparmağa cəhd etdilər və İrəvanın şərq səmtinə yollandılar. Nəvvab Naibüssəltənə nizə ilə bir neçə düşməni yaraladı, lakin bu əməl böyük fayda vermədi. Rus ordusu arxadan İrəvan şəhərinə tərəf hərəkət edib oranın boş qalmış ən hündür məscidinə tökülüşdülər. Onlar hər yerdə səngərlər qurub top-tüfənglərilə misli görünməmiş qovğaya girişdilər. Qala əhalisi bürclərə və divarlara toplanıb döyüşə amadə vəziyyətdə dayandılar və arada əjdəha kimi od püsgürən toplarını yerləşdirdilər. Nəvvab Naibüssəltənə İrəva-

nın Sədərək mənzilində qərarlaşıb ordu adamlarını çəm etməyə məşğul oldu. O, eyni vaxtda padşahın dərgahına işin gedişatı haqqında xəbərləri ərz edib döyüş tədarükü haqqında düşünürdü. Qala əhalisinin imdadına çatmaq dərdi onun rahatlığına haram qatmışdı.

### *Şahənşahın müzəffər bayraqlarının İrəvan üzərinə dönməsi və islam ordusunun Rusiya qoşunu ilə müharibə etməsi*

Bu xəbər Çəməni-Sultaniyyədə səma kimi uca dərgahın guşənişinlərinə çatdı. Rusiyaya qarşı müharibə etmək üçün qələbə çalan ordu ilə hərəkətə keçdi. Həzrətə yaxın olanlardan İsmayıl bəy Damğanini Xorasan igidləri ilə irəli göndərdi. Bir neçə günə Arazdan keçib İrəvanın üç fərsəxliyində Naibüssəltənənin ordugahına öz xoşbəxt gəlişi ilə nur saçdı. O məkanda iki gün dayanandan sonra nəvvab Naibüssəltənə Cəmşidtəkin Xaqana rusla dava etmək tələbini irəli sürdü. Fəriduna bənzər Dara ordunun qəhrəmanlarından və qorxmaz cəngavərlərindən ən yaxşılarını seçib düzdü və Naibüssəltənə başda olmaqla irəli yolladı. O cənabın ardınca isə arzusuna çatmış hökmadrın fateh bayrağı göylərə ucaldı və rus ordusunu bir anda səngərlərdən çıxarıb sürüdü. O güruh uca məscidin divarlarını özləri üçün hasara çevirib orada sığındılar və tüfənglərdən atəş açdılar.

Xülasə, o gün sultan ordusunun piyadaları ilə atlıları nəhayətsiz səylər göstərdilər. Aralarında vuruşma axşamadək davam etdi. Hər iki tərəfdən çoxlu ölən və yaralanan oldu. Bir dəstə də əjdəha kimi döyüşən qələbə rəmzli qazilərin əlinə keçdi. Gecənin zülmət bayrağı görünən kimi tayı-bərabəri olmayan Xaqanın şərəfli qoşunu döyüşməkdən əl çəkib öz düşərgəsinə qayıtdı.

### *Ordunun bir hissəsinin İrəvan qalasına yollanması*

İrəvan qalasındakı bürclərlə divarlarını mühafizə edənlərin əksəriyyəti o tərəflərin ermənilərindən ibarət olduğuna görə onların qalabəyinə etibar etmirdilər və Məhəmməd xan da qaladan həmin mətləbi uca taxtın payalarına ərz etmişdi. Bu səbəbdən düşmənəzən Xaqan bürclərlə divarları hifz etməyi kirmanlı döyüşkən piyadalara tapşırdı. Rus ordusu öz səngərindən görürdü ki, zəfərçalan ordunun hissələri gün ərzində qalanın bir səmtindən o möhkəm istehkama daxil oldular və əlahəzrət hökmdarın dilindən nəvazişlər, afərinlər və tərifləmələr eşitmək şərəfinə layiq görüldülər, qala əhlinin şadyanalığı isə göyə qalxmışdı.

### *Rus qoşununun fələk kimi əzəmətli ordugaha gecə vaxtı basqın etməsi*

Xaqanın ordusu çəməndə istirahət etdiyi gecənin ortasında rus qoşunu basqın etmək əzmilə bir neçə lülə topu götürüb hərəkətə keçdi. O gecənin qaranlığında Keyvan məqamlı Xaqan qulamların yüzbaşısı Həsən xanı bir dəstə ilə rus səngərləri ətrafında qarovul çəkməyə təyin etmişdi. Həsən xan fərasəti və uzaqgörənliyi ilə şöhrət qazanmışdı. O, həmin gecə onların hərəkətindən dərhal agah oldu. Rusiya zəfərin pənah gətirdiyi ordunun oturduğu yeri tanımadığına görə yürüşün başlanğıcında səhvə yol vermişdi və üzünü gah sağ yana, gah da sol tərəfə çevirirdi. Həsən xan qulamlar və döyüşkən süvarilər dəstəsi ilə o güruhun niyyətini bilmək üçün onların arxasınca düşdü. Sübhi-sadiq öz işıqlı bayrağını hava çarxının damında qaldıranda rus

ordusu düşərgəyə yönəldi. Onda Həsən xan oradan bir atlını təcili surətdə qaldırdı və Əfrasiyabvari Xaqanı onların niyyətlərindən agah etdi. İslamın pənah gətirdiyi xosrov atlara minmək əmrini verdi. Bu halda rus qoşunu humayun ordugahın kənarındakı təpəyə qalxıb bir saat həmin təpədə dincəldi, ardınca top mərmilərini atmağa başladı və ayağını döyüş meydanına möhkəm basdı. Hadisələrin bu cür gedişatını öz qeyrətinə sığışdırmayan sultan müzəffər ordusunu hücuma göndərib onlara qəhrəmancasına zərbələr endirdi və rus qoşunundan bir çox adam qələbə ilə yoldaş olan ordunun mərdanə həmlələri nəticəsində yaralandı və öldü. Bundan sonra ümidini kəsmiş rus qoşunu məyus halda döyüş meydanından üzünü öz səngərinə tutdu, islam ordusu da onun arxasınca düşüb bahadır qolunu düşməni əzməkdən ötrü uzatdı. Bunun ardınca Cəmtəkin hökmdar qəhrəman ordunun piydalarına və atlılarına o güruhu yox etmək əmrini verdi. Qiyamət əlamətli ordu onların qaldıqları səngərləri əhatə edərək azuqənin gətirilməsi yolunu kəsdilər və oraya gedib-gələnləri tutub hamısını amansız qılıncdan keçirdilər. Qəza nişanlının əmrinə əsasən rahatlığa və asayişə nifrət edib yuxu casusunu göz bəbəyindən qovdular. Onlar ayıq-sayıq olmanın qaydalarına əməl edərək davanın əsas keçidlərində oturub o güruhun gediş-gəliş yolunu kəsdilər. Əhvalatın bu anında Gürcüstandan və Tiflis mahalının müamilə və ticarət sahiblərindən böyük dəstə bir neçə rusla, habelə pul və çox bahalı mallarla öz diyarlarına gedirdi. Onlar səngərə yaxınlaşarkən Əli xan Qacarın və Əliqulu xan Şahsevənin sərkərdəliyi altında hərəkət edən cəngavər qarovulçular ilə rastlaşdılar. Tüfənglər bir-birinin üstünə tuşlandı və əcəl müjdəsini qulaqlara söylədi. Hər iki tərəfdən həlak olanlar yerə sərildəndən sonra Əli xan və

Əliqulu xan zəfərşüar dilavərləri ilə sağdan və soldan hücuma keçdilər, onların hamısını əsir edib mallarını, yük heyvanlarını və pullarını ələ keçirtdilər, boyunlarını və qollarını buxovlayıb saraya gətirdilər. Ordugahın ərazisi gürcü və rus pəriüzlülərin çöhrələrinin parıltısından səmalardakı bağa bənzədi və kamına çatmış hökmdar o belləri nazik, saçları müşk saçanların içindən bir neçəsini seçib öz qulamlarına verdi. O tayfadan bəziləri azuqəni Gürcüstandan oraya və oradan onların ordugahına daşıdığına görə əlahəzrət Pirqulu xanı bir dəstə düşmənovlayan igidlə onların üstünə göndərdi. Pirqulu xan özünün uğurlu qoşunu ilə gözlənilməz bir bəla kimi onların başına endi və oranın rusları bu macəradan İşpoxdura xəbər verdilər və ondan kömək dilədilər. Bu xəbəri eşidən kimi cin başına vurdu və o, ordu başçılarını toplayıb cəsurluqda və bacarıqda şöhrət qazanmış ən məşhur döyüşçüləri seçdi, onlara bir neçə lülə top ayırdı, sursatı gətirməyə göstəriş verdi və Pənbək sakinlərinin köməyinə göndərdi. Xaqan əlahəzrətləri də digər tərəfdən Əliqulu xan Şahsevəni təyin etdi. Əliqulu xan tez ata minib Pirqulu xanın yanına tələsdi və onu rusların hərəkətlərindən agah etdi. Qərara gəldilər ki, Pirqulu xan da o tərəfdən hərb bayrağını qaldırsın. Xülasə, Əliqulu xanla Pirqulu xan irəli cumub Pənbəklə İrəvan arasında ruslara çatdılar və hamısını ova mal elədilər. İki yandan döyüş şöləsi alovlandı və azacıq səy göstərib onları sıradan çıxartdılar. O tayfadan bircə nəfər belə canını qurtara bilmədi. Bəziləri əsir oldular, bəziləri də ələ keçdilər. Qalib gələn və zəfər çalan islam ordusu öz düşərgəsinə qayıtdı. Humayun ordugahın qarşısında rusların böyüklərindən və ordu başçılarından bir təpə düzəltdilər.

O[1], ordusundan dörd minə yaxın döyüşçünün düşmən-ovlayan şirlərin əlindən öldürüləndən və ya əsir düşəndən sonra *rəbiüssani ayının əvvəlində* İrəvan qalasının kənarından köçüb Tiflisə yollandı. Zəfərin pənah gətirdiyi sipahın qarovulçuları da onun arxasınca düşüb təqib etdilər və çoxlu qənimət aldılar. Həqiqətən də əlahəzrət nəvvabın bu səfərdə çəkdiyi zəhmət, etdiyi fikir, gördüyü tədbir əvvəlki dövrlərin hökmdarlarından heç birində görünməmişdi. Dövranın aqilləri onun bu hərəkətlərini bəyənərək afərinlər söyləmişdilər. Məlumdur ki, nizamsız qoşuna ürək açan qələbə və xatirələrdə qalan iş müyəssər olmaz və o vaxtlarda İran ordusunda və islam əhlində nizamsızlıq hökm sürürdü. Bu dəfə İşpoxdur rus ordusuna şücaətli və nizamlı əsgərləri və igidləri seçmiş, özü də elə misli görünməmiş rəşadət göstərmişdi ki, bütün Firəngistanda[2] ondan cəsur və qabiliyyətli tapılmazdı. Ancaq bununla belə, nizamsız İran ordusu iki aya yaxın onların qarşısında səf bağlayıb dayanmışdı və xoşbəxt Xaqan qırx gün belindəki kəmərini açmayıb, istirahət üçün yanını yerə qoymayıb o camaata vuruşub qırılmaqdan başqa heç bir şey və heç bir iş təklif buyurmamışdılar, dincəlməyi və bir yerdə qərar tutmağı özlərinə haram bilmişdilər. Şübhəsiz ki, Cənab Əhədiyyətin buyuruğu ilə dünyanı əlində saxlayanların fəthlərinin və iftixarının mayasını təşkil edən belə səbrin əvəzinə qeyb pərdəsinin arxasından qələbə zühur edəcəkdir.

İrəvan hakimi Məhəmməd xan Qacar, Kəlbəli xan Kəngərlu və Rusiyanın mühasirəsi məngənəsində qalmış İrəvan qalasının digər sakinləri məlikin və hökmdarın əzmi və

---

[1]Yəni Sisianov

[2]Yəni Avropada

qüdrəti sayəsində bu ağır təzyiqdən və toplarla qumbaraların atəşindən və gurultusundan xilas oldular. Onlar ehtiyac üzlərini Xaqanın dərgahına çevirib alınlarını ədalət astanının torpağına qoydular. Bu əhvalat xoşbəxt hökmdarın qulağına çatandan sonra onlar şəhriyarın hədiyyələrini almaq şərəfinə nail oldular.

Bundan sonra payızın yetişməsi və yarpaqtökən fəslinin gəlişi səbəbindən dövranın Xaqanı cilovu səltənətin taxtgahına tərəf çevirdi və qafilə Təbriz yolu ilə Tehran darüssəltənəsinə doğru yola düşüb *rəcəbülmürəccəb ayının on dördündə* xilafətin mərkəzinə çatdı.

### *Nəvvab Naibüssəltənə vəlxilafətin Azərbaycan məmləkətində ruslarla müharibəyə məmur olması*

Ölkə Xaqanı keçən il İrəvan səfərindən qayıdan nəvvab Naibüssəltənəni xilafətin qərargahında və səltənətin mərkəzində qoymuşdu ki, gələn il yeni nəfəslə ruslarla davaya yollansınlar. Naibüssəltənənin cavanlıq həvəsi ilə və kamranlıq havası ilə səfər əzmində olduğunu görən hökmdar böyük mərhəmətlə icazə verdi ki, şahzadə Tehran darüssəltənəsində olarkən yola çıxmaq istədiyi vaxtda əvvəlcə əylənmək və ova məşğul olmaq üçün Loristan tərəflərə getsin. Naibüssəltənə isə müzəffər qafilənin bu gəzintisinin dayandırılmasını və Azərbaycana yola düşüb rusla döyüşməyi özünə məxsus himmətlə tələb etdilər. Ölkə Xaqanı Naibüssəltənənin sözünü razılıqla qarşılayaraq o cənabın iltimasını yerinə yetirməyə səy göstərdi və onları Azərbaycan səfərinə məmur etdi. Naibüssəltənənin qafiləsinin hərəkətə keçməsindən və cəlalətlə Tehran darüssəltənəsi qalasının xaricində yerləşməsindən sonra

mərhəmətli Xaqan əziz oğlunun ordugahına dəyərli qədəmini basdı. O biri gün nəvvab Naibüssəltənə o cənabın Azərbaycan səfəri qafiləsində yer almağa təyin olunmuş bütün əmirlər və xanlarla birlikdə əzimət bayrağını Azərbaycana tərəf qaldırdılar.

Keçən il Tehran darüssətənəsinin işlərini nizama salmağa məmur olunmuş və günəş ətrafında aypara kimi dövr edən Mirzə Büzürg ləqəbli vəzir Mirzə İsa tac sahibinin əmri ilə bu səfərdə alirütbəli şahzadənin rikabında zabit yerini almışdı.

*Səfərül-müzəffərin iyirmi dördündə* şahzadə Çəməni-Sultaniyyəni izzü şanı ilə müşərrəf etdi və bir neçə gün orada qalandan sonra qələbə bayrağı Azərbaycan istiqamətində qalxdı. Dünyanı fəth edən bayraqların hərəkəti zamanı aləmin pənah gətirdiyi dərgahın seçilmiş qulamlarından olan İsmayıl xan Damğani bir dəstə igid və hünər sahibinə nəvvab Naibüssəltənənin qafiləsinə qoşulmağı və onun əmrinə tabe olmağı buyurdu. Dünya qədər geniş qafilə hərəkət edərkən arzusuna çatmış Naibüssəltənə Zəncanda əziz qardaşı şahzadə Əli xana Sərabdan Miyanəcə gəlməyi əmr etdi. Nəvvab Naibüssəltənə vəlxilafət Xaqanın təlimatına əsasən Miyanəcdəki mənzilindən Mehdiqulu xan Qacarı qələbə nişanlı hərbi hissə ilə İrəvana göndərdi. Belə qərara alınmışdı ki, əgər Məhəmməd xan Rusiya və Cəfərqulu xanla əlaqədə olmaqdan ibarət köhnə adətindən vaz keçib sədaqətlə xidmət etməyə başlasa, Mehdiqulu xan ona dəstək versin və onun hərbi qüvvəsini artırsın, əks halda isə onu valilikdən uzaqlaşdırıb özü vilayətin rəhbərliyinə məşğul olsun və vilayətin işlərini qaydaya salsın. Xoy hakimi İsmayıl xan da onunla bərabər getmək tapşırığını aldı.

*Nəvvab Naibüssəltənəyə din ilə dövlət və mülk ilə millət yolunda Tanrının razılığı müyəssər olmasına səbəb olmuş şanlı əməllər haqqında*

Bir vaxt olub ki, islam ordusu ətraf padşahları əzib, onların məmləkətlərinə zərbələr endirib ayaq altına salmışdı. O zamanlar dinin zülalı haqq və yəqin çeşməsindən axıb müsəlmançılıq nuru ilə yaxın və uzaq, türk və tacik millətlərinin könlünü işıqlandırmışdı. Peyğəmbərlik və hidayət günəşi başına qərb hicabını çəkəndən sonra hələ bir müddət səhabələr qoşunlarını qonşu ölkələrə göndərib qalaları və diyarları fəth edirdilər. Lakin bunun ardınca süstlük və etinasızlıq qəlblərə yol tapdı, nizam-intizam iranlıların əlindən çıxıb avropalılar üçün bir adətə çevrildi, firəng əhli arasında bir qaydaya çevrildi. Ancaq Sultan Hüseyn Mirzə Bayqaranın dövründə Molla Hüseyn Kaşifi Vaiz firəng krallığında işlənməkdə olmuş tüfəngin sxemini İrana gətirdi və onu düzəltməyə başladılar. Lakin adıçəkilən sultanın dövründə rahatlıq, arxayınlıq və durğunluq hərb sahəsinə də sirayət etmişdi. Şah İsmayıl Səfəvi zühur etdi və onun işinin təməlini müridlərin istəyi və ixlası təşkil edirdi. Hazırkı zəmanədə isə “küllü şey yərciü ilə əslihi[1]” müddəası ilə nəvvab Naibüssəltənə o qaydanı İran əhlinin iradəsinə qoşdu və padşahın aləmi bəzəyən dərgahına ərz etdi. Bu hökmlər şahənşahın göstərişinə əsasən Azərbaycan vilayətinin hakimlərinə çatdırıldı, bir azdan isə ölkənin digər məmləkətlərində də yeni nizamın icrasına başladılar.

[1]hər şey öz əslinə qayıdar – hədisdəndir.

Azərbaycanda ən layiqli cəsur cavanlar seçildi, onlara yuxarıdan məvacib, ərzaq payı, paltar və başqa zəruri şeylər buyurdular, xüsusi təyin olunmuş fransalı və ingiltərəli təlimatçılar onlara hərb və döyüş əməliyyatlarından dərs keçdilər. İki il ərzində müzəffər rikab üçün hazırlanmış on iki min təqdirəlayiq əsgər mübarək nəzər qarşısına çıxdı. Onlar çevikliyə, güllə atmağa, nişan almağa, düşmən mövqeyini dağıtmağa, tüfəngi tüstü çıxarmadan doldurub boşaltmağa öyrənmiş, ayaqla yürüməyi elə məşq etmişdilər ki, əgər bir istiqamətə getmək tapşırığını alsalar və on iki fərsənglik yol keçəndən sonra gəldikləri mənzildə təsadüfən düşmənlə toqquşsalar, yorğunluğu bəhanə gətirməyib yağı üzərinə hücuma keçsinlər və zəfər çalsınlar. O günlərdə lüləsi bir qəlibdən və tamamilə eyni şəkildə və quruluşda düzəldilmiş altı min tüfəng İngilis məmləkətindən gəlmişdi. Qərara gəldilər ki, İran cəbbəxanasının tüfəngsazları həmin tərkib və quruluşda tüfəng düzəltməyə başlasınlar və qısa vaxtdaİran ustalarının səyi ilə  iyirmi minə yaxın odpüsgürən tüfəng hazırlandı. O vaxtdan bizim günlərədək ustalar bu işə məşğuldurlar və o növ tüfəngdən savayı nümunəsi Rumun karxanalarında düzəldilən əntiqə tüfənglər ki, yeddi yüz addımdan və min addımdan nişan vururlar, padşahın qulluqçuları və tüfəngçiləri üçün qayırılmışdı. Onlar keyfiyyət baxımından Rum tüfənglərindən geri qalmır. Rum barıtxanaları tərzdə barıtxanalar da tikilmişdi və orada gündə üç xarvara[1] yaxın barıt əmələ gəlir. Bu sənayenin təşkilində qənaətə yol verilməmişdi. İranlı ustaları İngiltərəyə göndərdilər, onlara məvacib təyin olundu və onlar dörd-beş ildən sonra geri qayıtdılar. İndi İranda çaxmaq, tüfəng və digər döyüş avadanlığı iranlı ustalar

[1]Xarvar – təqribən 300 kiloqrama bərabər çəki vahidi.

tərəfindən düzəldilir. O ustaların məharəti ingilisinkindən də əladır.

Yeni nizamın əsas dayaqlarından biri həmçinin topların istehsalı və iranlıların top atma məşqləri idi. Həzrət Naibüssəltənə İngiltərədən və Fransadan çevik və mahir topçuları gətizdirdi, cəsur, qeyrətli, qayda bilən cavan topçulardan seçdi və məşqlərə başladılar. Firəngsayağı toptökən kürə tikdirdi və əvvəldən bu günədək yüz lüləyə yaxın qaladağıdan və dünyatitrədən top həmin kürədən çıxdı. İranlı ustaların səyi ilə bu iş tamam oldu. Topları arabalara yerləşdirdilər, Nadir şahın nadinc əfqanlarla müharibədə yüz nəfərlə apardığı və iyirmi-otuz nəfərlə doldurduğu topu boşaltdılar. Hal-hazırda beş-altı nəfər topçu və dörd baş dağvari, filbədən at istədikləri tərəfə çevirə bildikləri topu döyüş meydanına çıxarırlar. Topçular cidd-cəhdlə bütün topatma məşqlərini yerinə yetirib böyük məharət və çeviklik nümayiş etdirərək bir dəqiqədə topu yeddi dəfə doldurub boşaldırlar və bir an içində qoşub havaya atəş açırlar. Topçubaşıdan, onun müavinindən və topxana atlarına qulluq edənlərdən savayı min nəfərə yaxın topxana xidmətçisi məvacib və at yemi alırlar. Ondan əlavə topxana atlarını da onlara layiq qiymətə alıb top arabalarına qoşurlar. Bütün yuxarıda qeyd olunanlar asan başa gəlmir və bu irihəcmli işləri yerinə yetirmək üçün böyük xəzinələr xərclənməlidir.

1232-ci ildə rus dövlətinin Gürcüstandakı sərdarı Yermolov İran və Rus dövlətləri arasında sülh bağlamaq üçün töhfələr və hədiyyələrlə dünyanın pənah gətirdiyi dərgaha gələndə Təbrizdə Naibüssəltənənin yanında topxanaya baxıb tamaşa etməyə müşərrəf olmuşdu. Çevikəl topçular topatma məşqi göstərdilər və adıçəkilən sərdar onlara baxıb etiraf etmişdi ki, Firəngistanda topçular o dərəcədə cəld və

çevik top atmağı bacarmırlar. O ərz etmişdi ki, onlar ədəb gözləmək, çeviklik və cavanlıq baxımından firənglərdən bir neçə mərtəbə üstündürlər.

Rum padşahı Sultan Səlim də yeni nizama keçməyə böyük və nəhayətsiz səy göstərdi, ancaq Rum məmləkətlərini belə rahat və davamlı surətdə bu qaydaya gətirmək ona müyəssər olmadı. Yeniçərilər üsyan qaldırıb həzrəti səltənətdən uzaqlaşdırdılar və yerinə Sultan Əibdülhəmid xanın oğlu Sultan Mustafanı gətirdilər və həmçinin bu yeni qaydanın əsasını qoyan Hacı İbrahimi bir dəstə dövlət məmuru ilə tutub qətlə yetirdilər. Həzrət Naibüssəltənə isə Allahın köməyi və padşahın göstərişi ilə bu işə qayət böyük əhəmiyyət verib cidd-cəhdlə yeni nizamın təsis edilməsi yolunda çalışdılar və dəlil-nəsihətlə İran əhalisini köhnə adətlərindən əl çəkib yeni qayda-qanunlara keçməyə yönləndirdilər. Süvarilər, piyadalar, əsgərlər və topçular ruslarla müharibəyə atılıb bir neçə yerdə o camaata rüsvayedici xəsarətlər yetirə bildilər. Bundan sonra rus padşahının xahişi ilə iki dövlət arasında sülh bağlandı.

*Hündür qalaların tikilməsi.*
*Birincisi, möhkəm Abbasabad qalasının inşa edilməsi*

*Min iki yüz iyirmi beşinci ildə*[1] nəvvab Naibüssəltənənin əmri ilə Naxçıvanın Yəzdabadında bir üzü Araz çayına, digəri isə səhraya sarı olan möhkəm dayaqlı qala təmir olunmuşdu. Divarları qranitdən, xəndəyi suyla doldurulmuş bu qalanın içərisi cürbəcür arpa-buğda, mərmi-güllə və barıtla doldurulmuşdu. Bürclərin başında toplar yerləşdirilmişdi. Onu vəsf etmək üçün bircə onu qeyd etmək kifayət-

[1]Miladi təqvimilə 1810

dir ki, ali İngiltərə dövlətinin elçisi baronet ser Herford Cons Araz çayının üzərindən qalayadək uzanmış körpünü görəndən sonra heyrətdən barmağını dişləmiş və İngiltərə ilə Fransa arasındakı ədavətə baxmayaraq mesyö Laminin gördüyü bu işin mühəndislikdə tayı-bənzəri olmadığını boynuna almışdı. Adıçəkilən elçi həmçinin belə qalası olan İranın az müddətdə güclü dövlətə çevrildiyini etiraf etmişdi.

### *Əlincəq[1] qalasının təmiri*

Bu qala əzəldən İranın və Azərbaycan üsyançılarının sığındıqları möhkəm istehkamı olmuşdur və Səədi bu cür qalalar haqqında belə xəbər verir:

Qezel Ərslan qəl’eye-səxt daşt
Ke, gərdən be Əlvənd bər mifəraşt.
Nə əndişe əz kəs, nə hacət be hiç,
Çun zolfe-ərusan rəhəş piç-piç.[2]

O zamanlarda onun hovuzları bədxahların gözləri kimi quru, yolu əyri-üyrü, havası isə düşmənlərin ürəyi kimi xarab idi. Hökmdarın səyi sayəsində ora bir dost evi kimi abadlaşdırılmış, dağılan hovuzlar zülal suyu ilə doldurulmuş, öz cəldlikləri və ayıq-sayıqlıqları ilə məşhurlaşmış bəzi mühafizlər o hündür qalanın və möhkəm qüllələrin

---

[1]Əlincəq – Culfanın Xanəgah kəndində yerləşən Əlincə qalası.
[2] Qızıl Arslanın möhkəm qalası olub
Ki, Əlvəndin üstündə ucalmışdı.
Nə bir kəsdən qorxar, nə bir şeyə hacəti,
Yolu gəlinlərin zülfü kimi qıvrım-qıvrım.

başçısı yerinə təyin edilmiş və həmin ərazi güllə, barıt, azuqə və içməli su ilə təmin olunmuşdu.

*Genişsahəli Ərdəbil qalasının tikilməsi*

O da firəng qalalarının layihəsinə bənzər tikilmişdi. Qalanın ətrafında qalan rəiyyətlərin evlərini söküb ərazini hamar etmək lazım idi və divarın əsası çöldən yuxarı olmalı idi. Evlərin sökülməsindən əhaliyə zərər yetişəcəyinə görə onların hamısı sahiblərindən günün qiymətinə alındı və dövlət xəzinəsindən qızıl verildi. Bu yenilməz, uca və qəlbləri riqqətə gətirən qalaya görə bütün rəiyyətlər duaçı olub bu əbədi dövlətə həmdü səna oxuyardılar.

*Gözəl Xoy bölgəsində mətanətli qalanın tikilməsi*

Bu qala da olduqca cazibədar surətdə tikilibdir. Xəndəyi dərindir və hər darvazanın qarşısında yarım fərsənglik xiyaban salınıbdır. O xiyabanların torpağı sahiblərindən qızılla satın alınmışdır, eni isə on dörd zər'dir[1]. Xiyabanın hər iki tərəfindən arx çəkilib və su cərəyan edir. Onların da kənarında torpaq hamarlanıb və yarım fərsəngədək sıra ilə söyüd ağacları əkilib. Onların sırasına tamaşa edəndə göz önünə kirpiklərin düzümü gəlir. Həqiqətən də, bahar çağı qalanın hər yanı yaşıl çəmənliyə dönəndə o ağacların cahcalalı adamı heyran edir və onların kölgəsi xoşbəxtlərin kölgəsi kimi can rahatlığının və asayişin mayasıdır. Darvazalardan şəhərin mərkəzinədək üstüörtülü bazarlar tikilib və ürəkaçan mənzillər düzülüb. Zərurət yarananda onların durduğu torpaq alınıb və qeydiyyata salınıbdır.

---

[1]Zər' – təqribən 104 sm-ə bərabər uzunluq vahidi.

*Azərbaycanın mətanətli qalalarından olan, əmin-amanlıq ilə səadət rəmzinə çevrilmiş möhkəm İrəvan qalası haqqında*

Rus sərdarı qraf İvan Kodoviç[1] seçilmişlərdən ibarət qoşunla və böyük izdihamla qalanın önünə gəlib bir ay oranı mühasirəyə almışdı. Sonda İran igidlərinin zərbəsi, Qacar sərdarı Hüseyn xanın səyi və naxoş olmasına baxmayaraq onun qardaşı Həsən xanın dəstəyi ilə məşhur rus qəhrəmanları dəstəsi taqətsiz hala salınıb yürüş vaxtı qətlə yetirilmiş, bir başqa dəstə isə xəsarət alıb xəstə və əlil olmuşdu. Naibüssəltənə Təbrizdən onun üzərinə gələndə iztiraba və ölümə qərq olaraq İrəvan qalasının ətrafından köçüb Gürcüstana getdi və zəfərin pənah apardığı ordu onları təqib etdi. Bir çoxu şiddətli soyuq və qar yağması səbəbindən Gürcüstana çatmayıb tələf oldular, bir xeyli hərbi sursat və top ələ keçdi. İnşallah-təala, bu müharibənin təfərrüatları bu yaxınlarda qələmlə bəyan olunacaqlar.

*Darüssəltənə Təbriz qalasının təmiri və ətrafın fransız tərzdə tikilməsi*

İzzət ilə iqbal və hörmət ilə cah-calal mərkəzi olan bu qalanın təmiri üçün zirək işçilər və müdrik mühəndislər

---

[1]Kodoviç – qraf İvan Qudoviç (1741-1820), rus ordusunun ukrayna əsilli generalı. Müxtəlif cəbhələrdə (Fransa. Prussiya, Qara dəniz sahili, Qafqaz) döyüşmüş, Hacıbəy (indiki Odessa), Anapa, Dərbənd, Şəki, Bakı şəhərlərinin işğalına başçılıq etmiş, lakin İrəvanı almaq istəyərkən məğlubiyyətə uğrayandan sonra ordusunu Gürcüstana aparmağa məcbur olmuşdu. Bu uğursuzluq onu ruhən sarsıtdığına görə xəstələnmiş və bir ildən sonra istefaya çıxmışdı.

cəlb olunmuş, fəhlələr ilə bənnalar gətirilmişdi. İki il ərzində göylərə ucalan bu qala xosrovlara layiq məharətlə tikilmiş, böyük xirədməndliklə salınmış, xəndək isə heyrətə bais olmuşdu. Xaqanın möhtəşəm qafiləsinin ulduzu Azərbaycan ərazisinə iftixar işığı salmışdı.

*Ucanda bir qəsr layihəsinin hazırlanması və Təbriz darüssəltənəsi qalasının xaricində əbədi qalacaq qəsrin və cənnət bağına bənzər bağın salınması*

Az vaxtda Təbrizdə cürbəcür meyvəsi olan bağ və qeyrət sarayı olan qüsursuz qəsr ortaya gəldi. Həmin illərdə günəşşəkilli bayrağı qaldıran zəfərçalan şahzadələr bu diyarda göylərə ucalmış qəsrlər tikdirdilər: dünyanı fəth edən sultanın qafiləsinin keçdiyi yolda, Miyanə kəndinin kənarında behiştvari bağ, əzəmətli və ziynətli imarət vücuda gəldi. Hər vilayətdən buraya növbənöv ağaclar gətirib həmin bağda əkdirdilər və əmr buyurdular ki, yol boyu mövcud olan körpülər və karvansaralar və həmçinin dağılmış tikililər səy və səliqə ilə abadlaşdırılsın ki, müsafirlər Azərbaycandakı havanın soyuqluğundan, şiddətli qaryağmadan və çovğundan əziyyət çəkməsinlər. Həmçinin hökm gəldi ki, Azərbaycanda zamanın axını və güclü zəlzələlərin baş verməsi nəticəsində yerlə yeksan olmuş hündür binaları təmir etsinlər, eləcə də mülk sahiblərinə tapşırıldı ki, kəhrizləri abadlaşdırıb suyun cərəyanını yaxşı işlərə yönəltsinlər. İşi görmək üçün imkanı olmayanlara sərkardan yardım gəldi və bu hökmün yerinə yetirilməsi su kimi rahat axıb məqsədinə çatdı.

*Məzlumlar gününün təsis edilməsi haqqında*

Ayda bir gün ədalət üçün işi olanlar saray eyvanına ərz edə bilərlər və hər yerdə qanunun hüdudlarını hifz etmək və bir kəsin peyğəmbər şəriətinin yolundan kənara çıxmağına izn verməməkdən ötrü qanun qoruyucuları təyin olunublar.

*Çaparxanalar haqqında*

Bu sultanlıq ərazisindən digər dövlətlərə gedib-gələn və bu vilayətdən keçən əlillərin və bu vilayətin rəiyyətlərinin boynuna heç bir ayrı xərc qoyulmaz, mal-davara, çapar atlarına və pulun ixracına görə rüsum alınmaz, rum və firəng elçilərindən ki, gündə biri gələr, biri gedər və yolda heç vaxt adamlar əskik olmaz – bütün bu yol xərcləri və sərfiyyatı möhtərəm hökmdardan çıxar və heç kimin rəiyyətdən bir "torba" istəməyə və şıltaqlıq edib işgəncə verməyə cürəti çatmaz.

*Mehmanxanalardakı vəziyyət*

Gəlib-gedən qonaqların xərcləri müəyyənləşdirilir və onların sərf etdikləri divan tərəfindən hesablanır.

*Şəriət işlərinin nizama salınması, elm əhlinə, fəqihlərə və bilik adamlarına özlərinə layiq hörmət edilməsi*

Naibüssəltənə, qaimməqam və vəziri-binəzir müctəhidlərin, üləmaların və əmmamə sahiblərinin qarşısında böyük ehriramla baş əyirlər və Naibüssəlttənənin özləri səmimi-qəlblə əksər cümələrdə məscidlərə gəlib cümə namazında hazır olurlar. Şəriət qanununa uyğun olmayan iş etibar

dərəcəsində deyil. Qaimməqam hər cümə axşamı və cümə gecələri fəqihlərlə və əmmamə sahibləri ilə görüşür. Qaimməqamın ixtiyarında cihadın ədəb qaydaları haqqında bir kitab, nübüvvəti və vilayəti isbatlayan ümumi və xüsusi müddəalar haqqında da bir kitab vardır. O, hər bölgəyə və hər kəndə alimlərdən, bilik adamlarından və savad sahiblərindən birini təyin edib ki, avam adamlara cihadın müddəalarını, namazın qaydalarını, camaat arasında ədalətlə və hörmətlə davranmaq adətlərini öyrətsinlər və bu yolla dövlət naminə gözəl işlər görsünlər.

Nizami ordunun əsgərlərlə topçularından, habelə göylərə qədər ucalmış dərgahın Azərbaycan ölkəsindəki peşə sahiblərindən olan fəhlə və qulluqçularından ki, əllərinə silah alıb mücahidlərin sıralarına qoşulublar və adi vaxtda ruzisini almaq üçün işə məşğul olurlar, cavanlardan və qocalardan yüz minə yaxın müsəlləh və mükəmməl olub nəvvab Naibüssəltənənin günəş kimi işıqlı nəzərinin qarşısına çıxdılar. Onlardan ötrü vaizlərlə pişnamazlar təyin olundular ki, ölkələrdə və qəbilələrdə cihad məsələlərini öyrətsinlər, hər diyarın hərbçisini, əsgərini, piyadasını, atlısını, mücahidini şəriətin adətləri və qaydaları ilə tanış etsinlər, camaat üçün gündə beş dəfə namaz təşkil etsinlər və qanunun keşiyində dursunlar.

Nəvvab Naibüssəltənənin əmri ilə Azərbaycan diyarından bir dəstə mühəndis, təbib, topçu, sənətkar və müəllim ingilis padşahının paytaxtı olan London şəhərinə yollanıb bir neçə il orada qaldılar və elmləri, habelə o diyarın adət-ənənələrini öyrənmək üçün cidd-cəhdlə çalışdılar və onların illik məvacibləri Azərbaycandan Londona ötürülürdü. Bundan öncə İran əhlindən olan birisi bu ölkədə Firəng əhlindən olan birisi ilə rastlaşanda onun sir-sifətini və üst-

başını görüb təəccüblənərdi. İranlılar bilməzdilər ki, Firəngdə neçə krallıq var və onların məmləkətləri hansı səmtdədir və hər birinin paytaxtı haradadır. Hazırkı xoşbəxt dövrdə il yarımdır ki, ingilis, fransız və rus camaatından olanlar Hindistandan, İslambuldan[1] və digər yerlərdən gələndə nəfis əşyalarla və qəribə töhfələrlə dünya miqyaslı dərgaha gəlib hörmət və iltifatla qarşılanırlar.

Bu il mühəndislər, təbiblər, sənətkarlar və müəllimlər top-tüfəng düzəltməyi və digər sənət işlərini, o cümlədən rəndələmə, pardaxlama və digər işləri öyrənərək Londondan qayıdıb üzlərini dərgaha tutdular. Elmə yiyələnmək və bilik əldə etmək üçün çəkdikləri zəhmətləri mübarək nəzərdə xoşluqla qarşılandı və onların hər birinə artıqlamasıyla ənamlar, məvaciblər və ehsanatlar paylandı. İngilis təbibləri və sənətkarları da onların qabiliyyətlərini bəyəndilər və həzrət Naibüssəltənə onların bu hüdudlara gəlişindən sonra qərara aldı ki, dərgahın böyüklərinin uşaqları da onların yanında təlim keçib şagirdlik etsinlər və bu yolla dilləri və müxtəlif sənət növlərini öyrənsinlər.

Ən böyük sənətlərdən də firəng üsulu ilə kitab basma işi olmuşdur. Təbriz darüssəltənəsinin qələm və bilik sahiblərindən birinin işi olan hüsn-xətt kitabı çap edilmiş və firəng ustadlarının heyrətinə səbəb olmuşdur.

Bundan başqa Xoy bələdəsində Naibüssəltənənin əmri ilə mahud toxumanın binası qoyulmuş və mahudun toxunması işinə başlamışdılar. Əvvəlki vaxtlarda yerli ustalar nə qədər çalışsalar da, yaxşı mahud hazırlaya bilmədiklərinə görə bu parça Rusiyadan gətirilirdi. İran əhlinin əksəriyyətinin paltarı, əyan-əşrafın, əsgərin və məmurun libası

[1]Yəni İstambuldan

mahudddan olduğuna görə indi ustalar böyük səylə üst-baş işinə məşğul oldular.

Naibüssəltənənin günəş kimi işıqlı rəyi ondan ibarətdir ki, İran əhalisinin heç bir işdə və heç bir sənətdə digər ölkələrə ehtiyacı olmasın, iranlılar üçün zəruri olan hər şey elə bu diyarda hazırlansın və başqa yerdən gətirilməsinə lüzum qalmasın.

*[Nəvvab Naibüssəltənənin yeddi dəfə ruslarla döyüş meydanında qarşı-qarşıya gəlməsi]*

İki dövlət (Rus və İran) arasında min iki yüz otuz ikinci ildə sülh bağlanana qədər nəvvab Naibüssəltənə yeddi dəfə ruslarla döyüş meydanında qarşı-qarşıya gəlib və Aslandüz savaşından savayı ki, onda qələbə müyəssər olmadı, bütün bu davalarda zəfər o həzrətin tərəfində olub və, inşallah-təala, həmin döyüşlərin hamısı haqqında bundan sonrakı fəsillərdə təfsilatı ilə bəhs ediləcəkdir.

*Əvvəlincisi, hicri min iki yüz on doqquzuncu ildə*[1] *İrəvan uğrunda rus sərdarı İşpoxdurla baş vermiş döyüş*

Bundan öncə də qələmin ucundan çıxdığı kimi, cahan şahənşahı özünü vaxtında ölüm-dirim savaşına yetirərək o güruhu tamamilə darmadağın etmişdi.

*İkincisi, hicri min iki yüz iyirminci ildə*[2]

[1] Miladi təqvimilə 1804
[2] Miladi təqvimilə 1805

Xoşbəxt hökmdar Naibüssəltənəni Azərbaycanda yerləşmək və oranın işlərini sahmana salmaq üçün yola saldı. Bu müharibə Şuşa qalasının üç fərsəngliyində Əsgəran adlı yerdə baş vermiş və altı gün davam etmişdi. Qarabağ valisi İbrahimxəlil xan o tayfanı çarəsiz hala salmışdı. Onların sərkərdəsi polkovnik Kotlərovski[1] olmuşdu.

*Üçüncüsü, yenə də həmin ildə*

Gəncə səfəri baş vermişdi. Məqsəd oranın rəiyyətlərini köçürtmək idi. Gəncə əhalisini Zəyəm qəsəbəsinə köçürəndən sonra çərşənbə günü Rusiya ilə savaşdılar.

*Dördüncüsü, hicri min iki yüz iyirmi birinci ildə[2] baş vermiş döyüş*

İbrahimxəlil xan həmin ildə rusların əlindən qətlə yetirilmişdi.

*Beşincisi, hicri min iki yüz iyirmi üçüncü ildə[3] rus sərdarı Kodoviçin gəlişi*

---

[1]Kotlərovski – Pyotr Kotlyarevski (1782-1851), sonradan general rütbəsini almış bu şəxs 1795-1813-cü illər ərzində Qafqazda rus işğalçı qoşunlarının tərkibində vuruşmuş, dəfələrlə yaralanmış, Lənkəranın zəbt edilməsində xüsusi qəddarlıq göstərmiş və o döyüşdə şox ağır yaralanandan sonra istefaya çıxmışdı. O, bütün qalan ömrünü aldığı yaralardan əziyyət çəkmiş və həmin səbəbdən cəmiyyətdən uzaqlaşaraq ucqar bir yerdə yaşamışdı. Müəllif bundan sonra onu sadəcə Polkovnik adlandırır.
[2]Miladi təqvimilə 1806
[3]Miladi təqvimilə 1808

Kodoviç İrəvan uğrunda islam ordusu və İranın igidləri ilə savaşdı. Naibüssətənə bayrağını göyə ucaldıb irəliləyərək İrəvan sərdarı Hüseyn xan Qacarın köməyi ilə onu məğlub etdi. O cənab daha sonra Naxçıvanın və Qarabağın ətrafında və digər yerlərdə döyüşmüşdü, islam əsgərləri və qaziləri *min iki yüz iyirmi beşinciildə*[1] qələbə çalmışdılar.

*Altıncısı, min iki yüz iyirmi səkkizinci ilin aylarında*[2]

Naibüssəltənənin qələbəsi qeydə alınmış, ondan sonra Talışın işğalı, Mustafa xanın qaçması, islam ordusunun Aslandüzdə məğlub olması həmin ildə baş vermişdi. İcmalı zikr olunmuş bu hadisələrin və döyüşlərin təfsilatı, inşallah-təala, qələmin ucu ilə bəyan olunacaq. *Min iki yüz iyirmi səkkizinci ildə* həmçinin əsrin müctəhidlərinin fətvaları verildi və hər birinin risaləsi yetişdi.

### *Bu illərdə əsr müctəhidlərinin Rusiya ilə müharibəyə dair fətvaların bəyan olunması və cihad risaləsinin tərtib edilməsi*

Rusiya ordusu ilə müharibə gedən bu illərdə qələbə bayrağı ucalmışdı. Naibüssəltənə, baş nazirin qaimməqamı Mirzə Büzürg, əmirlər, başçılar və hərbçilər üçün rahat və dinc həyat haram olmuşdu və digər məmləkətlərin sakinləri öz yorğanlarında rahat yatmışdılar, qiyamət qovğasından xəbərləri olmuşdu, ancaq onun odunu və tüstüsünü

[1]Miladi təqvimilə 1810
[2]Miladi təqvimilə 1813

görməmişdilər. Onlar Azərbaycan qışının şaxtası və Qarabağ ilə Muğan çöllərinin istisi şəraitində daim hərəkətdə idilər. O orduda ən dəyərsiz şey can olmuşdu, cövhəri-rəvan[1] heç arpa qiymətinə də getməzdi, üstündə iltifat nəzərinin olmadığı şey isə müsəlmanların və rusların savaş meydanına düşmüş başları idi ...

Əlbəttə, Azərbaycan əhalisinin çəkdiyi bu zəhmətə bütün müsəlmanlar şərik oldular və bu məsələnin yoluna salınmasına, ordunun təchiz olunmasına çoxlu vəsait və silah-sursat sərf edildi. Rəsuli-əkrəmin şəri qanununa müvafiq və padşahlıq qayda-qanunlarına mütabiq böyük Xaqanın dərgahına ərz edəndən sonra birincisi, alicənab Hacı Molla Bağır Salmasi və ikincisi, Sədrül-millət vəd-din Mövlana Sədrəddin Məhəmməd Təbrizi müddəaları tədqiq etmək, məsələni həll etmək və fətva vermək üçün Şeyx Cəfər Nəcəfini[2], Mirzə Əbülqasım Capiləqini[3] və Ağa Seyyid Əli Müctəhidi (Allah onların köməyi olsun) ərşə kimi yüksələn ətəbati-aliyyata[4] göndərdilər və həmçinin bu xüsusda rəylərini öyrənməkdən ötrü İsfahanın, Yəzdin və Kaşanın üləmalarına, o cümlədən İsfahanın imam-cüməsi Hacı Məhəmmədhüseynə, Molla Əliəkbər Eyciyə və Axund Molla Əhməd Kaşiyə məktublar yazdılar və qısa müddətdə hər tərəfdən namələr gəldi. Əmirülmömininin (ə) astanasının şairləri Xaqan əlahəzrətlərinin və nəvvab Naibüssəltənənin mədhində ərəb dilində qəsidələri nəzm

---

[1]Cövhəri-rəvan (axan cövhər) – qan.

[2]Şeyx Cəfər Nəcəfi – Şeyx Cəfər Kaşifül-ğita, Fətəli şahın dövründə yaşamış məşhur fəqih və mərceyi-təqlid.

[3]Mirzə Əbülqasım ibn Məhəmmədhəsən Capiləqi və ya Qumi – hicri XII-XIII əsrlərin məşhur fəqihi, mərceyi-təqlidi, “Qəvaninül-üsul” əsərinin müəllifi.

[4]Ətəbati-aliyyat – İraqdakı ziyarətgahlar.

sapına çəkib göndərdilər. Cihad ilə qəzanı isbatlayan risalələr yazıldı, bu gün şahənşahın və Naibüssəltənənin həqiqətən din yolunda qazi və Seyyidülmürsəlin (s) millətini yenidən dirildənləri olduqları haqqında fətva verildi. Bu məqamda müctəhidlərin başçısı və başı olan Şeyx Cəfər və Ağa Seyyid Əli imamın naibinin təyin edilməsinə və izzət ilə ehtiram sahibləri fəqihləri vəkalətinə dair risalələr yazdılar və apaydın dəlillərlə izah etdilər ki, Rusiya xalqına qarşı bugünkü müharibə cihaddır və şərafətli şəriət qanununa müvafiq rəiyyətlərdən xərrac hesabına alınan və bu yolda sərf edilən hər şey halaldır və cihad işinə məsul şəxslər, katibdən sərriştədara qədər, hesab günü əcrini alacaq bu yeni nizamı dinin qüvvətlənməsi və haqq sözünün üstün gəlməsi üçün hərbə hazırlıq görməyi vacib saydılar.

Xülasə, bu risalələr daxil olandan sonra sədri-dövlətin qaimməqamı onları mütaliə etməyə başladı. Uzun müddət fəzilət sahiblərinin fətvalarını və ictihadlarını tədqiq və təhqiq edəndən sonra hünərvər fazillərin və alimlərin təşrif buyurduqları ruhpərvər məclislər qurdu və müctəhidlərin sözlərini ayrı bir risalədə toplamağa başladı. Cihadla bağlı məsələlər uzun illər tərk olunub qalmışdı və dövrün alimləri ilə fazillərindən heç birisi bunun tədrisinə baxmamış və bunun ətrafında fikir mübadiləsi aparmamışdı. Səbəbi də o idi ki, sabiq hökmdarların onlara ehtiyacları olmamışdı. Bu risalə də başa çatdırıldı və onlara ən çox möhtac olanlar alay, ləşgər və ordu əmirləri idilər. Bir az yayılmağa başladı və məlum oldu ki, beyinlərə gec çatır. Buna görə yeni risaləni tərib etməyə başladılar. O risaləni bir neçə günə düzəldib qaydaya saldılar. Onun haqqında müxtəlif rəylər söylənildi və, nəhayət, bu risalə

bəyənmə məqamına çatdı. Bundan sonra onun üzündən digər nüsxələr köçürülüb şahənşah əlahəzrətlərinin məclisində ərz olundu və tərif ilə afərinə layiq görüldü.

*Firəngistan əhlindən Yusif adlı padre*[1]

İsfahana gəldi, oranın alimləri yanında təhsil aldı və xətt, elm və müsəlman dini sahəsində böyk məharət nümayiş etdirdi. Xəbisliyi başdan aşdığından və məqsədi fəsad törətmək olduğundan əsassız dəlillər gətirərək nübüvvəti rədd edən və Qur'anın ecazkarlığını inkar edən sözlər danışırdı və yazırdı. İraqın və Farsın fazilləri ona müxtəsər şəkildə cavab yazdılar və bu əsnada padreni ölüm yaxaladı və onun yazı-pozuları qaimməqamın nəzərinə yetişdi. Haşimi qeyrətinin çoxluğu və müstəfəvi dinin təəssübkeşliyi səbəbindən səy və bacarığını ortaya qoyub iki-üç nəfər savadlı keşişdən və rahibdən çağırtdıraraq Tövratla İncilin tədqiqinə başladı və xaçpərəstlik ilə yəhudilik dininin əsaslarını olduğu kimi çox yaxşı öyrəndi. O, öz zehninin hiddətini hərəkətə gətirərək onların dinlərinin zəifliyini müxtəlif dəlillərlə isbatladı və padrenin sözlərini rədd etməyi buyurdu. Həqiqətən də, bunun öhdəsindən yaxşı gəlir və hal-hazırda kitabı hazırlamaqla məşğuldur. Bu kitabda o, alimlərin və fazillərin sübuta yetirə bilmədiklərini öz əqli gücünün hesabına dəlillərlə isbat etməyi bacarır. O, hər mətləbə dair səkkiz dəlil gətirir və bu yolla səkkiz behiştin qapısını dinləyicilərinin üzünə açır. Heç şübhə yoxdur ki, inşallah-təala, gözəl üslubda yazılan bu risalə uğurla tamamlanıb rəğbətlə qarşılanacaq. Ümumiyyətlə, bu uğurlu ildə Azərbaycanın fəzilət və elm

[1]Padre – katolik keşişi.

sahibləri məscidlərə və minbərlərə gedərək bəlağət və fəsahətlə moizələr oxuyub və dinləyiciləri mütəəssir edib qafil qəlblərdə düşmənə nifrət saldılar. Camaat və əsgərlər islam dininin qeyrətinin keşiyində duraraq cihada qalxmağı tələb etdilər. Onlar silaha sarılıb müharibənin və mücahidənin intizarında idilər ki, bir əmr və ya işarə gələn kimi mübarizəyə qalxsınlar. İndi bütün Azərbaycan ölkəsinin hər yerində bayraqlar dalğalanır və yüz minə yaxın mücahid hazır vəziyyətdədir.

### *İbrahimxəlil xanın müxalif olması, Həzrətin yaxınlarından olan İsmayıl bəyin nəvvab Naibüssəltənənin əmri ilə Qarabağ qoşununa qarşı müharibə etməsi və Naibüssəltənənin bayrağının onun ardınca Qarabağa yürüməsi*

İzzət ilə cəlalın şərafətli mənbəyindən dəyərli hökm yetişdi ki, tayı-bərabəri olmayan şahzadə Araz çayından keçib o diyarın torpağını yad edəcəkdir. Bundan sonra təkəbbür daşının üstünə daha bir neçə daş qoymuş və qürur qarğası damağın yuvasında yumurta qoymuş İbrahimxəlil xan Cavanşir qəhr ilə sətvət badəsindən inadkarlıq zəhərini içdi və əgər qeyrətsizlik və tərslik səbəbindən üzünü qüdrətli dövlətin başçılarından döndərib yenə cəhalət atına minsə və müharibəyə hazırlıq görməyə başlayaraq Rusiyanın yardımına arxalansa, onda tüfəng gülləsi buludu və ox ilə qılınc şimşəyi o alçaqların başına cəza leysanını yağdıracaq.

Şahzadə dünya qədər önəmli fərmanı yerinə yetirmək üçün Tehran darüssəltənəsindən Azərbaycan istiqamətində Əhər yolu ilə Qarabağa yollandı. Müxalifət yolunu seçmiş İbrahimxəlil xan qələbə nişanlı qafilənin Araz çayından

keçəcəyi xəbərini eşidən kimi xof ilə qorxu ona qalib gəlməyə başladı və o, Şuşa qalasına sığınaraq canının yaxasından möhkəm tutdu. O, Məhəmmədhəsən xanın oğlundan olan nəvəsi Cəfərqulu bəy ilə oğlu Fəzləli bəy Cavanşiri Xudafərin körpüsünün mühafizəsinə yardım etmək üçün rusların yanına Gəncəyə yolladı. İşpoxdur da öz saldatlarından ibarət böyük dəstəni Xudafərin körpüsünü qorumağa və zəfərnişan ordu ilə savaşmağa göndərdi, özü isə qorxmadan dava-dalaş yerinə yollanaraq döyüşə hazırlaşdı. İbrahimxəlil xan o inadkar zümrənin gəlişindən sonra Qarabağdakı bütün piyadaları ilə süvariləri oğlu Məhəmmədhəsən xana tapşırıb rus ordusu ilə bir yerdə körpünün mühafizəsi və islam ordusu ilə döyüşmək üçü yolu düşdü.

Naibüssəltənə Həzrətin yaxınlarından olan İsmayıl bəyi bir dəstə ilə müqəddiməyə[1] təyin etdi və onlar gedəndən sonra rusların axşam vaxtı Xudafərin körpüsü istiqamətində irəliləməsi xəbəri Naibüssəltənəyə çatdı. İsmayıl bəyin ruslarla üzləşməsini zənn edib və o cənabın nə cür cəsur və qorxmaz olduğunu göz önünə gətirib o saat dayanmadan hərəkətə keçərək o günün sabahısı, günortadan sonra Araz çayının kənarına yetişdi. Xudafərin körpüsünün dörd fərsəngliyində dayandı. Döyüş avazları çalındı və o qoşun dörd tərəfdən top-tüfəngə hədəf oldu və dünya işığı onların gözündə qara göründü. İslam ordusunun ciyərlərinə tab, canlarına iltihab gəldi, ətəklərindən tərslik və inadkarlıq yapışmış rus və Qarabağ igidləri isə davadan fərar etməyi özlərinə ar bildilər və hər iki tərəfin mübarizləri üçün meydan dar göründü.

Qeyrət və namus yolu ilə getməyi, özünü ad-sanına layiq göstərməyi adət etmiş İsmayıl bəy bu durumu nəzər-

[1]Müqəddimə – (burada) ordunun önündə gələn dəstə, avanqard.

dən keçirərkən gözünün ucundan mirvaridvari yaş çöhrəsinə axdı, sinəsinin ocağında qəzəb atəşi alovlandı və o, igidcəsinə səy göstərərək bir-birinin ardınca mərdanə həmlələrə atıldı. Hətta islam igidlərinin gözlərinin şikəst olmasına az qalmışdı ki, bu an Naibüssəltənənin zəfər ulduzlu qafiləsi uzaqdan göründü və islam ordusunun qaldırdığı kühlvari toz və bu qəhrəmanların dünya yürüşlərindən gətirdiyi palçıq onların gözləri üçün bir tutiyaya döndü.[1] Şir ürəkli şahzadəni görən İsmayıl bəyin və digər döyüçülərin ruhsuz qəliblərində peyğəmbərin ruhu peyda oldu. Ruslarla qarabağlılar bəxt bayraqlarının başıaşağı çevrilmiş və hamısının taleyinin zaval və fəna vadisinə sürüklənmiş olduğunu görəndə yaxalarını əcəlin caynağından qurtarıb döyüş mərəkəsindən fərar etməyi qərar verdilər və çətin keçidlərdən, ağaclarla dolu meşələrdən atlanıb düşərək özlərini Şuşa qalasına çatdırdılar. Naibüssəltənə o qoşunun fəsad maddəsinin axırına çıxmaq əzmi ilə ruslarla qarabağlıların yürüşünü təqib etdi.

### *Naibüssəltənənin rus ordusunun sərdarı Polkovniklə döyüşməsi, o qoşunun qalaya sığınması və onların səngərlərinin ələ keçməsi*

Nəvvab Naibüssəltənə özünün dağ kimi qüdrətli, ildırım kimi sürətli ordusu ilə o güruhu Ağoğlandakı[2] mənzillərinədək qovdu. Yol boyu Qarabağ elatlarının başçıları onun hüzuruna gəlməyə şərəfyab oldular, şahzadədən çoxlu

---

[1]Bu cümlədə sinonim şəklində işlənmiş "kühl" ilə "tutiya" sözlərinin mənası gözə çəkilən xüsusi maddə, göz dərmanıdır.
[2]Ağoğlan – Hadrutun (əslində farsca hədde-do rud – iki çay arası, sərhədi) əvvəlki adıdır.

ənamla ehsan aldılar və onun tərəfindən əzizləndilər. Adlı-sanlı sərkələrdən olan Nəcəfqulu xan Gorusu Qarabağ meşəsinin başlanğıcında yerləşən Ağoğlanın mühafizəsinə təyin etdi. Oradan qartal şəkilli bayraq qalın meşələrlə dolu, dərə-təpəli Çanaqçı yolu ilə hərəkətə keçdi və Çanaqçı mənzilində tüfəngçilərin bəzi arıq görünən yük heyvanarını qoşdular və qaydaya müvafiq olaraq yükünü belində daşıyan atəşsaçan piyadaları qabaqda, aləmə od salan süvariləri isə arxada qoyub ordusunu bu nizamla tərtib etdi. Pənahabad qalasına yollandılar. Onların qalanın həndəvərinə çatdıqları gün müsəlmanlardan, xaçpərəstlərdən, İbrahimxəlil xanın köməkçilərindən və qulluqçularından olan yerli əhalinin ürəklərində səbrləri tükənmiş və əlləri işdən üzülmüş, tam çaşqın vəziyyətdə qalmışdılar. Bu əsnada dünyanı fəth edən ordunun Pənahabaddan 8 fərsəng aralı yerləşən Təxti-Tavus[1] mənzilinə daxil olması xəbəri Naibüssəltənənin ordugahındakı əhlin qulağını yandırdı. O biri tərəfdən dərus ordusunun polkovniki Gərəginin[2] gəlişi haqqında xəbər şahzadəyə və şirovlayan qazilərə çatdı. Polkovnik Gərəgin, rus ordusunun sərkərdəsi  Kotlərovski və o qoşunun digər mötəbər başçıları, çoxlu canlı qüvvə, topxana, silah-sursat, 200 lülə top, azuqə, hərbi libas İbrahimxəlil xanın xahişi ilə islam ordusunun müqabilində dayanmaq, döyüşmək və Pənahabad qalasını qorumaq üçün Gəncədən gəlib Əsgərana girdilər. Bu xəbər ulduzlar qədər əzəmətli qafilənin Pənahabad qalasının həndəvərində mövqe tutduqları anda  Naibüssəltənənin diqqətinə çatdırıldı. Yol yorğunluğunu almaq, atlara, yük heyvanlarına və qoyunlara istirahət

---

[1]Təxti-Tavus – Tovuz şəhəri.
[2]Gərəgin – Pavel Koryakin və ya Karyagin (1752-1807), 17-ci rus yeger alayının komandiri.

üçün çadırda dayanmaq imkanı vermədən, aradan yel belə keçmədən yenidən atlara minib, qəzəvat və cihad bayrağını qaldırıb, sıraları düzüb, səfləri nizamlayıb döyüş əzmilə yola düşdülər. O həzrətin yaxınlarından olan İsmayıl bəyə müzəffər ordunun ön dəstəsini, Pirqulu xan Qacara, Əli xan Qovanlu-Qacara və Sadiq xan İzzəddinlu-Qacara şücaətli süvarilərin sərkərdəliyini həvalə etdi, ən böyük hissəni isə Mehdiqulu xan Qacarın öhdəsinə verdi. Hacı Allahverdi xan Qacarın əmirliyi altındakı fərahanlı tüfəngçilər rusların yenildikləri təpənin başında əmrə amadə vəziyyətdə yer aldılar. Naibüssəltənə bir parlayan günəş kimi ordunun qəlbində[1] dayandı. Gün batmasına üç saat qalmış Əsgəranın yanında əsgərlərin görüşü və cavan igidlərin qarşıdurması baş verdi. Hərb bayrağını böyük əzmlə döyüş meydanında qaldırdılar və yürüş atı özünü pərvanə kimi topların oduna və ildırımvari gurultusuna atdı. Qətiyyən və əslən qoymadılar ki, Kotlərovski və digərləri dilavərlərin cıdır meydanında möhkəm qərar tapa bilsinlər. Naibüssəltənənin ordusu rus sıralarının qarşısında davam gətirib dağın ətəyindən aşağı atıldı. İki tərəfin ildırım kimi parlayan libasları və tüfəngləri gecə gələnədək bərq vurdu və igidlərin atdığı daş kimi bərk güllələr daşları çəkic kimi vurdu. Pirqulu xan, Məhəmmədəli xan, Əli xan və Sadiq xan Qacar cəsurcasına vuruşdular. Döyüşün qızğın çağında Sadiq xan Qacar tüfəngin atdığı namərd güllədən yaralandı. Sonda Naibüssəltənənin əmri ilə zəfərin pənah gətirdiyi ordunun adlı-sanlı piyadaları sağdan və soldan tufan seli kimi axışdılar. Kotlərovski və rus döyüşçüləri düşmənəzən ləşgərin hücumu qarşısında müqavimət göstərə bilməyərək qaçıb özlərini bir neçə istehkamı olan geniş qəbiristanlığa

[1] Yəni mərkəzində

yetirdilər. Orada göyə qədər ucalan topları öz ətrafında yerləşdirib onların altında xəndək qazdılar, arxalarını isə daş-torpaqla doldurdular və özləri bu bərqvuran topların arasında oturdular və hər an şahzadənin ordusu üstünə top mərmisi atılırdı. Bunu müşahidə edən nəvvab Naibüssəltənə Fərahan və Kəzzaz[1] tüfəngçilərinə o təpəyə atəş açmağı, ordunun qalan hissəsinə isə ətraflarında səngər qurmağı və Rusiyanı top-tüfəng atəşinə tutmağı əmr etdi. Rusların o məkanda möhkəm istehkam qurmaları xəbəri Xaqan sarayının sakinlərinə çatdı və o, Hüseynqula xan Qacarı dünyanı darmadağın edən dörd lülə topla, topxana ləvazimatı ilə və Damğan[2] dəstəsi ilə Naibüssəltənənin zəfərnişan ordugahına yolladı. Topxananın gəlib çatması ilə toplardan atəş açmağa və düşmənin səngərlərini dağıtmağa başladılar. Hərb dəyirmanı altı gün hərəkətdə oldu. Qəhrəman qazilər Naibüssəltənənin hökmü ilə sipərlərin mühafizəsi altında onların yerləşdiyi təpəyə və ətrafındakı xəndəyə hücuma keçdilər və tayı-bərabəri olmayan Xudavəndin köməyi və əziz hökmdarın xoşbəxt qüvvəsi sayəsində rus tayfasının bütün səngərlərini ələ keçirdilər və odsaçan silahını onlara yönəltdilər, bir çoxlarını tutub əsir etdilər. Onların bütün pulları, malları və  heyvanları zəfər taleli qazilərə nəsib oldu. Onların qoşununun sərkərdəsi Polkovnik[3] üç yara alıb saldatlardan bir neçəsi ilə gecənin qaranlığında qaçdı və atılıb düşərək özünü Tərnavut(?) qalasına yetirə bildi. Pirqulu xanın başçılığı altında zəfərnişan qazilər o qalanın ətrafını əhatəyə alıb onların işini dar etdilər. Polkovnik çar-naçar dal qapıdan çıxmağın labüd

---

[1]Kəzzaz – Ərak vilayətində bir kənddir.
[2]Damğan – Simnan vilayətində bir şəhərdir.
[3]Yəni Kotlyarevski

olduğunu görüb şövkət və əzəmət sahibinin hüzuruna bir ərizə göndərib üç gün möhlət istədi ki, möhlət vaxtı çıxandan sonra bağışlayan şahzadənin yazığı gəlməsi sayəsində onun sonsuz rəhmətinə pənah gətirib aman nemətini tapsın. Nəvvab Naibüssəltənə kəmali-mərhəmətlə onun yalvarışını qəbul etdi və bu səbəbdən döyüşçülər üç gün diqqətsizlik və süstlük nümayiş etdirdilər. O isə fürsəti qənimət bilib üçüncü gecə qəflətən aradan çıxdı. Qələbə taleli qazilər bu qaçışdan xəbər tutan kimi onu təqib etməyə başladılar və qılınclarının möhkəm zərbələri ilə onun yoldaşlarından bəzilərini cəhənnəm yolşusu etdilər. O özü isə hündür çinarlarla əhatələnmiş Cəmruq[1] dağında Qarabağın erməni üsyançılarının arasında özünə bir sığnaq tapdı və beləliklə onun bədəninin taxtaparaları[2] bədbəxtlik tufanından qurtulub sahildə nicata yetişdi. O zaman xəbər gəldi ki, İşpoxdur Polkovnikə kömək etmək üçün bütün var-qüvvəsi ilə Gəncədən hərəkət edir və hal-hazırda Tərtər çayının kənarında dayanıb. Nəvvab Naibüssəltənə Rusiya ordusunun kəmiyyətini və keyfiyyətini öyrənmək məqsədilə İsmayıl bəyi bir dəstə igidləri ilə oraya göndərdi. İsmayıl bəy və onun igid döyüşçüləri yolda qəflətən o güruhun bir neçə piyadası və süvarisi ilə rastlaşdı. İsmayıl bəy və onun müzəffər dəstəsi o güruhun bəzilərini öldürüb, bəzilərini isə əsir götürdülər və şahzadənin ordugahına qayıtdılar. İşpoxdur bir addım irəli atmırdı və şahzadənin gizli niyyəti o idi ki, onu döyüş meydanına çəkib ələ keçirsin. Zəfər xəbəri çatanda arzusuna çatmış şahənşahın bayrağının Humayı Təxti-Tavus mənzilində qanadlarını açdı. Əlahəzrət nəvvab

[1]Cemruq (Cermuq) – tarixi Dərələyəz mahalında bir yüksəklikdir.
[2]Taxtapara – dənizdə qəzaya uğramış gəminin qalıqları.

Naibüssüəltənə və digər sərkərdələr də bu şad xəbəri eşidəndə ordugahda ənamlar payladılar və ehsanlar verdilər.

### *Dünyanı fəth etmiş şahənşah Təxti-Tavus mənzilində dayanarkən baş vermiş bəzi hadisələr*

Kamına çatmış şahənşah Təxti-Tavusdakı mənzilində olarkən əylənmək üçün ova çıxmışdı və o əsnada yaxın-uzaq işləri qaydasına salmaq fikrinə düşdülər. Qarabağın üsyançı elat və qəbilələrinə layiqincə qulaqburması verib nəzərini Şirvana və onun ətrafına çevirdilər. Burada İrəvandan Mehdiqulu xanın ərizəsi yetişdi. Ərizədə deyilirdi ki, Məhəmməd xan Rusiyadan İrəvana bir qoşun çağırıb və onlar Şorgölə gəlib oradan Talın[1] kəndinə təcavüz etdilər. Bu əsnada İsmayıl xan Qacar İrəvana daxil olub və Mehdiqulu xanın dəstəyi ilə onların səddini yara bilib. Mehdiqulu xana hökm gəldi ki, Məhəmməd xanı nəzarət altında saxlayıb vilayətin işlərinə məşğul olsun. Ölkə Xaqanı Əşrəf xan Dəmavəndiyə Dəmavənd, Kirman və Tehran tüfəngçiləri ilə qalanın mühafizəsini tapşırdılar və eyni zamanda Mirzə Yusif Mustovfiyə bir dəstə canbazla yola düşüb Mirzə Musa Münəccimbaşıya qoşularaq o diyarın sərhədlərini qorumağı həvalə etdilər.

### *Naibüssəltənə vəlxilafətə Gəncəni və Gürcüstanı ələ keçirməyin tapşırılması, Gəncə rəiyyətlərinin köçürülməsi və digər hadisələr*

[1]Talın – Zəngəzurda, İqdıra və Qarsa yaxın ərazidə yerləşən bir kənddir.

Ölkə şahənşahı Təxti-Tavusda Naibüssəltənə vəlxilafət şahzadə Abbas Mirzəyə Gəncə istiqamətində yürüməyi tapşırdılar, İsmayıl bəyi bir dəstə ilə İşpoxdurla davaya təyin etdilər. Nəvvab Naibüssəltənə qələbənişan əsgərləri ilə yüyənini Əsgəran mənzilindən Gəncə istiqamətinə yönəltdi və ulduz qədər möhtəşəm qafilənin tozu dünyanın gözünün kühlünə çevrildi. İşpoxdur isə tədarük görüb döyüşmək əzmi ilə Gəncədən onun qarşısına çıxdı. O, Tərtər çayının sahilində müzəffər ordunun düşərgəsini görüb ən çətin yollarla özünü Ağdərə dağına çatdırdı və oranın dərələrinə və meşələrinə sığındı.

Nəvvab Naibüssəltənə bir neçə gün orada qalıb onu mühasirəyə almağa icazə vermədi və Gəncə yürüşünə davam etdi, üsyançılardan bir neçəsini öldürməyi, başqaları isə əsir götürməyi buyurdu. O, bütün var-gücü ilə şəhərin həndəvərində dayandı, tufan kimi təsirli ordunun bir hissəsinə isə qalanı mühasirəyə almağı tapşırdı. Tapşırıq alanlar mühasirədə qalanların gününü qara etdilər və həmin məqamda dan yeri sökülən anda, hələ göydə parıltı müşahidə olunmayanda Gəncənin müsəlman əhalisi arasında müzəffər ordunun Naibüssəltənənin fərmanına əsasən şəhərin kənarından keçməsi haqda xəbərin yayılması məlum oldu. Bu əsassız xəbər onların arasında sirayət edən kimi qəflətən böyük-kiçik, cavan-qoca, kişi-qadın – hamısı çox sarsılıb, pərişan halda şəhərdən çıxdılar və özlərini ordugaha çatdırdılar. Qalanı mühasirəyə alanlar da bu hay-küyü eşidib, bəzi həqiqətdən uzaq əndişələrə düşüb ordugaha qayıtdılar. Hər halda işin belə davam etməsi igidlərin mənafeyinə zidd idi. Amma qalada azuqənin və ərzağın çoxluğu Rusiyanın qaladakı vəziyyətinin sabit olmasına zəmin yaratmışdı. Buna görə də cavan şahzadə ordunu və

rəiyyətləri məzəmmət etmək istəmədi. Şəhər sakinlərini bütün malları ilə işlər müdirinin tövləsindən, qatırxanasından və dəvəxanasından çıxan heyvanlara və sərkərdənin atlarına mindirib ali qafilənin önündə Gəncə şəhərinin dörd fərsəngliyində yerləşən Şəmkura[1] yola saldılar. Naibüssəltənə qələbəşüar ordunun bir qismi ilə arxada yer aldı. O gecə şəhərin yarım fərsəngliyində dayandılar.

Rusiya şahzadənin o hüdudlarda dayanmasından xəbər alan kimi o cənabı dava etməklə və hərb atəşini açmaqla tutduğu mövqedən qovmaq kimi xam xəyala qapılaraq gecənin əvvəlindən səhər açılanadək dünya ərsəsini top-tüfəngin şölələri ilə güntək işıqlı etdi. Naibüssəltənə onların düşünülməmiş hərəkətlərini bir milçək vızıltısı yerinə qoyub o biri gün yola düşərək Şəmkura təşrif gətirdi. Gəncənin doğma yerindən köçürülmüş əhalisi ətalar almaqdan və mərhəmət görməkdən razı oldular. O yerlərə daxil olan vaxt çoxlu azuqə ilə İşpoxdurun köməyinə irəliləyən bir dəstə rus göründü. Nəvvab Naibüssəltənə bunu yaxşı fürsət bilib qazilərinə onları təqib etməyi tapşırdılar. O şərəfsiz qoşun vəziyyəti belə görüb qorunmaq məqsədilə toplarını və azuqə yüklərini toplayaraq çox möhkəm istehkam qurdular və özləri də onun ortasında yerləşdilər. Xoşbəxt ordu onların qarşısında torpaqdan və ağaclardan bir qala düzəldib üzərlərinə mərdanəliklə yürüş və həmlə etdilər. Döyüş vaxtı sərkərdələrindən iki, saldatlardan isə bir neçə nəfət qətlə yetirildi, baş sərkərdələri və daha bir neçə nəfər də ələ keçdi. Zəfərçalan ordunun tərkibində səngərdəki topları sıradan çıxarmaq üçün yarayan topları olmamışdı və canları ilə oynayanlar da təkrar yürüşə keçib düşmənin işini tamamlamaq üçün tələf

---

[1]Yəni Şəmkirə

olmaq qabiliyyətinə də malik deyildilər, üstəlik Gəncə şəhərinin kişi ilə qadınları və kiçik ilə böyükləri Zəyəm çölündə bir neçə gün çıxılmaz vəziyyətdə qalmışdılar. Bütün yuxarıda yazılanları nəzərə alaraq qafilə Qazaxın Axısqasına yola düşdü. Beş-altı min Gəncə ailəsinin, onların arvad-uşağının mühafizəsi işi müzəffər ordu üçün artıq çətinliklər yaratdığına görə onlara xüsusi mürüvvət ilə mərhəmət göstərilmiş, Pirqulu xan və Məhəmmədəli xan Qacara buyuruldu ki, onları Həsənsu[1] yolu ilə İrəvana, oradan da Təbrizə yollasınlar. Beləliklə, Gəncə əhli nəvvab Naibüssəltənənin himayədarlığı və mühafizəsi altında, göstərildiyi kimi, həyəcan və pərişan halda öz yüklərini və mallarını özləri ilə götürüb ordugaha yetişdilər. Naibüssəltənə onların mallarının, əyallarının və övladlarının qorunmasına o qədər əhəmiyyət yetirirdi ki, onun hakimlik cəzasının qorxusundan binası zəfər olan ordunun əsgərlərindən bircə əsgərin və ya əmirlərindən bircə əmirin onların əşyalarına əl vurmağa cəsarəti çatmazdı. Gəncəlilərdən birinə məxsus, içində iki mən əşrəfi olan möhürlənmiş kisəni izzət ilə cəlal dərgahının qulamlarından biri tapıb, kisənin möhürünə əl dəyməyib, olduğu kimi gətirib sahibinə təhvil verdi. Bundan əlavə, onlar Təbrizə daxil olan kimi, ədalətyayan şahın fərmanına əsasən bir əsgər qızıl və gümüşdən ibarət bir məbləği Molla Məlik Məhəmməd Qazinin müşayiəti ilə gətirib onların böyükləri və kiçikləri arasında ənam şəklində bölüşdürmüşdü.

Xoşbəxt qafilə Qazaxın Axısqasına daxil olandan sonra orada bir neçə gün dayandı. Ardınca Kaxet vilayətinin bəzi əyanları və Yeni Tiflis qalasından göndərilənlər Qazaxın böyükləri ilə bir yerdə qələbəçalan məiyyətlərə qoşuldular

---

[1]Həsənsu – Ağstafaya yaxın yerləşən bir kənddir.

və hamı oradan İrəvan istiqamətinə üz tutdu. Təşvişə düşmüş Qazax əhalisi cəhalət və baş boşluğu səbəbindən onların yolunda əngəl olmaq və bununla Rusiyaya xidmət etdiklərini göstərmək fikrinə düşdülər. Onlar özlərini əbədi dövlətə qulluq etməyə borclu olmadıqlarını düşünmüşdülər. Onlar Axısqadan İrəvana gedən yola tərəf getdilər. On səkkiz fərsənglik yolun hamısı hündür və bir-birinə bağlanmış ağaclarla dolu qalın meşələrdən keçirdi ki, o vaxtadək heç bir ordu oradan yolunu salmamışdı. Buradan keçmək üçün macal tapmayıb bir pusquda oturmaq fikrinə gəldilər. O meşələrdə bir boş yerin olmaması üzündən orada dayanmaq da mümkün deyildi. Əgər, fərz etsək, belə bir yer tapsaydılar, uca və qalın ağacları kəsib bir-birinin üstünə yığardılar ki, şahzadənin yolunda sədd çəkilsin. Nəvvab Naibüssəltənə Pərvərdigarın lütfünə təvəkkül edib, günahsız seyidlərin, Heydəri-Kərrarın və pak imamların ruhlarına arxalanıb ağacların çoxluğundan bircə nəfərin belə çətinliklə keçə bildiyi yoldan bütün yükü ilə yürüməyi qərara aldı. Nifaq salan kazaklar dəstəsi hər yerdə yolun üstündə durmuşdular. Onlar müharibəyə və mücadiləyə atıldılar, məğlub oldular. Ölən öldü, qaçan qaçdı. Əmirlərlə qoşun başçıları nə qədər yalvarsalar ki, belə dolaşıq yerdə ağır yüklə keçmək fikrindən uzaqlaşsınlar və nəvvab Naibüssəltənə öz qulamları ilə yola düşüb özlərini sığınacağa çatdırsınlar, şahzadə bu mətləbi eşidəndə onlardan acığı tutdu. Ordunun şəxsi heyətində xəstəlik səbəbindən zəif və naxoş olanlar var idi. Ən qəribəsi isə o oldu ki, namaz üçün bir yerdə dayananda, orada bir şüşə şərbət istədi. Elə o vaxt ağacların arasında kazaklardan biri pusquda dayanmışdı. O, tüfəngini götürüb zati-müqəddəssifat nəvvab Naibüssəltənəni hədəfə aldı. Xudavənd

şahzadəyə yar və imamların pak batini mədədkar olduğundan tüfəngin gülləsi çəkməni cızıb keçdi və humayun bəşərənin üstündə heç bir əsər qoymadı. Bu halı müşahidə edən tüfəngçilər meşəyə səpələnib gözə dəyənlərin hamısını tüfəngin ölüm atəşinə tutdular. Oradan tam əmin-amanlıq şərairtində İrəvana daxil oldular və oranın bəylərbəyini, əyanlarını və rəiyyətlərini dünya şahənşahının onlara mərhəmət göstərəcəyinə ümidvar etdilər. Onlar orada bir neçə gün qalıb vilayət qalasının tədarükü məsələsinə məşğul oldular. Seçilmiş adamlardan olan Hacı Məhəmməd xan Qaragözlünü ehtiyac yarananda asiman kimi uca dərgaha göndərib ortada Rusiya ilə müharibə olduğunu nəzərə alaraq Azərbaycanda qalmağı istədilər və şah əlahəzrətlərindən dövlətin mərkəzinə qayıtmağını və düşmən işini nökərlərinə tapşırmağını iltimas etdilər ki, canları bədəndə qaldıqca can qurban verməк mərasimini özləri yerinə yetirəcəklər. Beləliklə, Nəvvab Naibüssəltənənin xahişilə dünya Xaqanı Azərbaycan məmləkətinin işini ona təhvil verdi və zəfər bayrağının qartalı Tehrana tərəf uçmağa başladı.

### *Rus sərkərdəsi Şoftun Gilanla sərhəddə gəlişi, onun yerli əhali ilə müharibəsi və İşpoxdurun yenilib qaçması*

Bir il öncə xoşbəxt ordunun zirəkliyini görüb rus padşahından digər tərəfdən də bir qoşunun göndərilməsini istəmişdilər. Bu müraciətə cavab olaraq o “sərxoş fil” çar tərəfindən Xəzər dənizi ilə əjdəha surətli toplarla, silah-sursatla və digər döyüş ləvazimatı ilə dolu on iki gəmi Rəşt istiqamətində göndərildi. Gəmilərə mindilər və Talış diyarına yaxın yerdə lövbər saldılar. İki gün dayanandan sonra

oradan Ənzəli limanına yola düşdülər. Oraya daxil olarkən yerli hakimin əmrilə o məkanı qorumağa məşğul olan kiçik tüfəngçilər dəstəsi mərkəzi boşaltdı və ruslar Ənzəlidə sahilə düşdülər. Cəmşidə bənzər Daranın hərəkəti əsnasında Gilanın işini nizama salmaq üçün darüssəltənə Tehrandan Gilana təyin olunmuş Mirzə Musa Münəccimbaşı bu xəbəri eşidən kimi Rusiyanın təcavüzünü dəf etmək üçün Gilanın hakimlərindən və başçılarından yardım istədi. Bundan sonra Pirəbazar adlanan yerdə böyük əzmlə işləyib və sonsuz səy göstərib səngərlər qazıldı və bir dəstə ildırım atəşli tüfəngçilər Pirəbazar xiyabanının sağından və solundan hazır oldular, bir neçəsi isə hazırlanmış səngərdə yer aldılar və həmçinin pusquda oturdular. Sübh tezdən qaniçən piyadalarla və od püskürən toplarla Pirəbazarın səngərlərini ələ keçirməklə Rəştin işini tamamlamaqdan ötrü cəhd etdilər. Birdən sağda-solda meşədə dayanan tüfəngçilər iki tərəfdən atəş açmaqla onların üstünə cumdular. Rus ordusu özünə gələndə gördü ki, onlardan min nəfəri payız küləyinin meşədə torpağa tökdüyü yarpaqlar kimi yerə səriliblər. Sağ qalanlar özlərini Ənzəliyə çatdırdılar. Bu möhtəşəm fəth Tanrının verdiyi gücün və Mirzə Musa Münəccimbaşının səyinin hesabına həyata keçirilmişdi. Mirzə Musa Münəccimbaşının özünə və digər xidmətçilərə səma kimi uca saray tərəfindən çoxlu ənamlar və saysız təkrimlər bağışlandı.

### *Dünya Xaqanının fərmanı ilə nəvvab Naibüssəltənə vəlxilafət şahzadə Abbas Mirzənin Azərbaycan hakimiyyəti başında əyləşməsi və habelə müxtəlif xəbərlər*

Nəvvab Naibüssəltənə darüssəltənə Təbrizdə yerini tutandan sonra bütün rəiyyətləri və hərbçiləri öz nəzakət kölgəsinin və mərhəmət sayəsinin altına aldı. Mehribanlıq və xalqsevərlik qapısı kiçikdən tutmuş böyüyə qədər bütün əhalinin üzünə açıldı. Əlbəttə, ölkə Xaqanının astanasını öpmək feyzindən məhrum olduğuna görə çox təəssüflənirdilər, lakin hökumət vəzifəsini yerinə yetirməklə öz ürəyinə təsəlli verib məmləkət işlərini qaydaya salmağa can atdılar.

Nəvvab Naibüssəltənə  darüssəltənə Təbrizə daxil olan kimi Quba və Dərbənd bəylərbəyisi Şeyxəli xandan, ləzgi Surxay xandan və Bakı[1] hakimi Hüseynqulu xandan ərizələr yetişdi. Bu məktublarda ərz olunurdu ki, Şoft Gilandan qaçandan sonra təcavüzkar ayağını Bakı vilayətinə qoyub öz məkrli əlini o əraziləri almağa uzatdı. Bakı qalası müdafiəsinin təşkil edilməsi və oraya ordunun çəkilməsi üçün tədarük görmək lazımdır. Nəvvab Naibüssəltənə Şeyxəli xana, Surxay xan Ləzgiyə və Hüseynqulu xana Bakının mühafizəsinə və rusların oraya irəliləməsinin əngəlləməsinə yönəlmiş ciddi hökmlər verdi. Özünün etibar etdiyi adamlardan birini qurğuşunla, barıtla, pulla və sayı ölçüyə gəlməz digər zəruri mallarla Bakıya yolladı.

Bu vaxt Şoft Gilandan qaçandan sonra gəmilərə minib Bakı ilə üzbəüz lövbər saldı və düşmən hərəkətlərinə keçdi. İldırım püskürən toplardan qaladakılara atəş açmağa başladı. Hüseynqulu xan və qala əhalisi də müharibə odunun alovlanmasını və toplardan yağdırılan ölümü görüb müdafiə olunmağa başladılar. Rusiya ilə Hüseynqulu xan arasında dənizin içində böyük dava qızışdı. Bu əsnada qaladakılar rusların bir neçə gəmisini top zərbələri ilə şikəst

[1]Qeyd edək ki, Əbdürrəzzaq Dünbülinin mətnində Bakı şəhərinin adı bəzən باكويه(Bakuye) şəklində yazılıb.

etdilər, o qoşunun bir hissəsini dənizdə batırdılar. Onda öz məqsədlərindən vaz keçmək istəməyən ruslar quru tərəfdən gələrək toplarını qalanın ətrafında yerləşdirdilər və yenidən hər tərəfdən qalanın üstünə hərb odunu yağdırmağa başladılar. Bu əsnada Şeyxəli xan Surxay xan Ləzginin atası Nuh bəylə birgə və böyük dəstə ilə Bakı qalasına daxil olub Hüseynqulu xanın köməyinə gəldilər. Bir neçə gün hərb atəşi içəridə və çöldə, hər yerdə alovlanırdı. Nəhayət, rus qoşunu dağıldı və onun qalıqları qalanın ətrafını tərk edib dənizin ortasına çəkildi. Onlar bunun ardınca yelkənləri qaldırıb Talışın Sarısına[1] tərəf getdilər.

## *Naibüssəltənənin Muğan səmtinə irəliləməsi, rus sərdarı İşpoxdurun qətli və rusların pərən-pərən düşməsi*

Möhtərəm qafilə darüssəltənə Təbrizdə dayanarkən Şirvanlı Mustafa xandan bir məktub yetişdi. Mustafa xan İşpoxdurun Gəncədən Şirvana tərəf yürüməsindən xəbərdarlıq edib kömək və imdad diləyirdi. Nəvvab Naibüssəltənə Pirqulu xan Qacarı bir dəstə şirovlayan igidlə ona yardım göstərməyə təyin etmişdi. Pirqulu xan Kür çayının sahilində, Şirvana on iki fərsəng qalmış bir yerə çatanda məlum oldu ki, Mustafa xan iradə zəifliyi səbəbindən ruslarla saziş bağlayıb, İşpoxdurla görüşüb və dostluq yoluna keçərək sülh qapısını onun üzünə açıb və beləliklə yalan və

---

[1]Sarı (eləcə də Səri, Səru və s.) – əsərdəki hadisələr baş verən zaman Lənkəranın şərqində yerləşmiş ada olub. Şura hökuməti dövründə sahillə torpaq yolu ilə birləşdikdən sonra yarımada şəklini almışdır.Təsvir olunan hadisələr 1805-ci ilin sentyabrın əvvəllərində baş vermişdi.

kələkbazlıq yolunu seçib riyakarlıq etmişdi.[1] O, fəxrlə üzü Bakıya sarı yürüşə keçmişdi. Eyni vaxtda Şoft da Sarıdan gəlib ona qoşulmuşdu. Bu əsnada Hüseynqulu xanın[2] məzmunu kömək istəməkdən ibarət olan məktubu yetişdi. Nəvvab Naibüssəltənə bu xəbəri eşidən kimi Hüseynqulu xan Qacarı[3] bir dəstə cəld tərpənən igidlə hücuma atıb Əsgər xan Əfşarı da min nəfər atlı ilə müqəddimədə tufan və ildırım sürəti ilə irəli göndərdi ki, Bakı qalasına daxil olub Hüseynqulu xanın köməyinə gəlsinlər, onların ardınca Təbriz ilə Marağanın bəylərbəyisi Əhməd xan Müqəddəmi təpədən dırnağa qədər silahlanmış piyada və süvari, eləcə də topxana ilə ulduzlar qədər möhtəşəm qafilənin önündəki mövqeyə təyin etdi. Həmin vaxt qışın sərtliyindən və şaxtanın şiddətindən odunun tüstüsü adama reyhandan və sünbüldən xoş gəlirdi. Belə bir şəraitdə *ziqədətül-həramın iyirmi ikisində* Nəvvab Naibüssəltənə rus ordusu ilə müharibə etməyi özünə borc bilərək qələbə bayrağını göylərə ucaldıb Təbriz darüssəltənəsindən Ərdəbil yolu ilə Muğan istiqamətinə ənbər səpdi və Ərdəbil darülirşadına[4] daxil olarkən Pirqulu xanın məktubu yetişdi. Pirqulu xan bildirirdi ki, kamına çatmış aliməqam nəvvabın əmrinə əsasən Əsgər xan özünü sel sürətilə qalaya yetirib, Hüseynqulu xan Kür çayındakı körpünün mühafizəsi üçün tədbir görüb, Pirqulu

---

[1]Sisianov Gəncədən çıxıb 1805-ci ilin sentyabrının əvvəllərində Şirvana gəldi və orada Mustafa xanın guya onunla əlbir olması kələyinə düşüb nəticədə qətlə yetirildi. (Şərh Qulamhüseyn Zərgərinijadındır).
[2]Hüseynqulu xan (1774-1845) – Bakıxanovlar nəslindən Məhəmmədqulu xanın oğlu, 1792-1806-cı illərdə Bakı xanı olmuşdur.
[3]Hüseynqulu xan Qacar (1742-1831) – Məhəmməd xan Qacarın oğlu, 1806-1827-ci illərdə İrəvan xanı və ya İrəvan sərdarı olmuşdur.
[4]Darülirşad – irşad evi, Şeyx Səfiəddinin Ərdəbildə əsasını qoyduğu və sonradan rusların vəhşicəsinə qarət etdikləri elmi mərkəzin adıdır.

xan Bakı qalasının xaricində dayanıb, Şeyxəli xan da ona qoşulubdur.

Bu arada İşpoxdurun ordusu nizamı tam pozulmuş halda, itkilərə məruz qalaraq, əzab-iztirab içində, şaxtanın şiddətindən və Xəzər dənizinin təlatümündən topları sıradan çıxmış, azuqə qıtlığından tamamilə əldən düşmüş, dörd tərəfdən bəla, məşəqqət, ölüm təhlükəsi ilə üzləşmişdir. O, çarə və xilas qapısının üzünə bağlı olduğunu görüb, əlacsız vəziyyətdə ordunun içindən ayrılıb qalanın həndəvərinə gəlmişdi ki, bəlkə şirin vədlərlə Hüseynqulu xanı tamahlandırıb aldadaraq ya qaçmaq üçün bir yol, ya da qalmaq üçün bir yer tapa bildi.

O əsnada Hüseynqulu xanın əmisioğullarından biri olan və öz rəşadəti və igidliyi ilə ətrafdakılaın içindən seçilən İbrahim xan xoşbəxt şahzadənin rikabından ayrılıb Bakıya təyinat alır. O, Bakıya gəlir və onlar[1] Hüseynqulu xan Bakuyi ilə bir yerdə olanda Hüseynqulu xanın izni ilə güllə atıb onu[2] qətlə yetirir. Pirqulu xan Qacar, Şeyxəli xan və digərləri da onun məmurlarını əhatəyə almışdılar. Onlardan bəziləri öldürüldü, digərləri əsir alınıb buxovlandı, sağ qalanlar isə qaçıb Şoftun gəmilərinə mindilər və Sarıya yollandılar. Onun[3] qürur və təkəbbürdən qızmış və günəş altında ərimiş başını bədənindən ayırıb çaparların vasitəsilə paytaxta çatdırdılar. Amma nəvvab Naibüssəltənənin məmurlara döyüş meydanına atılıb o lovğanı aradan götürməyi əmr etdiyinə görə onun danışıq aparılan vaxtda qətlə yetirilməsi heç də sevincinə səbəb olmadı, bəlkə də səbəbkarın tutulması ilə nəticələndi.

[1]Yəni Hüseynqulu xanla Sisianov
[2]Yəni Sisianovu
[3]Yəni Sisianovun

### *Bəzi Azərbaycan əmirlərinin İrəvana getmək tapşırığını alması və o vilayətdəki vəziyyətin icmalı*

İşpoxdurun qətlindən sonra nəvvab Naibüssəltənə fikrini Şoragöl[1], Pənbək[2], Gəncə və Gürcüstan mahallarında fitnə törədənləri tənbeh edib aradan götürməyə yönəltdi. Cəfərqulu xan bir rus qoşunu ilə neçə müddət İrəvanın Talın qalasında oturub oradan öz uzun ziyanavər əlini İranın yaxın bölgələrinə uzatmışdılar[3]. Buna görə İrəvan bəylərbəyi Mehdiqulu xan Qacar, Urmiyə bəylərbəyi Hüseynqulu xan, Xoy hakimi İsmayıl xan Qacar və Naxçıvan hakimi Kəlbəli xan əfşar, irəvan, kəngərlu, xoy və digər hərbi dəstələri ilə rusları və Cəfərqulu xanı oradan qovmaq əzmində idilər. O tayfanın böyüklərindən və fərman sahibinin köhnə nökərlərindən olmuş Hacı Məhəmməd xan Qaragözlü işi yerinə yetirmək əmrini aldıqdan sonra hökm verdi ki, İrəvana daxil olan kimi ruslarla Cəfərqulu xanın qərarlaşdıqları Talın qalasının qarşısında möhkəm bir qala tikilsin, minə yaxın tüfəngçi orada yerləşdirilsin və onların[4] azuqə gətirmək və ya qaçmaq yolu kəsilsin. Ardınca ağıl və zəka fətvası ilə digər işlərə keçib bütün səyləri məsələni həll etməyə yönəltsinlər.

---

[1]Şoragöl (və ya Şorayel) – hadisələr baş verdiyi dövrdə İrəvan xanlığının (vilayətinin) bir bölgəsi.
[2]Pənbək – hadisələr baş verdiyi zəmanədə Borçalının bir bölgəsi.
[3]Cəfərqulu xan o zamanlar təkcə ruslarla deyil, osmanlılarla da İrana qarşı əməliyyat aparmaq əzmində olduğunu özünün 27 fevral 1806-cı ildə Osmanlı qaimməqamına yazdığı və Mustafa bəy Mehmandarın vasitəsilə göndərdiyi məktubunda bildirmişdi. Bax: "Əsnado mokatebate-tarixiye-İrane-Qacariyye". c.1, s.6.
[4]Yəni düşmənlərin

Məhz bu xəbəri alan kimi ruslarla Cəfərqulu xan müzəffər sərkərdələrlə ordunun İrəvana yaxınlaşmağını gözləməyib Talın qalasından qaçırlar, lakin onlardan bir dəstə Mehdiqulu xan Qacarın qarovulçılarının əlinə keçir. Rum sərhədlərinin paşaları son illərdə qədim yollardan kənara çıxıb və ayaqlarını İrəvan torpağına basıb öz fitnəkarlıqlarından əl çəkmək istəmədiklərini açıq göstərirdilər, o cümlədən Bayəzid hakimi İbrahim paşa bir dəfə üç-dörd min əsgərini İrəvanın taxtına yiyələnmək məqsədilə bu yerlərə göndərmiş və basqın edib souğunçuluqla məşğul olmaqdan belə çəkinməmişdi. Buna cavab kimi Naxçıvan hakimi Kəlbəli xan təcili olaraq öz piyadalra atlılarını toplayıb onların dərslərini verməyə cumdu və qısa müddətdə o güruhun bir qismini öldürüb digərlərini əsir aldılar. Ondan sonra bütün paşalar Azərbaycan sərkərdələrinin istedadı və bacarığı qorxusundan sırtıqlıq başlarını xəbər-ətərsizlik ciblərinin içinə və fitnəkarlıq ayaqlarını ədəb ətəklərinin altına saldılar və həmçinin Naibüssəltənənin dərgahına üzrxahlıqla, peşmançılıqla və qəbahətli əməllərdən əl çəkmək vədlərilə dolu məktublar göndərdilər və sonda böyük hörmət sahibinin sarayından fəxri xələtlər almaq şərəfinə layiq görüldülər.

Sərkərdələrlə sərdarların toplantısında qərara alındı ki, Mehdiqulu xanla Kəlbəli xan rusların cəzasını vermək üçün Şoragöldə və Pənbəkdə qiyam qaldırıb hərəkətə keçsin, Hüseynqulu xan, İsmayıl xan və Hacı Məhəmməd xan isə əmrə əsasən Gəncəyə yollanaraq boyunlarına qoyulmuş vəzifəni yerinə yetirsinlər. Bu qərar çıxandan sonraxanlar Gəncə istiqamətində yürüyüb və Gəncə ilə Tiflis arasında məskən salıb hər yeri talan və tarac etməyə başladılar. Bütün günü Gəncə ətrafında dolanıb qətlə və soyğunçuluğa

məşğul oldular. Nəvvab Naibüssəltənə ruslarla davadan qayıdandan sonra sərkərdələrinə hökmlər verdi. Bu vaxt ixtiyarında olan sərkərdələr bütün səylərini İrəvanın mühafizəsinə yönəltməliydilər. Məmurlara həmçinin xəbər gəldi ki, Mehdiqulu xanla Kəlbəli xan bir iş görməyiblər və Pənbəklə Şoragöldə Çəfərqulu xanla rusların cəsarətləri o qədər artıb ki, onlar İrəvanda hakimiyyəti ələ keçirmək üçün camaat yığıblar. Bu səbəbdən sərkərdələr möhkəm əzmlə və qəti fikirlə Gəncədən İrəvana tərəf yola düşdülər. Cəfərqulu xanın və Rusiyanın əsgərləri onların hərəkət etmələrini duyan kimi dağılıb pərişan oldular və yenidən öz qalalarına qaçdılar. Sərkərdələr İrəvan işini nizama salandan sonra nəvvab Naibüssəltənənin yanına qayıtdılar.

### *Talış hakimi Mustafa xanın Mirzə Büzürg qaimməqam ləqəbli taysız vəzir Mirzə İsa ilə ünsiyyət yaradıb arxayın etməklə könlünü almaq səyləri haqqında*

Talış hakimi Mustafa xan mərhum Xaqanın vaxtından bu günədək həmişə əbədi dövlətin başçılarından qorxardı və onda olan bu təşviş ilə vəhşət günü-gündən artmaqda idi. Xoşbəxt qafilə Ərdəbil darülirşadına daxil olanda onun təsəvvürünə gəlmişdi ki, günəş təsirli nəzərin tənbehinə tuş gələ bilər. Xof və qorxu hissi get-gedə daha da çox ona hakim olurdu. O, Şoftla ünsiyyət yaratmışdı. Məqsədi də o idi ki, Talışdan Sarının arxasındakı adaya qaçsın, oradan da Qizlərə[1] gedib o tərəflərdə qərar tapsın.

Nəvvab Naibüssəltənə bundan hali olan kimi dövlətin sadiq qulluqçusu, şərafətli və nəcabətli sülalənin nümayən-

[1]Qizlər – Dağıstanın Qızılyar şəhəridir.

dəsi vəzir Mirzə Büzürgü onun[1] rəğbətini qazanmağa məmur etmişdi. Belə qərara alındı ki, Mustafa xan Şoftun və onun yoldaşlarının Sari yolunu kəsib Lənkəranın sahilindən azuqəsiz və əliboş qovsun. Tayı-bərabəri olmayan vəzir Mustafa xanla görüşüb ona lütf ilə səxavət sahibi şahzadənin ona bəslədiyi mərhəmətdən danışdı. Mustafa xanı arxayın salandan sonra belə sözləşdilər ki, Şofta azuqənin və digər ləvazimatın gəldiyi yolda sədd çəksin. Onlar qışın şiddətli soyuğunda öz ölkələrinə üz tutdular. Məqsədə çatanadək o güruhdan aclıqdan və şaxtadan ölənlər oldu.

Bu əhvalatı müşahidə edən Şirvan hakimi Mustafa xan da peşmanlıq hissini çəkib sözügedən günlərdə qisasçı qoşunu və silah-sursatı ilə xoşbəxt şahzadənin hökmü altında Kür çayının kənarında dayanan Təbrizlə Marağa bəylərbəyisi Əhməd xanla görüşmək fikrinə düşdü. O, Kürün sahilinə gəlib görüşərkən bundan sonra fərmanlarını yerinə yetirməsi vacib olan şahzadə əlahəzrətlərinin yolunda başını qoymağa hazır olduğunu, onun hökmündən kənara çıxmağı özünə caiz bilmədiyini və bütün ömrünü bu yolda sabitqədəm və yerişi möhkəm olacağını öhdəsinə almışdı.

### *İbrahimxəlil xanın rusların əli ilə qətlə yetirilməsi*

İbrahimxəlil xan İşpoxdurun işinin aqibətini və fitnəkar Şoftun əlaltılarıyla birlikdə necə yola salınmasını, habelə Talış hakimi Mustafa xana göstərilmiş hüsn-rəğbəti görüb tam arxayın və ümidvar halda möhtərəm nəvvab Naibüssəltənənin dərgahına çoxlu müraciətlər yazıb yaxın adamların vasitəsilə günahlara şəfa verən, fələk qədər möh-

[1]Yəni Mustafa xanın

təşəm şahənşaha xidmət etmək istəyini və saysız təqsirlərə görə üzrxahlığını bildirmişdi. Həzrət şahzadə dünyanı idarə edən saraydan onun üçün şəfaət istəmişdi. İzzətli şahənşahın fərmanında deyildi ki, yetirdiyi zərərin əvəzini gətirdiyi təqdirdə onun qüsurları bağışlansın. Bu müjdə İbrahimxəlil xana çatan kimi o, çox sevinib pak niyyətlə rusları Qarabağdan qovmaq fikrinə düşdü. O, öz kürəkənini Ərdəbil darülirşadına, nəvvab Naibüssəltənənin hüzuruna göndərib arzusuna çatmış şahzadədən xahiş etmişdi ki, onun müzəffər qafiləsi Qarabağa üz tutsun. Bu halda o, öz oğlu Əbülfəth xanı bir dəstə igidlə Qapan[1] yoluna, Fərəcüllah xan Şahsevəni isə başqa bir dəstə ilə Çanaqçı[2] yoluna göndərər ki, müzəffər ordunun ön dəstəsini təşkil etsinlər. Nəvvab Naibüssəltənə məmnuniyyət hissilə bu təklifi qəbul edib Əbülfəth xanla Fərəcüllah xanı öz zəfərçalan ordusunun ön dəstəsinin başında, səadət rəmzli bayrağı altında Qarabağ səmtinə yolladı. Fərəcüllah xan Araz çayının üzərindəki Xudafərin körpüsündən keçib Pənahabadın yaxınlığına çatanda məlum oldu ki, Fərəcüllah xanla Əbülfəth xanın gəlişindən qabaq İbrahimxəlil xanın nəvəsi Cəfərqulu xan qaladakı rusları işin gedişatından agah etmişdi. *1221-ci ilin rəbiüləvvəlin 23-də*[3] gecə vaxtı onlardan[4] üç yüz nəfəri evlərdən qaldırıb qaladan çölə çıxartdı. Bundan öncə İbrahimxəlil xan öz arvad-uşağı ilə qalanın kənarında dayanmışdılar. O, heç vaxt ehtiyat qaydalarına

---

[1]Yəni Qafan

[2]Bu adda Azərbaycanda bir neçə kənd vardır. Çox güman ki, hazırkı mətndə söhbət ya Xocalıda, ya da Vedibasarda yerləşən kənddən gedir.

[3]Miladi təqvimilə 10 iyun 1806

[4]Yəni ruslardan

riayət etməzdi və onlar gecə saat 3-4-də insafsızcasına üzərlərinə cumub onun özünü, Səlim xan Şəkinin bacısı olan yastıq yoldaşını, Humay xan Ləzginin bacısı qızı olan qızını, eləcə də digər kişi və qadın xeylaqlarını tüfənglərinin şamı şöləsinə uçmuş pərvanərər kimi amansız qətl atəşində yandırdılar və rəhmsizlik odu alovlandırdılar və İbrahimxəlil xanın qoca ağacını ədalətsiz və amansız balta ilə kəsdilər və ahıllıq çağının sonunda çoxillik sərvət çeşməsinin üstünə tərslik və zülm əli ilə zillət torpağını töküb ağzını qapatdılar.

Nəvvab Naibüssəltənə tərəddüd etmədən, vaxtı uzatmayıb ruslarla döyüşmək məqsədilə Pənahabad qalasına yola düşdü. Yürüş əsnasında Şəki xanı Səlim xandan məktub gəldi. O yazırdı ki, iki il bundan əvvəl Şirvan xanı Mustafa xan tərslik edib rusları Şəkiyə gətirmiş və onlara tam itaətdə olduğunu nümayiş etdirmişdi. Lakin indi ali qafilənin bu hüdudlara daxil olması və İbrahimxəlil xanın öldürülməsi xəbərləri onu səmimi-qəlbdən möhtərəm şahzadə həzrətlərinə xidmət etməyə şövqləndirib və o, iş görmək üçün yardım diləyir. Nəvvab Naibüssəltənə onun xahişini nəzərə alaraq Fərəcüllah xan Şahsevəni bir dəstə pələngbasan şirlə onun köməyinə məmur etdilər.

### *Ali qafilənin Qarabağda Rusiya ilə növbəti dəfə müharibə etmək üçün hərəkətə keçməsi*

İbrahimxəlil xan öldürüləndən sonra Qarabağın əksər elatları Qarabağdan köçüb Qaracadağda məskən salmaq istədilər. Buna görə Fərəcüllah xan Şahsevən onları köçürmək tapşırığını aldı. Qələbənin pənah gətirdiyi ordunun bir hissəsi Nəcəfqulu xanın sərkərdəliyi altında hələ

yürüşdən qabaq İrəvanda Mehdiqulu xan Qacarın qoşununa qoşuldu, ordunun hissələri Xoyda və Təbrizdə dayanmışdı, Hüseynqulu xan Əfşar və İsmayıl xan Qacar da bundan əvvəl də olduğu tərzdə tələb etmişdilər ki, bir dəstə piyada və süvarilərlə İrəvan yolu ilə Gəncəyə və Gürcüstana gedib orada özlərinə layiq surətdə xidmətlərini davam etdirsinlər. Tiflis valisi Aleksandr Mirzə[1] də üzərinə buna müvafiq öhdəlik aldı. Bir qismi onların köməyinə yolladılar və uca rikabın xidmətçiləri Bakı ilə Muğan çölünün çətinliklərini və qışın soyuğunu görməli oldular. Səfərin uzun və şaxtanın güclü olması səbəbindən onların kiçik hissəsi yerə çatdı, ölkə Xaqanının yüksək rikaba təzəlikcə göndərdiyi qoşun isə hələ gəlib çıxmamışdı. Nəticədə möhtərəm rikabda olanların sayı o qədər də çox olmamışdı. Bu vaxt xəbər yetişdi ki, general Nebolsin[2] Tiflisə göndərilmiş və oradan Qarabağa yönəlmişdir. Şəkidə, Gəncədə və Qarabağda dayanan ruslar Qarabağ ordusu, ermənilər və başqaları ilə ona qoşulub Əsgəranda cəm oldular.

Nəvvab Naibüssəltənə Ağoğlandan hərəkət edərək belə balaca qoşunla hələ Əhməd xan Müqəddəmə yük arabalarının mühafizəsini tapşırıb cəldlik ayağını döyüş dairəsinə qoydular. Xoşbəxt qafilə Xanişin[3] mənzilində ki, ruslar da oraya daxil olub yüksək dağda yer almışdılar,

---

[1]Aleksandr (İsgəndər) Mirzə (1770-1844) – Baqrationi sülaləsindən gürcü şahzadəsi. İran-rus müharibələrində qardaşı Tehmuras Mirzə ilə Abbas Mirzənin ordusu tərkibində döyüşmüşdü və hətta Türkmənçay müqaviləsi bağlanandan sonra dəfələrlə Gürcüstan ərazisində qiyam qaldırmışdı. Sonralar Dağıstana, oradan da İrana köçmüşdü.

[2]Pyotr Nebolsin – rus generalı, Osmanlı-rus və İran-rus müharibələrinin iştirakçısı.

[3]Xanişin (farsca xanneşin – xanın oturduğu yer) – Xocavəndin köhnə adlarından biridir.

gəlib iki gün cidd-cəhdlə səy etdi ki, bəlkə o güruh döyüşmək üçün aşağı düşdü – müyəssər olmadı. Həmin vaxt, Əbülfəth xanın ərz etdiyinə görə, o camaat ruslara xəbər çatdırmışdı ki, müzəffər qazilər öz azuqə yüklü arabalarından uzaqlaşıblar, çöldə ot yanıb, qoşundakı heyvanlar yemsiz qalıblar və ordu adamları əziyyətlə iztirab içindədirlər. Ruslar bunu eşidən kimi döyüşə girişdilər. Kinli qoşun bu iki gündə rum çöhrəli günəşin doğmasından hind zülmətinin pərdəsi çəkilənədək dayanmadan silahlarını yerə qoymadılar və hətta gecələr döyüş meydanında keşik çəkib ehtiyatı əldən vermədilər, ulduzlar kimi səhərədək oyaq qalıb dincəlmək üçün bir an belə gözlərini yummadılar. Kəllə-kəlləyə gələndə çayın suyu rusların tərəfində idi, müzəffər ordu isə hər yandan çaydan uzaq olmuşdu.

Xülasə, iki ləşgər üz-üzə durub əlbəyaxa döyüşə girişdi. Bu tərəfdən Bistam ərəblərindən bir dəstə, o yandan isə Fərahandan İraq tüfəngçiləri elə ürəklə irəli atıldılar ki, top-tüfəngin ağzına girib düşmənin qara qanını havaya fışqırtdılar. Ruslar da topların arasından keçib ərəblərlə əlbəyaxa oldular. Almasvari xəncər iki ordu dəstələrinin boyun damarlarına dirənib qanı dəniz halqaları kimi çölə axıdırdı və uzunboy süngü bir-birinin ömrünü qısaltmaqda özünün təqsirkar olduğunu boynuna almırdı. Rus generalı rusları döyüşə təşviq və təhrik etmək üçün iztirab içində öz qılıncını[1] yerə sancdı, ancaq faydasını görmədi. Bu çəkişmə uzun müddət davam etsə də, zəfər tərəflərdən heç birinin üzünə gülmədi, iyul günəşinin tabına[2] ürəklər tab gətirə bilmədi.

---

[1]əsərdə "qılınc" yazılıb, amma güman etmək olar ki, söhbət "sablya"dan gedir.

[2]Yəni istisinə

Onda hər iki tərəf dava etməkdən əl çəkib döyüşməyə ara verdi.[1]

Bundan öncə də deyildiyi kimi, su rusların əlində idi, o çöldə ot tapılmazdı, Rusiya ordusunun azuqəsi də bol olmuşdu, ancaq Xudafərin körpüsündən Xanişin mənzilinədək bircə saman çöpü belə tapmaq mümkün deyildi, daha buğda ilə arpadan nə demək olar. Naibüssəltənə yeni gələn qoşunun intizarında olarkən hökmdarın dərgahından azuqə və digər ağruq istəmişdi, özü isə körpüdən keçib Həsən və Hüseyn çeşməsinin yanında dayandı[2]. Bu əsnada xoşbəxt hökmdarın dünyanı idarə edən sarayından nəvvab Naibüssəltənin xidmətinə gələn Hüseyn xan, İsmayıl bəy, Həsən xan və Amanullah xan dəniz kimi qüdrətli və sel kimi axan silahlı dəstələrilə daxil oldular.

*Elatları köç etdikləri məqamda Rusiyanın və qarabağlıların Əbülfəth xanla döyüşmələri haqqında*

Həsən və Hüseyn çeşməsində dayanarkən Qarabağ elatını köçürtməyə getmiş Ətaüllah Şahsevən xan gəlib ərz etdi ki, ali qafilə qayıdandan sonra elatlardan bəziləri köçməkdə ləng tərpənirdilər və bəndə hərbçilərin onların malına tələf gətirməyindən ehtiyat edərək onlarla höcətləşməyə başlamışdım. Əbülfəth xan xahiş edəndən sonra Ətaüllah xanın başçılığı altında bir dəstə tüfəngçi Əbülfəth xanın müşayiətilə bu işi yerinə yetirməyə məmur

[1]Xanişin döyüşü hicri tarixilə 18 rəbiüssani 1221-də (miladi təqvimilə 4 iyul 1806) baş vermişdi.
[2]Təəssüf ki, bu coğrafi məkanın harada olduğunu müəyyənləşdirmək mümkün olmadı. Hal-hazırda Həsən və Hüseyn çeşməsi (Çeşmeye-Həsəno Hoseyn) yalnız İsfahanda mövcuddur.

oldular və onlar tayfanı köçürüb gətirdilər. Bu vaxt Cəbrayıllu tayfası gizlicə generalın yanına getdi və rusların, habelə Cəfərqulu Ağa Qarabağinin dəstələrini köməyə çağırdılar. Adıçəkilən tayfa sərt keçidlərdən, uca dağlardan və ağacları sıx bitən meşələrdən ibarət olan Qapan mahalının yaxınlığına gəlib yetişəndə ruslar və Cəfərqulu Ağanın adamları da özlərini oraya çatdırdılar. Cəbrayıllu camaatı onların dəstəyini görüb əlini paltarın cürət qolundan çıxartdılar və tüfəngçilərlə döyüşə girdilər. Gün batanadək iki saat ərzində  qızğın vurhavur davam etdi. Nəhayət, tüfəngçilərin barutla gülləsi qurtardı. Onlardan bir neçəsi əsir düşdü, bəziləri isə döyüşdən qaçıb bir sığınacaq axtarmaqda oldular.[1]

Bu kədərli xəbər nəvvab Naibüssəltənəyə çatan kimi o, ruslardan qorunmaq üçün yaxın adamlarından olan İsmayıl bəyi və Həsən xan Qacarı bir dəstə əsgərlə irəli göndərib özü otun çoxluğundan daha münasib olan Aslandüz yolu ilə onları təqib etdi. Bu xəbəri eşidən generalın kürkünə birə düşdü və o, ruslardan bir neçəsini Pənahabad qalasında qoyub özü qalanın ətrafında dayanan rusları götürüb təcili surətdə Gəncəyə tərəf qaçdı və vadidən özü üçün sipər düzəltdi. Müzəffər qafilə Araz çayından keçəndən sonra hüzurda olanlar bunu xəbər tutdular.

### *Uca bayraqların Şirvan səmtinə dönməsi*

Şərafət sahibinin fikri o idi ki, üzünü Gəncə tərəfinə çevirsin. Əgər general Nebolsin ona qarşı çıxsaydı, gizli qeybin hicabını onun üçün açsın və yaxud mühasirəyə almaq əmrini versin. Oranın ətrafını əhatə edib bütün

---

[1]Sözügedən döyüş 20 iyul 1806 tarixdə baş tutmuşdur.

gücünü qalanı dağıtmağa və qaladakıları yox etməyə yönəltməyə buyurar. Amma müzəffər qafilə Aslandüz yolu ilə gedib Araz çayından keçən məqamda Şeyxəli xanla Hüseynqulu xandan Dərbənd əhalisinin rusların tərəfinə keçməsi və o güruhun bu tərəflərə üz tutması haqqında məktub yetişdi. Bundan əvvəl də Pirqulu xan Qacar onlara kömək etmək tapşırığını almışdı. İndi o ərz edirdi ki, zahiri ilə batini düz gəlməyən Mustafa xan Şirvani öz qardaşı İsmayıl bəyi çoxlu süvari və piyadalarla müzəffər ordunun keçidinə maneə törətməkdən ötrü Kür çayı sahilinə göndərib. Onda Abbas Mirzə rusları Dərbənddən çıxarmağı və Mustafa xanın dərsini verməyi tam mümkün və lazımlı Gəncə mühasirəsindən vacib sayıb Xorasan sərdarı Hüseyn xan Qacarı bir dəstə ən yaxşı əsgərlə təcili olaraq irəli göndərdi. Onların arxasınca zəfər nişanlı bayraqlar sürətlə irəliləməliydilər ki, Hüseyn xan Qacar öz tabeliyində olan adamlarla Kürdən keçən kimi xoşbəxt ulduzlu şahzadə çayın kənarına yetişə bilsin.

Çayın o biri üzündə olan Şirvan piyadaları dağılıb hər yana səpələndilər və Hüseyn xan yel kimi suyun üzərindən keçib o diyarın qurusuna və yaşına tar-mar odunu vurdu və yan-yörəsini talan etdi. Bu arada Şəki və Təbriz tacirlərinin bəzi malları qarət olduğuna görə geniş ürəkli sərdar onların əvəzini çıxdı. Mustafa xan Şirvani hadisələrin bu yolla cərəyan etdiyini görəndə heyran olub dəhşətə gəldi və öz adamını möhtəşəm dərgaha göndərib aman dilədi və söz verdi ki, bağışlanandan sonra bəndəlik yolunun və qulluq məsləyinin davamçısı olacaq. Dərgah xidmətçilərinin israrlı xahişlərindən sonra nəvvab Naibüssəltənənin əmrilə Nəcəfqulu xan Gorus və Ətaüllah xan Şahsevən bir müddət bun-

dan əvvəl Mustafa xanın şirvanlılarla köçdüyü Fit qalasına[1] getdilər və orada görüş vaxtı Fəriduntəkin şahzadənin necə mərhəmətli olduğunu izhar etdilər. Mustafa xan məzacı dəyişkən oldğundan hər an şəkk edirdi və fikri bir quş kimi budaqdan budağa tullanırdı. Əzəmətli şahzadənin hüzuruna gedərkən tez-tez dayanırdı. Özünə qəbahət saymırdı ki, ali qafilənin o diyara gəldiyi vaxt yarasa kimi günəşvari Bahirünnur[2] hüzurunun şüalarından uzaq dursun. Sonra şüursuz surətdə xalası oğlu Məhəmmədəli bəyi qələbəşüar rikaba yolladı ki, onun yerinə nur mənbəyinin hüzuruna gəlsin. Bunu biləndən sonra nəvvab Naibüssəltənə Kür çayından keçib Ağsuya yollandı və xoşbəxt qafilə daxil olan vaxt həzrətin yaxınlarından biri İsmayıl bəyi bir dəstə zəfərnişan qazilərlə ətraf torpaqları çaylarla və göllərlə bol olan möhkəm Şirvan qalanı almağa göndərdi və həmçinin Hüseynqulu xan Qacara digər tərəfdən də həmin yeri zəbt etməyi tapşırdı. Ardınca İsmayıl bəylə Hüseynqulu xan iki tərəfdən o qalaya yürüş edib oranı ələ keçirtdilər. Saya gəlməz qətllər və müsibətlər baş verdi. Nəvvab Naibüssəltənənin əmrinə əsasən əsirləri və onlarla məxsus çoxlu malları apardılar. Oranın əhalisini Hüseynqulu xanın oraya daxil olduğu vaxt oraya köçmüş Muradxanlının camaatı ilə yanaşı ki, toplamda altı min ailəyə yaxın idilər, əmrə müvafiq olaraq Muğana köçürtdülər.[3]

Mustafa xan Şirvani bütün bu baş verənləri müşahidə edəndən sonra halı pərişan oldu. O, Şəki hakimi Səlim xanı

---

[1]Fit qalası XVIII əsrdə Şamaxıdan 35 km aralı yerləşən Fit dağının zirvəsində tikilmişdi.

[2]Bahirünnur – nursaçan.

[3]Abbas Mirzənin sərdarları Şirvan qalasını 24 avqust 1806 tarixdə ələ keçirtdilər.

öz qüsurlarının əfvi üçün vasitəçi seçdi.[1] Zahirdə hüzura yollanmaq qərarına gəldiyini göstərsəydi belə, batində bu işə başqa çarə qılmaq fikrinə düşmüşdü. Hər gün yeni şeylər fikirləşirdi, işi bügün-sabaha salmışdı, vaxtı uzatmağa çalışırdı.

Şeyxəli xan möhtərəm rikabdan bir dəstə atlını Quba vilayətinə apardı, özü isə Bakı hakimi Hüseynqulu xanla və çoxlu adamlarla hüzura gəlməyə şərəfyab olaraq Dərbənd işinə təyin olub oranı qaydaya salmaq xahişi ilə müraciət etmişdi. Ancaq qələbə nişanlı bayrağı Ağsunun bəzəyinə çevrildiyi günlərdə savaş meydanında özünü göstərmək gücü, hədsiz taqət və bacarıq Şirvan əhalisini öz vətənlərində sakin etdi, onlar Fit dağındakı qaladan aşağı enmədilər. Cəmi bircə gün Amanullah xan bir neçə nəfərlə qarovula çıxmışdı. Onda oranın adamları bu dəstənin azlığına aldanaraq onların üstünə hücuma keçmişdilər, lakin o, hamısını öldürüb ya əsir alıb qələbə nişanlı ordugahına qayıtmışdı.

### *Pirqulu xan Qacarın və Şeyxəli xanın Dərbəndə göndərilməsi, Səlim xan Şəkinin qorxuya düşməsi və onun arxayınlaşması*

Həmin vaxtlarda Dərbənddən hörmət və izzət sahibinin sarayına saysız-hesabsız məktublar gəlirdi. Müəlliflər ona sadiq olduqlarına and içib xahiş edirdilər ki, Naibüssəltənə Şeyxəli xanla Hüseynqulu xan Bakuviyə qazilərlə birlikdə Dərbəndə getməyi buyursunlar. Nəvvab Naibüssəltənə bu tapşırığı onlar üçün vacib etdi. Mustafa xan Şirvani bir

---

[1]Bununla belə, Mustafa xan ruslarla da məktublaşıb öz millətinin düşmənlərinə xidmət etməyin yolunu axtarırdı.

neçə gündə şayiə yaydı ki, nəvvab Naibüssəltənə mərhum Xaqanın əmrilə Mustafa xan Dəvəlu-Qacarın Qarabağa səfər etdiyi ildə gözünün nurunu aldığı Səlim xanın qardaşı Məhəmməd xanı bir qoşunla Səlim xanı cəzalındırmaqdan ötrü həbs etməyə göndərib. Səlim xan sadəlövhlüyündən bu sözə inanıb öz elini Gələsən-Görəsən[1] adı ilə məşhur dağa göndərmiş və bir kəsi möhtəşəm rikaba yollayaraq özü üçün xatircəmlik qazanmaq istəmişdi. Buna baxmayaraq onun işə xilaf olduğunu görən Naibüssəltənə bərk hirsləndiyindən təxirə salmadan onun mövcudluğunun bünövrəsinə rəxnə salmağı və varlığının xurma ağacını siyasət kərkisiylə kökündən qopartmağı düşünürdü, lakin əmirlərin xahiş və iltimaslarını, habelə əvvəlki xidmətlərini nəzərə alaraq hörmətli vəzirzadə Mirzə Əbülqasıma onu Şəki əyalətində tutub nəsihətamiz sözlərin zülalı ilə qorxu tozunu yatırtmağı və göstərilən bu hakimanə mərhəmətin əvəzinə Mustafa xan Şirvanini istəsə də, istəməsə də zəfər-nişan qazilərə zəhmət vermədən ələ keçməyi tapşırmışdı. İş elə gətirdi ki, Ağsunun abhavasının üfunətli olması ucbatından orduya xəstəlik düşdü.

### *Xoşbəxt qafilənin Şirvandan geri qayıtmasına bais olmuş bəzi məqamlar haqqında*

Nəvvab Naibüssəltənə humayun əlahəzrət şahənşaha ərz edərək İrəvan hökumətinin işinin irəli getməsi, habelə qərara alınmış xidmətlərin yerinə yetirilməsi üçün Təbriz və Marağa bəylərbəyisi Əhməd xanın Mehdiqulu xan Qacardan üstün və məqsədəuyğun saydığını bildirmişdi və

---

[1]Söhbət Şəkinin Kiş kəndinin yaxınlığında yerləşən Gələrsən-Görərsən qalasından gedir.

bundan qabaq da buna dair cari şahənşah fərmanları çıxmışdı. Buna əsasən Mehdiqulu xanı hökumət başından götürüb yerinə Əhməd xanı təyin etdilər.

Əhməd xan zəruri tədarük görüb atlıları və piyadaları ilə Təbrizdən İrəvana yola düşdü. O yerlərə daxil olan kimi qala bürcünün və divarının təmirinə, eləcə də mülki və hərbi əhalinin işini sahmana salmağa məşğul oldu. Amma həmin vaxt İrəvan havasının üfunətli olması vəbanın xalq arasında yayılmasına bais oldu. Sonucda yerli əhalidən savayı xidmət etməyə gəlmiş piyada və atlılardan min altı yüz nəfəri axirət yoluna saldılar. Əhməd xanda da ağır xəstəlik peyda oldu, mərəzin şiddətlənməsindən ölümə daha bir şey qalmamışdı. İrəvandakı iş onun xəstələnməsinə görə büdrəmiş, fəallıq azalmış, onun naxoşluğu xəbəri bütün orduya sirayət etmiş, ondan ötrü ah çəkib nigarançılığa bais olmuşdu, çünki o, köhnə nökərlərdən idi.[1] Rusiya isə Pənbəkdə və Gürcüstanda oturub fürsət axtarırdı. Naxçıvan işi də Kəlbəli xanla əmisi oğlu Abbasqulu xanın aralarındakı xüsumətə görə yerində sayırdı.

Padşah sarayından xəbər gəldi ki, şah əlahəzrətlərinin diqqəti babanlı Əbdürrəhman paşa ilə Bağdad valisi Əli paşanın müstəqil hərəkətlərinə yönəlib. Onlar hədlərini aşıb iki ali dövlət İranla Rumun arasında bağlanmış əhd-peymana xələl gətirərək xilaf və nifaq tozunu qaldırmağa məşğuldurlar. Rum mənbələrindən də məlumat gəldi ki, Hüseynqulu xan Əfşarın oğlu ilə Osmanlı dövlətinin baçşıları tərəfindən Hakkari hakimi təyin olunmuş Mustafa xan arasında münaqişə yaranıb. Belə zənn olundu ki, Osmanlı ilə digər sərhədboyu sahələrdə də Bağdadda üz vermiş

[1]Bir azdan Abbas Mirzə şahın razılığı ilə İrəvan sərdarı Hüseyn xan Qacar Qəzvinini onun yerinə qoydu.

dağıntılar nəticəsində iki tərəf arasında dava düşəcək. Bu səbəbdən səfərə çıxmaq ərəfəsində sözügedən hüdudlarda mühafizənin təmin olunmaması məsələsi ortaya çıxdı.

Pirqulu xandan xəbər gəldi ki, rusların hakimiyyəti altında dərbəndlilərin evi tamam yıxılıb, badə düşkünü Şeyxəli xan daim sərməstdir, işləri başlı-başına buraxıbdır. İndi Pirqulu xan Bakı yolu ilə Cavada[1] gələcək. O gələn vaxt artıq qış yaxınlaşmışdı. Naibüssəltənə Şirvan məsələsini sonraya qoyub Ağsudan hərəkət buyurdular. Uca qafilə gedəndən sonra Mustafa xan dar yoldan bir az aralı bir çox adamını ordunun səngərinə göndərdi. Bu vaxt nəvvab Naibüssəltənə Həsən xan Qacarı bir dəstə cəld tərpənən qulamla çəndovul[2] yerinə ordunun arxasına qoymuşdular. Onlarla[3] toqquşdular, gözlənilməz bir bəla kimi başlarına düşdülər, sərkərdələrini və qoşunun bir hissəsini pərən-pərən saldılar. O güruhun bir çoxu əsir düşdü, qalanları isə qaçıb cəhənnəm oldular. Pirqulu xanı kinlilər sipahı ilə Muğana yolladılar ki, əgər məsləhət bilsə, orada dayansan. Əks halda Şirvan, Rudbar və Muğan əhalisini köçürüb Talış mahalına göndərsin. Ulduzlar qədər uca qafilə isə silah-sursat məsələsini qaydasına salmaqdan ötrü Təbriz darüssəltənəsinə qayıtdı.

### *Ali qafilənin yürüşündən sonra Mustafa xan Şirvaninin bəzi nalayiq hərəkətləri, onun Pirqulu xanla müharibəsi və məğlub olması*

---

[1]Cavad – müasir Sabirabad rayonunun ərazisində yerləşmiş inzibati vahiddir.

[2]Çəndovul – ordunun arxasında mühafizə məqsədilə gələn hissə. Öndə gələn hissəyə qarovul deyilir.

[3]Yəni Mustafa xanın adamlarıyla

Mustafa xan Şirvani Səlim xan Şəkinin yanında sığınarkən Gəncədəki ruslarla gizli sazişin əsasını qoyub o güruhun Şirvana gətirilməsinə israr edirdi[1]. Gəncədə dayanan o güruh da Mustafa xana ipucu vermişdi ki, əgər o öz adamlarıyla Gəncəyə gəlsə, onda ona yardım göstəriləcəyinin şahidi olacaqdır. Mustafa xan isə yalvar-yaxadan əl çəkmədi və bu dəfə ruslar ona bir müjdə vermişdilər ki, sözügedən məsələni Qızılyarda oturan Kodoviçə izhar etmişik, indi də onun cavabının intizarındayıq.

Lakin zəfərnişan qafilənin qayıdışından sonra Mustafa xan öz nalayiq hərəkətindən peşman oldu və daha rusları gətirməyə meyil göstərmədi, bəlkə hətta bu işə nifrət etdi. Ruslar meydanı boş görüb qəflətən Şirvana daxil oldular. Mustafa xan da salyanlılarla, talışlarla və onların dostlarıyla ədavətdə olduğuna görə o mənada təsəlli tapdı ki, rusların yardımı ilə uzun illər arzusunda olduğu Salyanda hakimi-mütləq yerinə keçər, bəlkə hələ bu arada öz tayfasını da Muğandan Şirvana gətirər. Ancaq eyni zamanda Pirqulu xanın Kür sahilində, Mustafa xan Talışın qardaşı Mir Bağır bəyin Salyanda və Hüseynqulu xanın Bakıda dayanması onun canına xof salmışdı. Amma bir azdan məlum oldu ki, Hüseynqulu xan rusların qayıdışından xəbər tutan kimi qorxu ona qalib gəldiyinə görə ailəsini və qohum-əqrəbasını yığıb Salyan yolu ilə Naibüssəltənənin dərgahına gəldi.

---

[1]Mustafa xan 1806-cı ilin sentyabrında ünvanladığı məktubda Abbas Mirzənin onu ruslara qarşı birgə vuruşmağa dəvət etdiyini göstərəndən sonra yazırdı: "Bu müraciətdən sonra Sizdən təvəqqem odur ki, padşah qoşunundan dörd yüz nəfər saldatı və bir mayoru dostların yanına yollamağı qərara alasınız ki, Şirvan qoşunu ilə birləşərək qızılbaş ordusunun bu tərəfə keçməyə qoymayaq".

Təqribən həmin vaxtlarda rus sərkərdələrindən olan Bulqakov adlı birisi Bakını boş görüb əlinə tikan batmadan o gülşənə daxil oldu. Şeyxəli xan isə məstlik aləmində olaraq təklifsiz surətdə Bulqakovla uzaqdan saziş bağladı, ikigünlük eyş-işrəti qənimət bildi. Digər yandan Salyan əhlindən bəziləri oranın hakimi Əli xanın acığına Mustafa xan Şirvani ilə ittifaqa girdilər. O, bu hadisələri müşahidə edəndən sonra canına qüvvə gəlmiş və rusları götürüb Cavada daxil olmuşdur. Pirqulu xan öz elatı ilə Talışa tərəf hərəkətdə olarkən Mustafa xan onun qoşununa gecə basqını düzətdi. Pirqulu xan mərdliyini nümayiş etdirərək ona biabırçı zərbələr endirib Kür çayının kənarınadək qovdu. Onda Mustafa xan öz camaatını ruslarla bərabər Salyana göndərdi.

Naibüssəltənənin əmrinə əsasən üç yüz nəfər tüfəngçisi ilə Salyanın mühafizəsində duran Mustafa xan Talışın qardaşı Mir Sadiq bəy Salyan əhalisinə tam arxayın idi və onlardan bəzilərinin ruslarla və Mustafa xanla saziş bağlamalarından onun heç xəbəri olmamışdı. O, öz yerində dayanmışdı və onların bir çoxunu qılıncdan keçirtdi. Lakin bu əsnada Mustafa xanın müttəfiqləri rusları onun arxasından keçirdib Salyana gətirdilər. Bunu müşahidə edən Əli xan qaçır, Mir Bağır bəylə talışlar isə əsir düşürlər.

### *Rusların Şəki hakimi Səlim xanla döyüşməsi və onun qalib gələndən sonra ləzgilərin yenilməsi səbəbindən məğlub olması*

General Nebolsin Bakıdan, Salyandan və Muğandan xatircəm olandan sonra Səlim xanı və Şəki əhalisini o vilayətdə tək görüb onlarla mücadilə etmək məqsədilə

qoşununu yığıb Gəncədən oraya yola düşdü. Səlim xan bundan qabaq nəvvab Naibüssəltənənin kargüzarından aldığı pul məbləğini ləzgi başçılarına göndərmiş və Avardan, Cardan və Taladan[1] kömək üçün çoxlu döyüşçü gətirmişdi. O, tam xatircəm olmaqdan ötrü Gələsən-Görəsən qalasınna sığınmışdı və ixtiyarında çoxlu ehtiyat, ərzaq, topxana və silah-sursatı var imış. Şəki xanı onların[2] qarşısına tələsdi, Şəki ətrafında iki dəfə üz-üzə səflər düzdülər, hər dəfə mərdliklə döyüşdü, dağ kimi ayağını səbat torpağına basdı, vüqarla davrandı, onların bədənindən toz qaldırdı, amma qədrü qəza fərmanı ilə Səlim xanın davası əsnasında ləzgi camaatı rusların top zərbələrindən dağıldılar. Səlim xan çarəsiz qalıb öz ailəsini və qohum-əqrəbasını yığıb şahzadə Naibüssəltənənin dərgahına apardı. Yürüş vaxtı ruslarla və onların tərəfdarlarıyla layiqincə döyüşdü və Kür çayından keçib Fərəcüllah xan Şahsevənlə yoldaş olub, Ərdəbil yolu ilə Təbriz darüssəltənəsinə gəlib nəvvab Naibüssəltənənin şərafətli hüzuruna yetişdi və orada dəyəri ölçüyə gəlməz bəxşişlər aldı. O, Naibüssəltənənin hökmüylə ailəsi və yaxınları ilə birlikdə Ərdəbildə yerləşdirildi.

Cavadda oturan Polkovnik Mustafa xan Talışa məktub yazmışdı ki, "əgər Şirvan, Muğan və Rudbar[3] elatlarını bu tərəfə çəkə bilsən və ruslarla münasibətdə itaətkarlıq yolunu seçsən, bu, bizim muradımızdır. Əks halda isə qantökən qılınc sənin qardaşının və əmiuşaqlarından, yerlilərindən və qohumlarından üç yüz nəfərin boynuna enəcək, tufanvari qətl və fəsad selini bu diyara axıtdıracağam. Mustafa xan Talış ona kobud cavab yazdı, öz vəziyyətini möhkəmlən-

---

[1]Yəni Zaqataladan

[2]Yəni rusların

[3]Rudbar – Gilanda bir ərazidir.

dirməyə başladı və bu yazışmanın təfərrüatlarını nəvvab Naibüssəltənənin xidmətinə ərz etdi.

*Bəzi yeni halların zühur etməsi, rus sərdarı Kodoviçin Stepanov adlı elçisinin nəvvab Naibüssəltənənin dərgahına gəlməsi və oradan möhtərəm Xaqanın dərgahına yollanması*

Həmin il Azərbaycanın vilayətlərində və İraqın Azərbaycanla həmsərhəd bölgələrində qəhətlik və qıtlıq hökm sürürdü və taxılın azlığı, samanın çatışmamazlığı və saraydakı ordu izdihamında yaranmış çətinliklər bəzi silahlı dəstələrin Naibüssəltənənin rikabında olmamasına gətirib çıxarmışdı. Bu vaxt bir tərəfdən ərzə yetişən məktubdan məlum oldu ki, rus dövlətinin nazirləri sırasından olan, hər şeydən agah, qışın soyuğundan da, yayın istisindən də çıxmağı adətkərdə etmiş qraf Kodoviç İşpoxdur adı ilə məşhur sisianlı generalın yerinə rus ordusunun sərkərdəliyinə təyinat almışdır. O, bir qoşunla Qızılyardan Tiflisə daxil olmuş, indi İrəvana hərəkət etməyi düşünür. Həmin vaxt İrəvanın yeni bəylərbəyisi Əhməd xan mərəzlərin hücumuna məruz qalaraq ölümlə əlbəyaxa döyüşündə çarpışırdı. İrəvan qalasının mühafizəsinə təzəcə gəlmiş ordu da havanın üfunətindən xəstələnmiş, oranın əhalisi isə işin bu gedişatını görüb lap təşvişə düşmüşdü.

Digər tərəfdən məruzə olundu ki, Qarabağdakı ruslar Tatevə[1] gəliblər, Əbülfəth xanla və oranın elatlarıyla dava etməyə hazırlaşırlar. Qars və Bayəzid paşaları isə Rusiya ilə möhkəm sülhün əsasını qoyublar və İrəvan elatlarını təhrik etmək fikrinə düşüblər. Naibüssəltənə Allahın

[1]Tatev – Zəngəzurda, Gorus rayonunda bir kənddir.

lütfünə təvəkkül və həzrət Risalətpənahın batininə təvəssül etmiş və əlahəzrət şahənşahın qələbə taleli silahlı qüvvələrinə arxalanmışdı. Odur ki, kövnü fəsad aləmindəki dəyişikliklərin tozu onun cəlalət ətəyinə qonmamışdı. O, qacar sərdarı Hüseyn xanı bir dəstə piyada və süvari ilə yanına çağırıb, İrəvan əyalətinin sərdarlığını və başçılığını ona həvalə edib orada nizam-intizam yaratmağı ona tapşırdı və Qarsla Bayəzid paşalarının işinə çarə qılmağı da onun boynuna yüklədi. Şahzadə o günlərdəxəstə yatan Əhməd xanı hüzuruna dəvət etdi, Pirqulu xanı Mustafa xan Talışın köməyinə yolladı və həmçinin qulamlarından birisinin başçılığı altında bir dəstə adamı Əbülfəth xanın imdadına göndərdi. Nüseyn xanın gəlişi Kodoviçi İrəvanı dağıtmaq fikrindən daşındırdı. Polkovnik məhz Pirqulu xanın Muğan çölünün əvvəlinə çatması xəbərini eşidəndən sonra bir neçə gün Şirvanda hərəkətsiz qalıb yenidən Gəncəyə qayıtdı. Tatevdəki ruslar da Əbülfəth xanın köməyinə adamların gəldiyini bilən kimi Pənahabad qalası yolunu tutdu. Şəkidəki ruslar həmçinin Səlim xanı məğlub edəndən sonra Cara və Talaya irəliləyirdilər, lakin Pirqulu xanın təyinatından sonra qayıtmağa başladılar. Bu əsnada ləzgilər və Səlim xanın tərəfdarları ki, birlikdə Carda dayanırdılar, Cankətay(?) və Avar yolu çoxlu qarın yağması səbəbindən keçilməz olduğuna görə onlarla savaşa girdilər. Nəticədə onlardan bəziləri öldürüldülər, qalanları isə qaçıb Şəkiyə döndülər.

Göylər kimi uca dərgahdan Azərbaycana piyadalardan və atlılardan ibarət çoxsaylı ordu daxil oldu. Bir hissəsi İrəvana Hüseyn xanın sərəncəmına məmur oldular, qalanları da Muğana, Pirqulu xanın yanına yollandılar. Naibüssəltənə Təbriz darüssəltənəsində zəfərin pənah

apardığı ləşgəri nəzərdən keçirərək müzəffər və əzmkar ordunun piyadaları və atlılarına çatacaq məvacibin və ənamların paylanmasına, habelə hazırlıq və tədarük işinə böyük əhəmiyyət verdilər.

Qışın soyuğu şiddətlənmiş, dərə-təpə qarla dolmuşdu. Lakin zəfərnişan qafilə hansı tərəfə irəliləyirdisə, orada o saat cəng səsi çalınırdı. Bu vəziyyəti müşahidə edən və bu işdən məna çıxaran Rusiya bir saziş bağlamaqla sülh və əmin-amanlıq qapısını üzünə açmaq qərarına gəldi. Rus padşahının əmrinə əsasən qraf Kodoviç Stepanov adlı eşikağasını Cəmşidtəkin şahənşahın sarayına göndərib vəziri-əzəm Mirzə Məhəmmədşəfinin adına yazılmış məktubu və ərməğan adına bəzi nəfis əşyaları ona[1]çatdırmağı tapşırmışdı. Ruslar təklif edirdilər ki, bundan sonra qılınclar qına salınsın və rus dövləti ilə bu əbədi dövlət arasında qarşılıqlı razılıq və sülh hökm sürsün. Adıçəkilən Stepanov Təbriz darüssəltənəsində möhtərəm hüzura gəlmək şərəfini gördü və kamına çatmış şahzadədən cürbəcür ənamlar və bəxşişlər aldı və Şahənşahın cəlallı astanını öpmək əzmilə Tehran darüssəltənəsinə yollandı.

### *Şahzadə Nəvvab Naibüssəltənənin müzəffər qafiləsinin Təbriz darüssətənəsindən hərəkət etməsi və Rusiyanın Osmanlı ordusunun əlindən məğlub olması xəbərinin gəlməsi*

Naibüssəltənə *[1222-ci ilin] rəbiüssani ayının ikisində*[2] yaxında və uzaqda ipə-sapa yatmayanlara ədəb dərsini vermək və sərhədləri möhkəmləndirmək əzmilə Təbriz darüs-

---

[1]Yəni vəziri-əzəmə
[2]Miladi təqvimilə 9 iyun 1807

səltənəsini zəfər çöhrəli əsgərlərin və bəyaz işıqlı bayraqların keçidinə şahid edib ədavət havasında qanad açdı. Müzəffər ordunun əjdəhavari od püskürən topları, şir kimi həmlə edən zənburəkləri, düşmən yaxan atlıları və atəş yayan piyadaları ilə şəhərin kənarında durduğu vaxt Osmanlı qoşununun fəthi və rus ordusunun darmadağın olunması xəbərini ehtiva edən bir məktub Yusif paşadan və bir ərizə İrəvan sərdarı Hüseyn xan Qacardan yetişdi.

Həmin xəbər ondan ibarət idi ki, Kodoviçin oğlu hər tərəfi yaxıb-yandıran dörd yüz nəfər piyadanı Axısqanın Axırkələk qalasının üstünə atıb özü də onların arxasınca düşmüşdü. Axısqa valisi Səlim paşa bu xəbəri eşidən kimi o bölgənin ən məşhur piyadalarından olan lar camaatından üç min tüfəngçini Axırkələk[1] camaatının imdadına göndərdi. Kodoviçin oğlu Bayder (?)[2] sübhi-sadiq açılmamış qalaya yürüş etmişdi. Onların hər tərəfdən qalanın divarına nərdivanlar qoyduqlarını görən qala sakinləri savaşa girdilər. Nəticədə sübh çağı Osmanlı qoşunu ruslara qalib gəldi və sağ qalanlar da qalanın bürclərindən və divarlarından düşüb qaçmaqla canlarını qurtarmağa çalışdılar. Onda osmanlılar qaladan çölə çıxıb o güruhu təqib etdilər və torpağı onların qanına boyadılar. Gecə qarğası zülmət qanadlarını dünya-

[1]Axırkələk – Axalkələk və ya Axalkalaki. Gürcüstanda, Türkiyə ilə sərhəddən təqribən 30 km aralı olan şəhərdir. Vaxtilə yerli xalqların məskunlaşdığı Axalkələki XIX əsrin əvvəllərində işğal etmiş ruslar Cənubi Qafqazın digər yerlərdə olduğu kimi oraya da İrandan və Osmanlı dövlətindən erməniləri köçürtdüyünə görə hal-hazırda sözügedən şəhərin böyük əksəriyyətini ermənilər təşkil edir..

[2]Qudoviçin bu adda oğlu olmayıb. Əlimizdə olan məlumata görə onun Andrey və Kiril adlıoğullarının ikisi də hərbçi olmuş, general rütbəsinə qədər yüksəlmiş, lakin heç biri Qafqazdakı döyüşlərdə iştirak etməmişdi.

nın bu tayından o tayınadək açana qədər savaş davam etdi. Kodoviç öz ordusu ilə ağır zərbə aldı və osmanlı ordusunun cəsarət ilə igidliyi onun səbat ilə mətanət səddini yardı. O, Tiflis hüdudlarına qayıtdı və osmanlılar 550 nizə, çoxlu silah-sursat və 5 lülə top qənimət aldılar.

### *Zəfərnişan qafilənin Təbriz darüssəltənəsinə qayıdışı, işbilən səfir Mirzə Məhəmmədrza Qəzvininin general Qardanla və digər sözbilən elçilərlə kamına çatmış Xaqanın sarayına gəlişi və Əsgər xanın səfirliyə təyin edilməsi*

Nəvvab Naibüssəltənəvəlxilafə həmin il özündə olan o fitri qeyrətin, himmətin və cəsarətin tələbi ilə rikabında hazır durmuş ordunu rus ordusunun üzərinə aparmaq qərarına gəldi. O, Cəmşid kimi möhtəşəm şahənşahın yüksək xidmətinə bu xüsusda dəfələrlə xahiş və iltimasla ərz etmişdi. Ruslar elçilərinin vasitəsilə təkrar-təkrar sülh sözünü dillərinə gətirib əbədi dövlətin başçıları qarşısına atəşkəsin elan olunması və barışın şərtlərini ortaya qoyurdular. Ağıl və zəka göstəricisi olan dünyanı bəzəyən şahənşah rəyi şahzadə Naibüssəltənəyə kin və ədavət tozunu yerə çırpıb hərb və savaş atəşini alovlandırmağa izin vermirdi.

Buna görə və həmçinin payız yaxınlaşdıqca ordunun yürüşünə tələbat yarandığı səbəbdən ulduzlar qədər əzəmətli qafilə çöldən çıxıb *[1222-ci ilin] rəcəbülmürəccəbin on səkkizində* öz gəlişiylə Təbriz darüssəltənəsini ziynətləndirdi. Hər gün Bəhramintiqam əsgərlərin nizam-intizamına və döyüş hazırlığına sərf olunur, günəşvari şahzadənin fikri rəiyyətlərin rifahına və ordudakı piyadalarla süvarilərin təchiz edilməsinə yönəldilmişdi. Əsgər qışlağında üç dəstə

təşkil olundu və hərəsi bir sərhəddə təyinat aldı ki, ehtiyac yarananda döyüşə amadə olsunlar. Gündəlik məşqlər yeni hərbi qaydalarını mənimsəməyə istiqamətlənmişdi. Bundan öncə Fransaya elçiliyə göndərilmiş gözəl natiqlik qabiliyyətinə malik və işini yaxşı bilən səfir Mirzə Məhəmmədrza Qəzvini *mübarək ramazanın səkkizində* geri qayıtmışdı. Napoleon onu əzizləyib dostluq əlaməti olaraq əməkdaşlıq və həmrəylik bayrağını qaldırmışdı. Ondan sonra o, özünün yaxın adamları sırasında yer alan və on iki minlik ordunun sərdarı olan general Qardanı[1] iyirmi dörd nəfər digər adlısanlı, təcrübəli hünər və fərasət sahibi ilə İrana yolladı və həmçinin Mirzə Məhəmmədrza Qəzvininin vasitəsilə dost məktubunu və məhəbbətlə dolu əhdnaməni xoşbəxt Xaqanın və şahzadə Naibüssəltənənin xidmətinə göndərdi.

Əhdnamənin qısa məzmunu belədir: Napoleon öhdəsinə alır ki, Rusiyanı istər savaş, istərsə də barış yoluyla Gürcüstandan və onların işğal etdikləri digər vilayətlərdən çıxardacaq və bu iş həll olunmayınca Rusiya dövləti ilə heç bir sazişə getməyəcək. Bu halda İran dövləti də dostluq əlaqələrini nəzərə alaraq onun Hindistana daxil olmasına dəstək verəcək.

Mirzə Məhəmmədrza və Təbriz darüssəltənəsində elçi olan general Qardan Naibüssəltənənin xidmətinə təşrif gətirib Napoleonun məktubunu təqdim etdilər və bu vaxt növbənöv lütflərlə ehsanlar gördülər.

Nəvvab Naibüssəltənə sarayın ən böyük adamlarından, bilik və rütbə sahibi olan quryasovulbaşı[2] Fətəli xan Nurini elçilərə mehmandarlıq etməyi tapşırmışdı və onlar *ramazan*

---

[1]Qardan – general Klod Matyö de Qardan (1766-1818). İmperator Napoleon Bonapartın yavərlərindən olub.

[2]Quryasovulbaşı – xüsusi tüfəngçilər dəstəsinin başçısı.

*ayının on ikisində* Cəmşidtəkin Xaqanın dərgahına yollandılar. Onlar Tehran darüssəltənəsinə gələndən sonra kamına çatmış Xosrov onlar barəsində cürbəcür lütf-iltifatlar göstərmiş, general Qardana "xan" ləqəbini bağışlamış və onu müşayiət edənləri də saysız-hesabsız nəvazişlərlə fəxrləndirmişdi. Bundan sonra səltənət təxtgahından Əsgərxan Əfşar Urumi adlı bir sərkərdə hərtərəfli tədarük görüb Fransaya səfir getməyə təyin olundu. Səma mərtəbəli əlahəzrət və nəvvab Naibüssəltənə vəlxilafət tərəfindən onun vasitəsilə yadigarlar qismində nəfis əşyalar və mümtaz töhfələr və dostluğun başlanğıcına bir addım mənalı məktub göndərildi.

### *Xoşbəxt hicri min iki yüz iyirmi üçüncü ildə[1] baş verən hadisələr: rus sərdarı Kodoviçin əhdinə xilaf çıxması, onun saysız-hesabsız qoşunu ilə İrəvanın üstünə gəlməsi və orada məğlub olması*

Bu xoşbəxt ilin yazında nəvvab Naibüssəltənə döyüş avadanlığının və silah-sursatın tədarükünə başladılar. Ölkələri fəth edən Xaqan da qərara gəldi ki, dənizdəki dalğalar qədər çoxsaylı hərbi dəstələr ali əmrlərə müntəzir olub döyüş vaxtı hərəkətə keçsinlər. Nəvvab Naibüssəltənə ürəyində tutmuşdu ki, rus ordusu irəliləmişdən öncə onların üzərinə atılarlar. Bu vaxt rus sərdarı Kodoviçdən bir atlı padşah sarayına yollandı. Onun ölkələr fəth edən Xaqandan istədiyi sülh və əmin-amanlıq olmuşdu. Eyni vaxtda bir məktubu Fransa dövlətinin elçisi general Qardan xana da göndərilmişdi. Onun xülasəsi bu idi ki, Fransa və Rusiya dövlətlərinin ittifaqını nəzərə alaraq rus dövləti İranla

---

[1]Miladi təqvimilə 1808/9

dostluq etməyə və saziş bağlamağa meyillidir və bu mürəkkəb işi dərindən araşdırıb başa vurmağı general Qardan xanın bacarığı öhdəsinə buraxır. Pak ürəkli səfir onun istəyini hökmdarın eyvanında ərz etdi. Ölkələri fəth edən Xaqan cavablarında buyurdular: – Kodoviçin bu mətləbi izhar etməkdən məqsədi hoqqabazlıqdan, hiyləgərlikdən, gözə kül üfürməkdən və hay-küy salmaqdan başqa bir şey deyil və bunu israrla ifadə etməyindən də arzusunun düşmənçilik arzusu olması bilinir.

General tayı-bərabəri olmayan hökmdarın hüzurunda olarkən bəzi dəlillər gətirməyə çalışdı və saziş işinin sonunda göylər qədər möhtəşəm Xaqanın xidmətindən məzun və mürəxxəs oldu. O, ali astanada qəbuldan Kodoviçə məlumat verdi və o[1], rus topxanasının polkovniki baron Verdini[2] yollayıb özünün Naibüssəltənəyə və general Qardan xana sonsuz dərəcədə minnətdar və duaçı olduğunu ifadə etmiş və özü keçən ilki Axısqa və Yilamşı məğlubiyyətinin əvəzini çıxmaq üçün Tiflisdən Pənbək hüdudlarına hərəkət etdi. Nəvvab Naibüssəltənə nəcib nəsildən olan Mirzə Büzürg ləqəbli vəzir Mirzə İsanı fələk kimi uca, dünya Xaqanın dərgahına göndərib vəziyyəti cəlalət mənbəyinin ərzinə çatdırdı. Misli-bərabəri olmayan döyüş sursatının hazırlanmasına və şir ürəkli əsgərlər ordusunu yollamağa hökm verdi. Çəməni-Sultaniyyədə humayun rikabda olan general Qardan bundan agah olur və şahın hüzurunda ərz edir ki, Rusiyanın İran və Fransa dövlətlərinin dostu olduğunu nəzərə alaraq ruslarla dava üçün tədarük görməyin mənası yoxdur. Ona məlumdur ki, həmən-həmən Fransa padşahının paytaxtı olan Paris darülmülkdən bir qasid

[1]Yəni Qudoviç

[2]Verdi – ehtimal var ki, bu şəxsin soyadı Verton olub.

təcili gəlib Rusiyanın İran sərhədindən ordusunu çıxartmağa başladığıyla bağlı xəbər gətirməlidir və madam ki, məsələni mülayim yolla həll etmək mümkündür, düşmənçiliyə yol vermək ağıllı hərəkət olmaz. Odur ki, hazırkı payız fəslində qisas alan ordu öz yerinə qayıtmalıdır ki, yaz vaxtı Hindistana yürüş etmək haqqında düşünsünlər[1].

Tayı-bərabəri görünməyən hökmdar buyurdular ki, əgər Kodoviçin Pənbək mahalında dayanmaqdan həqiqi məqsədi İrəvana irəliləməkdirsə, o, qəflətən İrəvan qalasını ələ keçirməyə cəhd göstərəcək və bu halda, qaladakıların döyüş qabiliyyətinin olmamasını nəzərə alsaq, onların işi müşkülə düşəcək. General belə bir əhdnamə gətirdi ki, əgər rus tərəfindən İran igidlərinə qarşı dava başlamağa bir cəhd olsa, o, cah-calal sahibinin sarayında bir günahkar kimi qalacaq və eyni zamanda padşaha yaxın olan o şəxsə iddia irəli sürdü ki, əgər Naibüssəltənə özü rusları qabaqlayıb belə bir hərəkət etsə, onda Ərəstutəkin vəzir dünya sultanının qarşısında cavab verəcək və şahənşahın qəzəbinə tuş gələcəkdir. Qələbəçalan hökmdarın hüzurunda təminat sənədi yazdılar, möhürlədilər və bir-birinə ötürdülər. Qərara aldılar ki, ortada olan danışılmış qaydaya əsasən tərəflərdən heç biri qanqaraldıcı və dilxoredici hərəkətə yol vermir və bu müddət ərzində şirovlayan döyüşçülərin qılıncı bekar, qının hicabında qalacaq və hər iki tərəf döyüşməkdən və savaşmaqdan asudəhal olacaqlar.

Xoşbəxt Xaqan dünyaya sahib olma qaydalarına və məntiq qanunlarına riayət edərək pak ürəkli vəzirə müzəffər ordunun bütün xəzinəsi ilə avadanlığını aparmağı

---

[1]Fransanın öz ordusunu tezliklə İrana çatdırıb oradan İranın silahlı qüvvələrilə bərabər Hindistanın istilasına yola düşücəyi barədə Napoleonun İrana verdiyi puç vədlərə bir işarədir.

təkidlə buyurdular. O əməli-saleh isə generalın xatirinə ucsuz-bucaqsız ordunu Azərbaycana çəkməyi lazım bilməyib padşah dərgahından rüsxət alıb ordusuz və silah-sursatsız Xoy bölgəsində kamına çatmış şahzadənin qələbə nişanlı rikabına gəldi.

Təqribən o radələrdə Kodoviçin təcili elçisi general Qardanın yanına gəldi və onun məktubunun məzmunundan məlum oldu ki, "hərçənd Rusiya və Fransa dövlətlərinin arasındakı dost əlaqələri İran və rus dövlətləri arasında da zərurət qarşısında belə münasibətlərin binasının qoyulmasına əsas yaradır, lakin bu saat rus padşahından əmr gəldi ki, İrəvana yola düşüm və indi ürəyimdə bir arzum var ki, sənin vasitənlə sülh işi murad aynasında əksini tapsın". General Qardan xan bəzi şərhləri qələmə alıb öz yavəri Lajarı Kodoviçin elçisi ilə bir yerdə onun yanına göndərdi. Lajar yolda bərk xəstələndi və bir azdan onun ünvana çatması xəbəri gəldi.

### *Kodoviçin əhdnaməni pozması, onun İrəvanın üzərinə gəlməsi və sərdar Hüseyn xanın ruslarla müharibəsi*

Kodoviç miqdarı hesaba gəlməyən adamlarıyla İrəvan istiqamətində irəlilədi və general Nebolsinə də Qarabağdan Naxçıvana getməyi tapşırdı və beləliklə boynuna almış olduğu  öhdəliyi pozdu. O, xəyala varmışdı ki, bəlkə də köhnə arzu tingi bar gətirər və o, məmləkətlərin sərhədlərini yara bilər.

Həmin vaxt nəvvab Naibüssəltənə şah yolunda əhdinin üstündəasimanın əsası kimi möhkəm dayanıb mürüvvət və cəsarət bayrağını göylərə ucaltmışdı. O, savaşmaq və döyüşmək haqqında heç düşünmürdü və əhdin pozulmasını

görəndən sonra yaranmış vəziyyət barədə tayı-bərabəri olmayan hökmdarın sarayına ərz etdi və o güruhun gəlişini işin sonu kimi dəyərləndirib onlara daha lütf ilə etinanın göstərilməsini mənasız bildi.Ondan sonrazəfər bayrağı altında birləşmiş bütün piyadalarla atlıları iki hissəyə böldü: Təbriz cəzayirçiləri dəstəsini və Marağa sərbazları dəstəsini tüfəngçi qulamlarla, böyük toplardan atan topçularla, Astrabad, Dəmavənd və Kirman tüfəngçilərinin dəstəyi ilə və İrəvan sərdarı Hüseyn xanın qardaşı Həsən xanın xidmətində olan və İrəvan qalasının mühafizəsində duran Xorasan qulamları ilə birgə göndərdi və onların layiqli surətdə qalanın qorunmasında dayanmalarına təkid etdi. O, həmçinin bir çox Təbriz və Xoy sərbazlarından, habelə bir ədəd Məqsudlu[1], Çənasək[2], Xandüzi[3] tüfəngçilərindən və sərkara məxsus qulamlardan quryasovulbaşı Fətəli xan Nuriyə və Naxçıvana yolladı.

Cah-calal sahibinin ulduzlar qədər möhtəşəm qafiləsi Xoy bölgəsinə daxil oldu. Həmin işə əncam verəndən sonra dünyanı fəth edən Xaqanın hökmünə əsasən bundan öncə silah-sursatlı qoşunu ilə Baban valisi Əbdürrəhman paşanın oturduğu Süleymaniyyəyə getmiş nəsəqçibaşı[4] Fərəcüllah xan aldığı tapşırığı yerinə yetirib padşahın əmri əsasında şahzadənin xidmətinə yollanaraq qoşunu ilə Xoy bölgəsinə gəldi. Digər tərəfdən Xəmsə hakimi Amanullah xan iki min süvari ilə Xəmsədən Xoya daxil olub hüzura gəlmək şərəfinə layiq görüldü.

---

[1]Məqsudlu – qaşqayların tirələrindəndir.
[2]Çənasək – Qəzvinə yaxın bir yerdir.
[3]Xandüzi (və ya Xandüzü) – Aldərənin kəndlərindəndir.
[4]Nəsəqçibaşı – Qacarlar dövründə nizam-intizama nəzarət etməyə və cəzaları yerinə yetirməyə məsul olan xüsusi bölümün rəhbəri.

Naibüssəltənə döyüşə hazır ordusu ilə Xoydan hərəkət edib Rusiya ilə döyüşmək əzmi ilə irəliləyirdi. Birinci mənzildə nəzərlərinə çatdırdılar ki, sərdar Hüseyn xan İrəvanın bədnijad kürdlərindən çoxlu süvarini və tabeliyində olan digər bölmələri Kodoviçin gəldiyi yola apardı. Kodoviç İrəvan torpağına ayaq basan kimi iki qüvvə qarşı-qarşıya gəldi və sərdar Hüseyn xan döyüşə girişdi. Ruslar vaxt itirmədən top atmağa başladılar. İrəvanın kürdləri aralarından heç bir nəfər belə xasarət almasa da, vəhşi çöl heyvanları kimi yerindən qalxıb vadiyə qaçdılar və oradan öz elinə tələsik getdilər, mal-qaranı və əllərinə keçən hər şeyi götürüb Araz çayının o biri tayına keçdilər. Sərdar nə qədər səy göstərsə də ordunun azlığını və bədxahların çoxluğu ucbatından müharibə etməyin sərf etmədiyini görüb yenidən öz səngərinə qayıtdı.

Naibüssəltənə bu xəbəri eşidən kimi dərhal Fərəcüllah xanı Çors[1] yolundan və Amanullah xanı Naxçıvan yolundan onların köməyinə göndərdi və Əhməd xan Müqəddəmə Naxçıvanın sərhədini mühafizə etmək üçün o tərəflərə getməyi buyurdu. Ondan başqa, neçə vaxt Qaracadağ, Ərdəbil və Mişkin sərhədi döyüş meşəsi şirlərinin üzünə həsrət qaldığına görə və o hüdudlara bir qoşun təyin etməyin məqamı çatdığına görə, Əmir xan Qacarı böyük dəstəsi ilə, topxanası və zənburəkxanası, piyadaları və atlıları, saysız-hesabsız silah-sursatı və avadanlığı ilə Muğana və Qaracadağ qışlaqlarına tərəf yolladı, zəfərçalan qafiləni isə hələ yeni nizama yaxşı öyrəşməmiş Fərahan və Kəzzaz əsgərləri ilə Çorsda yerləşdirdi. İki-üç gündən sonra ağıl-zəka sahibinə aydın oldu ki, Kodoviç Fərəcüllah xanla Amanullah xanın İrəvana gəlişindən əvvəl İrəvan qalasını

---

[1]Çors – Maku yaxınlığında bir qədim kənddir.

mühasirəyə almaq istəyib və general Simandroviçi (?) böyük qüvvə ilə Şəruru almağa göndərmişdi. Onda özünəməxsus igidliyinə və fitri qeyrətinə üstün gələ bilməyən Sərdar öz ağruğunu qoyub Simandroviçlə savaşmaqdan ötrü döyüş bayrağını qaldırdı. O, nəzərdə tutmuşdu ki, döyüşün başında düşməni qızışdırmaq üçün savaşmaqdan geri dönəcək və sonra onların qanını töküb torpağı ləl və mərcanla həmrəng edəcəkdir. Düşmən də cürətini bir yerə yığır, süvarisi piyadadan uzaq düşür və təqibə başlayır. Ondan sonra sərdar döyüşə girir, yüyənini geriyə çevirir və onların saldatlarını qırmağa və həmçinin həmin hücumla piyadaların da özülünü darmadağın etməyə əl atır. İş elə gətirir ki, sərdar geri döndükdə çöldə yerdən qəliz toz qalxır və iki ordu bir-birinə girir. Havada toz-torpağın çoxluğundan dostu düşməndən ayırmaq olmur. Sərdarın silah-sursatını daşıyan nəqliyyat bu vəziyyəti görüb hərəkət etməyə başlayır. Sərdar toz-torpağın içindən çıxmaq və savaşı lazımi məcrada aparmaq məqsədilə döyüş meydanını diqqətlə nəzərdən keçirir və o toz-torpaqdan bir az kənara çəkilir. Birdən ordusu onu gözdən itirir, döyüş meydanında onu görmürlər və hansı tərəfə getdiyinə əmin olmadıqlarına görə ürəklərinə xof və qorxu düşür. Ordu pərakəndə halda, dəstə-dəstə ayrı-ayrı yerlərə səpələnir, əksəriyyəti də özlərini silah-sursat arabalarına çatdırır. Sərdar yanında olan bir dəstə qulamları ilə döyüş əzminin içində aşıb-daşdığı halda bir neçə nəfəri yaraladı və öldürdü. Həmin gün Fərəcüllah xanla Amanullah xan tabeliklərində olan qazilərilə sərdara qoşulub dağılmış ordunu yenidən bir yerə yığdılar. Naibüssəltənə belə səhlənkarlığa və süstlüyə görə ordudan bir neçəsini edam və siyasət buyurdu.

Bundan sonra Hüseyn xan, Fərəcüllah xan və Amanullah xan ordunun bölmələrini və hissələrini tərtib edib Rusiya müharibəsinə yollandılar. Ruslar qaniçən ordunun istedadını və təchizatını görəndən sonra dava etməyə meyil göstərmədilər, kürklərinə birə düşdü. Adları çəkilən sərkərdələr pusquda oturub döyüş intizarında idilər.

### *Nəvvab Naibüssəltənənin Naxçıvandakı ruslarla müharibəsi*

Həmin vaxt Naibüssəltənənin savabgöstərən rəyinə məlum oldu ki, Əhməd xan Müqəddəm Naxçıvana yollanan ruslarla savaşmaqda tərəddüd etmiş və ruslar Naxçıvanın həndəvərinə gəliblər. Təbii qeyrəti buna dözə bilmədi və hələ rikabında tam hazır olmayan ordusunu Rusiya ilə müharibəyə qaldırdılar. Bu vaxt ehtiram sahibinin hüzuruna ərz etdilər ki, Nəzərəli xan və Ərdəbil hakimi və naibi Fərəcüllah xan Nəcəfqulu xan Gorusdan ki, qalada vəziyyəti nizama salmaqdan ötrü oraya göndərilmişdi, çox şübhələniblər və öz elləri ilə aradan çıxdılar. Onlar İşpoxdurun qətlinin əsas səbəbkarı olmuş Hüseynqulu xan Badkubeyini də tutub Mustafa xan Talışın iqamətgahı olan Ləngərkünan[1] istiqamətinə yollanıblar. Mustafa xan da onlarla birgə və qonşu olmağını nəzərə alaraq bu hadisədən qorxuya düşüb hamılıqla Rusiyaya zərbə vurmaq arzusu ilə o tərəfdə oldular[2]. Naibüssəltənə xaliqə təvəkkül edib Çorsdakı mənzildən çıxdı və Araz çayının kənarına gedib Naxçıvan şəhərinin yarım fərsəngliyində dayandılar. Sərdar Hüseyn xana və hakim Fərəcüllah xana yazıldı ki,

[1]Ləngərkünan (yəni lövbər salınan yer) – Lənkəran şəhəri.
[2]Mətndəki bu cümlədə qarışıqlıq var.

Amanullah xana məxsus bir dəstə süvarini möhtərəm rikaba göndərsinlər. Onlar İrəvan qalası məsələsində arxayın idilər. Ondan əlavə onların Rusiyaya tabe olmaq meyli olmayan tayfasından bəziləri Araz çayından keçdilər, bəziləri isə Qarsa yönəldilər və rusların hücumundan qorunmuş vəziyyətdə idilər.

Hüseyn xan, Fərəcüllah xan və Amanullah xan bir-birinə güvənib öz rikabında olan qaziləri götürüb və Sadiq xan İzzəddinlu-Qacarı bir dəstə Urmiya əfşarları ilə Şərurda qoyub yüksək sürətlə irəliləyərək aliməqam şahzadənin rikabına qoşuldular. Belə bir vəziyyətdə rus qoşunu Naxçıvanın Qarababa kəndinə yaxınlaşdı.

Cavanbəxt şahzadə öz nəfis nəfsiylə düşmənin bütün keyfiyyətini və kəmiyyətini müşahidə edirdi. Onların dayandıqları yer yüksəklikdə idi və ətrafda başqa bir hündür yer olmamışdı. Belə yüksək mövqeyə piyadanın və süvarinin yürüməsi mənasız və faydasız idi. Bununla belə sərkərdələr düz yolu rusları mühasirəyə alıb onlarla savaşa girməkdə görürdülər. Nəvvab Naibüssəltənə onları görmək üçün oraya yollanaraq durbinlə ərazini nəzərdən keçirtdilər və gördülər ki, Sisianın Kötəli[1] tərəfindən Qarababadakı rusların imdadına böyük qoşun irəliləyir. O, sərdar Hüseyn xana və Amanullah xan Əfşara topxana əsgərlərinin sərhəngləri olan Məhəmməd xan Zəngənənin və Məhəmməd bəy Qacar Əfşarın dəstəsi ilə sağ tərəfdən, Fərəcüllah xan Əfşara və Əli xan Qacara isə Hatəmxan bəy Dünbülinin və Nəbi xan Kəzzazinin (onlar da odpüsgürənlərin başçıları idilər) dəstəsi ilə sol tərəfdən ruslarla müharibəyə girmək hökmünü verdi. Təbriz sərbazları dəstəsi öz igidliyi və çe-

[1]Kötəl – Kötəl dağı. Hal-hazırda Azərbaycanla Ermənistanın arasındakı sərhəddin üstündə yerləşir.

vikliyi hesabına o dağa qalxıb ruslardan bir neçəsini oradakı qüllədən aşağı daş kimi yuvarlatdılar və hər qarış torpaqda qorxmaz rusların bədənlərindən qan selini axıtdılar. Zəfərnişan əsgərlərin səylərilə dağdakı qüllənin rusların əlindən çıxması yaxınlaşmaqda idi ki, birdən arxadan onlara yardım yetişdi və döyüş meydanı o qoşunun qaldırdığı tozdan qapqara oldu. Düşmən süvarilərin arxasından gəlib savaşmağa başladı. Süvarilər döyüşə bilməyib ağır zərbə aldılar və özlərini düşmən əsgərlərinin iki tərəfdən əhatəyə aldıqlarını gördülər, başçıları Məhəmməd bəyin ölümcül yaralanmasından sonra lap çarəsiz qaldılar. Onlar nizam-intizamı hər şeydən üstün tuturdular. Hər nöqtədə döyüşə-döyüşə tam qayda-qanunla özlərini mərkəzə çatdırdılar. Ruslar da mərkəzə doğru atıldılar. Süvarilər onların üstünə həmləyə atılıb ruslardan yüz əllisinin başını öz süngüsünün bəzəyi etdilər, qalanları da geri oturtdular. O döyüşdə iki tərəfdən minə yaxın adam qətlə yetirildi. Qayıdan vaxt üç lülə topu meydandan çıxara bilmədilər və onların topçuları buna görə töhmət aldılar.

### *Naibüssəltənənin Araz çayından keçməsi və müsyö Lajarın general Qardan xanın yanından Kodoviçin yanına gəlməsi*

Ruslar Naxçıvana daxil olanda yerli rəiyyətlər malqarasını götürüb öz məskənindən Arazın bu tayına, Araza bitişik olan və Çam dərəsi adlanan yerə köçdülər. Bu vaxt nəvvab Naibüssəltənə ordununİrəvan qalasına ziyan vurmaması üçün Araz çayından keçib öz müzəffər ordusuna Qapanbasan adlı yerdə dayanmağı tapşırdı və Əli xan Qacarla qulamların başçısı İbrahim xanı bir dəstə atlı ilə

Naxçıvandakı rusların dərsini verməyə yolladı. Əli xan Naxçıvana çatan kimi qəflətən səngərdən kənarda dayanan bir neçə rusu öldürdü və dəhşətə gəlmiş ruslar oradan köçüb Naxçıvan şəhərinin xarabalıqlarında özləri üçün səngər düzəltdilər. Əli xan çoxlu qənimət alıb müzəffər qafiləyə qoşuldu.

Həmin vaxt aliməqam şahzadə Ərdəbil və Muğan sərdarını gücləndirmək istədi. Əmr gəldi ki, adıçəkilən sərdar Talış və Ərdəbil hakimlərinin qorxusunu aradan götürsün. Lövhi-məhfuzda nə varsa və alın səhifəsində qəza qələmi nə yazıbsa, o da büruza gələcəkdir. Bu sözə müvafiq müsyö Lajar Jardan lap əldən düşmüş halda, xəstələrə xas zəifliklə və can yorğunluğu ilə ordugaha gəlib ali zühura şərəfyab oldu və general Qardan xanın yazdığına və istəyinə izin verməyin üstündə israrla durdu. Həzrətin ətrafında dayananlar onun bu əməlinə nə qədər mane olmağa çalışsalar da, onların sözləri qəbul edilmədi. Yola düşərkən ərzə çatdırdı ki, firəng hökmdarları arasında belə bir adət var ki, səfir sülhə nail olmaq məqsədilə iki düşmən arasında get-gəl edib vasitəçilik işini yerinə yetirər. Hədəf də odur ki, o qayıdarkən artıq qılınclar qına salınmış olsun. İndi bu bəndənin xahişi odur ki, Naibüssəltənə bu günlərdə öz dünyayaxan ləşgərini hərb və savaş meydanından geri çəksin ki, generalın irəli sürdüyü sazişin əlamətləri üzə çıxsın və o, bu işdən üzüağ çıxa bilsin. Naibüssəltənə onun bu xahişindən sonra Qapanbasan mənzilindən qalxıb yenidən Çors qəsəbəsinə qayıtdı.

Müsyö Lajar Kodoviçə qoşulub onun cavabını dinlədi və anladı ki, İrəvan qalası hərb və qəhr yolu ilə rusların əlinə keçəcək və arada qaladakılar tələf olacaqlar. Onda o,

“əlməmur məzur”[1] ifadəsini əsas tutaraq çoxlu səylər göstərdi ki, qalanın hakimləri və mühafizə edənləri döyüşsüz-itkisiz qaladan çıxıb İrəvanı ruslara təslim etsinlər və öz vətənlərinə yollansınlar. Kodoviç də özünə sərf etdiyinə görə bu sözləri qələmə alıb Həsən xan Qacara və qala əhlinə göndərdi. Boyun əyməyənlərin cavabı isə top-tüfənglə gəldi. Simandroviç də qəflətən çoxlu adam yığıb Maku tərəfə yollandı, orada yerli rəiyyətləri talan edib mal-davarlarını apardı və İrəvana qayıtdı. Nəvvab Naibüssəltənə sərdar Hüseyn xana, Fərəcüllah xan Əfşara, Sadiq xan Qacara və Amanullah xan Əfşara qoşunu götürüb rusların üstünə getməyi və qaladakılara kömək etməyi tapşırdı. Lakin zəfərin pənah gətirdiyi qoşun o hüdudlara daxil olarkən elə güclü qar yağmışdı ki, nə atlının döyüşməyə gücü, nə də atın yeriməyə imkanı oldu. Onlar da çar-naçar qayıdıb qələbənişan qafiləyə qoşuldular.

*Rusların İrəvan qalasına yürüşü, tayı-bərabəri olmayan Xudavəndin köməyi ilə onların darmadağın edilib qətlə yetirilmələri, Gürcüstan tərəfə qayıtmaları və güclü şaxta səbəbindən yolda bəzilərin aradan getmələri*

Sərdarlar qayıdandan sonra Kodoviçdə arxayınçılıq yarandı. O, düşmənovlayan şirlərin meşədən getməyini görüb öz işini istədiyi kimi görə bilərdi. O başa düşürdü ki, ordusunun pərən-pərən düşmək qorxusu var. Ona görə fürsəti qənimət bilib hava soyumağa başlayan kimi bütün ləşgərin yürüşünə hazırlıq görməyə başladı. Qala divarı torpaq təpəciyi ilə əhatə olunmamışdı. Ordu top mərmiləri ilə di-

[1]Əlməmur məzur – əmri yerinə yetirən üzrlüdür. O halda deyərlər ki, bir adam başqasının əmrini yetirərkən etirazla qarşılaşır.

varı iki-üç zira’[1] boyda xarab edəndən sonra saldatların oradan gedib-gəlməsi asanlaşdı.

*Şəvval ayının doqquzu* gecənin sübhi-sadiqə yaxın çağında İrəvan qalasını ələ keçirmək məqsədilə hər tərəfdən yürüş etdilər. Bu gecənin arzusu ilə gecəni gündüzə qatan qala qoruyucuları İrəvan qalasının dar divarları arasında daim müharibə istəyi ilə yaşayırdılar. Onlar bu halı müşahidə edəndə bir növ şövq duyğusunu hiss etdilər və ad-sanlarını yerə salmamaq üçün təlaşa düşdülər. Sanki hicran yükünü çəkən aşiq uzun müddətdən sonra öz məşuqəsini tapdı və onu görməməkdən ümidsizliyə qapandığı neçə vaxtdan sonra göz önündə olduğunu gördü. Onlar birdən hər küncdən-bucaqdan irəli atılıb öz qantökən xəncərlərini və qanfışqırdan qılınclarını və qığılcımsaçan tüfənglərini əllərinə aldılar və qalanın bürclərində və barılarında döyüşə hazır və savaşa müntəzir halda sıraya düzüldülər, öz ovlarını tutmaq üçün pusquda oturan qəzəblənmiş şirlər kimi dişlərini sıxdılar. Bu vaxt rusun bütün ordusu xəndəkdən keçib qalanı almaq üçün hazırlanmış xüsusi avadanlıqları və nəhəng nərdivanları qala divarının altına gətirdilər, hər yandan o nərdivanları divara söykətdilər və tüstü kimi qalxmağa başladılar. Onlar divara dırmaşmaq üçün ayaq basan kimi islam igidləri hər tərəfdən şam və məşəl yandırıb rusları dəf etmək üçün qüdrətli əllərini işə saldılar. O biri yandan da Həsən xan Qacar birdən bərk xəstələndiyindən hərəkət etmək iqtidarında deyildi. Buna baxmayaraq o, padşahın zəfərnişan taleyinə arxalanaraq qala qoruyucularının mübarizəsini lazım olduğu kimi idarə edirdi.

---

[1]Zira’ – təqribən 0, 47 metrə bərabər uzunluq vahidi.

Əşrəf xan Dəmavəndi Yaradanın əmri ilə Mirzə Əlinəqi xan Astrabadi, Kəlbəli xan Qacar və digər sərkərdələrlə divarın topla dağıdılmış tərəfinə yönəlib döyüşməyə başladılar. Xorasanın tüfəngçi qulamları, Naibüssəltənəyə məxsus tüfəngçi qulamlar və digər sərkərdələr, ordu vahidləri və düşmənəzən sərbazlar möhkəm dayanaraq qəhredici əllərini yağılara uzatmışdılar. Onlar qəhrəmanlıqla nərdivanlara ayaq basmış igid ruslardan hər birinə tüfəngin qundağı ilə zərbə endirib qurban göyərçini kimi yerə yıxırdılar. Hər yandan əjdəhaağız tüfənglər bağırır və yersilkələyən topların fəğanından qiyamət qovğasının əlamətləri aşkar görünürdü.

Şeir[1]

Bütün ruslar yıxılmış qanlı torpağa,
Nizə zərbəsindən sinələr çat-çat.
Mərdlərin bədənləri iti qılıncdan
Hamısı parça-parça, hamısı tikə-tikə.
Göydən yağan bir dolu kimi
Düşdülər xəndəyə baş, sinə və qıç.
Parlayan xəncərin sancmasından
Qala divarından selvari axdı qan.
O həngamədə igid qılıncından
Xəndəyə və hər yerə ölülər doldu.

Xülasə, onlardan üç min nəfərdən artıq qətlə yetirildi, o cümlədən çoxlu polkovnik, mayor, kapitan, zabit və qalanları da məşhur cavan igidlər islam mücahidlərinin əlindən yoxluğa yollandılar. O tayfadan iki minə yaxını yaralandı, qalanları isə işin fırıq olduğunu görüb yorğun halda, inildəyə-inildəyə özlərini səngərlərə çatdırıb dəlmə-deşikdə

---
[1]Burada şeirin sətri tərcüməsi verilibdir.

gizləndilər. Belə bir vəziyyətdə Tanrının fəzli özü yar oldu ki, bu dava-dalaş içində islam igidlərindən cəmi iki-üç nəfəri əcəl saqisinin əlindən ölüm şərabını içdilər, beş-altı nəfər də yaralandılar. Ölənlərlə yaralanların sayı on nəfərdən artıq deyilmiş. Döyüşdən qaçanları və səngərində oturanları görən Kodoviçin ürəyindən qara qanlar axırdı.

Bu xəbərin nəvvab Naibüssəltənənin ordugahına çatmamışdan qabaq İsmayıl xan Qacar güclü silahlanmış qoşunla padşah sarayından gəldi və özü ilə böyük hökmdardan qızıl sikkədən, silahdan, avadanlıqdan və digər zəruri mallardan artıqlamasıyla gətirdi. Bundan sonra heç kəs Naxçıvandakı və İrəvandakı ruslarla müharibəni dayandırmaq və ya təxirə salmaq fikrini ağlına belə gətirməzdi.

Nəvvab Naibüssəltənə möhtərəm rikabda hazır olan bütün piyadalar və süvarilər ilə, o cümlədən Əfşar, Xəmsə, Çardoli[1] süvariləri, Məlayir[2] piyadaları, Çorsdan gəlmiş sərbazlarla Naxçıvana yollanmış, orada zəfər ordugahında yerləşmiş və o qorxu bilməyən şirləri bu mərhələ üçün dəstə-dəstə sərbəst buraxmışdı. Sərdar Hüseyn xanı və İsmayıl xan Qacarı bir müzəffər dəstə ilə İrəvana göndərdi, Əli xan Qacarı və Amanullah xan Əfşarı isə göylər qədər möhtəşəm ordunun önündə Naxçıvana yolladı. O iki uğurlu ordunun ayaq səsi Kodoviçin və general Nebolsinin qulağına çatdı. Oturduqları yer titrədi. Əlləri ürəyin üstündə, ayaqları qanlı göz yaşlarıyla islanmış torpağın içində bazar ertəsi, *şəvval ayının iyirmi ikisində* səngərlərdən qalxıb zillət və rəzalət yolunun yolçuları oldular.

Sərdar Hüseyn xan və İsmayıl xan Qacar onları təqib etməyə başladılar, onlara çatdılar, bir çox saldatı həyatdan

---

[1]Çardoli – Zəncanda bir yerdir.
[2]Məlayir – Həmədanda bir şəhərdir, əvvəlki adı Dövlətabaddır.

sildilər, daha neçəsini əsir aldılar. Bir dəstəsi isə dəhşətə gəlib öz ordusundan fərarilik etdilər və özlərini nəvvab Naibüssəltənənin zəfərnişan ordugahına yetirib aman dilədilər. Zəfər taleli qazilər çoxlu top və saya gəlməyən avadanlıq və silah-sursat kəsb etdilər. Ondan əlavə Kodoviç Gürcüstana çatanadək bərk şaxtaya məruz qalmış və onlardan bir çoxunun əl-ayağı sıradan çıxmışdı. Yaralılardan bəzisi dağa dırmaşıb qarın üstündə yoxluğa vardılar. Qalib ordunun sərdarları şadlıqla səmarütbəli nəvvabın xidmətinə qayıtdılar və Paxıllıqdan Uzaq Olan Səxavət Sahibinin bu mərhəmətinə və iltifatına, habelə qüdrətli Xosrovun xoşbəxt taleyinə görə şükranlıq mərasimini yerinə yetirdilər.

Bu tərəfdən də məhz qoşunun qarovulu olmuş Əli xan Qacarın, Amanullah xan Əfşarın və quryasovulbaşı Fətəli xan Nurinin Araz çayından keçməsi general Nebolsini həvəsdən saldı. O, öz adamlarıyla, canında bir nəfəs qalmamış halda qaçmışdı. Adları yuxarıda çəkilənlər Naxçıvan şəhərinə dörd fərsəx qalmış onlara çatdılar. Yəmən qılıncları baş kəsməyə başladı, top-tüfəng odu və tüstünü göylərə qədər qaldırdı. Rus zümrəsindən bəziləri öldürüldü, bir çoxu da əsir düşdü.

Gün qürub pərdəsinin arxasında gizləndi. Ruslar dayandıqları yerdə iqamət etdilər. Top qundaqlarından bir istehkam düzəltdilər. İslam qoşunu da onların yaxınlığında dayanıb sübhi-sadiqin açılmasının intizarında qaldılar. Bunu sezən ruslar gecə vaxtı vadiyə qaçıb min cür məşəqqətlə bundan öncə döyüş yeri olmuş Qarababa kəndinə yetişdilər. Nəvvab Naibüssəltənə həmin yerdə rusları tapdı. Bunu müşahidə edən general Nebolsin yəqin bildi ki, əgər bu topxananın və yüklərin dərdini çəkə-çəkə orada ilişib qalsa, o

qəhrəmanlar bir anda bunların vücudlarından bir əsər də qoymazlar. Çarəsiz qalıb top qundaqlarını da, yükü də, hətta barıtı, çörəyi və azuqəni də yandırdı ki, saldatlarını bir subay[1] qaydası ilə Qarabağın Sisianına çatdırsın. Topları da saldatlar dağın başına aparıb qoruyurdular ki, sonradan bir təhlükəsiz yerə köçürə bilsinlər.

Sisianın dağ ətəyinin və aşırımın o qaçanların əlində olmasına və həmçinin döyüşçülərin yolu üstündə piyadanın və atlının yürüş etməsi üçün çətin olan dərin dərələrin, habelə dağlarla təpələrin olmasına baxmayaraq nəvvab Naibüssəltənə Kərim xan Kəngərluya və digərlərə dağlar arasından keçən dar yolla irəliləyib rusları yox etməyi tapşırmışdı, Məlayir dəstəsinə və bəzi başqa dəstələrə isə rusların ehtimal olunan qaçış yolunu kəsmək üçün daşkəsəyin üstü ilə sağ tərəfə getməyə göstəriş vermişdi.

Dərə-təpə yollarının çətin olduğundan piyadaların və atlıların belə dar yoldan keçməsi mümkün deyildi. Müzəffər qafilə arxada kiçik məsafədə təşrif gətirərək döyüşə məmur olanların hərəkətlərinə nəzarət buyururdu. Gecə gələn kimi ruslar o dərə-təpədə bir az dayandılar, ardınca da tələsik halda qaçmağa başladılar. Müzəffər qafilə Qarababada gecələdi və o biri gün Əhməd xan Müqəddəm sağ tərəfdən getmək tapşırığını aldı, müzəffər qafilə isə o hesabla hərəkətə keçdi ki, namünasib yolla yürüyüb onların qabağını kəssin. Həmin vaxt şaxta və qaryağma o dərəcədə güclənmişdi ki, küləyin hücumundan yoldaşlar bir-birini görmək iqtidarında deyildilər. Lakin onlar hər vəchlə özlərini rusların olduğu yerə çatdırıb döyüşə girişdilər. Ruslardan bəziləri qətlə yetirildi və əsir alındı, işi dara

[1]Subay – o süvariyə deyərlər ki, öz malını atın tərkinə bağlayıb mükəmməl silahlanaraq yol gedir.

düşdüklərini görən bir neçəsi müzəffər rikaba gəldilər, qalanları isə gecə vaxtı yüksəkliklərə çəkildilər. Nəvvab Naibüssəltənə onların işinin aqibətini qarlı qışın müşküllərinə tapşırdı. Bundan sonra igidlər ayın və ulduzların işığında uca qafiləyə qoşulub fəth bayrağı altında Qarababaya qayıtdılar, o biri gün yenidən Naxçıvana gəlib iki-üç gün oraların işlərini nizama salmağa məşğul oldular. Ardınca müzəffər qafilə hərəkətə keçib Təbriz darüssəltənəsinə daxil oldu. Yolda olarkən ərzlərinə çatdırdılar ki, o qaçanların çoxusu Qarabağ və Tiflis yolunda tələf olub, sağ qalanların əl-ayağını isə soyuq sıradan çıxarıb.

Nəvvab Naibüssəltənə işin gedişatı haqqında məlumatı uca sarayda oturanların ərzinə çatdırdı və Xaqan əlahəzrətləri bu döyüşkənliklə canfəşanlığın əvəzinə xidmətçilərin hər kəsini rütbəsinə müvafiq olaraq fəxri xələtlərlə və cürbəcür ənamlarla təltif etdi. Qulluqçulara verilmiş bu ənamlarla ehsanlar digərləri də fədakarlığa təşviq etdi. Həmçinin şükran əlaməti olaraq bütün vilayətlərin və xüsusilə Azərbaycanın hörmət sahiblərinə böyük məbləğdə pul paylamağı buyurdu. Həmin vaxt bundan öncə döyüşdə ayağından yaralanmış Əli xan Qacar cənnət bağına ayaq basdı və bu hadisədən sonra Nəvvab Naibüssəltənə qəmgin olub hüznə qapıldı. Lazımi tədarük görüb nəşi Nəcəfiəşrəfə yola saldılar[1].

### *Nəzərəli xanın və Fərəcüllah xan Şahsevənin xətalarının əfv olunması, Şeyxəli xan Qubanın Rusiya ilə müharibəsi və Xoy şeyxülislamı Ağa İbrahimin ali Osmanlı dövlətinə səfərdən qayıtması*

---

[1]Qacar qüvvələrinin rus sərdarı Nebolsinlə döyüşü və onun Naxçıvana fərarilik etməsi 15 dekabr 1808-ci il tarixdə baş vetmişdi.

Müzəffər qafilə Naxçıvandan qayıdan vaxt Əmir xan Qacarın və Talış xanı Mustafa xanın məktubu gəldi. Ondan məlum oldu ki, Mustafa xan şahsevən fərarilərinin qorxaqlıqlarının aradan qalxmasını nəzərə alaraq onların təqsir tozunu Naibüssəltənənin hüsn-rəğbətinin zülalı ilə yuyulmasını xahiş edir. Nəvvab Naibüssəltənə bu fəthin şükranlığı naminə onların cəzalarının üstündən əfv qələmini çəkdi və əvvəlki kimi digər xidmətçilərin siyahısına saldı. Xoşbəxt qafilə Təbriz darüssəltənəsinə daxil olarkən məruzə edildi ki, Quba xanı Şeyxəli xan ləzgilərin arasına gedib dağlıların rəşadət ilə qeyrətini xüsusi qeyd etdi. Ləzgilər Rusiyanın məğlub olması xəbərini eşidən kimi bir yerə toplanıb Qubaya gəldilər və o tərəflərdə dayanan ruslarla savaşa girişdilər. Onda Bakıdakı ruslar Qubadakı rusların köməyinə tələsdilər. Şeyxəli xan onları qarşılayıb bir qismini öldürdü və bir neçə topu əllərindən alıb geri qayıtdı.

Xoy şeyxülislamı Şeyxülmühəqqiqin Ağa İbrahim ilin əvvəlində xaqanlığın əzəmətli dərgahından Osmanlı dövlətinə səfir təyin olunmuşdu. O, Təbrizə qayıdıb Naibüssəltənənin qəbuluna şərəfyab olarkən Osmanlı məmləkətində bu ruhlandırıcı xəbərin hər yerdə sevinclə qarşılandığından nəvvab Naibüssəltənəyə ərz etdi. Naibüssəltənə Təbrizdə əyləşib rəiyyətlərin, hərbçilərin, zəfərnişan ordunun piyada və atlılarının işini nizama salmağa başladı.

### *Hicri min iki yüz iyirmi dördüncü ilin[1] hadisələri və general Qardan xanın Napoleondan icazəsiz İrandan qayıtması*

[1] Miladi təqvimilə 1809/1810

Ölkələr fəth edən Xaqan Novruz bayramını qeyd edəndən sonra öz müdrik nəzərini qüsurlu məmləkətlərin təchizatına yönəltmişdi ki, Fransa dövlətinin naziri Şampanyidən[1] məktub gəldi. Məzmunu Fransa dövlətinin İran dövləti ilə müqaviləsi və həmçinin bəzi işlərə görə qayıtması təxirə salınmış Əsgər xanın, habelə hökmdar rikabının qulluqçusu müsyö Juaninin yola salınmasından ibarət idi. Əsgər xan uzun müddət Parisdə qalmağa məcbur olmuşdu. Napoleon Bektar[2] rusların işğal etdiyi İran vilayətlərinin adlarını ondan almışdı ki, Fransa padşahının Rusiya padşahı ilə ikinci görüşü vaxtı onları ortaya qoysun. Məlum olduğu kimi, görüş zamanı bu mövzu ortadan getdi. Amma qonaqpərvərlik məsələsinə gəlincə Napoleon Əsgər xana qarşı bu qaydalara əməl etdi və ona hər cür hörmət göstərdi.

Bundan qabaq da zikr olunduğu kimi, general Qardan xan hökmdarlıq zirvəsi olan şah həzrətlərinin yanından qayıdandan sonra nəvvab Naibüssəltənənin xidmətində qaldı. Tam izzət və etibar içində yaşayıb hər gün yeni iltifat və sonsuz mərhəmət görürdü. Nəvvab Naibüssəltənə Avropa hərb intizamını öyrənməyə meyil göstərdiyinə görə general Qardan xan bu fənndə məharət sahibi olan öz yoldaşlarından biri müsyö Verdyeni[3] Naibüssəltənənin hüzuruna göndərdi. Müsyö Verdye bu işdə həqiqətən də çox səy göstərmişdi. Nəvvab Naibüssəltənə də onun niyyətinin

---

[1]Şampanyi – Jan-Batist de Nomper Şampanyi (1756-1834). Napoleonun hökumətində Taleyrandan sonra 1804-1807-ci illərdə xarici işlər naziri olmuşdu.

[2]Bektar – yəni Bonapart.

[3]Verdye general Qardanla birgə Fransadan yollanmış 61-ci piyada briqadasının zabitlərindən olaraq İrana gəlmişdi və Abbas Mirzənin ordusunda xidmət edirdi.

pak və xoş olduğunu görüb ordudakı əsgərlərin ixtiyar cilovunu onun etibarlı əllərinə vermişdi ki, orduda heç kəs onun izni-icazəsi olmadan hərəkət edə bilməsin.

Müsyö Verdinin əmri və işarəsi gəlməyəndə hamı sanki ruhsuz bədən olurdu. General Qardan xanın Tiflisə göndərdiyi mühəndis müsyö Lami də Təbrizə gəldi. Nəvvab Naibüssəltənənin əmrinə əsasən o, bir neçə nəfər zirək və fərasətli cavana həndəsə elmini və fransız adətlərilə mühəndislik qaydalarını öyrətməyə məşğul olmuş və bu işdə həqiqətən də böyük cəhdlər göstərmişdi. Bu əsnada feldmarşal Kodoviç İrəvanın üstünə gəldi və İran və rus orduları arasında müharibə başladı. Nəvvab Naibüssəltənə döyüşə hazırlaşmaqda ikən öz öyrənciləri ilə döyüşə hazırlıq görməkdə olan müsyö Verdye ilə müsyö Lamiyə məlumat verildi ki, hal-hazırda Tehran darülxilafətində oturan general Qardan xandan bizə məktub daxil olub. Məzmunu budur: Fransa və Rusiya padşahları arasında hərtərəfli sülh razılaşması əldə olunduğuna görə siz də İran ordusuna kömək etməməlisiniz və Azərbaycanda sadəcə qonaq qismində qalasınız. Biz sizi xidmətdən azad edirik.

Xülasə, general Qardan padşahın astanında, müsyö Lami ilə Müsyö Verdye Naibüssəltənənin xidmətində böyük hörmətlə qarşılanıb əzizləndilər. Belə vəziyyətdə birdən Qardan xana Tehran darülxilafəsində xəbər çatdı ki, ser Herford Cons Brünnet ali ingilis dövləti tərəfindən İrana səfir göndərilib, hal-hazırda İsfahandadır və yaxın vaxtlarda Tehran darülxilafəsinə gələcək. General Gardan bu xəbəri eşitməkdən çox qəzəblənir və dövlət başçılarına bəyan edir ki, bu saat bir nəfər təyin olunmalıdır ki, ingilis səfirini İran dövlətindən xaric etsin ya da mənə Fransa məmləkətinə qayıtmağa icazə verilsin. Əlahəzrət hökmdar

ona bir neçə gün deyirdilər ki, Osmanlı dövlətində bir neçə Firəng padşahının elçisi həm sülh, həm müharibə şəraitində bir yerdə olurlar və heç biri səsini də çıxarmır. Bəs sən niyə belə təklif verməlisən? Bu dövlət də belə hökm verdi, lakin tərslik etməkdən bir fayda görmədi. Müsyö Juanini padşah astanında saxladı ki, bütün xəbərlərin həqiqətini günbəgün ona çatdırsın. O da dövlətin yüksək mənsəb sahiblərilə sözləşmişdi ki, Təbrizdə qalacaq və Napoleona təqrir verib ondan cavab gözləyəcək. Şahənşah həzrətləri onu lazım olduğu kimi əzizləyərmiş və ona göstərilən hörmətdə heç bir qüsur ya nöqsan olmazmış. General Qardan xan Təbrizə gələndən sonra şahənşah astanı ilə bağlanmış müqavilənin şərtlərinə əməl etməkdən boyun qaçırır və Naibüssəltənənin qalmaq təklifini rədd edərək oradan çıxıb Fransa dövlətinə qayıtmağı düşünür.

Naibüssəltənə isə həm üz-üzə oturub söhbət edərkən, həm də öz məmurlarının vasitəsilə ona çatdırırdı ki, bəlkə padşah sarayı ilə bağladığı sözləşməyə sadiq qalsın ya da xilafət dərgahına məlumat verib oradan cavab gələnədək heç haraya yola düşməsin. Nəvvab Naibüssəltənə yenə də ona hər cür ehtiram göstərmiş, quryasovulbaşı Fətəli xan Nuriyə onun xatirinə qonaqpərvərlik adətlərini yerinə yetirməyi tapşırmışdı. Bu vaxt ona xəbər gəldi ki, Osmanlı və Fransa dövlətləri arasında ədavət düşüb. Onda o, yolda paşalar tərəfindən ona hörmətsizlik göstərilməsindən ehtiyat edərək məqsədinə doğru Tiflis yolu ilə getməyi qərara aldı.

Bu əsnada Kodoviç Rusiyaya çağırıldı. Nə o, nə də onun yerini tutmuş Tormasov[1] general Qardan xana etina

---

[1]Tormasov Aleksandr (1752-1819) – qraf, süvari generalı. Krımda Krım tatarlarına qarşı, Dunayda və Qafqazda osmanlılara qarşı, Avropada Napoleonun ordusuna qarşı müharibələrdə böyük nailiyyətlər

göstərmədilər. O, öz yerinə müsyö Lajarı qoyub Parisə yollandı. Müsyö Lajar bir az Tiflisdə qalıb müsyö Juaninə şərh yazdı ki, bəs rus ordusu belə-belə gəldi, sən də gərək yaxşılıq adətləri xatirinə ali İran dövlətinin başçılarına bu əhvalatın necəliyini anladıb Peterburqa gedəsən. Onda xəbər gəldi ki, müsyö Lajar İrana səfir təyin olunub və İranla Rusiyanın işinə əncam vermək və Napoleonun öhdəsinə aldığı işi tamamlamaq üçün İrana daxil olmalıdır. General Qardan xan Parisə gələndən sonra Napoleonun icazəsi olmadan və Hökmdar əlahəzrətlərindən və nəvvab Naibüssəltənədən rüsxət almadan Fransaya qayıtmaqda təqsirləndirildi. Bələliklə o, qəzəbə tuş gəlib tutduğu yüksək mənsəbdən tənəzzülə uğradı. Napoleon Əsgər xan Əfşarı çağırıb üzrxahlıq mərasimi yerinə yetiriləndən sonra ona dedi ki, sən öz vəzifəni icra etməkdə və vədinə əməl etməkdə səhlənkarlıq göstərmisən, amma bunların hamısı başımız İspaniya məsələsinə və digər işlərə məşğul olduğumuza görə baş vermişdi. Bu yaxınlarda səni mürəxxəs edib yola salacağam.

Xülasə, bir neçə gündən sonra Napoleon Əsgər xanı mürəxxəs etdi və o, şahənşah dərgahına daxil olub Napoleonun məktubunu gətirdi. Məktubun qısa məzmunu o idi ki, "Əsgər xan səfirlik vəzifəsini bizi razı salacaq tərzdə yerinə yetirib və biz ona qayıtmaq rüsxətini verdik. Mənim dost münasibətim sərhədsizdir və o dövlətin məramına çat-

---

əldə etmiş, hətta bir müddət Rusiyanın bütün Avropadakı qoşunlarının başında durmuşdu. Yüksək inzibati vəzifələrə də (Kiyev, Riqa, Moskva general-qubernatoru) sahib olmuş, çox yüksək dövlət ordenləri ilə təltif edilmişdi. Lakin Qafqazda Abbas Mirzənin ordusu ilə mübarizədə döyüş meydanında uğursuzluğa məruz qalmış, əsasən hiyləgərliyi ilə yadda qalmış və axırda general Rtişşevlə əvəzlənmişdi.

ması bizim amalımızdır”. Müsyö Otre adlı birisi də onunla gəlmişdi. Onun da cavabı bu məzmuna müvafiq olmuşdu.[1] Bundan öncə yazıldığı kimi, general Gardan xan Tehran darülxilafəsindən yola salınandan sonra müsyö Juanin orada məskunlaşmışdı və ser Herford Cons Brünnetin də həmin yerdə olduğuna görə özünün orada qalmasını münasib bilmirdi. O, şahənşahın əmrinə əsasən Azərbaycana getdi və şahənşah bayrağının Ucana gəlişindən sonra hökmdarın hüzuruna yetişmək şərəfinə nail oldu və orada Parisə gedib vəziyyəti tam təfərrüatı ilə Napoleona izah etmək tapşırığını aldı[2].

### *Xaqan bayrağının Çəməni-Ucana yönəlməsi və Nəvvab Naibüssəltənə vəlxilafətin xoşbəxt Xaqanın astanbusisinə yetişməsi*

*Cəmadiüs-sani ayının əvvəllərində* qartallı bayrağın Azərbaycanın ürəkaçan məkanlarından olan Çəməni-Ucana tərəf irəliləməsi xəbəri hər yana yayıldı. Nəvvab Naibüssəltənə özü üçün aydınlaşdırdı ki, dünyanı fəth edən Xaqanın zəfərnişan bayrağı ürəkoxşayan Cəməni-Ucanda məskən salmalıdır. Humayun qafilənin yetişməsindən öncə bütün müzəffər ordu, saysız-hesabsız silah-sursat, Azərbay-

---

[1]İrəc Əmini “Napoleon və İran” kitabında yazır ki, əslində Otre İstanbul yolu ilə İran sərhəddinə çatanda Fətəli şahın onun İran torpağına ayaq basmasına müxalif olması ilə üzləşib yenidən Osmanlı dövlətinin paytaxtına qayıdır, orada oturub İranın mövqeyini öyrənib Fransaya məlumat verməklə məşğul olurdu.

[2]Juanin 1809-cu ilin sonunda Təbrizə gəldi, bir müddət burada qaldı, lakin sonra Fətəli şahın Napoleona etimadsızlıq göstərməsi onu İranı tərk etməyə vadar etdi. Bununla İranın və Napoleon Fransasının əlaqələri kəsildi.

canın sərdarları, bəylərbəyləri, hakimləri, fazilləri, əyan-əşrafı Çəməni-Ucanda yerləşdilər ki, xoşbəxt qafilə o hüdudlara daxil olarkən icazə verdikləri və həmçinin əmr sahibi Hökmdara yaxın olanların münasib bildikləri hər yerdə qabağına çıxsınlar. Naibüssəltənə əmin idi ki, İraqla Azərbaycanın arasında yerləşən Qaplankuhadək qarşılamaq izni alacaqlar və bu səbəbdən həmin yerdə gözü yolda dayanmışdılar.

Nəvvab humayun ordusunun ön dəstəsində şahzadə Məhəmmədəli Mirzə piyadası, süvarisi, silah-sursatı, top-xanası və digər döyüş avadanlığı ilə daxil oldu. İki-üç gün şadyanalıq davam etdi və *cəmadiüs-sani ayının iyirmi ikisində* ulduzlar qədər möhtəşəm sıralar sağdan və soldan gəlib Qülzüm[1] və Oman dənizləri kimi Ucanda rastlaşdılar. Silahlar günəşin şüaları altında bərq vurdu, ildırım sürətli atlar keşnəməyə başladılar və ilxının təlatümü nəticəsində havaya qalxan toz-torpaq apaydın günü qapqara gecəyə döndərdi. Padşahlıq günəşi uzaqda zühur edən kimi nəvvab Naibüssəltənə atdan düşüb ayağının altına baxmadan özünü humayun rikaba yetirdi. Onun şövqü od kimi alışdı, gözün-dən qeyri-ixtiyari sevinc yaşı axdı və bunu görənlərin ha-mısı riqqətə gəldi. Zillüllah əlahəzrət süvarini, piyadanı, sərbazı, cəzayirçini, topu, zənburəki, silah-sursatı və digər ordu avadanlığını nəzərdən keçirib təqdir işarəsini verdi. Göylər qədər möhtəşəm orduya yetişəndən sonra başçılar, sərdarlar, rəiyyətlər, hörmət sahibləri, əşrəf-əyanlar, ağıl və zəka əhli – hamısı dəstə-dəstə cənnətmisal Həzrətin hüzu-runa buyurub o nur mənbəyinə yaxın durmaq şərəfinə layiq görüldülər.

---

[1]Qülzüm dənizi – Qırmızı dəniz.

## *Xaqan əlahəzrətin fərmanıyla nəvvab Naibüssəltənənin Gəncəyə üz tutması, o qələbə ilə dolu günlərdə baş verən hadisələr və Mustafa xan Talışın sözünə xilaf çıxması*

Cənnətməkan dairələrəməlum olanda ki, qraf İvan Kodoviçdən sonra Rusiya ordusunun sərdarı olmuş Tormasov Tiflisin bir fərsəngliyində Soğanlıq[1] mənzilində dayanıb və general Nebolsini böyük qoşunla Qarabağa yollayıb və həmçinin öz ordusundan bir dəstəni Pənbək və Şoragöl mahalından olan Hamamlunun[2], Bəykəndinin[3] və Kəmərlinin[4] mühafizəsinə göndərib və eyni zamanda "dəli Polkovniki" başqa dəstə ilə Gəncəni, Qazax elatını və Şəmsəddinlunu qorumağa yollayıb, dünyanı bəzəyən rəy qərara aldı ki, zəfərin pənah gətirdiyi ordu hər tərəfdən onların üzərinə döyüşə atılmalıdır.

Təxminən o vaxt Axısqa və Başaçuq[5] valilərindən məktublar gəldi. Məlum oldu ki, onlar və Gürcüstan əhalisi uzun illər nəvvab Naibüssəltənədən hər cür yaxşılıq görüblər və bunları həmişə xatirələrində saxlayırlar. Onlar xidmət etməyin və canını qurban verməyin qaydasını azdan-çoxdan və yaxından-uzaqdan eşidib özləri mükəmməl etiqadla o həzrətə qulluq edirlər və Xaqanın cah-calallı ordusu o tərəflərə təşrif gətirən vaxt batindəki ixlaslarını öz vəzi-

---

[1]Hazırda Gürcüstan dövlətində yerləşən bu kəndin adı dəyişdirilərək Poniçala olub.

[2]Hamamlu (və ya Hamamlı) – müasir Ermənistan Respublikasında bu şəhərin adı dəyişdirilərək Spitak olub.

[3]Bəykəndi – Hamamluya yaxın bir kənddir.

[4]Kəmərli – hal-hazırda Qazax rayonunda bir kənddir.

[5]Başaçuq (və ya Başaçıq) – müasir Gürcüstanın ərazisində gürcülərin İmereti adlandırdıqları məntəqədir.

fələrini yerinə yetirməklə zahirə çıxartmaq üçün fürsət axtarırlar.

Şahənşah əlahəzrətləri bu təqdimata cavab olaraq Azərbaycana ilk dəfə səfərə çıxacaq şahzadə Məhəmmədəli Mirzəni böyük ordu ilə xidmətlərin ən əzəmətlisi olan bu xidmətə təyin buyurdular. Qərara alındı ki, xalqların şahzadəsi hələ bir neçə gün şahənşahın o hörmət və sevinc mənbəyi olan hüzurunda qalmaq xoşbəxtliyindən bəhrələnsin. Ondan sonra nəvvab Naibüssəltənəni Göyçə yaylağına məmur buyurdular ki, o hüdudlarda qalıb şahzadə Məhəmmədəli Mirzənin işinin gedişatına nəzarət etsin, habelə Gəncə elatını da yaddan çıxarmasın ki, zərurət yaranan kimi lazım olan tərəfə hərəkətə keçsin. Nəsəqçibaşı Fərəcüllah xan da Muğan tərəfə sərdar və eyni zamanda Talış vilayətinin sərhədində başçı təyin olundu ki, Ərdəbilin yaxınlığında dayanıb zəifləyən tərəfə özünü çatdırsın. Çünki keçən il İrəvanı mühasirəyə alan vaxt Nəzərəli xan Şahsevənlə Mustafa xan Talış arasında Şahsevən elatının işinə görə ixtilaf düşmüşdü.

### *Şahzadə Məhəmmədəli Mirzənin rusların üstünə döyüş səfəri, Borçalıdan[1] bəzi ellərin basqını və onun İrəvana qayıtması*

Nəvvab Məhəmmədəli Mirzə piyadalardan və atlılardan ibarət nəhəng qoşunla İrəvana rəvan oldu. İrəvan bəylərbəyisi sərdar Hüseyn xanı öz rikabına gətirdi və Çəməni-Abaranda dayandı. Həzrətin yaxınlarından olan İsmayıl bəy Damğani ön dəstəsiylə Hamamluda və Bəykəndidə rusları

[1]Əsərdə hər yerdə bu ad Bozçalu şəklində yazılıb. Qeyd edək ki, Türkiyədə Tokatda Bozçalu adlı yayla var.

cəzalandırmaq tapşırığını aldı. Adıçəkilən sərdar əmri yerinə yetirmək üçün döyüşdə qəhrəmanlıq göstərdi. Belə ki, ruslar hər dəfə sığındıqları qaladan çıxan kimi kötəklərini alırdılar və üzlərində əzab ifadəsi zahir olurdu. Borçalı camaatı və əvvəlki vaxtlarda İrəvandan Pənbəkə və Şoragölə getmiş rəiyyətlər özlərini qorumaqda aciz idilər və müzəffər ordunun hücumlarından qorxuya düşüb ümid üzlərini zalım dövlətin dərgahına tutdular. Adıçəkilən sərdarı öz yaralarının şəfavericisi sayıb öhdələrinə bir neçə vəzifə aldılar ki, o vaxtlarda onlardan bəziləri yerinə yetirildi. Onlara başçılıq edənlərdən biri Nağı bəy Borçalı olub. O, ruslarla müharibədə, onların azuqə və silah-sursat gətirdikləri yollarda sədd çəkməkdə böyük rəşadət və güclü iradə göstərmişdi və bununla etimad qazanmışdı.

Xülasə, Nəvvab Məhəmmədəli Mirzə Borçalu elini talan və qarət etməyə başladı, çoxlu qənimətlər aldı ki, zəfərşüar qazilərə nəsib oldu. Ardınca Qars yolu ilə İrəvana qayıtdı və İrəvanın Qarasuyunun kənarında dayandı. Nəvvab Naibüssəltənə də oraya döndü və qardaşlar birlikdə şad-xürrəm halda humayun görüşə yollandılar. Onlar oradan hərəkət buyurub Sərabda Əlahəzrəti ziyarət edəndən sonra Kirmanşaha rəvan oldular.

### *Fərəcüllah xanın səfəri*

Fərəcüllah xan qərara alındığı kimi Ərdəbilə gəlib orada dayandı və o vaxt oranın hakimliyinə qədər yüksəlmiş olan Nəzərəli xan Şahsevənə hər cür nəvaziş göstərmişdi. Lakin şahsevənlərin süvariləri humayun əmrinə müvafiq ordugaha yetişib müzəffər qazilərlə həmrah irəliləməli olduqlarına baxmayaraq söylənən yerinə gəlmədilər.

Məlum oldu ki, bunun səbəbi var. Mustafa xan Talışın bu işlə əlaqəsi var və onun hərəkətləri heç bir tabelik və itaət qaydalarına sığışmır. O, həmin əsnada Talışın ariflərindən və hərbçilərindən bir dəstəsini köçürəndən sonra öz şeyşüyünü Xəzər dənizinin sahilində və rusların əlində olan Sari limanına yaxın yerləşən Camışvan qalasına aparıb orada oturdu. O, oğlu Mir Həsən xanı Talış ordusunun bir dəstəsi ilə Ucarud tərəfdə dayanan Hüseynqulu xan Bakuviyə, Haşım xan Şirvaniyə, Əli xan Rudbariyə və Məhəmməd xan Bigdeliyə baş çəkməyə göndərib qəflətən onların üstünə cummuş və cürbəcür fəsadların tozunu qaldırmışdı.

Əli xan Rudbarini, Məhəmməd xan Bigdelini və Haşım xan Şirvaninin qardaşını əsir aldılar, ardınca da qalib bayraqlar Talışa tərəf yönəldilər. O vaxtadək Fərəcüllah xan Nəzərəli xanla yaxşı münasibətdə olmağa çalışırdı. Şahənşahlıq sarayından şəraitə uyğun hərəkət etmək və düz saydığını icra etmək rüsxəti alandan sonra Nəzərəli xana qarşı mövqeyini dəyişdirib həm onu, həm də Fərəcüllah xan Şahsevəni tutub padşahın dərgahına göndərdi.Yan-yörədən öz adamlarını yığıb Mustafa xan Talışın üstünə yönəltdi, özü də onların arxasınca yollandı. Qələm onun işinin aqibətini yaxın vaxtlarda bəyan edəcəkdir.

### *Nəvvab Naibüssəltənənin Göyçə ilə Gəncəyə yollanması və orada baş verənlər haqqında*

Bundan öncə yazıldığı kimi, nəvvab Naibüssəltənə Çəmən-Gülənbərə rəvan oldu və bir neçə gün orada dayandı. Əbülfəth xan Cavanşiri bir dəstə ilə Qarabağa, Qapan mahalına bağlı bir neçə elatın və rəiyyətlərin üstünə göndərdi ki, onları ələ keçirsin. Ona tapşırıldı ki, onları

əbədi dövlətə xidmət etməyə məşğul olanlardan etsin. Əbülfəth xan o saat bu xidmətə gəldi və Bigdelinin süvarilərindən bir dəstəyə əmr verildi ki, Bakı tərəfə gedib oradakı rusların vəziyyətini öyrənsinlər və qayıdıb ərz etsinlər. Birdən yol üstündə, dünyaya nur saçanın batmasından əvvəl, qəflətən rusların bir dəstəsinə rast gəldilər, özlərini irəli atıb gecənin zülmətində onlarla əlbəyaxa oldular, qılıncla və sərnizə ilə mərd-mərdanə vuruşdular, bütün rusları öldürdülər və başlarını bir araba ilə göylərə qədər ucalmış saraya apardılar və ölkələr fəth edən Xaqandan saysız-hesabsız ənamlara ehsanlar aldılar.

Nəvvab Naibüssəltənə Çəməni-Gülənbərdən hərəkət edib keçid üçün çox müşkül olan Ordubad yolu ilə irəlilədi. Böyük çətinliklə bütün topxananı, ağruğu, yük heyvanlarını və zəfərnişan piyadalarla atlıları oradan keçirtdi. Naxçıvan mənzilində olanda polkovnik baron Vrede və Tormasovun qardaşı oğlu asessor Mixail bir namə ilə onun zühuruna gəlməyə şərəfyab oldular. Məktubun xülasə məzmunu belə idi: İran məmləkətinin bəzi vilayətləri qüdrətli dövlət tərəfindən Rusiya dövlətinə verilsin, onun əvəzinə Osmanlı dövlətinə məxsus Ərzurum, Bağdad və İranla həmsərhəd olan bəzi başqa torpaqları Rusiya dövlətinin razılığı ilə İran dövlətinin ixtiyarına keçsin. Ağlasığmaz cəfəngiyyatla dolu bu təqdimatdan adamın ağlına aşağıdakı misra gəlir:

*Tutulmamış ceyranı bağışlama*[1]

Bu arada yazılmışdır ki, əgər uca dövlətdən bir elçi Rusiya dövlətinə məmur olsa, iş sülhlə tamamlanar. Nəvvab Naibüssəltənə öz adamlarını Təbriz darüssəltənəsinə və bir məktubu böyük Xaqanın sarayına göndərdi ki, padşahın rəyi ilə veriləcək qərara müvafiq cavab versin və

---

[1]Müvafiq olaraq: *çəkilməmiş arxın suyunu bölüşdürmə*

zəfər bayraqları Naxçıvan yolu ilə on iki mənzil aralı yerləşən Gəncəyə hərəkət etdilər. Zərurət yarananda mənzillərdə dayanırdılar, sursatla azuqənin qıtlığı yaranmışdı, onların daşınması da asan olmurdu. Onlar Şərur yolu ilə Çəməni-Göyçəyə yollandılar və güclü qarla şaxtalı hava şəraitində olmazın əziyyətini çəkib Çəməni-Göyçəyə çatdılar. Oraya daxil olarkən Pirqulu xan Qacarı və Hacı Məhəmməd xan Qaragözlünü ordunun bir hissəsi ilə Gəncə elatına göndərdilər ki, oranı nizama salsınlar. Onlara tapşırdılar ki, təkidlə bildirsinlər: kim itaət yolunu seçəcəksə, o tayfanın böyükləri və kədxudaları möhtərəm rikaba gəlsinlər, müxalifət və tabe olmaqdan yayınma yolunu seçənlər isə töhmətə və məzəmmətə məruz qalacaqlar. Müzəffər qafilə oradan hərəkət edərək qalın meşələrin içi ilə və çətin keçidlərlə piyadalı-süvarili qoşunla yollarına davam etdilər.

O elatın camaatı Pirqulu xanın və digər məmurların gəlişini və nəvvab Naibüssəltənənin oraya buyurması müjdəsini böyük coşqu ilə qarşılayıb itaətkarlıq vadisinə istiqamət aldılar. Onların kədxudaları və piyadalarla süvarilərin başçıları ruhlanaraq ayağının altına baxmadan qaçıb xidmətə tələsdilər və bunun qarşısında lütflə ehsanlar gördülər. Məhz onların əbədi dövlətə xidmət etdiklərini görən Dəli Polkovnik öz camaatını o əyalətdən yığıb fərar etmək qərarına gəldi. Naibüssəltənə Əmir xan Qacara ordunun bir hissəsi ilə Gəncə şəhərinə getməyi tapşırdı. Əmir xan Gəncə həndəvərinə gələrkən rus ordusundan bir neçəsi qazilərin qılıncına mal oldu. Vəziyyətdən arxayın olub Bahirünnurun hüzuruna yollanıb saysız-hesabsız ətalar aldı. Gəncə ermənilərindən bir neçəsi uca dərgahın məmurları qarşısında Gəncə qalasını müzəffər orduya təhvil verməyi

öhdələrinə aldılar. Bu əsnada vəliəhdin ərzinə xəbər yetişdi ki, bir tərəfdən Tormasov Məhəmmədəli Mirzənin İrəvan istiqamətində irəlilədiyinə əmin olan kimi öz şər yağan saldatları ilə Gəncənin yaxınlağındakı Zəyənə girib, digər tərəfdən isə general Nebolsin Fərəcüllah xanın Qarabağ uğrunda mübarizəyə məşğul olduğunu görüb öz ordusu ilə Tormasova qoşulubdur. Dəli Polkovnik də öz adamları ilə onunla birləşib hərbə amadə vəziyyətdə dayanıbdır. Qalanın mühafizəsindən savayı bütün ruslar döyüş əzmində idilər. Tormasov Gəncə ermənilərinin mövqeyindən xəbərdar olandan sonra qaladakı ruslara qasid göndərdi ki, onların başçılarını həbs etsinlər. Qələbənin pənah gətirdiyi ordunun sayı düşmən ordusunun cəmi dörddə birinə bərabər olduğuna, azuqənin ənqaya çevrildiyinə və şaxta ilə yağıntının müzəffər ordunun İrəvana və Naxçıvana gediş-gəlişini mümkünsüz etdiyinə baxmayaraq nəvvab Naibüssəltənə insü cinin Xaliqinə təvəkkül edib nigarançılığa heç vəchlə öz qəlbinə yol tapmağa icazə vermir, ağruğunu yerindəcə qoyub onların mühafizəsini Mehdiqulu xan Qovanlu-Qacara tapşırır, özü isə sıyrılmış qılınc kimi düşmən başının üstünə enir və o güc gecəyədək iki ordu aralarındakı məsafəni qət edib bir-birinəzərbələr endirirdi. Axşam vaxtı zülmət ordusu nurun üzərinə gecə basqını edəndə və iki qoşun dincəlməyə yola düşəndə Tormasov müzəffər ordu qarovulçularının gündüzün işıqlı gözləri kimi yatmağa getdiyini sanıb öz saldatlarını, atlılarını və topçularını uca ordugahın üstünə hücuma göndərdi. Onlar da onun əmrinə əsasən müzəffər ordugahın yaxınlığındakı meşəliyə girdilər. Bu vaxt İbrahim xan Bayat bir dəstə xüsusi seçilmiş qulamlarla qarovulda durmuşdu. Atların keşnəməsini və insanların  tappıltısını eşidib qabağa çıxdı. Onlar

isə qorxuya canlarına yol verib o fikirlə ki, bəlkə nəvvab Naibüssəltənə də gecə basqını etmək qərarına gəlmiş olub, tam sürətlə geri qayıtdılar və bu gediş-gəliş xəcalətlə zəhmətdən başqa bir fayda gətirmədi. Onlar mücahidlərin bəxtinin oyaq olduğunu öz gözləri ilə gördülər.

Sübh çağı Tormasov sülh qapısından keçib elçi ilə bir məktub möhtəşəm dərgaha göndərdi ki, imkan dairəsində xeyirxahlıq şəraitində qəhredən dövlət səy edib vədinə xilaf çıxma dırnağı ilə əhd çöhrəsini cızmasın və müzəffər qoşunun süvariləri onun ordugahına hücum çəkməsin, o da islam ordusu bayrağının kölgəsinə sığınıb xidmət və itaət əhdinin yenilənməsinə kəmər bağlamış elatlara həmlə etməz.

O biri gün rus ordusu məyus halda köçhaköç Gürcüstan yolu ilə irəlilədi. Möhtəşəm dövlətə xidmət etmə yolunu seçən elatlar da uca qafilədən qabaq İrəvana rəvan oldular. Kamına çatmış şahzadə də oradan dönüb İrəvan istiqamətində irəlilədi. O biri tərəfdən də bundan öncə barəsində məlumat verilmiş talan səfərindən qayıdan nəvvab Məhəmmədəli Mirzə də İrəvana daxil oldu. Nəvvab Naibüssəltənənin ordugahından gələn xəbərləri eşidən adamın damarlarında dostluq və arxayınlıq təranələri oynayırdı və bu məqamda ixtiyarsız atlara minmə əmri verildi və əsgərlər izdihamı köç etməyə hazır oldu. Öncə İrəvan sərdarı və bəylərbəyi Hüseyn xan Qacarı sel kimi rəvan irəliləyən qoşunu ilə təcili olaraq qabağa göndərdi, özü isə arxasınca hərəkətə keçdi. Uca ordugaha elə vaxtda çatdı ki, rikabın məmurları ayrılıq yanğısının dərəsindən səfalı Göyçə çölündə hazır oldular. Qələbə və şərəf mağarları quruldu, xatirələrin üstündəki qalın hicab atıldı və, təbii ki, belə bir ürəkaçan yerdə bir-birini görməkdən tərəflərin həddi-

hüdudu yox idi[1]. Nəvvab Məhəmmədəli Mirzə qardaşının xidmətindən rüsxət alıb İrəvana qayıtdı, uca qafilə də onu təqib etməyə başladı. Ordunun əlində olan əsirlərin bir çoxunu qaytardı və onların əvəzinə böüyk ənamlar əldə etdi ki, o minnətin boyunduruğu və o nemətin haqqı qiyamətədək bəndənin və azadın canında qalacaq. Tormasovun həmin müddətdə Təbrizdə olan elçilərini də xələtlərlə və nəvazişlərlə onun yanına yola saldılar. Bir azdan padşahın əmrinə əsasən nəvvab Məhəmmədəli Mirzəni tabeliyindəki qoşunla hökmdarın sarayına göndərdi, özü isə Sərdar Hüseyn xanın işlərini nizama salmaq, habelə qalanın ərzaq və silah anbarlarının tədarükü məsələsini həll etmək üçün şərait tələb etdiyi qədər İrəvanda qaldı və soyuq şaxtalı havanın vaxtı yaxınlaşdığına görə humayun Həzrətdən xahiş etdi ki, belə məşəqqətli vəziyyətdə öz müzəffər qafiləsi ilə səfərə çıxmasınlar və rəhmət mayası olan mübarək bədəninə zəhmət verməsinlər və sərhəd məsələsini bu sərhədi qoruyanlara həvalə etsinlər. Bu ərizənin daxil olduğu vaxt dünyada o günədək görünməmiş bir qar yağdı. Havanın kəskin dəyişməsi və şiddətli qaryağma qafilənin Tehran darülxilafətinə çatanadək davam etdi. Onun yürüşünün tozu yerə yatmamış nəvvab Naibüssəltənə Təbriz sahəsini öz gəlişi ilə ətirləndirdi.

*Mustafa xan Talışın itaətə gəlməsi və bəzi işlərin*

---

[1]Məhəmmədəli Mirzənin İrəvanın Qarasu sahilindən Göyçə mənzilinə gəlişinin səbəbi Abbas Mirzənin və onun qüvvələrinin Gəncənin yaxınlığında tutulması haqqında şayiə oldu. Məhəmmədəli Mirzə adıçəkilən çəmənə elə şəraitdə gəlib çatmışdsı ki, Abbas Mirzə ilə Tormasov arasında saziş bağlanmış, rus qoşunları Gürcüstana yollanmış, Abbas Mirzə isə İrəvana getdiyi yolda Göyçə çəməninə yetişmişdi.

*qaydaya salınması*

Hər tərəfdən bəd nəfslərin və boş başlarda yaranan fikirlərin təsirinə düşən Mustafa xan Talış Lənkəranda özünü bahalı dəmirləri cəzb edən ahənrüba və qılıncla süngünün iti uclarını cəlb edən bədən vəziyyətinə düşdüyünü görüb bir sığınacaq axtarırdı. O, Talışdan olan köməkçiləri ilə dəmir səngər qurub qərargahın yerləşdiyi Lənkərandan üzünü çevirdi və o məkanda səbrlə dayandı. O mövqeyi özü üçün seçdiyinə görə oranı taleyin ziyanından bir sığınacaq bilmişdi.

Lənkəranda evlərin damı və divarları samandan, çöplərdən və taxta qırıntısından tikildiyindən hökmdarın döyüşçüləri əlindən ayrılıq günü aşiqlərin sinəsi kimi partlayıb parça-parça və vida anında ayrı düşənlərin qəlbi kimi şölələnib kül oldu. O məkanda qərarlaşandan sonra dost-tanışdan imdad diləmək məqamı yetişdi. Bir dəstə rus saldatı bir neçə lülə topla köməyə gəldi. Naibüssəltənənin əmrinə əsasən Şirvandan köçürülən Şirvanla Muğan ellərini gəlib Mustafa xan Talışa təhvil vermək və Mustafa xan Talışla Mustafa xan Şirvanın arasında ittifaqın təməlini qoymaq üçün Şirvanın ən dəyərli və hörmətli adamlarından olan Ömər sultan oraya daxil oldu. Onunla Mustafa xan Talışın oğlu Mir Həsən xan arasında münaqişə baş tutdu. Ömər sultanın qanı qaraldı. İki Mustafa xan arasında şiddətli düşmənçilik düşdü. Bu vaxt məqamın tələbiylə Mustafa xan Talış bu ədavətə göz yumub oğlu Mir Hidayət xanı Mustafa xan Şirvanın yanına göndərdi və ondan mədən dilədi. Mustafa xan da Ömərin qətlindən keçib bir dəstə tüfəngçini Salyandan Gamışavana yolladı. Mühasirəyə alanlar da bu halı müşahidə edərkən mühasirədə olan-

ların işini bir qədər də dara saldılar. Hər gün onun qohum-əqrəbasından və dost-tanışından böyük dəstə fərarilik edib və Fərəcüllah xan Əfşara qoşulub oranın işğalını dəstəkləməyə başlayırdı. Mühasirədə qalan kişilər və qadınlar tələf olub ortada qalırdılar və bu gedişatdan Mustafa xanın eyş günəşi zavala uğradı, qorxu ona üstün gəldi və labüdlükdən bir nəfəri Fərəcüllah xanın yanına göndərib aman dilədi. O da bu aman istəməsi haqqında xəbəri hökmdara ötürdü. Xaqan əlahəzrətin əmrinə əsasən Naibüssəltənənin vəziri Mirzə Büzürg tapşırıq aldı ki, Mustafa xanı yaxından öyrənsin. Əgər onda digər xidmətçilərdəki kimi sədaqət və düzlük əsəri varsa, qəzəb və qüvvə ilə dolu orduya hücuma keçməyi qadağan etsin və bu müjdəni Mustafa xanın özünə çatdırsın. Əks halda isə Mustafa xanın varlığının binasını sel kimi aparsın, yəni tam yaraqlanmış ordunu hazır vəziyyətə gətirib onun vücudunun tozunu atlarının ayaqları ilə asimanın zirvəsinə çatdırsın.

Tayı-bərabəri olmayan vəzirin Lənkərana gəlişindən sonra sel kimi qüdrətli ordu Gamışavanın üzərinə belə tərzdə yürüş etməyi israrla təklif edirdi: Gilan fədailəri dəniz səmtindən gəmi və qayıqla oranı ələ keçirməyi öhdələrinə alırlar, Astrabad ilə Mazandaran fədakarları quru yolla oraya daxil olacaqlar, Talış xilaskarları isə mürdab tərəfdən su quşları kimi bu işi tamamlayacaqlar. Amma Mustafa xanın əmisi oğlu, öz insanlığı, düzlüyü, təmizliyi və sədaqəti ilə məşhur Əmirgunə bəy işi qabaqcadan sezib Mustafa xan adından xoş rəyli vəzirlə dil taparaq o cənaba lazım olduğu kimi öz qohumunun sədaqətli, səmimi və düz adam olduğunu söyləyib onu arxayın saldı və bir neçə seyidin və o məkanın əhalisinin həlak olması haqqında həqiqətin üstünü açdı. Oraya yürüş etmək o anlama gəlirdi

ki, məcburən Gamışavan sakini olmuş bir çox günahsız seyid və digər adamlar tələf olacaq və ya namuslarına toxunulacaq. Buna görə vəzirin aldığı əla əmri əsas tutaraq və rəhmdillilik və mürüvvət adətlərinə müvafiq olaraq bu işi yerinə yetirmək tapşırığını alanlar seyidlərin və digərlərin üstünə hücum etməkdən yekdilliklə vaz keçmək qərarına gəldilər. Mustafa xanla görüşüb bu ümidverici xəbəri ona çatdırdılar. Mustafa xan da itaətə gəlib əbədi dövlətə xidmət etməyi boynuna aldı. Sərdar Fərəcüllah xan hökmdarın əmrini yerinə yetirən saleh fikirli vəzirin işarəsi ilə öz ordusunu yığıb Ərdəbil darülirşadına yollandı.

### *Əlahəzrət Xaqanın Mirzə Məhəmmədhəsəni Naibüssəltənə vəlxilafətin vəziri yerinə təyin etməsi və baron Vredenin işə əncam vermək üçün gəlişi*

Padşah bayrağının parıltılı mahçası[1] Azərbaycan məsələsindən arxayın olandan sonra Çəməni-Ucandan Tehran darülxilafətinin yoluna nur saçmağa başlayan kimi tayıbərabəri olmayan vəzir də dünyanı bəzəyən saraya yönəldi. Padşahın özünə göstərdiyi mərhəmətin kamil həddə çatdığını görərək xahiş etdi ki, onun vəzirlik mənsəbi böyük xələfi Mirzə Məhəmmədhəsənə verilsin, çünki Mirzə Məhəmmədhəsən davranışda, xasiyyətdə, bəlağətdə və sədaqətdə müstəsna dərəcədə mümtaz bir şəxs olmuşdu. Həqiqətən də o cənabın dəyərli xələfi cavan olmağına baxmayaraq qocalara məxsus vüqara malik idi. O, gəncliyə yenicə qədəm basan məqamdan gözəl əxlaq, kəramət və təvazö sahibi olmuşdu. Ölkə hakimi gənc vəzirzadənin belə fitri istedada və qabiliyyətə malik olduğunu görə Mirzə

[1]Mahça – bayraq ağacının üstündə bərkidilən aypara.

Büzürgün xatirinə nəvvab Naibüssəltənə vəlxilafətin vəzir xidmətini Mirzə Məhəmmədhəsənə tapşırdı. Mirzə Məhəmmədhəsənin çiyni hökmdarlıq şüalı günəşin xələtləri ilə ziynətləndi. Mirzə Büzürg isə çox dəyərli qaimməqam rütbəsinə və Əla Divan Vəzirinin naibi vəzifəsinə yüksəldi, fəxri xələtləri geyinməklə və iltifat ilə inayət kasalarından içməklə təltif edildi. O həmin vaxt Azərbaycana ezam edildi ki, orada öz bəxtəvər xələfini müstəqil işləməyə yiyələndirsin.

İş elə gətirdi ki, o cənab Azərbaycana daxil olan vaxt rus ordusunun sərdarı Tormasov tərəfindən göndərilən polkovnik baron Vrede nəvvab Naibüssəltənənin hüzuruna gəlib onun məktubunu gətirmişdi. Məktubda bunlar deyilirdi: "Mənə rus padşahı tərəfindən gələn yazıdan açıq-aydın məlum göstərilir ki, rus padşahı İran dövləti ilə dost olmaq istəyir və mən ədavət və düşmənçilikdən uzaq olan sülhnamənin şərtlərini hazırlamaq üçün buraya məmur edilmişəm. Əgər İran dövlətinin başçıları atəşkəs qərarını versələr, bu atəşkəsin davam etdiyi müddətdə iki dövlətin səfirləri və camaatı rahat gedib-gəlmək fürsətini qazanacaqlar, bu sülh ilə səlahın vasitəsilə hər iki məmləkət asudəlik ilə əmin-amanlılq əldə edəcək və iki tərəfin tacirləri ilə iş adamları qorxusuz öz qazanclarının dalınca gedə biləcəklər. Bu səbəbdən sərhədçilərimdən hər birinə təkidlə məktub yazmışam və Sizdən də xahiş edirəm ki, atəşkəs məsələsinə əncam çəkəndən sonra bizim əlimizdəki məntəqələrin sərhədində nəvvab Naibüssəltənə vəlxilafətin hüzuruna şərəfyab olum və Mirzə Şəfi Mötəmədüddövlə ilə və yaxud Mirzə Büzürg Naibülvüzəra ilə görüş keçirim. Bu məqsədlə baron Vredeni yollayıb bir nəticənin hasil olunması intizarında qalıram".

Vrede şifahi surətdə Naibüsüsəltənənin nəzərinə onu da ərz etdi ki, əgər bu məsul qəbul olunsa, Rusiya dövlətinin başçıları işğal edilmiş məntəqəni qüdrətli dövlətin başçılarına güzəştə gedərlər. Səfirlərin gediş-gəlişinın ardınca Rusiya işğal etdiyi vilayətdən əl çəkib mürəkkəb danışıqsız-təklifsiz razılığa gəlmək xatirinə istiladan imtina edəcək və bundan sonra o tayfa tərəfindən dost münasibətinə xilaf olan heç bir iş üz verməyəcəkdir. Rusların başbilənləri təcrübədən məlum etdilər ki, bu müddət ərzində ələ keçirtdikləri vilayətlərdən heç bir xeyir görməyiblər, o məkanda və o ölkədə bir qurtum suyu da rahat içə bilməyiblər, bu neçə illik müharibədə rus dövləti böyük tələfatlar verib, qazanc uğrunda çoxlu canlar əldən versələr də, əvəzinə qazanc eldə etməyiblər. Bunların hamısını çox yaxşı bilən Naibüssəltənə baron Vredenin təqririni düzgün yozdu. O, Tormasovun cavabında, göylər kimi hündür saraydan izin alandan sonra yazmışdı ki, "bizim qafiləmizin gəlişi hər il sərhədlərə baş çəkmək üçün nəzərdə tutulmuş səfərdən tez baş verməyəcək. Mirzə Şəfi Mötəmədüddövlə isə məzmuna lazım olan şəkil kimidir: o, daim müzəffər rikabın nəzdindədir və bu arada onun o yanlara gəlməyi təqdir olunan iş deyil. Lakin Novruzdan sonra gözəl tədbirli vəzir, qaimməqam Mirzə Büzürg bizim əmrimizlə Qaracadağ işini sahmana salmaq üçün o tərəflərə ezam olunacaq və atəşkəs məsələsindən ötrü səninlə görüşəcəkdir. Sərhəddə keşik çəkənlərin başçılarına da buyurulub ki, iti qılınclarını qına salıb əmrdən kənara çıxmasınlar".

Baron Vrede özü ona tapşırılan işi tamamlamaq üçün Təbrizdə qaldı, bir başqasını isə Naibüssəltənənin cavabı ilə yola saldı ki, Tormasovu məlumatlandırsın. Həmin vaxt Şirvan tərəfdən bir dəstə adam qəflətən Muğana basqın

edib Qaracadağ elindən iyirmi min baş qoyun apardılar. Adıçəkilən el də Naibüssəltənənin qorxusundan nə axtarışa çıxdı, nə də əvəzini istədi. Bu əhvalatı xoşbəxt əmr sahibinin hüzurunda olanlara məruzə etdilər. Saray kargüzarları bunu baron Vredeyə izhar edəndən sonra onun bu nalayiq hərəkətə münasibəti bilindi. O, bir kəsi Tormasovun yanına göndərib narahatlığını ifadə etdi. Tormasov cavabında yazdı ki, "bu hadisə mənim hökmümə zidd üz verib. Bir dəstə qorxmaz türk pusqu qurub qoyunları apardı.Üzümüz qızarmaqdan tər tökdü. İndi bu utanc hərəkətə görə necə xəcalətdən çıxacağımız haqqında görüşümüz əsnasında naibülvüzəraya bildiriləcəkdir. Həmin vaxt ruslardan bir dəstə qəflətən Qarabağın Meğrisinə girdilər. Meğri o çağadək kamına çatmış şahzadə tərəfindən Əbülfəth xanın ixtiyarına verilmişdi. Məhz bu xəbər baron Vredeyə çatandan sonra o, bir nəfəri həmin rusların yanına göndərdi, heç kəsi alçaltmadan çox xəcalətli olduğunu bildirdi, ruslar Meğridən qayıtdılar və məlum olmadı ki, bu gəlib-getməyin məqsədi nə imiş.

### *Hicri min iki yüz iyirmi beşinci ilin[1] hadisələri, Tormasovun xahiş etdiyi atəşkəsin əsasını qoymaq üçün qaimməqam Mirzə Büzürgün təyin olunması və atəşkəsin baş tutmaması*

Yenə də ordibehişt[2] fəsli çəmən sahələrini behiştdən də təzə etdi. Qaracadağ elinə basqın oldu, Rusiya Qarabağın Meğrisinə gəlib-getdi, Tormasovun hiylə və fitnə-fəsad tor-

---

[1] Miladi təqvimilə 1810/1811
[2]Ordibehişt – İranın günəş təqvimində ikinci ay. Miladi təqviminin 21 aprel-21 may dövrünə təsadüf edir.

ları atıldı və həmin əsnada xəbər gəldi ki, ruslar Başaçuqun valisi ilə hiylə nərdini oynadılar, hüsn-niyyət nümayiş etdirdilər, onunla görüşmək istədilər və görüş zamanı onu tutub Tiflisə apardılar. Alirütbəli Nəvvab bu xəbəri eşitdiyinə görə qaimməqamın təyin edilməsini təxirə salmadı, vədəyə xilaf çıxmaq istəmədi və Bəhram kimi intiqam alan bir neçə qulamı göndərib tapşırdı ki, Tormasovun göstərdiyi yerə ləngimədən tələsib getsinlər və daxil olan kimi öz çadırlarını onunkundan bir az aralı qursunlar və humayun dövlətin adına möhtərəm mağar düzəltsinlər ki, orada həm iki dövlətin məqsədlərinin üstündəki pərdə çəkilsin, həm də padşahın sirləri yaxınlarına aydın olsun. Əgər Tormasovun gördüyü işin əsasında yalanla hiylənin durduğunu görsələr, çək-çevir etmədən, dərhal dönüş şeypurunu çalıb geri qayıtsınlar. Əgər isə onun davranışında anlaşmaya meyil görsələr, onda qaimməqam da düşmənçilk nümayiş etdirməkdən özünü saxlasın. Qaimməqam qərara gəlindiyi kimi yola düşdü, Tormasov isə işin başlanğıcında görüşmək üçün bir-birinin ardınca üç yer təklif edib, o saat peşman olurdu və nəhayət görüş yerini Əsgəranın o tərəfinə təyin etdilər. Qaimməqam dayanmadan oraya yollandı və bütün ona tapşırılanlara əməl etdi. Tormasov zahirdə hətta gözləniləndən də artıq qonaqpərvərlik və ehtiram göstərmiş və bir dəqiqəlik belə insanlıq adətlərindən kənara çıxmamışdı. İki dövlətin padşahları yaranmış vəziyyətə müvafiq təntənəli surətdə fərmanlar verdilər və hər iki tərəfin mənafeyinə uyğun atəşkəsnaməni yazmağın əsasını qoydular. İki dövlətin padşahları öz əmrlərində fərqli bir şey ortaya qoymadılar və qayda-qanuna zidd bir iş də iki tərəfdən zahir olmadı. Amma nəticədə Qaracadağdan aparılan qoyunlara görə etiraz verildi və Tormasov özü

yenə bir dəstərusu Meğriyə təyin etdi.Naibülvüzəra onun Meğrinin müdafiəsini yarıb oraya yiyələnmək iddiasını biləndən sonra bunu izhar etdi, lakin eşitdiyi namünasib və yersiz cavab o oldu ki, bundan öncə rus qoşunu oraya gəlmiş və iki günlük orada möhkəmlənmişdi, Meğri Qarabağın bölgələrindəndir, hal-hazırda saldatlar orada sakin olublar, ona görə də bu iddia əsassız deyil. Sülh sazişinin dolaşığa düşməyinin əsas səbəbi onun[1] təklifi oldu ki, bu dövlətlə sülh bağlayandan sonra Axısqa və Qars istiqamətindən Ruma qoşun yeridəcəyəm və bu dövlət tərəfindən [osmanlılara] heç bir kömək göstərilməməlidir. Əliyyə dövləti ilə Osmaniyyə dövləti aralarında sülh və hərb şəraitində müttəfiq olmaları və birinin o birisindən xəbərsiz sülh tələbində olmamaları barədə şərt kəsildiyini nəzərə alaraq Naibüssəltənə əhd və şərtə riayət edib sülhü qəbul etmədilər, qaimməqama geri qayıtmağı tapşırdılar və beləliklə şərtə xilaf çıxmağı dövlət üçün ar olduğunu bildilər.

Naibülvüzəra Naibüssəltənənin buyuruğuna əsasən atəşkəs danışıqlarını tərk edib qayıtmağa hazırlıq görməyə başladı. Tormasov gözə kül üfürmək qaydası ilə naibülvüzəra qayıdan vaxt sözlə təsvir olunmaz ədəb-ərkan və hörmət-ehtiram göstərdi. Əgər o, Başaçuq valisi Süleyman xanın başına açdığı oyunu burada təkrar etmək iddiasına düşsəydi, qulamların cəsarəti və müşayiət edənlərin rəşadəti buna yol verməzdilər, bəlkə də hadisə əks tərəfə yönəlib onun üçün pis nəticələnəcəkdi.

Axırda uzun vurhavurun və iki tərəfdən çoxlu döyüşçü mərdlər tələfatının nəticəsində Meğri qəzanın hökmü və qədərin qüdrətilə rusların əlinə keçdi. Amma rusları o məntəqədən çıxarmağa müvəffəq ola bilmədiyini görən

[1]Yəni Tormasovun

Əbülfəth xan Cavanşir oranın və yaxın bölgələrin əhalisini yığıb Arazın o biri tayına köçürtdü. Naibüssəltənənin fərmanıyla Dizmarın[1] hökuməti Əbülfəth xanın əlinə keçdi, Qarabağ eli isə nəvvab Naibüssəltənənin əmrilə dəfələrlə onlara qarşı çapovulçuluq törədən Pirqulu xan Qacarın zorakılığından xilas olmaq üçün heyvanları ilə Naxçıvana və ölkənin digər məntəqələrinə köçüb səpələndilər. İbrahim xan Qacar Xaqanın dünya qədər möhtəşəm dərgahından sərhədçi vəzifəsini yerinə yetirmək üçün Kürün sahilinə göndərilmişdi. Uğurlu xan Gəncə[li] dəfələrlə Gəncənin həndəvərinə basqın edib hər dəfə bir neçə saldatı qılıncından keçirtdi, Gəncənin mötəbər və ən varlı elatlarından olan Ayrumlu elatını bütövlükdə köçüb Şərura və Naxçıvana gəldilər.

### *Bəzi hadisələrin şərhi, habelə Nəvvab şahzadə Əli xanın Qazaxın bir neçə elatını çapması və o cənabın qayıtması*

Bahar fəslinin sonunda Əlahəzrət Şahənşahın xoşbəxt qədəmləri ilə Çəməni-Ucana dünyanın ən gözəl gülüstanına döndü. Həmin günlərdə Çəməni-Dügicana[2] təşrif buyurmuş Naibüssəltənə ona qalib gəlmiş şövq hissindən Cəmşidtəkin hökmdarı salamlamaq üçün təcili surətdə, on iki saat ərzində özünü oraya çatdırıb rikabbusi mərasimini yerinə yetirdi.[3] Fələklərədək yüksəlmiş hökmdar Çəməni-Sultaniyyəyə

[1]Dizmar – Təbrizin şimalında bir mahaldır.
[2]Dügican – Mərənd tərəfdə bir kənddir.
[3]Rikabbusi – (hərfi tərcüməsi) üzəngiöpmə; təzim, ehtiram.

daxil olan kimi nəvvab şahzadə Əli xanı[1] saysız-hesabsız süvari və piyada ilə İrəvana yolladı. O cənab Naxçıvanın Çəməni-Qarabağlarına gedib nəvvab Naibüssəltənənin xoşbəxt qafilənin gəlişi intizarında dayandı.Allahın Kölgəsi hökmdar Naibüssəltənəyə öz rikabına gəlməyə rüsxət buyurdular. Nəvvab Naibüssəltənə Naxçıvanda qaldığı vaxtda kamına çatmış şahzadə Əli xana İrəvanın Çəməni-Abaran adlı yerinə getməyi tapşırdılar. Şahzadə Əli xan iki dəfə zəfər nişanlı qaziləri İsmayıl Damğaninin, padşahın pişxidmətbaşının və digər igid sərkərdələrin başlığı altında Hamamlunun üstünə atmış və onlar mərdliklə döyüşüb bir çox rusu qətlə yetirdilər. [Padşah] oradan şahzadəni Şəmsəddinludan və Gəncə ilə Qazaxın digər elatlarından olan üsyankarların general Nebolsinin tərəfini saxladıqlarına görə qulaqburmalarını verməyə göndərib özləri geri döndülər.

Azad şahzadə Gəncənin özünə və ətrafına daxil olarkən təsadüfən Qazax eli ilə üz-üzə gəldi və həddindən artıq maldavardan və qaramaldan ələ keçirtdi. General Nebolsin rus qoşunu, eləcə də Qazax və Şəmsəddinlu süvariləri ilə birgə dəstə-dəstə yığışıb hazır oldular və yenidən dava-dalaş qızışdı. O azad şahzadə hər tərəfdə qoşunun bir hissəsini döyüşməyə məşğul etdi və saya gəlməz axtarma və əsirlə, hesaba gəlməz qənimətlə cilovunu o hüdudlardan döndərib İrəvana gəldilər. O əsnada Tormasovun Sadıxlu tərəfdən Tiflisə qayıtması xəbəri yetişən kimi naibüssəltənə Rza xanı ordunun böyük hissəsi ilə padşahın sarayına göndərdi və iltimas etdi ki, padşahın nəfis nəfsi çox soyuq

[1]Əli xan – Əlişah Zillüssultan, Abbas Mirzənin atası-anası bir olan qardaşı.

yaylaqlardan olan Çəməni-Ucanda daha qalmasın və padşahın bayrağı darülxilafətə üz tutsun.

### *Şeyxəli xan Qubanın və Mustafa xan Şirvaninin üzərilərinə aldıqları öhdəliklər və İbrahim xan Qacarın Kür çayının sahilinə yollanması*

Bundan öncə zikr olunmuşdu ki, İbrahim xan Qacar Kür çayının sahilinə getmək tapşırığını almışdı. Dövlətin mərhəmətinin kölgəsinə sığınmış Səlim xan Şəki və Hüseynqulu xan Bakuvi Çəməni-Ucanda padşahın hüzuruna şərəfyab oldu. Şeyxəli xanın adamları ona müraciət edib hamılıqla istədilər ki, bir sərdarı qoşunla Muğana təyin edilsin. Hökmdar dərgahından Şeyxəli xana bir məktub gəldi ki, öz əvvəlki əməllərə görə peşman olmuş Mustafa xan Şirvani Ali dövlətə xidmət və Rusiyaya müxalifət mövqeyində Şeyxəli xanla birləşib və indi istiqlalın özəyi kimi Şəkidə Səlim xanın yanında olsun. Hüseynqulu xan da Şeyxəli xana qoşulsun, ləzgi əsilli tərəfdarlar da Qubada toplaşsınlar və cəm halda Rusiyaya qarşı müharibəyə atılsınlar.

Allahın Kölgəsi əlahəzrətləri bütün bu sözlərə etimad göstərməsələr də, məhz onların xətrinə bu məsuliyyəti öz üzərinə götürüb İbrahim xan Qacarı ordunun yaxşı silahlanmış bir dəstəyə təyin etdilər, lazımi qədər inayət göstərdilər və qərara aldılar ki, əgər Mustafa xanda xidmət etmək niyyətinin bir əlaməti üzə çıxsa və ya Şeyxəli xan işinin ayağını yerə bassa[1] və hər birisi müzəffər ordunun Kür çayından keçməsini xahiş etsə, o tərəfə gedib onlara kömək etmək və yaxud Qarabağa hücum edib Şeyxəli xanın yanına

---

[1]Yəni sabitqədəm olsa, möhkəm dayansa

getməyi israr edən Hüseynqulu xana istədiyi qədər süvarilərdən vermək və digər yolla yardım göstərmək. İbrahim xan qərarlaşdığı kimi bir müddət Muğanın Aslandüzündə dayanıb və sədaqətin rayihəsi əsla onun burnuna dəyməyib. Onun aldığı tapşırığa müvafiq Qarabağı çapovul etmək üçün oraya atılıb nağd puldan, cürbəcür əşyalardan, mal-davardan və qaramaldan ələ keçirib və qayıdıb yenidən Aslandüzdə mövqe tutması labüddür. Naibüssəltənənin qələbə şüarlı rikabında xidmət edən Pirqulu xan padşahın əmrinə əsasən İrəvandan çıxıb Muğanın sərhədçiliyinə məmur edilməlidir. Naibülvüzəra Mirzə Büzürg də piyadalardan və süvarilərdən ibarət bir dəstəni padşahın ordugahından götürüb Pirqulu xana təhvil verməli və Qaracadağ ilə Dizmarın işini qaydaya salıb geri qayıtmalıdır.

Qaimməqam əmrə əməl etdi. İbrahim xan göylərə ucalmış sarayı tərk edərək humayun ordugaha daxil oldu. Pirqulu xan aldığı tapşırığa əsasən müzəffər ordunu götürüb Qaracadağın hakimi Mahmud xan Qaragözlü ilə Qarabağa getdilər. Araz çayından keçən kimi, birinci növbədə Əsgəran qalasının mühafizəsinə məşğul olan Mehdiqulu xan Qarabağiyə yaxşıca qulaqburması vermək istədilər. Onlar ayaqlarını quruya basmadan Tərtər çayı ilə gedib Cəbrayıllu elini talamaq üçün yola düşdülər. Həmin el çox möhkəm sığnaqda mövqe tutmuşdu. Müzəffər qoşun irəliləyib onların sığnaqlarını aldı. Onları talan edib bayrağını oradan Qaracadağa çevirdi. Adıçəkilən sərdar yola düşərkən xəbər gəldi ki, Araz çayından keçmiş Çəlibanlu camaatı yarıyolda tərəddüd etməyə başladılar və çayın bu tərəfinə köçdülər. Sərdar da aldığı tapşırığa əməl edərək onları Yusifanlu tayfasıyla birgə köçürüb Arazın bu tayına gətirdilər. Bu əhvalat Naibüssəltənəyə məruzə edi-

ləndə Hacı Məhəmməd xana əmr verdi ki, şiə və sünni əsirlərini zəfərin pənah gətirdiyi ordudan götürüb sahiblərinə təslim etsin[1].

*Tormasovun Başaçuqun valisi Süleyman xanı tutması, sərdar Hüseyn xanın Axısqada ruslara məqlub olması, bunun əvəzini çıxmaq üçün sərdarın rusların üstünə gəlməsi, Hacı Qara səngərinin ələ keçirilməsi və bu səngərdə çoxlu rusun qətlə yetirilməsi və pərən-pərən salınması*

Rus sərdarıTormasov özü iləbir dəstə götürüb Tiflisin və Başaçuqun sərhədinə gedir və Başaçuq valisi Süleymana xana bir dəvətnamə göndərir ki, dostcasına görüşməyə gəlmişəm, gəl, salam-kəlam qapısını bir-birimizin üzünə açaq. Bunun ardınca da qəddarcasına öz adamlarını pusquda hazır qoyur və görüşüb danışandan sonra üzdə Süleyman xana xidmət kəmərini bağlamış, əslində isə Tormasovla sözləşmiş bir neçə Başaçuqlunun dəstəyi ilə hiylə pusqusunda oturub Süleyman xanı tutur və Tiflisə aparır. Bir azdan bir neçə rus rəisinə Süleyman xanı gecə ikən bir məhbus qismində Peterburqa aparmağı tapşırır. Gecə şərab məclisində bu işdən agah olan Süleyman xan özünü min bir tədbirlə oradan xilas edir və bir neçə nəfərlə qaçır, təğyirlibas olub şəhərin darvazasından çıxır, bir itiqaçan at və bələdçi tapır və yubanmadan yola düşür.

Hikmət sahibləri deyirlər ki, ağıllı adam o deyil ki, özünü bəla tələsindən və əsarət burulğanından qoruyar. Ağıllı bəlkə odur ki, təhlükəyə düşəndə fikir gücünün

---

[1]Bu cümlənin mənası aydın deyil.

köməyi ilə yaxasını bəla çaynağından qurtarar və bədən gəmisini ölüm girdabından nicat sahilinə çıxarar.

Süleyman xan Başaçuqa gələndən sonra bir neçə dəfə ruslarla vuruşmuş, o tayfadan bəzilərini öldürmüş, bəzilərini isə əzişdirib qayıtmağa məcbur etmişdi. Başaçuq mahalında rusların əlində bircə qala qalmışdı. Levan Mirzə[1] Kartvelə gələn kimi yerli əhalini yığıb rusların əleyhinə qaldıqrmaq üçün lazımlı səy göstərdi, amma buna qədər rusun aram verməyən hücumlarından başı açılmayan Axısqa valisi Şərif paşanın və oranın sabiq valisi Səlim paşanın Rusiya ilə saziş bağlamaları ona rahatlıq vermirdi və yalnız qüdrətli dövlətin dəstəyi və sərdar Hüseyn xanın gəlişi onun ürəyini sakit etdi. Adıçəkilən sərdar Axısqaya gələndən sonra Şərif paşa onun intizam yaradacağına bel bağlayıb özü ehtiyat qaydalarına əsla riayət etməz, hər yolda və keçiddə qarovul qoymazdı. Şərif paşanın işində intizamsızlıq yaranmasından istifadə edən rus qoşunu gecə çağı qəflətən qarovul olmayan yoldan sərdarın üzərinə gəlib onun ordugahını top-tüfəng atşınə tutdu. Sərdar və bütövlükdə ordu bəziləri oyaq, bəziləri yatmış, vəziyyəti belə görüb iztirab içində ordugahdan çıxdılar. Ruslar ordugahın kənarına çatıb talançılığa əl atdılar. O əsnada Mirzə Əlinəqi xan Findiriski Astrabadi öz dəstəsilə onların üstünə cumub öz yolunda hər şeyi yandıran alov kimi onları əzdi, saysız axtarma və hesabsız silah əldə etdi. Ruslar geri qayıtdılar.

Sərdar Hüseyn xan o vilayətdə artıq qalmağı mənasız bilib Rusiyaya qarşı döyüşə tədarük görməyə başladı. Ucanda şahzadə Əli xanla görüşəndən sonra Naibüssəltə-

---

[1]Levan (və ya Levon) Mirzə – Gürcüstanın keçmiş valisi Gərəginin (Qurgenin) oğlu və İsgəndər (Aleksandr) Mirzənin qardaşıdır.

nənin ordugahına gəlib Pənbəkin səngərlərindən birini ələ keçirmək üçün əsgərlərdən, qulamlardan və tüfəngçilərdən bir dəstənin onun ixtiyarına verilməsini istədi. Abbas Mirzə onun bu xahişinin cavabında sərhəng Məhəmməd bəy Qacar Əfşarı və tüfəngçi qulamların sərkərdəsi Qasım bəyi əllərinin altındakı dəstələrlə sərdarın yanına göndərdi. Tapşırıq alanlar *orucluq ayının iyirmi üçündə* hücum atlarını Pənbəkin Qarakilsəsinə tərəf yönəltdilər. Hər yerə qar yağmasına, yolları buz bağlamasına, havanın soyuqluğundan bədəndəki qanın belə donmasına baxmayaraq, onlar bir gün-bir gecəyə iyirmi səkkiz fərsəngi ayaqla keçdilər və Pənbəkin səkkiz fərsəngliyində tam nizam-intizamla dayanıb sıraları qaydaya saldılar və irəliləməyə davam etdilər. Səhərə iki saat qalmış Hacı Qara səngərinə çatdılar. Orada bir saat dincələndən sonra sərdar kəşfiyyatçı əsgərlərdən beş nəfəri xəbər almaq və vəziyyəti öyrənmək üçün rusların səngərinə yaxın göndərdi ki, işdən, durumdan, yürüş yolundan, əhval-ruhiyyədən və işə lazım olacaqlardan məlumat hasil etsin. Onlar səngərin xaricində iki nəfər rus qarovulçusu ilə rastlaşaraq onları diri ələ keçirib sərdarın yanına gətirdilər. Sərdar bu iki rus qarovulçsusunun tutulmasının intizamın pozulmasına səbəb olacağından ehtiyat edərək həmin anda, yəni səhərə yaxın, öz sərbazları ilə rus səngərinin üstünə irəlilədi. Keşikdə dayanan ruslar da gecənin qaranlığında ordunun yaxınlaşmasını duyaraq döyüşə girdilər. Düşmənovlayan sərbazlar birdən hər tərəfdən yürüyüb səngərə daxil oldular və ruslara bir yerə qaçmağa yol qoymayıb onları dairəyə aldılar və rus saldatları dəstələrinin səngərinə və həmçinin erməni tüfəngçiləri ilə dolu kəndə bitişik bu möhkəm hazırlanmış səngərə yol açıb oradakı bütün rusları öldürməyə, habelə həmin

bitişik kəndin ermənilərini, onların arvad-uşaqlarını və mal-mənalını talamağa başladılar. Günəşin qalxmasından sonrayadək öldürməyə, əsir almağa və yaxıb-yandırmağa davam etdilər. Onlar[1] öz saldatlarını ermənilərin evlərində gizlətdiklərinə görə hamısını yandırıb bünövrələrinə qəhr atəşini saldılar. Onların toplarını qırıb, ermənilərin qara-malını və mal-davarını alıb qalibcəsinə və qürurla geri qayırdılar. Hacı Qaraya bitişik səngərlərdəki ruslar müzəffər qazilərin malları qarət etməklə kifayətlənib dayanacaqlarını təsəvvür etsələr də, onların dalınca düşdülər, amma zənburəkin atış məsafəsindən də artıq atış məsafəsinə malik tüfənglərdən güllə atmaqla bir neçə rusu öldürərək və ya yaralayaraq məqsədlərinə çatmayıb öz mövqelərinə qayıtmağa məcbur oldular. Sərdar başları, əsirləri və malları yığıb qaydaya müvafiq surətdə Naibüssəltənənin hüzuruna gəldi və nəvvab Naibüssəltənə belə xidmətləri layiqincə mükafatlandırdı.

### *Məlkom Bəhadirin[2] gəlişi, ingilis topxanasının dünyanın pənah apardığı saraya gətirilməsi və həmin topxananın Naibüssəltənəyə təhvil verilməsi*

Sərhədmühafizəsi və uzağa atəş açmaq baxımından ingilis topxanası çox etibarlı olmasına baxmayaraq İranda heç istifadə olunmurdu. İndi Məlkom Bəhadirin müşayiəti ilə toplar mahir topçularla və çoxlu mərmi və sair avadan-

---

[1]Yəni ruslar

[2]Məlkom Bəhadir – ser Con Məlkolm (1769-1833), britaniyalı hərbçi, diplomat, East İndia Company şirkətinin başçısı, İrana dair bir neçə kitabın, o cümlədən “İran tarixi: uzaq keçmişdən bugünədək” (1815) əsərinin müəllifi.

lıqla Hindistan və Fars yolu ilə göylərə qədər ucalmış saraya daxil oldular. Öz səriştəsi və işbilənliyi ilə məşhurlaşmış mister Kərşət və mister Linzi, habelə başqa bir neçə nəfər adıçəkilən səfirin məsləhəti və padşahın əmrilə həmin topxananı nəvvab Naibüssəltənəyə təhvil verdilər. Hərəsi öz işində və sənətində mahir usta sayılan mister Kərşət, mister Linzi və başqa bir neçə nəfər Təbrizə təyin oldular. Naibüssəltənə topxana işini nizama salmasını mister Linziyə həvalə edib bir neçə iranlını da onun nəzdində qoydu ki, ingilis qaydası ilə top atmağı öyrənsinlər. Hal-hazırda tam səy və cidd-cəhdlə topatma məşqlərini keçirib böyük məharət hasil etdilər və indi topunbir dəqiqə ərzində yeddi dəfə dolub boşalmağından tüstü tüstüyə qarışır.

### *Tormasovun Axısqanı almaq cəhdi və Şərif paşanın ona qalib gəlməsi*

Ulduzlar qədər möhtəşəm qafilə İrəvandan öz mövqeyinə qayıdandan sonra rus sərdarı Tormasov meydanı boş görüb fürsətdən istifadə etmək arzusuna düşdü. O, Başaçuqun işğalı üçün ayağa qaldırdığı ordunu şəhərin və Axısqa qalasının ətrafında qurulmuş çadırlarda yerləşdirdi. Axısqa hakimiyyəti üstündə Şərif paşa ilə mübahisəsi düşən Başaçuqun sabiq valisi Səlim paşa bu xəbəri eşidən kimi islam qeyrəti ona üstün gəldi. O, öz inadkarlığını kənara qoyub oğlunu böyük dəstə ilə Şərif paşanın köməyinə göndərdi.Özü isə döyüşə hazır vəziyyətdə durmuşdu.

Tormasov və rus ordusu səhərə üç saat qalmış hər tərəfdən və hər yandan yürüş etməyə başlayıb Axısqa qalasının içinə daxil oldular. Onda ocaqlular, Sulu bəy, digər dilavərlər və o məkanın valisi Şərif paşa döyüşə

girişdilər. Günortadan iki saat keçənədək hərb ocağı alovlandı və mücahidlərin əli tüfəngi əldən buraxmadı. Süngü ilə qılıncın vaxtı çatanda islam ordusu ilə rus qoşunu əlbəyaxa oldular. Axırda Tormasov rus ordusu ilə darmadağın edildilər və vadiyə üz tutmağa məcbur oldular. Şərif paşa və Axısqa ordusu onları şəhərdən çıxardıb bir fərsəng şəhərdən geri otuzdurdular və bu vaxt Ərzurumdan və onun ətrafından Əmin paşanın sərkərdəliyi ilə kömək yetişdi. Şilküt olandan sonra iki-üç gün keçdi. Özlərinə gələnruslar Axısqa şəhərinin yan-yörəsindən yığışıb iki tərəfdən yürüşə hazırlıq görməyə başladılar, səməndər quşu kimi od şöləsinin ortasında oturdular.

Xülasə, Rum qoşunu iti qılıncla və top-tüfənglə rus ordusunu dağıdıb elə pərakəndə saldı ki, onlar nizam-intizamı tamamilə pozulmuş halda darmadağın olarkən öz ordugahlarını itirdilər, yalnız Axısqadan dörd fərsəng aralı bir-birini tapa bildilər və dönüş üzəngisini Gürcüstana yönəltdilər. Şərif paşa baş verənlərin təfərrüatını Naibüssəltənənin dərgahına məruzə etdi. Şərif paşanın özünə və o vilayətin digər igidlərinə və mücahidlərinə xüsusi xəzinədən fəxri xələtlər buyuruldu. Ondan əlavə Şərif paşaya bəzəkli xəncər mərhəmət edildi və həmçinin xüsusi tövlədən qızılı avadanlığı ilə bir ildırımtəkin at ona nəsib oldu.

### *Bir dəstə sərbazın Şeyx Aviz ruslarının üstünə göndərilməsi və sərbazların əli ilə rusların oradan qovulması*

Qışın ortalarında işıqsaçan sarayın sakinlərinin ərzinə çatdı ki, ruslar Qarabağda və işğal etdikləri digər yerlərdə olan azuqə ilə silah-sursatı Qarabağdan çıxarıb çətinliklə

gedilə bilən Şeyx Aviz (?) adlı kənddə yığıb oradan Meğriyə daşımaqdadırlar. Nəvvab Naibüssəltənə sərhəng Məhəmməd bəy Qacar Əfşarın dəstəsini Ehsan xan Dünbülinin dəstəsi, eləcə də kiçik sayda tüfəngçi qulamlarla birlikdə Şeyx Avizdəki istehkamı ələ keçirmək üçün təyin edib göndərdi. Onlar təcili surətdə Araz çayından keçib dağları qar örtdüyü məqamda qəflətən Şeyx Avizi əhatəyə aldılar. Oranın rus və erməni sakinləri bundan xəbər tutanda özlərini bəla tələsinin içində gördülər. Onlardan on beş nəfəri fürsət tapıb silah-sursatla Şeyx Avizin kənarında yerləşən kilsənin damına çıxdılar və gizlənib tüfəngdən atəş açmağa başladılar. Yerdə qalanların hamısı isə rəşadətli sərbazların əlinə keçdilər. Onlardan bəziləri güllə yarasından öldülər, başqalarını isə yaxasından tutub ortaya çıxartdılar və elə oradaca qoyun kimi başlarını kəsdilər. Bir qismi də sərbazların əlindən qaçıb bir evdə gizləndilər. Sərbazlar onların arasına bir neçə qumbara atdılar. Onlar dirənməyə macal tapmayıb bayıra qaçdılar və sərbazlar onları da tutub başlarını kəsdilər. Ata minib aradan çıxan iki-üç nəfərdən savayı o camaatın hamısı qətlə yetirildi, heç kəs canını qurtara bilmədi. Ardınca Şeyx Avizdə tapılanın hamısını qarət etdilər. Bu hadisədə müzəffər ordudan üç-dörd nəfərdən artıq adam ölmədi və ya yaralanmadı. Sərbazlar onların[1] başlarını tüfənglərinin süngüsünə keçirib müzəffər rikaba yetişdilər. Naibüssəltənə bu xidmətin əvəzində onlara ənamlarla ehsanlar payladı.

### *Humayun qoy yıla[2] təsadüf edən min iki yüz iyirmi altıncı ilin[1] hadisələri və ali Osmanlı dövlətinin elçisi*

[1]Yəni ruslarla ermənilərin

[2]Qoy yıl – qədim türk on ikiillik təqvimində qoyun ili.

*Yasinzadə Əbdülvəhhab əfəndinin gəlişi*

Yəmən tərəfindən gözəl Novruzun gəlişiylə qoca dünya cavanlaşmağa üz qoydu. Hava mötədilləşməyə başladı və qızılgül dəstəsinə min bir dastan oxundu. Elə bu vaxt, yəni [*1225-ci ilin*] zihiccətül-həramın sonlarında Osmanlı sarayından İrana səfir göndərilmiş Yasinçizadə[2] Əbdülvəhhab əfəndi Təbriz darüssəltənəsinə daxil oldu. Nəvvab Naibüssəltənənin əmrilə əyanlardan bir neçə nəfər onu qarşılamağa çıxdı və ənənəvi büsatdan sonra qonaq Tehran darülxilafətinə yola düşdü, hökmdarın naməsini və dost ərməğanlarını təqdim etdi, padşahın lütfkarlığını gördü və iki ali dövlətin möhkəmlənməsinə dair xoş sözlər və ürək açan kəlamlar eşitdi. O, bir müddət padşahın astanında qalandan sonra nəvvab Naibüssəltənənin hüzuruna yollandı.

*Çəməni-Sultaniyyədə şahzadələrin toy şənlikləri*

Novruz bayramı şadyanalığı bitəndən sonra padşahın olkələr fəth edən bayrağı Sultaniyyə səmtinə bahar səfərinə çıxdı. Tehran darülxilafətindən hərəkətə keçməmişdən qabaq Həzrətin yaxınlarından olan pişxidmətbaşı İsmayıl bəy Qulam sərdarlığa təyin olundu və süvarilərdən, qorxmaz piyadalardan və tüfəngçilərdən ibarət böyük dəstə ilə Azərbaycana göndərildi. Hökmdarın bayraqları Çəməni-Sultaniyyədə yerləşəndən sonra qələbənin pənah gətirdiyi ordunun başqa bir dəstəsi onun ardınca yollandı, daha bir dəstə isə Xorasana yola düşdü. Maliyyə məsələsini şahzadə Məhəmmədvəli Mirzə həll etdi. Azərbaycana və Xorasana

---

[1]Miladi təqvimilə təqribən 1811

[2]Başlıqda bu şəxsin soyadı Yasinzadə şəklində yazılıbdır.

qoşun çəkməyin məsrəflərini ödəmək üçün lazım olan vəsait rütbələrə müvafiq olaraq dövlət xəzinəsindən ordu məvaciblərinə əlavə edildi.

Bu işlərdən xatircəm olandan sonra adıçəkilən Çəməndə qaldıqalrı günlərdə qərara gəldilər ki, əzəmətli şahzadələrin: Xəmsənin sahibi Abdullah Mirzənin və Məlayirlə Nəhavəndin sahibi Şeyxəli Mirzənin xeyir işlərinin əsası qoyulsun və eyş-işrət üçün ondan yaxşı yer tapmağın mümkünsüz olan həmin ürəkaçan Çəməndə xatirələrdə qalacaq bir əylənmə təşkil edilsin, İranın başçıları bu böyük nemətdən bəhrələnsinlər və hər kəs bu ümumi bərəkətdən həzz alsın.

On gecə bütün padşah ordugahında və hər gecə bütün çadırlarda çıraqlar elə tərzdə yanırdı ki, çadır səma çadırı, çıraqlar isə o səmanın ulduzları təəssüratını bağışlayırdı və başını göyə ucaltmış Sultaniyyə qəsrindən izlənilən tamaşa əbədi ömür ləzzətindən xəbər verirdi.

Bundan sonra bütün məmləkətin işini nizama salmaq xatirinə hökmdar bayrağı həmin Çəməndən köçmək məqsədilə qalxdı və nəvvab Naibüssəltənəyə Rusiyaya qarşı hərb və dava üçün lazım bildiyi hər şey barədə müvafiq qayda-qanunla təqdim etməsi tapşırıldı. Naibüssəltənə tədricən işin bünövrəsini qoydu. Əşrəf xan Dəmavəndini və Təbriz sərbazlarının sərhəngi İbrahim bəyi, qulamların yüzbaşısı Əli bəyi və Naxçıvan hakimi Nəzərəli xan Kəngərlini təyin etdi ki, Qarabağın Mağaviz bölgəsinə tərəf gedib o məkanda sakin olan bütün tayfaları oradan mühacirət və köç etməyə çağırsınlar və getdikləri yolun əmin-amanlığını təmin etsinlər ki, buna razılaşan hər kəs sap-sağlam Naxçıvana gəlib yardım və ehsan ala bilsin, inadkarlıq edən hər kəs isə həbs olunsun. Tapşırıq alanlar ona

əməl etməyə başladılar. Qarabağı boşaldıb dağıtmağa səy göstərmiş Nadir şah Əfşarın vaxtında və məğfur Xaqanın zamanında bu iki cəlalətli padşahın ordusundan heç bir kəsin və heç bir dəstənin Mağavizə yol tapıb girmək üçün gücü çatmadığı halda bunlar təmkinlə şahzadənin əmrini yerinə yetirərək oraları taladılar və köçmək təklifini qəbul edən yerli elatların çoxunu Naxçıvana yola saldılar, inadkarlıq və tərslik göstərən bəzi ermənilər isə tutub əsir aldılar. Dustaqlar öz əməllərindən peşman olduqlarını ifadə edəndən sonra onları da yığıb Naxçıvana sakin etdilər. Nəvvab Naibüssəltənə əsirləri onları gətirənlərdən nağd pula alıb mürüvvət və mərhəmət göstərərək sahiblərinə təhvil verdilər.

Yazın əvvəlində qərara alındı ki, Dizmarın Kürdəştində bir qala tiksinlər. Onun bir tərəfi Araz çayı olduğu halda, digər tərəfi vahiməli dağa söykənmişdi. Fransız və iranlı mühəndislər bu qalanı tikməkdə çox əziyyət çəkmişdilər. Nəvvab Naibüssəltənə özü oraya buyurub qalanın vəziyyəti ilə tanış oldu, oranın nöqsansız-qüsursuz olduğunu gördü və mühəndisin Təbriz darüssəltənəsinə qayıtmağına göstəriş verdi. O əsnada Həzrətin yaxın adamlarından olan, hökmdarın sarayından süvarilər və piyadalar qoşununun sərdarlığına təyin edilmiş İsmayıl bəy Damğani gəldi və Naibüssəltənə onları toplayıb Çəməni-Gülənbərdə yerləşdirdi. Zəfər bayrağı onu təqib etməkdə idi. Adıçəkilən Çəməndən Əmir xan Dəvəlu-Qacar ilə iki dəstə sərbaz və bir dəstə süvarinin sərhəngi Məhəmməd bəy Qacar Əfşarı Bərgüşad üzərinə göndərib qalanı və oradakı sığınacağı ələ keçirməyi tapşırdı. Onlar Araz çayından keçdilər, böyük hissəsi piyadalardan ibarət olsalar da, başlarındanaşan şövq ilə canfəşanlıq onlara bir gecə-gündüz ərzində səkkiz

fərsəngi gedəndə və səkkiz fərsəngi qayıdanda keçməyə kömək etdi. Bərgüşadın çoxlu mağaraları, meşəsi və dağı var idi, üstəlik əhalisi keçidlərdə ağacları bir-birinin üstünə bağlayıb maneələr düzəltmişdi ki, oradan keçmək mümkün olmasın. İgidlər isə iyirmi dörd saatın içində oranı ələ keçirib kişilərin əksəriyyətini döyüş əsnasında qətlə yetirdilər, bütün mallarını aldılar, arvad-uşaqlarını da əsir götürdülər. Bu məqamda yenə də ənənəvi mərhəmət və fitri mürüvvət: əsirləri qaliblərdən satın alıb qovdular, bu çətin zəfərin özəyi olanların hər birinə isə ənamlarla ehsanlar payladılar. Oranın əhalisi də Qaracadağa gəlib ölçüyəgəlməz mərhəmət gördülər.

Həmin günlərdə Pirqulu xan Qacara da bir dəstə piyada və atlı ilə və həmçinin Qaracadağın süvariləri ilə Qarabağa gedib Cəbrayıllu elatına köçməyi təklif etməyi buyurdular. Tərslik göstərdikləri halda onlar tar-mara məruz qalmalıydılar. Çanaqçı yolu Qarabağın bütün yollarından çətin idi. Ancaq Pirqulu xan cəsarət göstərib nəvvab Naibüssəltənənin göstərişinə xilaf olaraq məhz bu yolla irəlilədi. Həmin vaxt ermənilər və oranın sakinləri öz mallarını başqa yerə daşıyıb onların yollarının üstündə oturdular, ağacları bir-birini bağlayaraq maneə qurdular və səngərlər düzəltdilər ki, oradan heç bir minvalla keçmək mümkün olmasın. Pirqulu xan Astrabad tüfəngçilərinə o səngərlərin üstünə yürüş etməyi əmr etdi və tapşırdı ki, bir səngəri ələ keçirən kimi orada bir neçə tüfəngçi qoyub o birinin üzərinə yürüsünlər. Birdən o səngərlərdən birində məşhur astrabadlılardan ikisini qətlə yetirdilər, halbuki ermənilər qalıb dirənməyə tab gətirə bilmirdilər və bir neçə gündən sonra ümidlərini bu tərəfə keçməyə bağladılar. Bəziləri Qaracadağda, bəziləri isə Naxçıvanda məskunlaşdılar.

Yenə də Pirqulu xan Naibüssəltənənin əmrinə və buyuruğuna xilaf çıxmaqla başıpozuqluq etdi. Onda nəvvab Naibüssəltənə namülayim xitabla Pirqulu xana və onun əmirlərinə töhmət verdilər. Bu arada kulani (gulani?) elinin ağsaqqalı Ağa bəyin ərizəsi nəvvab Naibüssəltənənin nəzərinə çatdı: "Qarabağın Mağaviz səmtinin və Naxçıvana bitişik yan-yörənin bütün elatı qüdrətli dövlətə ümidini bağlamaqda və müzəffər ordunun basqınlarından çəkinməkdə mənimlə həmfikirdir və Naxçıvana tərəf köçmək istəyir. Lakin general Xetakov (?), rus saldatları və Qarabağ hakimi Mehdiqulu ağanın süvariləri yaxın yerdə dayanıblar və el köç edəndə onlardan hər cür alçaqlıq çıxa bilər. Xahişimiz budur: bir qüdrət sahibi sərkərdə yaraq-yasaqlı piyada və süvarilərlə təcili surətdə buraya təyin olunsun ki, hamımız afətsiz-fəlakətsiz əbədi dövlətin kölgəsinə sığına bilək. Naibüssəltənə də Həzrətə yaxın olan İsmayıl bəy Damğanini onun əlinin altında olan süvarilər və piyadalarla həmin işə cəlb etdi. Təsadüfən belə oldu ki, İsmayıl bəy öz qoşunu ilə Ağa bəy elininiçinə daxil olanda general və Mehdiqulu ağa Şuşa qalasına gedirdilər. O, girovunu xilas etməkistədi, kulaninin başçıları isə o gələn piyadalarla atlıların hamısının onları qarət etməyə gəldiyini düşündülər və nadanlıqdan üsyana əl atdılar. O dörd fərsəngə yaxın yol elə bir meşədən keçirdi ki, bir nəfərdən artıq o ərazidən keçə bilməzdi və onların tüfəngçiləri qoşunun arxaya çəkilmə yolunu bağlayıb davaya başladılar. İsmayıl bəy onları öldürmək və əsir almaq gücünə malik olduğuna baxmayaraq mülahizə yürütdü ki, Ağa bəy şəksiz-şübhəsiz xidmət və itaət mövqeyini tutur və onların bu sərt hərəkətlərinin səbəbi nadanlıqdır. O, belə bir tədbirə əl atdı ki, onun qoşunundakı piyadalardan və atlılardan heç birinə

zərrə qədər ziyan dəyməsin və öz döyüşçülərini saxladı. Bu halı müşahidə edən Ağa bəylə bütün kulani eli həddən ziyadə xatircəm olub cəm şəkildə İrəvanla Naxçıvana köçdülər. Beləliklə, Mağaviz elatının məsələsi bitdi və onlar Naxçıvana gəlib saysız-hesabsız inayətlər gördülər.

### *Xoy və Salmas bəylərbəyi Fətəli xanın Vana basqını və o işin təfərrüatları haqqında*[1]

Bundan bir neçə il əvvəl Van hakimiyyətinə və sabiq hakimin malına yiyələnmiş və adına ali Osmaniyyə dövləti tərəfindən hakimiyyət sənədi imzalanmış Dərviş paşa o ildən indiyə qədər Osmaniyyə dövlətinə əsla xidmət etməmişdi. O dövlətin yüksək rütbəli hərbçisi oraya gələndə heç vaxt qarşısına bir adam göndərməzdi, bəhanə kimi İranın sərhədlərini gətirərdi. Onun belə inadkarlığı və tərsliyi Osmanlı dövlətinin başçılarına məlum olandan sonra o, vəzifədən çıxarıldı və Van hökuməti Abid paşaya təhvil verildi. Abid paşa isə həddini aşaraq İran tacirlərinin və gedib-gələnlərin mallarını gah kömək etmək və ya satın almaq bəhanəsilə, gah da heç bir səbəb göstərmədən onların çaynaqlarından alıb sonradan müxtəlif nəsihətlər və təkidlər pərdəsi altında mal sahiblərinə heç nə qaytarmazdı və bununla da kifayətlənməyib Urmiyanın və Xoyun bəzi kəndlərinə basqınlar düzəldib sakinlərin mal-qarasını aparardı. Onun bu cür dözülməz hərəkətlərindən ali Osmanlı dövlətinə nə qədər şıkayət etsələr də, heç fayda verməzdi, onun bəd əməlləri get-gedə artardı. Bir gün nəvvab Naibüssəltənənin qafiləsi Qarabağın Çalı (?) bazarına təşrif gətirəndə nadanlıqdan və ağılsızlıqdan müzəffər ordunun

[1]Bu fəslin mətnində bəzi uyğunsuzluqlar var.

işində pozğunluq salaraq sərəsgər Əmin paşanın yaralanması xəbərini yaydı ki, Osmanlı ordusunda iğtişaşa bais oldu.

Yəhya bəy[1] və onun yoldaşları oraya gəlib qəflətən urmiyalı şəkkakların[2] böyüyü İsmayıl ağanın qardaşı Teymur ağanın elinə hücum etdilər, Teymur ağanı, onun kiçik qardaşını və bir neçə başqa adamı qətlə yetirdilər. Bu hadisə barədə nəvvab Naibüssəltənənin əzəmətli dərgahına ərz etdilər. O, Xoy və Salmas bəylərbəyi Fətəli xanı və Urmiya kürdlərinin elbəyi Əsgər xan Əfşarı oraya yolladı ki, belə nalayiq hərəkətlərin əvəzini çıxıb görə Dərviş paşanın qulaqburmasını versinlər. Adları çəkilənlər Urmiya və Xoy kürdlərindən bir dəstə toplayıb qisas almaq əzmilə Yəhya bəyin oturduğu yerə gəldilər. Yəhya bəy də öz malını, rəiyyətlərini və arvad-uşağını, o yerin müsəlmanlarını uzaq və əlçatmaz yerlərə göndərib oradakı ermənilərin arvad-uşaqlarını dabu həngamədən qurtarmaq üçün fürsət tapmadı. Təzə çapovul hazırladı və çətin keçilən kimi tanıdığı mövqedə yolun üstündə yaxşı silahlanmışqoşun qoydu. Amma müzəffər ordu gələn kimi onlara müqavimət göstərə bilməyib oradan qaçdı. Sözügedən süvarilər ermənilərin saya gəlməz arvad-uşaqlarına çatıb hamısını əsir götürdülər və bununla qardaşının və digər kürdlərin öldürülməsinə görə coşub-yanan İsmayıl ağa təsəlli tapdı. Ondan sonra nəvvab Naibüssəltənə Osmanlı dövlətinin elçisi Seyyid Əbdülvəhhab əfəndi Yasinçizadənin xahişini yerinə yetirmək üçün bütüngətirilmiş əsirlərə görə maliyyə məmurunun

---

[1]Yəhya bəyin kim olduğunu müəyyənləşdirmək mümkün olmasa da, onun bəd əməllərinə görə Dərviş paşanın cəzalanması bu iki şəxsin bir adam ehtimalını ortaya qoyur.

[2]Şəkkak – Salmasın ətrafında bir kürd tayfsı.

sandıqxanasından nağd pul ödəyib hamısını satın aldı və mərhəmətini nümayiş etdirərək sahiblərinə qaytardı.Amma şərt bağladılar ki, əgər bundan sonra Dərviş paşadan və ya onun təbəələrindən birindən bu cür hərəkət çıxsa, onun və onun ailəsinin başına həmin oyunu açacaqlar, onun adam tanımamazlığının və inadkarlığının rüsvayedici xalı ali Osman dövlətinin çöhrəsindən silinəcək və Abid paşa və ya Osmanlı dövlətin tərəfindən Van hökumətinə təyin olunmuş hər hansı birisi Naibüssəltənənin qonşuluq dəstəyi ilə bu vilayətdə möhkəmlənəcəkdir.

Ali qafilə Çəməni-Gülənbərdə dayanarkən padşah sarayından bu məzmunda humayun fərman gəldi: həmişə əbədi dövlətin kölgəsi altında qalmış Əbdürrəhman paşa Baban izinsiz-icazəsiz Bağdada gedib oranın vəziri Süleyman paşanı qətlə yetirdi, Bağdadın çoxlu malından və toplarından Kuy və Hərirə göndərdi, üstəlik Osmanlı dövlətinin keçmiş dəftərxana rəisi Qalib əfəndini alçaldıb sözlə ifadə olunmayacaq tərzdə rüsvay etdi və Bağdad başçılarının əksəriyyətini öldürdü. Bu tərəfdən də tez-tez Kürdüstan, Kirmanşahan və digər əyalətlərin əhalisinə əl uzatdı. Onda Kirmanşahandan nəvvab Məhəmmədəli Mirzə Kirmanşahın, Kürdüstanın və digər vilayətlərin süvarilərilə, Azərbaycandan Təbriz və Marağa bəylərbəyisi Əhməd xan Müqəddəm və nəvvab Naibüssəltənənin qullarağasısı İbrahim xan Bayat öz qoşunu ilə onu və təbəələrini tənbeh etməyə təyin olundular.

Nəvvab Naibüssəltənə də padşahın fərmanına əsasən Əhməd xan Müqəddəmi on min nəfər süvari və piyada və bir neçə topla təyin etdilər. Ali qafilə Təbriz darüssəltənəsinə gələndən sonra ardıcıl gələn xəbərlərdən aydın oldu ki, nəvvab Məhəmmədəli Mirzə Əbdürrəhman paşanın

vətəni Süleymaniyyəyə gedib. Əbdürrəhman paşa Məhəmmədmüsərrəf əfəndini onun hüzuruna göndərib onun cəzalandırılmamasını istəyib. Nəvvab şahzadə müzəffər ordudan İraqın igidlərini və digərləri Əbdürrəhman paşanın üzərinə göndərdi və ki, müzəffər qoşuna o mahalın malına, halına, elinə, rəiyyətinə bir qıl qədər zərər vurmağıqadağan buyurdular, qoy bu itaətsizliyi siyasi yolla həll etsinlər. Azərbaycan tərəfdən isə Əhməd xan Müqəddəm, İbrahim xan Bayat və sair rəislər Əbdürrəhman paşanın elinin və təbəələrinin üstünə gedib onları elə tutub bellərini qırdılar ki, o, bu işin çarəsini fəqət başını aşağı salıb itaət etməkdə gördü. Oğullarını köçləriylə və gözəl peşkəşlərlə nəvvab şahzadənin hüzuruna göndərdi. Nəvvab Məhəmmədəli Mirzə bir kəsi padşah sarayına yollayıb onun təqsirlərinin əfv edilməsini istədi. Azərbaycan tərəfdən isə nəvvab Naibüssəltənə Asəftəkin vəzir Mirzə Əbülqasımı padşahın dərgahına göndərərək həmin iddianı irəli sürdülər. Əlahəzrət Zillüllah onun əvvəlki qüsurlarını mübarək qəlbinin səhifəsindən silib köhnə qələtlərini əfvə uyğun hesab etdilər.

### *Şeyxəli xanın və ləzgilərin ruslarla savaşması və bu işin təfərrüatları haqqında*

Şeyxəli xan Quba və onun adamları Rusiya ilə daim çəkişirdilər. Bu il Dağıstanın bütün camaatını yığıb Rusiya ilə saziş bağlamış Təbəsəranın keçmiş qazısı Məhəmməd bəyə ardıcıl zərbələr endirib avara etdi və öz qohumu Abdullah bəyi oranın hakimi və qazısı yerinə qoydu, ardınca da Rusiyaya qarşı Qubada güc toplamağa başladı. Ruslar da onun müqabilinə çıxmağa tələsdilər. Gəncə, Bakı və Şirvan tərəfindəki ruslar Qubaya yollandılar. Ona üstün

gəlmək üçün gücləri çatmadı. Hal-hazırda Dağıstanda hərbə məşğuldur.

### *Gəncədə Abdullah xan Qacarın xilas olması və Rusiyanın İranla barışmaq istəməsi*[1]

Rus qoşununun yeni sərdarı İran məmləkətində işin gedişatı barədə məlumat alandan sonra məyus oldu; qazilər İrəvanı boşaldan kimi oraya səkkiz min nəfər yollandı və iki min nəfərin qabağından qaçdılar;ruslar bütün yol boyu qətllər törətdilər; saldatlar dəstə-dəstə fərarilik edib uca nur mənbəyinin hüzuruna gəldilər; müzəffər ordu tərəfindən rusların işğal etdikləri mövqelərə sayagəlməz zərbələr endirildi – bu hadisələr barədə hazırkı kitabda təfsilatı ilə yazılmayıb. Həmçinin bu səbəbdən həmin vilayətlərdə yaranmış viranəlik, aclıq, qəhətçilik; alicah xanın və ləzgilərin ardıcıl döyüşlərivə qələbələri – bütün bunlar barədə rus dövlətinə müfəssəl şəkildə izhar edildi. Rus padşahı da cavabında yazdı ki, saziş bağlamaq bu işin çarəsidir və bu çəkişmələri dostcasına aradan götürmək olar. Barış əldə etmək üçün də ali İran dövləti ilə gözəl tərzdə həmkarlıq təşkil olunmalıdır. Adıçəkilən sərdar da İbrahimxəlil xan Cavanşirin Rusiyaya itaət göstərməsindən qabaq Pirqulu xan Qacar tərəfindən hüsn-rəğbət qazanmaq üçün Şuşaya göndərilmiş və İbrahimxəlil xanın əmrilə tutulub ruslara təhvil verilmiş vəbu günlərədək Gəncədə məhbus qalmış Abdullah xan Qacarı dustaqxanadan çıxarıb yanına aparmış, ona lazım olan hər cür məhəbbət və mehribanlıq göstərmiş, onu dost məktubu ilə nəvvab Naibüssəltənənin

---

[1]Kitabın bu qismində ardıcıllıq və məntiq pozulmuşdur. Hazırkı fəsildə ya bəzi hissələr düşüb, ya da bəzi hissələr artıqdır.

hüzuruna yollamış və bu minvalla iki dövlət arasında barış bağlamağın qapısını açmışdı. Mustafa Ağa Qazaxı da İrəvanın bəylərbəyisi və hakimi Hüseyn xanla birlikdə barış işinin əsasını qoymaq üçün təyin etmişdi.

### *Qarabağa yetirilmiş bəzi zərər və dağıntılar, eləcə də oradakı ruslara vurulmuş bəzi zərbələr haqqında*

Həzrətin yaxın adamlarından olan müstövfi və Qaracadağ hakimi Hacı Məhəmməd xan din qeyrətində və dövlətə xidmətdə özünə tay tanımaz, aramı və rahatlığı digər dünyəvi ləzzətlərlə yanaşı özünə haram bilər, dünya və axirət ləzzətlərini ancaq cihad işinin irəliləyişində görər, ətrafdakıları cihadı öyrənməyə təşviq edər və Naibüssəltənə də onun əmanətinə və dəyanətinə tam etimad göstərər. Doğma mülklərlə həmsərhəd və rusların işğal etdiyi Qarabağ torpağı ilə qonşu olan Qaracadağ onun ixtiyarındadır, gecəni də, gündüzü də Rusiyanı məhv etməyə və onun tərəfdarlarını qovmağa sərf etməkdədir, qədim zamanlardan şirazəsi yırtılmış Qaracadağ vilayətini yığıb-düzəldib, ümumiyyətlə oranın el ilə rəiyyətini və xüsusilə Çəlipanlu tayfasını həmişə Rusiyaya və onun təbəələrinə qarşı mücadilə yoluna yönəltmişdi.

Bu xoşbəxt humayun ildə[1] müxtəlif rəyləri nəzərdən keçiribbir tərəfdən rusların Gəncəyə və Qarabağın bölgələrinə gediş-gəliş yolunu kəsdi, oraya yollanıb-qayıdanları tutdu və rusların bir-birinə yazdıqları məktubları əlinə keçirtməklə onların bütün gizli böyük və kiçik xəyallarından agah oldu, digər yandan isə Qarabağın

---

[1]Hicri təqvimilə 1226-cı il.

əhalisinə oradan mühacirət edib köçmək təklifini irəli sürdü, bu təklifi qəbul edib Qaracadağa gələnin hər birinə dövlət tərəfindən gözəl yaşayış şəraiti yaratdı. Razı olmayıb tərslik edənləri imkan dairəsində tutub öldürərdi, evlərini və mallarını yandırardıvə əkin-biçinlə məşğul olmağa qoymazdı. Onların qulaqburmasını verərdi, sonra isə tən-beh olanlar bir-bir gələrdilər və onların əsirlərini dövlət xəzinəsinin hesabına onları gətirənlərdən satın alıb yiyəsinə qaytarardı və illik dövriyyələrini də nəvvab Naibüs-səltənənin büdcəsindən qaytarardı. Rus saldatlarının canına var-gücü ilə qorxu salardı və ya pulla şirnikləndirərdi, fərarilik edib bu tərəfə keçənləri əzizləyərdi.

Hacı Məhəmməd xanın fikirlərindən biri də İbra-himxəlil xanın nəvəsi və Məhəmmədhəsən xanın oğlu Cəfərqulu ağa Cavanşirin könlünü almaq imiş. Cəfərqulu ağa bağlılığı olan və qohumluğu çatan Cəbrayıllu tayfasının hörmətini qazanmışdı, halbuki başqaların nəzərincə bu iş mümkün olan işlərdən deyidi, çünki Məhəmmədhəsən xan Allahın Kölgəsi əlahəzrətin İbrahimxəlil xanın ölümündən sonra Qarabağın hökumətini onun böyük qardaşı Əbülfəth xana tapşıracağından təşvişə düşmüşdü. Əbülfəth xan həmişə padşahın astanında oturar və ondan saysız-hesabsız ətalar alardı. Belə bir şayiə yayılmışdı ki, Məhəmmədhəsən xan mərhum Xaqanın ləl-cəvahiratını aparıb və o həzrət Şuşada şəhadətə yetişəndən sonra o fikrə düşmüşdü ki, məbada Allahın Kölgəsi əlahəzrət həmin daş-qaşı qaytarmaq istəyər. Bu səbəbdən o, şah əlahəzrətindən qorxaraq və üzünü əbədimüddət dövlətdən tamamilə çevirərək İbrahimxəlil xanı zor və ikrahla Rusiya dövlətinə tabe və əbədiyaşar dövlətə müxalif olmağa mübtəla etdi. İbrahimxəlil xan Şuşadakı rusları qətlə yetirməyə qəsd

edəndə Cəfərqulu ağa nadanlıq və təcrübəsizlik üzündən mayora və ruslara o qəsd və istək barədə xəbər verdi. Onları qəflətən öz evindən şəhərin xaricində olan İbrahimxəlil xanın üstünə çatdırdı və bununla onun, oğlunun, qızının, arvadının və yanında olan hamısının qətlinə bais oldu.

Nəvvab Naibüssəltənənin qafiləsi Qarabağdakı Xanişin döyüşündən qayıdarkən Cəbrayıllu eli iki min Fərahan, Kəzzaz və Səvadkuh tüfəngçilərindən alıb elin içinə yerləşdirdilər ki, onların dəstəyilə Qaracadağa köç etsinlər. Sonra ruslara elçi göndərdilər və ruslar bir yandan, Cəbrayıllu o biri yandan bu iki min nəfəri atsız-yaraqsız qoydular. Onlar əbədi dövlətə nifrət, Rusiyaya isə meyil və rəğbət göstərirdilər. Yenə də Hacı Məhəmməd xan onları qəflət yuxusundan oyadıbonlara Rusiyaya qarşı nifrət, bu dövlətə də etimad və xoş münasibət aşıladı və Qarabağdan köçüb ali dövlətə xidmət etmək fikrinə daşıdı. Bu sirrin üstü açıldı, xəbər Şuşadakı ruslara çatdı və onlar Cəfərqulu ağanı və Cəbrayıllunun minbaşısını həbs etdilər. Onda Cəbrayıllunun ağsaqqalı Mahmud ağa onların tutulmasını öyrənib və eli çox sərt, meşəli və keçilməsi çətin olan yerdə saxlayıb əhvalatı Hacı Məhəmməd xana danışdı, o isə məsələni təfürrüatı ilə nəvvab Naibüssəltənəyə ərz etdi.

Qarabağın rusları çoxluq təşkil edirdilər və onların böyük hissəsi Cəbrayıllu elinin ətrafında dayanmışdı. Bu səbəbdən onlar əmin idilər ki, eli tam müti halına salacaqlar, Cəbrayıllunun hər on evindən birini girov saxlayıb Şuşa qalasına apararlar və bir dəstə saldatla süvarinin köməyi ilə Cəfərqulu ağanı da tutub Tiflisə, oradan da Peterburqa yollayarlar. Buna görə Hacı Məhəm-məd xan çoxlu səy göstərib nəvvab Naibüssəltənənin dər-

gahından yalvardı ki, Qarabağ istiqamətində hərəkət edib Cəfərqulu ağanı və Cəbrayıllu elini həlak olma təhlükəsindən qurtarsın və onlar bu burulğandan nicat tapsınlar.

### *Nəvvab Naibüssəltənənin Təbrizdən hərəkət edib Qarabağa yollanması*

Hacı Məhəmməd xanın ərizələri yetişən günlər çox soyuq keçirdi, qışın sərtliyi son həddinə çatmışdı. Nəvvab Naibüssəltənənin həmişə düçar olduğu mərəzi də kəskinləşmişdi. Firəng həkimi mister Kəmil onu müalicə edirdi və ehtiyatsızlıqdan bir balaca soyuqdəyməni əlacsızbilib bu naxoşluğu şişirtdi və qış səfərini yasaqlamağa çalışdı. Birdən kargüzarlıqla məşğul olan və səfər tədarükünü görən qaimməqam Mirzə Büzürgün və onun hörmətli xələfi, həzrətin Asəfi Mirzə Əbülqasımın hər ikisi xəstələndi. Əqli və mənəvi kamillikdə, ləyaqətdə və qabiliyyətdə qaimməqamın keçən il tələf olmuş kiçik oğlu Mirzə Həsəndən geri qalmayan Mirzə Hüseyn adlı digər oğlu vəfat etmiş və Mirzə Büzürglə Mirzə Əbülqasımın yarasını təzələyib dərdlərini və ağrılarınımin qat artırdı. Belə ardıcıl müsibətlərə dözməyən əllər işdən, dillər danışmaqdan qaldı. Rikabındakıların əksəriyyəti illərin qaydasınca qışın başlanması ərəfəsində rüsxət aldılar, yerdə qalanlar isə İrəvanın keşiyini çəkmək üçün oraya yollandılar.

İrəvana qonşu olan Axısqanın Axalkalak qalası həmin günlərdə qəflətən rusların əlinə keçmişdi. İrəvan bəylərbəyi sərdar Hüseyn xanı rusların onun elinə və təbəələrinə də əl uzadacaqları dərdi aparmışdı və o, bir dəstə sərbazla bir neçə lülə təkərli top istəmişdi. Xoy, Urmiya və Kəngər-

ludan sərbazlar dəstəsi silah-sursatını hazırladı. Çox da yaxşı müntəzəm ordusu yox idi. Bu kənarda qalsın, bu il qazilərin məvacibindən və Azərbaycanın vergisindən savayı padşahın xəzinəsindən nəvvab Naibüssəltənəyə yüz min qızıl tüməndən artıq inayət edilmişdi. Ondan başqa, ordunun əməliyyatlarını və sərhədlərin qorunmasını da nəzərə alanda bu səfərin məsrəflərini ödəmək üçün işlər müdirinin sandıqçasında pul qalmamışdı və nəvvab Naibüssəltənəyə qardaş məhəbbətində dövrün qardaşları və zamanın oğulları üçün nümunə ola bilən nəvvab şahzadə Abdullah Mirzə hal-əhval tutmaq adətinə müvafiq olaraq Xəmsədən Təbrizə gəldi və kiçik qardaş[1] səfər hazırlığını gördüyünü izhar edib naxoşluğundan danışandan sonra israr etdi ki, bəlkə onun özünə bu səfərə getməyi tapşırsınlar və Naibüssəltənə yola çıxmaq qərarından dönsün.

Lakin məhz Cəfərqulu ağanın tutulması və Cəbrayıllu elinin iztirabla pərişanlıq içində qalması xəbəri və Naibüssəltənənin şəxsən özü yola düşməyəcəyi təqdirdə rusların Cəfərqulu ağanı Tiflisə aparıb ardınca qayıtması mümkün olmayan Sibir vilayətinə göndərmələri, eləcə də Cəbrayıllu elinin də böyük əziyyət çəkəcəyi təhlükəsinin şübhəsiz olmasına görə nəvvab şahzadə Abbas Mirzə öz vacib və dəyərli səfəri üçün heç bir maneə tanımayıb və Allaha təvəkkül edib *məhərrəmül-həram ayının on ikisində*[2] Təbrizdən hərəkət edib mənzil-bəmənzil məqsədlərinə yaxınlaşmaqdaydılar.

---

[1]Yəni Abbas Mirzə

[2]Söhbət, əlbəttə, qəməri təqvimi ilə yeni 1227-ci ildən gedir, lakin müəllif bu hadisələri 1226-cı ildə baş verənlərə qoşub.

Bu vaxt Cəfərqulu ağanın qaçması xəbəri göylərə ucalmış sarayın sakinlərinin ərzinə yetişdi. Həmin hadisə belə baş vermişdi: ruslar Cəfərqulu ağanı tutub əl-ayağını bağlamadılar, bir ata mindirib bir kapitanın başçılığı altında əlli nəfər rus saldatının mühafizəsi ilə Gəncə qalasına göndərdilər. Tərtər çayından keçərkən saldatlar keçid yolunu tapmaq üçün bir-birindən aralandılar, ancaq onun özünü yaxından-uzaqdan güdürdülər. Cəfərqulu ağa fürsət tapıb saldatın əlində olan öz atının cilovunu kəsib əlini atın yalına qoydu və bərk qaçan atı mahmızlayıb ildırım sürətilə sudan çıxdı. Rus mühafizəçiləri onun dalınca nigaran baxıb təəssüf barmaqlarını həsrət dişləri arasına saldılar. O isə başını götürüb qaçdıvə canını Tanrının hökmünə təvəkkül edib belə vahiməli və qorxulu yerdən mümkün qədər tez uzaqlaşaraqözünü Cəbrayıllu elinə çatdırdı. Gələn kimi bir nəfəri Naibüssəltənənin yanına göndərib onun hüzurunda olanlara özünün qaçmağı haqqında ərz etdi və elə tam sürətlə köçə hazırlaşmağı tapşırdı. Naibüssəltənə onun xilas olmasından ki, əslində bu şaxtalı şəraitdə məşəqqətli yürüşün əsas məqsədi idi, çox sevindi və qürurlandı. Ona və onun adamlarına fəxri xələtlər bağışladı və Qaracadağın hakimiyyətinə əlavə dörd min tümən məvacib də buyurdu. O saat qərara gəldilər ki, Arazdan keçən kimi köçhaköç Aslandüzə yönəlsinlər və oradan atlarını rusların Gəncə, Şirvan, Şəki və Şuşa arasında səngər qazdıqları Sultanbuda[1] sürsünlər. Üçüncü köçdə Sultanbuddan üç fərsəng aralı mənzil saldılar. Əmir xan Qacara Məhəmməd xanla, habelə çarduli, əfşar, müqəddəm və Qaradağ süvarilərilə birlikdə Cabrayıllu elinə və oymağına qoşulmaq hökmünü verdi. Onları və Qarabağın digər elatlarını meşələrdən-orman-

[1]Sultanbud – hal-hazırda Ağdam rayonu ərazisində bir təpədir.

lardan köçürüb Arazdan keçirsinlər, etiraz edənləri və xilaf çıxanları isə öldürsünlər və ya tutsunlar.

### *Nəvvab Naibüssəltənənin Sultanbud üzərinə hərəkət etməsi, Rusiya ilə böyük mücadiləsi və müzəffər ordunun qalib gəlməsi*

Sultanbud Şəki, Qarabağ və Şirvan arasında bir yerdir və rus sərdarı general markiz[1] səngər qurub iki-üç min nəfərə yaxın rus igidini orada qoymuşdu, özü isə Mustafa xan Şirvanı və Mustafa xan Talışı öz tərəfinə cəlb etməyə məşğul idi. Naibüssəltənə zəfər günəşinin qalxması və düşmənin bədbəxt ulduzunun batması günü sübh tezdən topxanası, sərbazlar dəstəsi və süvarilərilə mücadiləyə başladı. Birinci: topçular ildırım yağmağa məşğul oldular və Əlbürz dağını yarmağa yarayan topların zərbələrindən səngərin önündə səf çəkmiş ruslar pərən-pərən oldular və həmin məqama hazır olan piyadalar dəstə-dəstə onların üstünə həmlə etdilər və iki tərəfdən başlarına bəla gəldi. İki tərəfin piyadaları arasında dörd-beş saat mücadilə və müharibə davam etdi və hər iki tərəfdən can ipləri fəna qayçısı ilə kəsildi, sinələr topun mərmisi və tüfəngin süngüsü ilə yırtıldı, qovğanın dəhşətindən gələn məhşər qoxusu hər yeri və hər kəsi bürüdü. Belə bir vəziyyətdə Naibüssəltənə ingilis topçubaşı mister Linziyə və Təbriz topçularına top qundaqlarının hər tərəfində durub o nəhəng və ildırım sürətli toplarla rusların üstünə hərəkət etməyi tapşırdı və topçular əmrə əməl etdilər. Əjdəhatəkin topları rus səngərinin üstünə sürüb od püsgürməyə başladılar.

---

[1]Söhbət markiz Pauluççidən (rus ordusunun italyan əsilli generalı Filippo Pauluççi (1779-1849)) gedir.

Birinci növbədə rus toplarını nişan alıb öz toplarının qalayaran mərmilərilə rus toplarının alətlərini və taxtalarını parça-parça etdilər. Bir topun taxta hissələrinin parçaları rus topxana heyətinin beş nəfərini yaşamaq nemətindən məhrum etdilər, top mərmisi düz rusların əhrimənvari toplarından birinin ağzına düşüb onu elə dağıtdı ki, bir də müzəffər orduya tərəf dişlərini ağartmasın və məstcəsinə bağırmasın.

Nəticədə belə nişan alıb atmaqla dünyada söz-söhbətə səbəb oldular. Rusların işini elə dara saldılar ki, səngərin içindən başını çıxaran hər kəsi top mərmisi yerə yıxırdı. Digər tərəfdən əvvəl bahadırlar dəstəsi, ondan sonra İbrahim bəy iki dəstə təbrizli sərbazla, İbrahim xan Marağa sərbazlarıyla, Mirzə Əhməd, Nəzərəli xan və mayor Kərşət orada hazır olan adamlarıyla səngərə fransız qaydasıyla həmlə edib və vaxtı hədər vermədən nizəsini irəli uzadıb döyüşə daxil oldular, çoxlu sayda saldatları bir nəfər böyük nişan sahibi mayorla, bir neçə kapitanı, əficalı[1] və şərrəndi[2] əfivari sərnizələrin zərbəsinə məruz etdilər, başqa bir mayoru əsirlər yolunun yolçusu sırasına saldılar, daha neçə sərkərdəni yaraladılar, çoxlu başlar və dirilər ələ keçirtdilər. Ruslar bəla qapısınıüzlərinə açıq vəəsas sərkərdələrini yaralı və ya cansız görəndə hamısı səngərin bir kənarına çəkildilər. Öz süvarilərilə meşədə mövqe tutmuş Qarabağ hakimi Mehdiqulu xan Cavanşir belə vahiməli mərəkədən nigaran oldu. Rus igidlərinin həlak olmasını müşahidə edib fürsəti əldən verməyərək Sultanbuddan qaçdı, amma onun bəzi yoldaşları şirovlayan qoşunun əlinə keçdi. Rusiyanın hərəkətinin qurbanlıq qoyunu hərəkəti olması və acizlik ilə

[1]Əfical – ofiser, zabit.
[2]Şərrənd – serjant, çavuş.

zəifliyin onlara qalib gəlməsi nəvvab Naibüssəltənənin günəş kimi nur saçan rəyinə yetişəndən sonra firəngilərin arasında aman əlaməti sayılan ağ bayrağ dalğalandırıldı. Düzvuran topçularla sərbazları yerbəyer edib əmri gözləməyi buyurdu, əsirlərdən birini isə onların[1] yanına göndərib o camaatı məlum etdi ki, əgər top-tüfənglərini təhvil verib itaət yolunu tutsalar, canalan ordunun və cəhənnəm odunu püsgürən topların şərindən canlarını qurtarıb aman ala biləcəklər, əks halda isə, madam ki hələ hamısı qəzəb püskürən toplara nişan və ölümsaçan tüfənglərin süngüsünə mal olmayıblar, toplar dünyaya od salmaqdan və sərbazlar yürüş edib atəş açmaqdan əl çəkməyəcəklər.

Ruslar ki, ölümün üzünü gördülər, amma bu qorxunc burulğandan xilas yolunu görmədilər, özləri üçün yəqin etdilər ki, əgər bundan artıq inadkarlıq göstərsələr, hamısı tələf olma təhlükəsi altına düşəcək və top-tüfəngə hədəf olacaqlar. Odur ki, aman almağı hədsiz nemət bildilər və böyük kapitan mərhəmətli şahzadənin hüzuruna gedib aman almaq üçün vasitəçi oldu. Nəvvab Naibüssəltənə qaimməqam sədri-dövlətə tapşırdı ki, onların səngərlərinin arasına getsin və bütün silahları, bayraqları, tüfəngləri, qılıncları və cəbbəxananı yığıb onun hüzuruna gətirsin. Qaimməqam özü ilə iki-üç nəfəri götürüb onların arasına düşdü. Onlar hamısı onu görüb hörmət və itaət nümayiş etdirdilər. O cənab onları dövranın hökmdarı və Naibüssəltənə tərəfindən əfv ilə aman, habelə cürbəcür ehsan alacaqlarına ümidvar etdi, ardınca iki dağdağıdan topla, üstündə rus dövlətinə məxsus nişanı olan iki ədəd qartallı bayraqla, böyük mayorun döş nişanıyla, saldatların tüfəngdən tutmuş

[1]Yəni rusların

qılıncadək bütün silah-sursatıyla, kapitanla, mühəndislə, əficalla və şərrəndlə qarışıq içində yüz səksən nəfərdən artıq yaralı olan cəmisi səkkiz yüz iyirmi nəfər saldatı uca Keyvanın[1] xidmətinə gətirib nəzərindən keçirtdi.[2]

Şahzadə o adamların cinayət və xətasını aman xələti ilə örtdü və yaralıların müalicəsi ilə məşğul olmağı tapşırdı, özü də bu işdə müzəffər ordunun xidmətçiləri ilə fərq qoymamağı əmr etdi. Ölülərin öz adətləri ilə torpağa

---

[1]Keyvan – Zühəl, Saturn planeti.

[2]Bir müddət sonra Abbas Mirzə Osmanlı qaimməqamı Əhməd paşaya göndərdiyi məktubda hadisələri belə şərh etmişdi: "Məhərrəmin iyirmi üçüncü günü Rusiyanın Qarabağdakı səngərinin üç fərsəngliyində dayandıq. O biri gün ordu süvarilərinə elatı köçürtməyi tapşırdıq, piyadalarla topxananı isə rusların əlində olan Şəki, Şirvan, Gəncə və Şuşa vilayətlərindən hər birindən yeddi-səkkiz fərsənglik məsafədə yerləşən rus səngərinin üzərinə yürütdük. Həmin səngərin müşkül və möhkəm olduğuna görə islam mücahidləri ilə zalım kafirlər arasında böyük hərb ilə cəng və qovğa ilə dava beş saat davam etdi və çoxlu qətllər oldu. Ruslar səngərdə daldalanıb sığındıqlarına görə rəxnəsalan qumbaralarla Əlbürzyaran toplar hər tərəfdən başlarına yağdı. Bədbəxt kafirlərdən böyük bir dəstə topların ildırımvari zərbələri altında məhv olandan və qumbaralar onların silah-sursat ambarlarına od salandan sonra sərbazlarımıza yürüş etməyi tapşırdıq. Piyadalar göydən nazil olan bəla və hər şeyi qabağından süpürüb aparan sel kimi səngərə daxil oldular, kafirlərin sinələrini süngülərə hədəf etdilər və onların hamısını səngərin bir tərəfinə sıxışdırdılar. Onlar isə əcəlin sürətlə üstlərinə gəldiyini, işlərinin batil olduğunu, bəla selinin gurla axdığını, dirənmək üçün macal tapılmadığını və ölülərinin arxası üstə yıxıldığını, sərkərdələrin və etimad göstərdikləri zabitlərin qətlə yetirildiyini görəndə aman dilədilər. Biz də  yarısından çoxu yaralı olan o beş yez-altı yüz nəfərə aman verib hamısını topları, bayraqları, silah-sursatı və avadanlıqları ilə qarışıq ələ keçirtdik".

tapşırmağı isə qadağan etdi.[1] O saat göylər kimi qüdrətli şahənşahın dərgahına adam yolladı.

O biri tərəfdən Əmir xan öz müzəffər əsgərləri və Cəfərqulu ağanın bələdçiliyi ilə onlara[2] Əlahəzrət padşahın fərmanını oxudu. Həmin vaxt top-tüfəngin cəhənnəmi müjdələyən gurultusu bütün elatı bürümüşdü və hər kəs qorxudan ya ağacların arasında, ya da qayalığın dəlmədeşiyində sığınmağa çalışırdı. buna görə altı min həyət köçə qalxıb Qaradağa yollandılar. Əmir xanla Cəfərqulu ağa qürurla zəfər rikabına daxil olub Naibüssəltənənin müxtəlif ehsanlarına və əzizləmələrinə layiq görüldülər.

Pənahabadda oturan ruslar Sultanbudda mühasirəyə düşən zabitlərin və döyüşçülərin köməyinə altı min saldatla bir topgöndərdilər. Bu xəbər Əsgəran yolunda olan müzəffər ordunun qarovulçularına yetişdi. Naibüssəltənə Əmir xanaonları ovlamağı tapşırdı və onun gəlişi ərəfəsində öz miskin sifətini qorxu və xof aynasında müşahidə edən ruslar Tərnavut (?) qalasına çəkildilər. Əmir xan onları mühasirəyə almaqla məşğul oldu. O biri gün Naibüssəltənə onların üzərinə həmlə etdi. Həmin gecə ruslar güclü yağış, qar və şaxta şəraitində oradan qaçıb Cermuq dağına çəkildilər. Qələbənin pənah gətirdiyi ordunun süvariləri onların arxasınca düşdülər, dağın ətəyinədək təqib etdilər və bir neçə başı nizəyə keçirib geri qayıtdılar. Öz şücaətiləməşhur rus mayoru Jenov (?) keçən gün top mərmisinin zərbəsindən öldü. Onun arvadı Sultanbudda idi. Ona baxmayaraq ki, əlində çoxlu qızıl sikkələri və malı var idi, [Naibüssəltənə] bir nəfəri təyin etdi ki, o qadını bütün pulu və malı ilə Şuşa qalasına çatdırıb qayıtsın.

---

[1]Bu fikir aydın deyil.
[2]Yəni Cəbrayıllu elinə

Naibüssəltənə oradan qərb istiqamətində hərəkət edib Tərnavutun həndəvərinə çatdılar və bir dəstəni Tərnavuta ywrüş etməyə təyin etdi. Tapşırıq alanlar işə başlayar-başlamaz o işıq saçanın ərzinə xəbər gəldi ki, ruslar gecənin qaranlığında Tərnavutdan qaçıb özlərini meşəyə çatdırdılar və olduqca çətin və keçilməz Cermuq yolunda bədbəxtlik diyarının avaraları oldular. O biri gün hərəkət edib rusları oradan qovmaq məqsədilə hərəkətə keçdilər. Rusların müqavimət göstərmək üçün taqətləri qalmamışdı və onlar dağları aşaraq Şuşaya və oraya köçmüş ermənilərə tərəf irəliləyib Arazın sahilinə çıxmağa cəhd etdilər. Onlar qaçandan sonra xəbər gəldi ki, Şeyxəli xan Qubanın, Dağıstan ləzgilərinin üsyanını yatırtmaq və Mustafa xan Şirvanı öz tərəfinə çəkmək üçün çıxıb getmiş rus sərdarı general markiz rusların öldürülməsindən və əsir düşməsindən, Sultanbud hadisəsindən agah olub, görməli işləri təxirə salıb və tamamilə həvəsdən düşüb yas ilə əndişə içində geri döndüvə Kürün sahilində qoyduğu adamlarını qaldırıb tələm-tələsik Kür çayından keçdi və Qarabağa daxil oldu. Nəvvab Naibüssəltənə onunla savaşmaq əzmilə qarşısını almağa can atdı. Elə bu vaxt xəbər yetişdi ki, rus sərdarı markiz müzəffər ordu ilə döyüşməkdən qorxub Qarabağda dayanmadı. O, general Kotlərevskiyə Şuşa qalasında qalmağı tapşırıb özü tam sürətlə Tiflisə yollandı.

Qələbə çalmağı adət edən ordunun zərbələrindən Qarabağın yan-yörədə abad bir yer qalmadığına görə adamlar üçün azuqə tapmaq mümkün deyildi. Ali qafilə Araz çayından keçib Aslandüz adlı yerdə dayandı. Orada Cəfərqulu xan Cavanşirin və Cəbrayıllu elinin işini qaydaya salmağa məşğul oldular. Bütün əyanların çiyinləri rütbəsinə müvafiq olaraq fəxri xələtlərləbəzədildi və Hacı Mə-

həmməd xanın vəd etdiyi kimi Qaracadağın hökuməti Cəfərqulu xana verildi, ona dörd min tümənlik illik məvacib də təyin olundu.

*Əhməd xan Müqəddəmin və Əsgər xan Əfşarın Bəlbas fitnəkarlarını tənbeh etmək tapşırığını alması*

Uca məqamlara ərz olundu ki, Bəlbasın tayfaları Sulduzun əhalisinə ədalətsizlik qapısını açıb qəsb əllərini Sainqalanın[1] sakinlərinə uzadıblar. Azərbaycanın ağsaqqalı Əhməd xana və Əsgər xan Əfşara onların qulaqburmasını verməyi tapşırır ki, başqalara da ibrət olsun. Bununla belə, Bəlbasın tayfalarından bircə nəfərin də burnu qanamasın və onlar hamılıqla itaət yolunun yolçuları olsunlar.

*Vali Aleksandr Mirzənin Rusiyaya qarşı mücadiləsi, Qəsəq(?) əhalisinin ruslarla davası və rus sərdarı qərargahının sülh istəməsi*

O əsnada bir neçə gürcüstanlı dost İrəvanda qalan vali Aleksandr Mirzənin yanına gəlib bir müjdə verir. Məlum olur ki, məhz Sultanbuddakı fəthin və rusların öldürülməsi və əsir düşməsinin sevindirici xəbəri Gürcüstana gələn kimi Rusiyanın zülmündən cana gəlmiş Qəsəq əhalisi cürət tapıb dövlət naminə və rusları qırmaq xatirinə ittifaq qurub qəflətən oranı mühafizə edən rusların üstünə düşdülər və hamısını qətlə yetirib yenidən özlərini əzəmətli dövlətə bağladılar. Elə həmin günlərdə İrəvan sərdarı Hüseyn xan da Pənbəkin və Şoragölün üstünə getmiş, yollara səpə-

---

[1]Sainqala – İranın Qərbi Azərbaycan ostanında Əbhərin yanında bir şəhərdir.

lənmiş qazaq piyada və atlılarını az-çox öldürüb əsir tutmuşdu. Təngə gəmiş rus saldatları yavaş-yavaş fərarilik edib mərhəmət sahibinin sarayına gəlməyə başladılar. Bu vəziyyəti müşahidə etməkdən sarsıntı keçirən Rusiya ordusu sərdarının qərargahı işin çarəsini onda görür ki, rusların İrəvanın hüdudlarına daxil olan vaxtdan Şoragölün və Pənbəkin mühafizəsində durmuş və Qarabağa və Tiflisə gedib-gələn bəzi arxasız və rütbəsiz sahibkarlarla və tacirlərlə əlaqə yaratmış general Lisanoviçin vasitəsilə ali dövlətin başçıları ilə zahirdə dostluğun binasını qoysun. Adıçəkilən general həmçinin həmin vaxt Şoragöldə öz ticarət müamilələri ilə məşğul olan İrəvan taciri Hacı Əbülhəsənin yanına xidmətçilərini göndərib yazışırdı. Bu sərdar[1]Abdullah xan Qacarı, bundan öncə yazıldığı tərzdə, Gəncə hakimi Cavad xanın qətlindən sonra Gəncədə əziyyət içində qalmış Cavad xanın oğlu Uğurlu xanın anası ilə birlikdə Uğurlu xanın yanına yolladı və onun vasitəsilə sədaqətini bildirən bir məktub da göndərdi.

Bu əsnada həmin sərdar rus dövlətinin əmrinə əsasən Peterburqa yollandı, onun yerinə isə rütbəsi general markizdən xeyli üstün olan general Rtişşev[2] təyin olunub Tiflisə gəldi. Həmin vaxt ki, qış fəsli idi, Naibüssəltənə yaz əməliyyatlarına hazırlıq görməkdə idi və o cümlədən İngilis dövlətində son illərdə yeni qayda ilə istehsal olunmuş bir neçə topu yerləşdirməyə məşğul idi.

---

[1]Yəni general Yermolov

[2]General Nikolay Rtişşev (1754-1835) – Rus dövlətinin İsveçə, Polşaya, İrana və Osmanlılara qarşı apardığı işğalçı müharibələrində iştirak etmişdi. Sözügedən dövrdə Rusiyanın Qafqazdakı ordusunun başçısı vəzifəsinə uğursuzluğa məruz qalmış general Tormasovun yerinə təyin olunmuşdu.

Mustafa xan Talış öz qara bəxtindən bir dəstə rusu Lənkərana gətirib əbədiyaşar dövlətə qarşı açıq-aşkar üsyan yolunu seçdi. Onda Mustafa xanın rəğbətini qazanmaq və bu höccətə son qoymaq üçün öz fəziləti və təqvası ilə məşhur və məruf olan, həzrət mürüvvət sahibinin xidmətçisi və onun[1] əmisioğullarından olan Seyyid Kazımı Lənkərana göndərdilər. Təsadüfən elə oldu ki, Seyyid Kazımın gəlişindən əvvəl öz alimliyi və əməlisalehliyi ilə böyük şöhrət qazanan Molla Əli Gilani eyni məqsədlə şaha yaxın dairələr tərəfindən oraya yollanmış, lakin qarşılamadan məyus olub geri qayıtmışdı.Seyyid Kazım da həmin əhval-ruhiyyədə döndü və beləliklə bütün bunların o höccətləşmənin bitməsinə zərrə qədər də təsiri olmadı.

### *Xoşbəxt hicri min iki yüz iyirmi yeddinci ilin[2] Novruzunun gəlişi və yeni sərdar Rtişşevin ingilis dövlətinin elçisi ser Qor Uzlinin vasitəsilə sülh istəməsi*

Novruzi-feyruz gəldi və şahənşah sarayından Sultanbud fəthinə görə Naibüssəltənə və fədailər üçün fəxri xələtlər və gözəl ənamlar gətirdilər. Rusiyanın yeni sərdarı Rtişşev polkovnik Friqanı İngilis dövlətinin böyük elçisi ser Qor Uzlinin yanına yollayıb ona yazdığı məktubda qeyd edirdi ki, hərçənd hələlik Rus və İngilis dövlətləri arasında dostluq və möhkəm ittifaq əhdnaməsi bağlanmayıbdır, hal-

---

[1]Yəni Mustafa xanın

[2]Əslində "iyirmi səkkizinci il" yazılıb, lakin, bundan öncəki səhifələrdə də qeyd edildiyi kimi, müəllif əsərdə bütün hadisələri qəməri hicrinin təqviminə müvafiq təqdim etsə də, yeni ilin başlanğıcını naməlum səbəbdən qəməri təqvimin ilk ayı məhərrəmin birinə deyil, şəmsi təqvimin əvvəlki ayı fərvərdinin birinci gününə, yəni novruz bayramına aid edir.

hazırda Fransanın hər iki dövlətlə ədavət etməsi şəraitində bu iki dövlət arasında dost və yoldaş əlaqələrin möhkəmlənməsi zərurəti yaranıb. Bu səbəbdən mən Rus dövləti tərəfindən ismarlanmışam ki, Sizin vasitənizlə İran dövlətinin nümayəndələri ilə dostluğun əsasını qoyum və bu xüsusda bizim padşahımızın əmrinə əsasən hər iki dövlətlə dost olan Siciliya səfiri Sizə Peterburqdan göndərilmiş məktubu yazıbdır. Təvəqqem odur ki, bu işdə lazım olan israrlığı və mətanəti ortaya qoyasınız.

Onun daha bir ərizəsi uca Bahirünnurun hüzuruna göndərildi. Bunun ardınca etimad etdiyi eşikağası mayor Popovu Tiflisə ticarət məsələlərilə əlaqədar gəlmiş və habelə Abdullah xan Qacardan və adıçəkilən Uğurlu xan Qacarın anasını müşayiət edənlərdən sabiq sərdara yazdıqları iki cavab ərizəsini gətirmiş Hacı Əbülhəsən xan İrəvani ilə bərabər göylərə qədər ucalmış dərgaha yolladı və iki dövlət arasında dostluq əlaqələrin qurulmasına dair məktubu təqdim etmək üçün ona təhvil verdi. Lakin Tehran darülxlafətindən Təbriz darüssəltənəsinə Naibüssəltənənin hüzuruna getmiş ingilis dövlətinin böyük elçisi hələ Təbrizə gəlib çıxmadığına görə rus sərdarının göndərdiyi adamlar bir neçə gün onun gəlişi intizarında qaldılar. Adıçəkilən elçi Təbrizə gəlib və iltifat qaydalarına[1] müvafiq olaraq asiman qədər uca şahzadənin xidmətinə baş çəkib şahənşahın fərmanına əsaslanaraq dünya iqtidarını əlində saxlayanın nəzdində onun etibarının ən yüksək həddə çatdığını və şərəf sahibi tərəfindən İran və Rus dövlətləri arasında danışıqlar aparmaq izninin və rüsxətinin aldığını təsdiqlədi,rus sərdarı general Rtişşevin və Siciliya elçisinin məktublarını uca nəzərə çatdırdı və cavab alıb geri qayıtdı.

[1]İltifat qaydaları (burada) — protokol qaydaları.

*Hökmdar bayraqlarının Çəməni-Sultaniyyəyə gəlişi və digər işlər haqqında*

Yaz fəslində hökmdarın göylərə qədər ucalan bayrağı Tehran darülxilafətindən çıxıb müzəffər ordu ilə Çəməni-Sultaniyyəyə hərəkətə keçdi və sərhədlərdə ağalıq və hökmranlıq edən şahzadələrin hər birinə qoşun çəkib ölkəni genişləndirmək üçün tədarük görmək əmri verildi. O cümlədən Xorasan valisi nəvvab Məhəmmədvəli Mirzə Türküstan işində bütün səyini ortaya qoymaq tapşırığını aldı. Adıçəkilən nəvvab Məhəmməd xan Qacarı bir dəstə qazi ilə o bölgəyə yolladı və Pələngpuş xan Cəmşidiyə silah-sursatla avadanlığını götürüb və Meyməndin hüduduna qədər irəliləyib Buxara valisi Əhməd xana itaətə gəlib asilikdən vaz keçmək tələbini irəli sürməyi əmr etdi. Məhəmməd xan da qərara alınanlara əməl etdi. Əhməd xan inadkarlıq göstərib on iki min seçilmiş döyüşçü ilə savaş meydanına gəldi. Məhəmməd xanla Pələngpuş xan da ayaqlarını yerə möhkəm basıb Əhməd xanı, oğlunu və ordusundan iki min pəhləvanı qətlə yetirdilər və şahzadənin hökmü ilə Əhməd xandan üz döndərmiş və şahzadənin rikabında yer almış Rüstəm xanı Meymənddə onun yerinə qoydular.

Kirmanşahanın, Luristanın və Ərəbistanın[1] sahibi-ixtiyarı nəvvab Məhəmmədəli Mirzəyə tapşırdılar ki, Bağdadın vəziri Abdullah paşa ilə bütün zəruri məsələləri keçən il Süleymaniyyə hakimi Əbdürrəhman paşa ilə bağlanmış

---

[1]Ərəbistan (burada) – İranın cənubunda yerləşən və əhalisinin əksəriyyəti ərəblərdən ibarət olan Xuzistan vilayəti (ostanı).

əhdin yolu ilə həll etsin. Amma Abdullah paşa xandigarın[1] hökmünə əsasən yaz fəslinin əvvəlində inadkarlığa əl atdı. Onda Əbdürrəhman paşa Əliyyə dövlətinə arxalanaraq Abdullah paşanı cəzalandırmaq üçün böyük qoşunu Süleymaniyyəyə yeritdi. Ali dövlətin başçıları tərəfindən Osmanlı dövlətinin rəhbərlərinə izhar edildi ki, keçən il bağlanmış əhdnaməyə görə Süleymaniyyə vilayətinin valiliyi Əbdürrəhman paşaya təhvil verilməlidir. Həmin mətləb Bəsrə və Bağdad vəziri Abdullah paşanın diqqətinə də çatdırıldı.

Bu əsnada xəbər yetişdi ki, Osmanlı və Rus dövlətləri arasında sülh sazişi barədə danışıqlar gedir. Nə qədər ki, saziş məsələsi həll olunmayıb ingilisin böyük elçisi Osmanlı dövlətinin başçılarına müraciət edib nəzərlərinə çatdırdı ki, bundan əvvəl ruslar tərəfindən bu dövlətə[2] də saziş təklifi gəlmişdi, lakin bu dövlətin rəhbərlərindən açıq şəkildə cavab verildi ki, nə qədər ki, ruslar Osmanlı dövlətilə sülh bağlamayıblar, bu tərəfdən də barış qapısı bağlı qalacaqdır. Buna görə əgər Osmanlı dövləti bu dövlətlə razılığa gəlməyib rus dövlətiylə saziş bağlasa və bu cür naxələflik üz versə, iki dövlət arasında mövcud olan qədim dost əlaqələri ədavətlə əvəzlənəcəkdir. Osmanlı dövlətinin məmurları alimlərin və vəzirlərin möhürədiyi mötəbər yazını bu dövlətə verməklə rüsvay olduqlarını və abırların töküldüyünü qəbul etdilər və əhdi birdəfəlik pozub ruslarla saziş bağladılar. Onlar həm də əsassız və dəlilsiz

[1]Xandigar – xudavəndigar, xotkar, xonkar və s. Səfəvilər dövründən başlayaraq İranda Osmanlı padşahlarına verilən addır.
[2]Yəni İrana

səbəb gətirdilər[1]. Əbdürrəhman paşanın işi belə uzatmağına dözməyə taqəti qalmayan nəvvab Məhəmmədəli Mirzə çox israrla xahiş edəndən sonra şahənşah dərgahından icazə və yardım alıb o bölgəyə yollanıb Abdullah paşanı qəflət yuxusundan oyadır. Süleymaniyyə hökumətini Əbdürrəhman paşaya tapşırmış adıçəkilən vəzir onu o vilayətə hakim təyin edir. Hədəfinə çatmış nəvvab Məhəmmədəli Mirzə yenidən Kirmanşahana qayıdır.

İngilis dövlətinin böyük elçisi şahənşah dərgahından Osmanlı dövlətinin ruslarla sülh bağlama çalışdıqlarına görə zəif vəziyyətdə olduqlarını nəzərə alaraq bağışlamasını və bu dövlətin[2] rəsmilərini məsələdən məlumatlandırılmadıqlarına görə əvəzini çıxmaq üçün tədarük görməyi dayandırmağı təvəqqe etməsi səbəbindən və şahənşahın da məzhəb birliyinə riayət etməyə meyilli olduğundan belə kobud və nalayiq hərəkətin üstündən keçib qərara gəldilər ki, nəvvab Naibüssəltənə Azərbaycan tərəfindən və nəvvab Məhəmmədəli Mirzə Kirmanşahan ilə Hüveyzə istiqamətindən o dövlətin[3] sərhədçilərinə qarşı lazımi hüsn-rəftar qaydalarına əməl etsinlər.

Bir yarlıq da Nəvvab Naibüssəltənənin şərəfinə düzəltdi ki, Mustafa xan Talış ali dövlət əleyhinə üsyan qaldırmaqda israrlı olduğuna və Rusiya dövlətinə meyli daha həddini

---

[1]Osmanlılar İran dövlətinin etirazı ilə rastlaşandan sonra iddia etdilər ki, Qacar dərgahı dövləti nəinki Əbdülvəhhab əfəndinin elçiliyini müsbət qarşılamadı, hələ bir Əbdürrəhman paşanı da himayə etdi. O zaman iranlılar Buxarest sülh müqaviləsində İranın əleyhinə sirli maddənin olmasından bixəbər idilər. Osmanlılar isə sözügdən dəlili bəhanə gətirib ondan Qacar dərgahının etirazları yükünün altından xilas olmaqdan ötrü istifadə etdilər.

[2]Yəni İranın

[3]Yəni Osmanlının

keçdiyinə görə dayanmadan və təxirə salmadan onun fəsad maddəsini məhv etməyə başlasın və bu əmr digər əmrlərdən vacib sayılsın. Onda İsmayıl xan Qacar ilə qardaşı oğlu Mirzə Məhəmməd xanı böyük süvarilər dəstəsilə, bir miqdar piyada ilə və müvafiq silah-sursatla Azərbaycana yolladı və Gilan camaatı ilə o tərəflərin gürcüləri Talış məsələsini həll etmək üçün nəvvab Naibüssəltənənin tədarük hazırlığına qoşuldular. Naibüssəltənənin özü də humayun hökmə müvafiq olaraq Təbrizdən Talış məsələsini bitirmək üçün hərəkətə keçdi. Təbriz şəhərindən çıxdığı gün gəlmiş Əşrəf xan Dəmavəndinin ərizəsindən aydın oldu ki, Əsəd sultan Qaraçorlu Qarabağın Mağaviz elatından qalanlarla bir yerdə Naxçıvana daxil oldu, öz elini Qaraçorlunun süvariləri ilə Qarabağın Gorusuna apardı və oradakı rusları əməlli-başlı cəzalandırdı. İmamqulu Əfşar öz dəstəsinin qulamları ilə, qulamlar yüzbaşısı Söhrab bəy öz dəstəsi ilə, Nəzərəli xan Kəngərlu öz süvariləri ilə, habelə Əşrəf xanlavə Dəmavənd ilə Kirman dəstəsi ilə birlikdə rusları və onlara tabe olanları öldürməyə, əsir götürməyə və mallarını məhv etməyə yönəlmiş lazımi səylər göstərdilər. O biri gün İrəvandan həmçinin xəbər gəldi ki, sərdar Hüseyn xan Pənbək və Şoragöl məsələsini layiqincə həll edib. Növbəti gün də böyük dəstə ilə Gəncəyə getmiş Əmir xan Qacar və bir dəstə süvari və piyada ilə qorxu və od salmaqdan ötrü Qarabağa göndərilmiş Hacı Məhəmməd xan Qaragözlü və Əli xan Nuri qayıtdılar və məlum oldu ki, hər biri düşmənə xəsarət yetirməkdə əlindən gələni əsirgəməyib.

İngilis dövlətinin böyük elçisi tərəfindən Tiflisə göndərilmiş mister Qordon Qaracadağın Əhər mənzilində rus sərdarının məktubu ilə Bahirünnurun hüzuruna gəldi.

Yazının məzmunundan aydın oldu ki, bir neçə günlük atəşkəs hər yerdə sülhün və əmin-amanlığın bünövrəsini qoyacaq. Nəvvab Naibüssəltənə də özünün lütfkaranə tərzdə yazdığı cavabında qırxgünlük atəşkəsin qəbul etdiyini buyurub sərhədçilərə bu müddətdə bir kəsə əl vurmağı qadağan etdi. Gorus hakimi Nəcəfqulu bəy öz dəstəsi ilə ingilis böyük elçisinin xahişinə cavab olaraq rus sərdarını qonaqlamaq tapşırığını aldı və bu işin icrasını ona həvalə etdi. Amma rus sərdarına açıq-aydın bildirdilər ki, Talışa qoşun çəkmək bu atəşkəsin müstəsna mövzusudur. Onu da qeyd etdilər ki, əgər rəcəb ayının on ikisinədək ki, atəşkəs günlərinin on ikincisidir, sənin Tiflisdən İrəvana səfər etməyin haqqında xəbər yetişsə, atəşkəs dayandırılacaq və asudəlik düşmənçiliklə əvəz olunacaq.

### *Talışda Lənkəranın və Ərkivanın ələ keçirilməsi və Mustafa xanın Qamışavana qaçması*

Çaparı Tiflisə yollayandan sonra ali qafilə Əhərdən hərəkət edib mənzilbəmənzil Meşkinin kəndlərindən olan Dədəbəylərə çatdı və Əmir xan Qacar sərbazlarla, topxana ilə, piyadalarla və süvarilərlə Talışa göndərildi. Çox etibarlı şəxs olan müstövfi Mirzə Məhəmmədəlini də ona yoldaş təyin etdilər ki, işləri düz qaydaya salsın. Əmir xan bir dəstə sərbazla və bəzi topçularla Ərkivan yolu ilə getdi, İsmayıl xan Qacar Şambayati və Sadiq xan İzzəddinlu-Qacar isə Astrabad tüfəngçiləri, Bistam və Mazandaran əsgərləri ilə Zuvand və Drığ[1] yolu ilə və, nəhayət, gilanlılar Astara yolu yürüməyə ismarlandılar. Hamısı Əmir xanın

---

[1]Zuvand (Züvənd) və Drığ (Driğ) – Lənkəran xanlığının mahalları olub.

əmrinə tabe idilər və əmr gəldi ki, piyadalar məsafəni keçəndən sonra şaban ayının yeddisi əvvəl Əmir xan topçularla, sərbazlarla və ardınca fasiləsiz digər ismarlananlar Lənkərana daxil olsunlar. Əgər Lənkərandakı ruslar hücuma keçsələr, topxana buna hazır olsun. Yollar hər yandan meşə-ormandan keçirdi və Ərkivandan Lənkərana gedən yolda topxananı daşımaq üçün yararlı bütün körpüləri Mustafa xan dağıtmış, yolları böyük ağaclarla bağlamış və oğlu Mir Həsən xanı Qamışavan camaatı ilə qarovula göndərmişdi ki, ordunun yürüşünə mane olsunlar. Lakin onların təsiri çör-çöpün selə göstərdiyi təsirə bənzədi. Ağacların arasından sərbazların əlindəki ələmlərin və tüfəng lülələrinin və həmçinin Əlbürz dağını yarmağa yarayan top qundaqlarının parıltısını görən Talış tüfəngçiləri cəngəllikdəki ceyran kimi üzü fərariliyə qoydular və topçularla sərbazlar dərhal onların yerini tutdular.

Vəd olunan gün əvvəl Əmir xan və ardınca bir azca aralı digərləri Lənkərana daxil oldular. Öncəki gün topxana və sərbazlar meşədən keçəndə ruslar göydən yağan bəlanı görüb Lənkəranda qalmağa macal tapmadılar və Gamışavana qaçdılar. Onlar öz böyük hərbi gəmilərini əzəldən Sarı adasının iskələsində hazır vəziyyətdə saxlayırdılar.Hər gəmidə on altı top olub. Ondan əlavə hərəsində bir ya iki top olan çoxlu qayıqlar Qamışavanın ətrafında, Lənkəranın tikililərinə qədər, dənizdə və bataqlıqlarda hər yerdə lövbər salmışdılar. Qamışavandan çıxan bir gəminin arxası və bir yanı dənizə və digər gəmilərə, o biri yanı isə dəniz sahilinə bitişik və keçilməsi çox çətin olan qamışlığa çevrilmişdi ki, sərbazları və topxananı oraya çəkib bu dar dəhlizdə iki tərəfdən: həm sahildən, həm dənizdən zərbə altına salsınlar. Vəziyyəti müşahidə edən Əmir xan bütün ordunun gəlişini

gözləməyib cəsarətlə bir dəstə sərbazı bir neçə topla o dəhlizə yeridərək döyüşə başladı. Ruslar da qarşıdan və dəniz tərəfdən top-tüfəngdən atəş açmağa başladılar. İki saat davam edən amansız döyüşdə onların çoxlu saldatları topların və tüfənglərin ağzına yem oldular və başqa gəmilərdən və qayıqlardan yaxın dayanmış bir qayıq top mərmisinin zərbəsiylə tamamilə dağıldı, batdı və sükanı cəhənnəm odunda yandı. Ruslar sarsıldılar və əməlli-başlı qulaqburması aldılar.

Elə həmin vaxt işə ismarlananların qalanı da yetişdilər. Dəniz sahilindəki o dar dəhliz Qamışavandan 1000, gəmilərin lövbər saldıqları yerdən isə 700 zər'lik yolda idi. Onun bir tərəfi gil ilə lil olmuşdu və ümumi sahəsi 70 zər' olan quru torpaq və həm dənizdən, həm də qurudan atılacaq qumbaralar ilə toplar üçün hədəf idi və adlı-sanlı sərdar səngər üçün sərbazları ayırdı və tüfəngçiləri ora ilə Qamışavan arasında, bataqlıq və qamışlıq yerdə qoydu, özü isə Lənkərandan keçən çayın kənarında dayanıb istər o iki səngərdən, istərsə də Qızılağacdan açılan altı fərsənglik yolu kəsmişdi və hər yerə mühafizə və keşik üçün tüfəngçiləri təyin etmişdi. O, həmçinin dəniz sahili boyu Siyahrud çayına qədər üçkünc bürclər tikdrmiş və hər bürcdə mühafizə qoymuşdi ki, ruslar nə quru, nə də dəniz yolu ilə qaçmağa macal tapmasınlar. Mühasirə günlərində Qamışavanda qalanlar dəfələrlə gecə vaxtı müxtəlif yollarla yürüş təşkil etmiş, lakin hər dəfə peşmanlıqdan başqa bir şey hasil edə bilməmişlər və hər kərrə bir neçəsi öldürülmüş ya da yaralanmışdı. İki ay[1] qumbara və top yağışı gecə-gündüz həm dənizdən, həm qurudan sərbazların

---

[1]Məhəmmədtəqi Lisanülmülk Sipehr "Nasixüt-təvarix"də dörd ay göstərib

səngərinə fasiləsiz yağdı və mərmilərdən yalnız az bir hissə səngərlərdən rədd edildi və məhz İlahi fəzilət ilə mərhəmət idi ki, on min top gülləsinin və qumbaranın atılması nəticəsində cəmi dörd nəfərdənartıq sərbaz həlak olmadı. Bütün bu müddətdə qumbara və mərmi səsi mücahid sərbazların qulağında vızıldayırdı və onların bu səbatı, mətanəti və rəşadəti dost-düşməndə heyrət və əvvəl bu ölüm-dirim savaşında hazır olmuş, lakin ingilis-rus sülhnaməsi imzalanandan sonra çıxıb getmiş bir neçə ingilisdə təəccüb doğurmuşdu. Rus silahlıları bir neçə qayıqla yaxın meşəyə şirin su və odun üçün gedəndə müzəffər ordunun əlinə keçdilər. Onların böyüyü min bir heyrət və təəccüblə ordunun igidliyini görüb qumbaraların və topların əldən çıxdığına görə xeyli məyus oldu, amma yerində oturub boyun əyməkdən başqa bir yol tapa bilmədi. Qamışavandakı rusların xof ilə qorxusu o mərtəbəyə çatmışdı ki, qarovulun bir neçə sərbazı gecə vaxtı qarovulgahdan keçərkən Qamışavanın darvazasındakı rus səngərinə yetişdilər. Bunu gözləməyən mühafizə saldatları dağılışıb qaçmağa başladılar və qarovulçular onlardan bir neçəsini tutub geri qayıtdılar. Mühasirənin şiddəti, şirin suyun, otun və odunun qəhətə çıxması mühasirədə olanları lap təngə gətirmişdi. Mustafa xan öz madyanlarının çoxunu salyanlılara dəyər-dəyməzə satdı, yerdə qalanları isə azuqə və silah-sursat daşımaq üçün ruslara verdi. Hamı öz ailələrini Sarıya göndərmişdi və yerin darlığından ruslarla həmxana oldular və nəticədə belə biabırçılıqlar baş verirdi ki, dilə gətiriləsi deyil və qələm onları yazmaqdan xəcalət çəkər.

Qamışavanın qalan evləri Talışın seyidlərinin, əlillərinin və yoxsullarının dörd yüzə yaxın evi idi ki,

ehtiyac içində yaşamaqdaydılar və əgər müzəffər qoşuna bataqlıq və quru yolla yürüş etmək əmri gəlsəydi, əlbəttə, o günahsız müsəlmanlara təcavüz etmək qadağan olacaqdı. Mustafa xan da bu məsələdən xəbərdar olub onlardan müdafiədə bir qalxan kimi istifadə etdi və özü üçün əmniyyət qazandı. Qələbəçalan şahzadənin mübarək nəzərində o seyidlərlə fağırların həyatının və namusunun qorunması yürüşdə qalib gəlməkdən də üstün idi. Rusiya səddini keçmək üçün Talışın sərhədlərinin mühafizəsində var gücü ilə dayanmağı və üç möhkəm qalanı tikməyi hökm etdi. Bu qalalardan biri Lənkəran qəsəbəsində, Mustafa xanın dənizə yaxın oturduğu yerdə, digəri Ərkivanda, bir başqası da Astarada inşa edilməli idi. Bütün qoşun bu işə girişmişdi və hətta vilayətdən də onlara qoşulmuşdular. Ağıllı rəy sahibi vəzir Mirzə Əbülqasım həmin günlərdə Talışda istehkam işlərinə ismarlanmışdı və qış mövsümünün əvvəlindən güclü yağışların yağması ilə səciyyələnən və tikinti üçün çox çətin olan Əqrəb fəslinin əvvəllərinədək[1] adıçəkilən vilayətdə firəng qalaları layihəsi ilə və onlara oxşar üç möhkəm, alınmaz və dağılmaz qalanın bina edilməsini yerinə yetirdi. İçində cəbbəxanası, silah anbarı, gəmibatıran toplarla təchiz olunmuş topxanası, bir illik azuqəsi və xırdadan iriyədək lazım olan hər şeyi belə qısa müddətdə və az vaxtda hazırlayıb elə tərtib etdilər ki, gəlib-gedənlərin həyrətlənməsinə səbəb olmuşdu. Hacı Məhəmməd xan Qaragözlü də əzəmət sahibinin əmrilə Qaracadağ sərhədlərini qoruyurdu. Onu o əyalətin hakimiyyətinə və həmin qalalarda keşik çəkməyə təyin etdilər. Şahənşah əlahəzrətlərinin hökmü əsasında bir dəstə Rəşt

[1]Münəccimlikdə Əqrəb bürcü miladi təqvimilə 23 oktyabr tarixində başlayır.

tüfəngçisi Ərkivan qalasının keşiyində durmaq üçün Rəştdən hərəkət edib Mirzə Rəfi xan Rəştinin başçılığı altında o mövqeyi mühafizə etməyə məşğul oldular.

### *Dövlət nümayəndələrinin rus sərdarı ilə sülh danışıqlarının aparması və sülhün bağlanmaması*

Sultanbud mücadiləsindən və o bölgədə Rusiyanın darmadağın edilməsindən əvvəl general Rtişşev İran dövləti ilə dostluq qapısını açmaq üçün addım atdı. Rtişşev rus dövləti tərəfindən rus qoşununun sərdarlığına təyin edilib Gürcüstana gəldi və sabiq sərdar general markizi Rus məmləkətinə yola saldı. O, dostyana bir məktub yazıb İbrahimxəlil xanın Rusiya ilə razılığa gələndən sonra öz evində tutub ruslara təhvil verdiyi Abdullah xan Qacarı nəvvab Naibüssəltənənin hüzuruna göndərmişdi. Buna görə Naibüssəltənə içində adıçəkilən Abdullah xanın göndərilməsindən razılıqlarını bildirdiyicavab məktubunu ticari məsələ ilə əlaqədar Tiflisə gedən Hacı Əbülhəsən İrəvaninin vasitəsilə Rtişşevə ötürmüşdü. İş elə gətirdi ki, o əsnada Rus dövlətindən adıçəkilən sərdara İran dövlətilə dostluğun əsasını qoymağın vacibliyini vurğulayan məktub gəldi və eyni zamanda Rus dövlətinin paytaxtındakı Siciliya səfiri İran dövlətinin paytaxtında oturan ingilis səfiri ser Qor Uzli Bronta yazırdı ki, Rusiya ilə Fransa arasında ədavətin qızışmasını[1], ingilis-rus dostluğunu və İran ilə ingilis dövlətləri arasında dostluq müqaviləsinin bağlandığını nəzərə alaraq rus dövlətinin başçıları sənin bu iki

---

[1]Sözügedən vaxt Napoleonun ordusu rus paytaxtını mühasirəyə almışdı.

dövlət[1] arasında atəşkəsin əldə edilməsinə vasitəçi olub düşmənçiliyin aradan qalxmasına nail olmağını münasib bilirlər.

Rus sərdarı Friqanı ingilis sərdarının yanına yolladı, Popov adlı birisini isə Hacı Əbülhəsənə yoldaş edib nəvvab Naibüssəltənənin hüzuruna göndərdi və onun vasitəsilə özünün dost münasibətini və ən xoş hislərini izhar edib belə bir təklif irəli sürdü ki, nəvvab Naibüssəltənənin müəyyənləşdirdiyi hər hansı sərhəddə gəlib iki dövlət arasında dostluq sazişini bağlasınlar. Bundan öncəki hadisələri və həmçinin Osmanlı dövlətilə şərt bağladıqlarını nəzərə alaraq (o şərtə görə iki dövlət dostluqda da, düşmənçilikdə də şərik olmalıydılar) Naibüssəltənə ingilis elçisi ilə də məsləhətləşməyi lazım bildilər. İngilis elçisi mister Qordonun vasitəsilə göndərdiyi cavabında yazırdı ki, əsas məsləhət odur ki, Qaracadağın qışlaqlarına yollan və elan et ki, qırx günlük müddətdə gediş-gəlişə və dost görüşlərilə danışıqlara xələl gətirən heç bir fitnə-fəsad və asilik olmamalıdır. Talış məsələsinə gəldikdə isə, onun bu işə dəxli yoxdur. Naibüssəltənə də yenidən Popovu Hacı Əbülhəsənlə yollayıb cavabını elçiyə göndərdi. Yollananlar gəlib cavabı çatdırandan sonra rus sərdarı bir az tərəddüd etdi və qırx günlük müddət bitən kimi durub Qarabağa getdi. Lakin Naibüssəltənə bu məsələdə heç bir araşdırma aparmadı. Beləliklə, Talış işində vaxtı ötürdülər, iş görmək üçün fürsəti əldən verdilər və rus sərdarının gəlişini gözlədilər.

Rus sərdarı ali hüzura yollandı, ardınca da Qarabağa gəldi. Naibüssəltənə Nəcəfqulu xan Gorusu ona mehmandarlıq etməyə təyin edib Qarabağa yolladılar. O əsnada

[1]Yəni İran və Rusiya dövlətləri

İrəvanda oturan Gürcüstan valisi Aleksandr Mirzə Axısqa valisi Səlim paşanı görmək üçün oradan Çıldıra getdi, ardınca da Kaxet dostlarının təklifi ilə Gürcüstana yola düşdü və orada çevrilişin ürəyi oldu. Bunu eşidən rus sərdarının canınaqorxu düşdü və o, Naibüssəltənədən üzr istəyib Sultanhasarıya (?) qədər gələ bilməyəcəyini və görüşün Araz çayına yaxın bir yerdə baş tutmağını rica etdi. O, həmçinin sülh bağlamaq ixtiyarına sahib olmadığını, fəqət iki dövlət arasında atəşkəs və gediş-gəliş haqqında danışıqlar aparmaq iqtidarında olduğunu qeyd etmişdi.

Özünün zəkası, xeyirxahlığı və xoş xasiyyəti ilə məşhur olan ingilis dövlətinin səfiri ser Qor Uzli Bront Nəvvab Naibüssəltənənin onun fikirlərini və rəylərini bəyəndiyini və sözünə inandığını nəzərə alaraq öz müavini və köməkçisi mister Muryeni rus sərdarının yanına göndərib ağıllı və bilikli adama layiq olan hər şeyi ortaya qoydu. Naibüssəltənə rus sərdarının öz səlahiyyətindən imtina etməsini görüb onun əhdinə qeyri-sabit qaldığını bildi və Nəcəfqulu xan Gorusun oğlu Sadiq xanı ingilis topçu mister Linzi və həkim mister Kəmillə birlikdə onun yanına göndərib bir daha təklif etdi ki, əvvəlki qərardan dönməsin. Üstəlik onu xatircəm etmək və əzizləmək üçün vəzir Mirzə Əbülqasımı Araz çayına bitişik yerləşən Aslandüzə yollasın ki, adıçəkilən sərdarla üzbəüz oturub onu bu şəkk-şübhədən qurtarsın və bu bədgümanlıqdan və tərslikdən vaz keçib düz yola qoysun. Sərdar isə Mirzə Əbülqasıma bildirdi ki, bu gediş-gelişdən məqsəd hiyləgərlikdən və bəhanəbaz-

lıqdan başqa bir şey deyilmiş və iki tərəf arasında barış işi baş tutan deyil.[1] Mirzə Əbülqasım da vəziyyəti ərz etdi.

Ali qafilə Sutanhasarıdan hərəkət edib Aslandüzə daxil oldu. Əvvəlcə məqsəd qoyulanlar hasil olmadığına görə Rtişşev Tiflisə getdi, general Kotlərovskini Qarabağın mühafizəsinə təyin etdi və döyüşlərdə rəşadətləri ilə seçilmiş saldatları ona verdi. O isə kiçik sayda saldatı Şuşa qalasına yollayıb özü Ağoğlan qalasında dayandı.

### *Aslandüz əhvalatı və orada baş vermiş hadisələr haqqında*

Rus padşahı ingilis padşahı ilə sədaqətli dost olduğunu təsbit edərək Fransaya qarşı düşmənçilik mövqeyini tutmaq qərarına gəldi. Tacirlərlə sövdəgərlərə alver məqsədilə Fransaya gedib-gəlməyə qadağa qoyuldu, bütün əlaqələr yasaqlandı. Sonda onların[2] arasında bir neçə hərbi toqquşma baş verdi və hər iki tərəfdən bir çox adam öldürüldü. Bunların şərhi uzunçuluğa gətirib çıxarar və bu kitaba yazılası deyil. İstanbul əhalisi arasında vəba ilə taun xəstəliklərinin yayılması həmçinin bu ilin əlamətdar hadisələrindən olmuşdu. Xəbərlərdə deyilirdi ki,(babalı etibarlı mənbələrin boynuna), altı yüz əlli min nəfərə yaxın adam həyatla vidalaşıb fani dünyanı tərk etdi. Rusiyanın işğal etdiyi Azərbaycan sərhədlərində çoxlu fitnə-fəsada yol verildi. Rusiya yenə də hiyləbazlıq və dolandırıçılıq büsatında öz qəflət bayrağını qaldırdı.

---

[1]1227-ci ilin şəvvalın 12-də Napoleon Moskvanı yaxıb-yandıraraq Parisə qayıtmağı qərara aldı. Məhz bundan sonra Rtişşevin sülh siyasətinə davam etməyə meyli azaldı.

[2]Yəni Fransa ilə Rusiya

Bəli, əgər zəfər həmişə bir dövlətə yar olsa, bunun qədrini bilmək, təcrübə qazanmaq və ədalətə öyrənmək anlayışları yox olub gedər, əziyyət çəkib, çalışıb-vuruşub düşmən üzərində çalınan qələbənin şirinliyi də ləzzət etməz, daim kamına çatmağı adət bilər və hər dəfə arzusuna yetişməyə ikinci təbiət deyər, çünki deyiblər: "Adət ikinci təbiətə bənzəyər". Qələbə üçün çalışanda ağız qurumayınca abi-zülalın qədrini bilməzlər və hicran axşamı öz zülmət pərdəsini açmayınca vüsal günəşinin şüalarını gecə-gündüzün vərəqlərində görməzlər. Hər halın əsası o tayı-bərabəri olmayan Xudavəndi-zülcəlaldır ...

Nəvvab Naibüssəltənə elə təsəvvür edirdi ki, bu il Allahın köməyi ilə əziyyət çəkmədən Rusiya məsələsini bir kənara atmağa müvəffəq olacaq. Həmin günlərdə Şəkinin böyüklərindən bir dəstə adam gəlib şikayət etdilər və başında sərdarı olan bir qoşunun təyin edilməsini istədilər. Qoşunun böyük hissəsi işlərin ən mühümmü olan Talış məsələsinə məşğul idilər. Bununla belə, rusların mayasını məhv etmək və yazıq və aciz şəkililəri qurtarmaq fürsəti Naibüssəltənədə qeyrət atəşinin alovlanmasına səbəb oldu. O, Sultanhasarıdan Pirqulu xan Qacarı Mirzə Məhəmməd xan Qacarla, Əlimərdan xan Xəmsə ilə və böyük dəstə şir-ovlayan mücahidlə bir yerdə Qarabağ yolundan Şəkiyə göndərdi. Qələbə bayraqları Sultanhasarıdan üç-dörd alay sərbazla topçunu, bir neçə dəstə qulamı və həmçinin sü-varilər dəstəsini düz Aslandüzə apardı və məqsəd o idi ki, onlar Araz və Kür çaylarından keçib Şəki vilayətinin məsələsini həll edəndən sonra Aslandüzdən Qarabağa istiqamət alsınlar. Aslandüzə daxil olmağa başlayanda düşmənyaxan süvarilər rus ordugahının ətrafına təyin oldu-lar, müzəffər ordu isə onları əhatəyə aldı. O camaat qarşıya

çıxmaq əzmində deyildi, onlar qorxu və dəhşətə düşüb qalada və səngərdə sığındılar və döyüş bayrağını mücadilə meydanına çıxarmadılar.

Get-gedə iş o yerə çatdı ki, saldatlar üçün azuqə və ələf əlçatmaz oldu. Rus generalı bu işə çarə qılmaq fikrinə düşdü və hiylə torunu açıb kələkbazlığa əl atdı. O, qarabağlılardan bir neçə nəfərin libasını dəyişdirib göndərdi ki, onlar fərari adı ilə müsəlmanların ordugahına gəlsinlər və qarabağlı Cəfərqulu xanla görüşüb bəyan etsinlər ki, "biz Qarabağ elatı tərəfinfən gəlmişik ki, müzəffər rikabdan bir qoşun götürək və bütün Qarabağ elini Tərtər çayından keçirib səadət bəxş edən rikaba gətirək". Öz sadəlövhlüyündən onların bu sözlərinə aldanan Cəfərqulu xan Naibüssəltənədən Sadiq xan Qacarın başçılığı altında bir qoşun alıb Araz çayından keçirtdi. O casuslardan iki nəfər oğru kimi Cəfərqulu xanın qərargahında qalıb ordugahdakı piyadalarla süvarilərin sayını və keyfiyyətini öyrəndilər və o göndərilənlərin arxasınca getmək bəhanəsilə özləri Araz çayından keçib generalın ordugahına çatdılar və onu işin həqiqətindən xəbərdar etdilər. O bildi ki, ordunun döyüşçüləri bir neçə dəstə yeni öyrənmiş sərbazdan, bir neçə dəstə qulamdan və bir də Şəki və Qarabağa gedənlərin yük arabalarından ibarət imiş. Yeni gələn topçularla sərbazlara təlim keçən ingilis müəllimləri isə İngiltərə ilə Rusiya arasında sülhün bağlandığına görə işdən asudə olublar. İndi qəflətən döyüşə başlasalar, muradlarına çatacaqlar. O həmçinin bildi ki, islam süvariləri rusların acizliyini görüb arxayınçılığa varıblar və daha əvvəlkitək onun ordusunu mühasirədə saxlamağa əhəmiyyət vermirlər. O gecə elin əksəriyyəti Aslandüzdə Qarabağ elatlarının arasında yer alan Murad xan Dəlağərdənin (?) bələdçiliyi ilə Ağoğlan-

dan çıxıb gecəyarısı heç kimə tanış olmayan keçiddən irəlilədilər. Qarabağlılardan bir neçə süvari isə digər keçiddən getdilər və özlərinə Cəfərqulu xanın adamları deyib islam qarovullarına qoşuldular. Bu vaxt general atlı qazaqlarla gəlib qarovulları əhatəyə aldılar və hamısını ələ keçirtdilər. Onlar oradan sürətlə sürüb sübh tezdən ordugahın kənarında peyda oldular. İslam ordusunda elə bildilər ki, Sadiq xan qayıdıb. yaxşı baxandan sonra rus bayrağını gördülər. Onlar heç sıralarını düzməyə macal tapmadılar. Ordu camaatı əndişə içində idi və belə halda səbat və nizam üçün yer olmaz. Tayı-bərabəri olmayan Xudavəndi-təala nəvvab Naibüssəltənəyə həmişə yar və zəfər bəxti də ona hər vaxt mədədkar olub. O, ayağını bərk yerə basıb fövrən zənburəklərdən atəş açmağa əmr verdi ki, özlərini çölə verənlər bu atəşi eşidib məsələdən xəbərdar olub ordugaha qayıtsınlar. O həzrət öz çadırından çıxıb sərbazlarla topçular arasına gəldi, hərb təbili çalındı və sərbazlar ordugahın yanında səflərə düzüldülər.

İki ləşgər arasında məsafə qalmayanda hökm çıxdı ki, Əli xan Nəsəqçibaşı peşə və sənət sahiblərini, ordubazar[1] əhlini və Şəkiyə təyin olunan qoşunun şey-şüyünü təcili surətdə tamamilə köçürüb dava-dalaş meydanından uzaqlaşdırsın. İslam süvarilərinin az olmasını görən qazaq süvariləri cürətlənib yüyənlərini boşaltdılar. Nəvvab Naibüssəltənə öz xüsusi qulamlarla hücuma keçib bir həmlə ilə onları əzdi və rus saldatları və topçuları arasına girdi. Amma çi fayda? Bu vəziyyəti görən ruslar öz top-tüfəngini işə saldılar. İngilis müəllimlər döyüş yerindən uzaqlaşdığına görə yenicə öyrənmiş azərbaycanlı topçular bu işdə uğur qazana bilmədilər və nəticədə topxana

[1]Ordubazar – ordugahda salınan müvəqqəti alış-veriş yeri, bazar.

davasında gedişat heç də nəvvab Naibüssəltənənin ürəyindən olmadı. İki tərəfdən top-tüfəng ildırımları qığılcımsaçan bahar buludu kimi, döyüş meydanı da odpüsgürən cəhənnəm havası kimi olmuşdu. Belə bir dilxor vəziyyətdə Naibüssəltənə hamını heyrətə salan qəhrəmanlıqlar etdi. O şiri-mərdan topxanadan sərbazların arasına cumdu və öz cəld igid qolunu göyə qaldırdı. Sayda rus saldatlarından dəfələrlə az olan sərbazlar mərdliklər nümayiş etdirdilər. Üç-dörd saat atəş dənizi alovlandı və az adam bu döyüşün yaxıb-yandıran odundan sağ çıxıb kənara çəkilə bildi. Naibüssəltənə daha dirənməyin sərf etmədiyini görüb ruslardan bir oxdan çox olmayan məsafədə yerləşən Aslandüz təpəsinin ətəyinə çəkildi. O arama haram qatılmış gündə Marağa alayının rəisi Cəfərqulu xan Müqəddəmin sabitqədəmliyi zahir oldu və onun möhkəm müqaviməti yenicə öyrənmiş şəqaqi və naxçıvanlı sərbazlarının ürəklərinə arxayınçılıq saldı. Bu mərəkədə nəvvab Naibüssəltənə dilinə çoxlu əhsənlərlə afərinlər gətirdi.

Bundan sonra əmrə əsasən Marağa sərbazları Aslandüzün təpəsində, digər dəstələr isə ətəyində yerləşdilər və rusların hərəkətlərindən xəbər almaq üçün qarovullar da təyin olunmuşdu. Birdən o şəvətəkin gecə bahadırların arasında qalmış Sultanbud əsirlərindən bir dəstə saldat fürsət tapıb rus ordusuna qoşuldu. Ruslar qayıtmaq üçün yüklərini bağlayan vaxt onların qayıtmalarına mane olub dedilər: – Əgər siz əzm göstərsəniz, biz qabağa düşüb şəqaqi və naxçıvanlı sərbazlarından bəzilərinin adını alıb sizi o iki dəstənin arasına salarıq. General o fikri bəyənib onların sözlərinə əməl etdi. Şəqaqi və naxçıvanlı sərbazlar bir də gördülər ki, ruslar onların arasındadırlar. Döyüş başladı və top-tüfəng tüstüsü göylərə

qalxdı. İlk atışmada şəqaqi və naxçıvanlı dəstələrinin sərhəngi, bu dava-dalaş atəşinin alovlanmasından rahatlanmış ingilis mister Kərşət ilə bir neçə sərkərdə yaralanmış və ya öldürülmüşdülər. Adıçəkilən sərbazlar döyüşmək üçün macal tapmayıb Aslandüz təpəsinə yollandılar, topxana da onların ardınca yola düşdü. Nəvvab Naibüssəltənə vəziyyəti görüb dərhal hadisələrin ən qızğın yerinə atıldı. Birdən onun asimanhərəkət atı dərib bir quyuya yıxıldı və o özü də yəhərdən yerə düşdü.

Qulamlar onun bədəninə xəsarət yetirildiyini düşündülər, hər yerdən səs-səda çıxdı və bunu eşidən hər kəs bir kənara qaçdı. Marağa sərbazları rus saldatları ilə islam sərbazlarının bir-birinə girdiyini görüb bir təpəyə çəkildilər və o təpə qorunması çox vacib olan bir mövqe deyildi. Faydasız cidd-cəhddən sonra onlar da başqaların yolunu tutdular. Pərvərdigarın lütfü nəvvab Naibüssəltənənin xoşbəxt vücudunu hifz etdi. O xatalı çaladan salamatlıq zirvəsinə çıxıb bir süvarini gördülər ki, yedəyində bir at çəkirdi. Şərafətli Nəvvab onun düşmən süvarisi və atın qənimət olduğunu təsəvvür edərək piyada halda əlində xəncər onun üstünə hücum çəkdilər. O atlı sərkarın cilovdarlarından imiş, səsini tanıdı və dərhal yerə düşdü, yedək atını yanına çəkdi və Naibüssəltənəni o ata mindirdi. Onun sağ-salamat olması müjdəsi adamlara çatdı. O cənab artıq səy göstərməyin yersiz olduğunu bilib ordusunu Hacı Həmzəlu adlı bir yerdə topladı ki, məşvərət edib qərar çıxarsınlar.

O biri gün Naibüssəltənə həmin yerdə dayanıb bir nəfəri təyin buyurdular ki, orduda qalmış əşyaları yığsınlar və cihad şəhidlərini dəfn etsinlər. Pirqulu xan da həmin mənzilə qayıdıb ərz etdi ki, Kür çayından keçəndən sonra

ona rusların gecə basqını və ali qafilənin geri qayıtması haqqında xəbər çatdı və bundan sonra o, Şəkidə dayanmağı mənasız sayıb qayıtmağa başladı, Kürdən və Arazdan davasız-şavasız keçdi və qafiləyə qoşuldu. Onun ardınca Sadiq xanla Cəfərqulu xan Qarabağ tərəfdən və İbrahim xan Salyan tərəfdən o xəbərləri eşidib xoşbəxt rikaba yetişdilər. Havaların soyumasından, dağlarda otun tapılmamasından və o mövqedən abad yerlərə məsafənin böyük olmasından Meşkinə yola düşməyi orada qalmaqdan üstün tutdular. Meşkinə yollandılar, intiqam almaqdan ötrü silah-sursatı və cürbəcür vəsaitləri qaydaya salmaq üçün bir az orada qaldılar. Bu vaxt rusların Naxçıvanın Eldəgiz dərəsinin sakinləri olan Mağaviz elatına hücum etmələri xəbəri gəldi. Bu xəbər xoşbəxt qafilənin cilovunun Təbriz tərəfə dönməsinə bais oldu.

### *Təbrizə daxil olandan sonrakı hadisələr, xoşbəxt bayraqların hərəkətini şərtləndirənlər və Talışda baş verənlər*

Xoşbəxt qafilə Təbrizə gələndən sonra düşmənlə döyüşə tədarük görməkdən savayı bir mühüm işə məşğul olmurdu, intiqam almaqdan başqa ağıldan heç nə keçmirdi və hamı bütün var-gücünü elə bu qış günlərində əvəzini çıxmağa yönəldirdi. Həmin vaxt xəbər gəldi ki, ruslar Aslandüz döyüşündə onların əlinə keçən Naxçıvan hakimi Nəzərəli xanın qardaşı Şeyxəli bəy Kəngərlu ilə razılığa gəlib onu gətiriblər ki, onun dəstəyi ilə Naxçıvana soxulsunlar. Əlbəttə, Şeyxəli bəydən xata və xəyanət çıxdığını heç kim güman etməzdi və o, rusların əlindən qaçıb humayun rikaba qoşuldu və əvvəlki kimi qulluqçuluq yolu-

nun yolçusu oldu. Ruslar Naxçıvana getmək və Şeyxəli bəyi meydana gətirmək haqqında xam fikirlərindən dönüb Naxçıvan səfərindən vaz keçdilər və Mustada xan Talışın fitnəsindən istifadə edib Muğana tərəf yola düşdülər. Bu xəbər İsmayıl bəyin və şahənşah həzrətlərinin ordusunun Miyanəcə gəlişi ilə bir vaxta düşdü.

Nəvvab Naibüssəltənə Naxçıvana və Mərəndə məmur olmuş sərbazlar dəstəsini Təbrizə gətirdi və İsmayıl bəyi Ərdəbil yolu ilə Muğana göndərdi və ordu topxanası ilə sərbazlarını götürüb Qaracadağ yolu ilə Muğana hərəkət etdi. Qışın şaxtası havanı çox dözülməz etmişdi. Qar səhra ilə biyabanı elə örtmüşdü ki, piyada ilə süvarinin hərəkət etməsi heç bir vəchlə mümkün deyildi.

Təbrizdən hərəkət edəndən sonra xəbər gəldi ki, Qarabağ eli ruslara öz arasından keçməyə yol verib, Əta xanla Cəfərqulu xan da digər elatları qorumaq məqsədilə onları zərər çəkməkdən və xata-baladan qurtarmaq fikrinə düşüblər. Ruslar Qarabağ elini olduqları yerdən hərəkətə gətirdilər. Onlar qəflətən Ərkivana yollandılar və Ərkivanı mühafizə edən Əli xan Nuri bir neçə nəfər xidmətçi ilə bu xəbəri eşidən kimi iztirab çəkə-çəkə dava-dalaşsız Ərkivanı boşaltdı. Müstövfiyi-sərkar Mirzə Əhməd yoldaşların gedişindən sonra cəncəllə fitnə arasında qaldı və ruslarla qarşıdurmada döyüşdə şəhadət şərbətini içdi və cənnət bağına yollandı.

Ruslar oradan Lənkərana üz tutdular, Naibüssəltənənin qafiləsi də sürətlə Talışa yollandı və Meşkində məlum oldu ki, İsmayıl bəy o tərəfdən özünü Ərşəqə çatdırıbdır. O orada öyrənir ki, aşura gecəsi ruslar Lənkəran qalasına yürüş edib, böyük döyüş baş verib və hər iki tərəf bütün var-gücünü ortaya qoyub. Sərkərdələri elə birinci döyüşdə

öldürülmüş lahicanlı tüfəngçilər qoruduqları bürcü boşaltdılar və ruslar həmin bürcə qalxdılar, oradan Məhəmməd bəy Qacar Əfşarın sərbazlarına top-tüfəngdən atəş açıb tüstünü göy çarxına çatdırdılar. Ruslarla islam mücahidləri arasında beş-altı saat döyüş davam etdi və ruslarla müsəlmanların cismlərindən qalxan qan tufanı torpağa yatdı. O gün Lənkəran ordusunun sərdarı olmuş Sadiq xan Qacar bacarıqlı və pələng kimi cəsur Məhəmməd bəy Qacar Əfşar ruslarla əlbəyaxa döyüşdə canlarından keçib həlak oldular. Ruslar Lənkəran qalasına yol tapsalar da, saldatlarının üçdə biri də sağ qalmamış və öldürülən rusların miqdarı iki min beş yüzə çatmışdı. Yerdə qalanların da çoxu yaralanmış, general Kotlərovski[1] isə sağalması mümkün olmayan üç yara almış və cərrahlar onu həyatda saxlamaq üçün əlindən gələni etmişdilər.

Bu vaxt Firiduntəkin padşahın cah-calal mənbəyindən fərman gəldi. Fərmanda əvəzçıxma əməliyyatını Allahtəalanın köməyi ilə yaz fəslinə və havanın mötədilləşməsinədək saxlanması haqqında deyilirdi. Naibüssəltənə hökmdarın əmrinə əsasən Təbriz darüssəltənəsinə qayıtdı. Təbrizdə rus sərdarının məktubu gəldi. O, eyni vaxtda ingilis səfirinə də yazmışdı ki, Fransa padşahı Napoleon Moskvanı fəth edəndən sonra şiddətli şaxta səbəbindən geri qayıtmaq qərarına gəlib.

*Şahzadələrin ulduzlar qədər çoxsaylı qafilənin önündə Azərbaycana göndərilməsi, şah bayrağının Çəməni-Ucana*

---

[1]Sözügedən döyüş qurtarandan sonra Kotlyarevskini ölülər arasında tapdılar. Bir gözü çıxmış, çənəsi xırd-xəşil olmuş və qulağından baş sümükləri tökülmüşdü. Sonradan həkimlər başından 40 ədəd qırılmış sümük parçası çıxarmışdılar.

*yollanması və hicri min iki yüz iyirmi səkkizinci[1] ilin hadisələri*

Dünyanı fəth edən Xosrovun yazın əvvəlində hərəkət etmək əzmi Azərbaycan səfərinə xüsusi təravət gətirdi. Novruz küləyi ölü torpağa İsa kimi yeni nəfəs üfürdüyü məqamda dünyanı şərəfləndirən fərman çıxdı ki, Mənuçöhrsifət şahzadələr nəvvab Əli xanın və şahzadə Məhəmmədtəqi Mirzənin hər biri dəniz qədər geniş qoşunla, əmirlər və sərkərdələrlə, o cümlədən qəhrəman canbazlar dəstəsinin sərdarı Yusif xan Sipəhdar və Fərəcüllah xan Nəsəqçibaşı fələk kimi möhtəşəm ordunun önündə yola düşsünlər, arxada isə ağ işıq saçan padşah bayrağı hərəkət etsin. Bu xəbər yayılanda nəvvab Naibüssəltənə İrəvan sərdarı Hüseyn xanı hüzuruna çağırmışdı. Həmin vaxt İrəvandan xəbər gəldi ki, rus sərdarı iki min nəfəri bir generalın sərkərdərliyi ilə Pənbək və Şoragöl yolu ilə İrəvanın yan-yörəsindəki kəndlərə göndərib ki, oradan mal alsınlar, buğda əldə etsinlər və mədənlərdən duz yükləyib gətirsinlər. Buna görə Naibüssəltənə Hüseyn xan Sərdara onlarla döyüşüb-vuruşmağa rüsxət verdi. Adıçəkilən sərdar təcili surətdə yola düşdü. Müzəffər rikabda ona qoşun verilmədiyinə görə İrəvan əhlindən iki min nəfərə yaxın adam toplayıb cihada qalxdı, özü də yaraqlandı. Fəzilət ilə əmmamə sahiblərindən, zöhd ilə təqva əhlindən də bir neçə nəfər kəfənə bürünüb zəfər qılıncını ələ aldılar. Hüseyn xan bu adamlarla kifayələnib cihad yoluna çıxdı. Bu vəziyyəti müşahidə edən rus generalı ilə saldatı sıralara düzülüb döyüşə hazır oldular. Cihad camaatı, sərbazlar və Hüseyn

---

[1]Yuxarıda qeyd etdiyimiz səbəb üzündən bu fəslə 1228-ci ilin ilk aylarında baş vermiş hadisələr də daxil olunubdur.

xan Sərdar heç səfləri düzməyib düşmənin üstünə düşdülər. Hamısı başından-canından keçənlər əllərinə xəncər, qılınc, tüfəng alıb iki tərəfdən ildırım kimi bərq vura-vura rusun bədənindən canını çıxartmağa atıldılar. Üç-dörd saat dava meydanında səy edəndən sonra rus generalı ilə saldatı şikəst olub yerə düşdülər və fərar etməyi qərara aldılar. Vadidəki kol-kos o bədbəxt güruhun laləvari qanına boyandı. Bu dəfə islam mücahidlərindən otuz dörd nəfər şəhadət şərbətini içdilər və həmin mərəkədə iştirak etmiş etibarlı şəxslərin rəvayətinə görə, ruslardan dörd yüz nəfərə yaxın öldürüldü, yaralandı və əsir düşdü. Sərdar və İrəvanın mücahid əhalisi zəfər bayrağını qaldırıb rus başlarını səadət mənbəyi olan Naibüssəltənənin sarayına göndərdilər, şahzadə isə qulluq adətincə o başları dünyaya ağalıq edən şahənşahın dərgahına yolladı. Dünyanı fəth edən bayraqların humayı[1] Tehran darülxilafətindən qanad çalmağa başlarkən rus başları da gətirildi və bütün ordu qələbə sədaları altında Cəməni-Sultaniyyəyə daxil oldu, oradan Azərbaycan səmtinə hərəkət etdi və *rəcəbül-mürəccəb ayının on beşi[1228]* Məhəmmədqulu Mirzə və Yusif xan Sipəhdar on iki min qəhrəmanla və Fərəcüllah xan Əfşar, arxalarınca isə şahzadə Əli xan və müzəffər ordu yetişdi. Həzrət nəvvab Naibüssəltənə *rəcəbin on ikisi* Təbrizdən hərəkət buyurdular. Əziz qardaşlar Naibüssəltənənin günəştəkin çöhrəsini Çəməni-Ucanda görməyə bəhrəmənd oldular və birbiri ilə görüşmələrionları şövqləndirib xoşbəxt hisslər keçirmələrinə səbəb oldu. Nəvvab Naibüssəltənənin qələbə nişanlı sancaqlarının ardınca zəfərçalan sərbazlar dəstəsi də Çəməni-Ucana daxil oldu. Mücahidlərin əlvan bayraqlarından bütün Çəməni-Ucan qeyrətartıran cənnətvari la-

[1]Humay – cənnət quşu.

ləzara döndü. Hələ üç-dörd ay bundan əvvəl bütün dünyada tanınmış fərman çıxmışdı ki, piyadalarla süvarilərin nizami ordusunu artırmaq üçün Azərbaycanda onların ingilis mister Drövilin[1] rəhbərliyi altında təlim almalarına diqqət yetirilsin. Bu fərmanı yerinə yetirmək üçün padşahın xəzinəsindən zərurətin tələb etdiyi qədər nağd pul da göndərilmişdi. Buna görə nəvvab Naibüssəltənə arxayın olmuşdu ki, həmin iki-üç ay ərzində beş-altı min sərbazla süvari məşqlərdə və təlimlərdə hərb fənlərini mükəmməl surətdə öyrənmiş və həddindən ziyadə bilik ilə bacarığı hasil edə bilmişlər. Onların ardı ilə on iki minə yaxın təzə və köhnə sərbaz dəhşətli bir dalğa kimi Çəməni-Ucana daxil oldular. Onların tüfənglərinin cınqıltısı səmanın qulağını kar etmiş və onların qılınclarının parıltısı dünyanı işıqlandıran günəşin gözünü qamaşdırmışdı.

Rəcəbülmürəccəbin iyirmi ikinci günündə şahənşahın fələk kimi qüdrətli qafiləsi Ucan imarətinə yetişdi. Naibüssəltənə rikabında olan bir neçə qulamı ilə onu qarşılamağa tələsdi, şah əlahəzrətlərinin ordugahında astananı öpmək şərəfinə layiq görüldü və bunun ardınca səma rütbəli xidmətdən mürəxxəs olub sərbazların, canbazların, süvarilərin və topxananın sıralarını düzməyə tələsdi. Azərbaycan məmləkətinin böyükləri, əyanları, fazilləri, qazıları, əmirləri və sərkərdələri qarşılamağa gəlib yer öpmək və hüzurdan feyz almaqla şərəfləndilər. Zillüllah əlahəzrətləri zəfərin pənah apardığı ordunun iki sırada düzülmüş

---

[1]Əslində adıçəkilən Qaspar Drövil ingilis deyil, fransız olmuş və İranda başına gələnlərini 1812-13-cü illərdə fransız dilində "Voyage en Perse" (İrana səfər) adlı əsərində təsvir etmişdi. Həmin kitab Mənuçöhr Etimad Müqəddəm tərəfindən fars dilinə çevrilib çap olunmuşdu. Bax: "Səfər dər İran". Tehran. Enteşarate-Şəbaviz. 1370.

topxanaya, topçulara, sərbazlara və süvarilərə baxmaq üçün təşrif gətirdilər. Süvarilərlə piyadaların nizamla düzülüşü, qaydası və istedadı təbiətcə bəyənməsi müşkül olan şahın əhsənlərini qazandı və cavan şahzadənin övlad ədəb-ərkanı ilə sərkərdəlik səriştəsi əlahəzrətləri əvvəlkindən də artıq sevindirdi. Kamına çatmış Xosrov Ucan qəsrini şərəfləndirdi və xidmətçilər qurban kəsmək, peşkəş gətirmək və pay vermək mərasiminə başladılar. Ucan imarətindəki vəziyyət, Mərrix kimi uca ordunun tərtibatı, hər şeydə nizam-intizam günəşvari hökmdarın nəzərində yüksək dəyərləndirildi. Dəfələrlə əhsənlər buyurdular, nəvvab Naibüssəltənəyə, Təbrizin əhalisinə, əyanlarına, fazillərinə və qazılarına və Azərbaycanın digər əhalisinə sonsuz lütfkarlıq göstərdilər və bütün rəiyyətlə məxluq əbədi dövlətin varlığı üçün dil açdılar.

### *Rus sərdarının şah qafiləsinin Ucana gəlişindən ingilis elçisi ser Qor Uzli Brontdan xəbər alması və onun sülh istəməsi*

Rus sərdarı ulduzlar qədər çoxsaylı ordunun Çəməni-Ucana gəlib toplaşması xəbərini eşidib fikrə getdi, dərd onu apardı, çünki buna əlavə olaraq Fransa padşahı da bir daha ordusunu tərtib edib böyük qüvvə və saysız-hesabsız döyüşçülərlə Rus məmləkətinə yönəldi və oranın vilayətlərinə daxil oldu[1]. Bu hadisələr iki tərəfdən onun pəri-

[1]Napoleon Moskvaya od salıb darmadağın edəndən sonra Fransaya qayıtmaq qərarına gəldi. Lakin Rusiya və Prussiya ona zərbə vurmağa hazırlaşırdılar. Onda Napoleon ordu sıralarını təzələməli üçün 300 000 nəfər 18-19 yaşlı gəncin təcili surətdə orduya çağırıb təlim keçməsinə əmr verdi. Bundan sonra o özü 1813-cü ilin may ayında Lützendə,

şanlığını və iztirabını artırdı. O, padşahın möhtəşəm rikabında olan ingilis elçisinə məktub yazıb ondan İran və Rus dövlətləri arasında sülh sazişinin bağlanmasında vasitəçi olmağını xahiş etmişdi. İngilis elçisi də onun bu xahişinə görə çox səy göstərdi və vəziri-əzəm Mirzə Şəfi də onunla razılaşdı, müqəddəs hüzurda gözəl sözlərlə məsələyə bəzək-düzək verdi, amma nəvvab Naibüssəltənə və onun Azərbaycanın işlərini həvalə etmiş olduğu qaim-məqam, əmirlərvə ordu sərkərdələri göylərədək ucalan taxtın ayaqları altında ərz etdilər ki, keçən il Rusiya elə bir hərəkət etdi ki, onun əvəzi tam surətdə ödənməyincə heç bir sülhdən və əmin-amanlıqdan söhbət belə gedə bilməz. Onların sözünün cavabında elçi öhdəsinə aldı ki, sülh sazişinə dair işin binası qoyulan kimi iki tərəfdən elçilərlə səfirlərin gediş-gəlişindən sonra məsələyə Əliyyə dövləti-nin xahişinə müvafiq tamamlanacaqdır[1]. Rus sərdarı ona

---

Bautzendə və Qorlitzdə ard-arda onların üstünə hücuma keçdi və hər dəfə onları məğlubiyyətə uğratdı.

[1]Burada həqiqət naminə digər mənbələrdən gələn məlumat da qeyd olunmalıdır. Napoleonun qələbələr silsiləsi ingilisləri çox təşvişə sal-mışdı və onlar bütün səylərini Rusiya mövqeyini möhkəmlətməsinə yönəltdiklərinə görə İranla müharibənin tez vaxtda bitməsinə çalışır-dılar. Ona görə ser Uzli təcili surətdə Həmədandan Sultaniyyəyə getdi və orada vəziri-əzəm Mirzə Şəfiyə müraciət etmədən birbaşa Fətəli şahdan onu qəbul etməyi istədi. İran şahı öz xidmətçiləri vasitəsilə ona ordugahda qalıb görüş üçün münasib fürsəti gözləmək cavabını verən-dən sonra ingilis səfiri demişdi ki, əgər Fətəli şah onu ləngimədən qəbul etməsə, o, bu hərəkəti İngiltərə padşahına qarşı xəyanət kimi dəyərləndirəcək və öz çadırını tərk edəcək. O, həmçinin elan etmişdi ki, əgər şah onun tələbinə sabah səhərə qədər müsbət cavab verməsə, o, Sultaniyyədən çıxıb gedəcək. Təəssüf ki, bu təhdidlər iradəsi zəif olan Fətəli şaha öz təsirini göstərdi və hökmdar Abbas Mirzəyə ingilislərlə bir yerdə ruslarla sülh danışıqları aparmağı əmr etdi.

yazdığı bir neçə gizli məktubda öz xəttinə sadiq qalacağını öhdəliyinə alırdı[1].

Bu arada Xorasanda da iğtişaşlar oldu, Şeyx Qaşğari çöl türkmənləri arasında fəsad törətdi ki, humayun qafilənin darülxilafətə qayıtmasına bais oldu. Buna görə şahənşahın sarayından Mirzə Əbülhəsən xan tapşırıq aldı və rus sərdarı onunla görüşüb saziş bağlamaq haqqında razılaşdılar[2]. Sonda tərəflər qərara gəldilər ki, gələn ilin yazında elçilər gəlib sülh ilə barışın qapısını camaatın üzünə açsınlar və işin nəyin üzərində qurulduğu məlum olsun[3]. Dünyanı bəzəyən

---

[1]Ser Qor Uzli sülh sazişinin bağlanması üçün öz səylərini artırırdı, lakin digər tərəfdən Abbas Mirzə, MİrZə Büzürg və hətta Fətəli şah israr edirdilər ki, saziş bağlanandan sonra ruslar bütün işğal etdikləri ərazilərdən çıxsınlar. İngilis səfiri İran tərəfini çaşdırmaq üçün rusların münasib vaxtda İran torpağından çıxmağa hazırlaşdığını iddia edirdi.

[2]Əslində Xorasandakı iğtişaşların əhəmiyyəti o qədər də böyük olmamışdı. İranda başqa üsyanlar da baş verirdi və dövlət tərəfindən yatızdırılırdı. Yusif xan Qaşğari hələ Gülüstan müqaviləsinin şərtləri müzakirəyə qoyulmamış qətlə yetirilmişdi və, təbii ki, onun üsyanı müharibənin nəticəsinə təsir göstərə bilməzdi.

[3]Sülh müqaviləsinin mətni hazırlanarkən ser Qor Uzlinin təkidi ilə general Rtişşev rusların işğal etdikləri torpaqlardan çıxacağını təsdiqləyən ayrı bir maddənin yazılmasını öhdəsinə aldı. Müqavilə bağlanandan sonra Mirzə Əbülhəsən xan elçi qismində Rusiyaya yola düşdü ki, rus ordusunun İrandan çəkilməsini təmin etsin. Lakin həmin vaxt rus imperatoru Birinci Aleksandr müttəfiqlərlə bir yerdə Napoleon üzərində qələbəni Parisdə qeyd etməkdə idi. Bu səbəbdən Mirzə Əbülhəsən xan uzun müddət Sankt-Peterburqda qalaraq Aleksandrı gözləməli oldu. Aleksandr qayıdandan sonra ilk günlərdə rusların İran ərazisini tərk etməyə hazır olduğunu bildirmiş, lakin bir azdan məlum oldu ki, Rtişşevin və Uzlinin bütün vədləri yalnız İran dərgahını aldatmaq məqsədilə verilmişdi. Beləliklə, müsəlmanlar

rəy bununla razı oldu və hökmdar öz paytaxtına qayıtmağı əmr buyurdu.

### *Şah əlahəzrətləri qafiləsinin Təbriz darüssəltənəsinə Daxil olması və o Həzrətin yerli əhaliyə iltifat göstərməsi*

Təbriz əhalisi pak niyyətlə və möhkəm iradə ilə ümumiyyətlə keçən illərdə və xüsusilə bu il özünə layiq xidmətlər göstərmiş, canını və malını din və dövlət yolunda qoymuşdu. Rusiyaya qarşı müxtəlif döyüşlərdə doqquz oğlu tələf olmuş Əsədüllah Sultan Hacı Əlilu yenidən öz oğullarından və nəvələrindən on iki nəfəri öldürülənlərin əvəzinə qurban verməyə gətirdi. Təbriz əhli dəhşətli hadisələr sonra təşviş ilə iztirab girdabına düşüb qəm-qüssə içində olduğuna baxmayaraq tezliklə müharibədə itirənlərin əvəzini çıxdılar. Yeddi min nəfər mükəmməl silahlanmış igid cihad tələbi ilə məvacibsiz-təmənnasız nəvvab Naibüssəltənənin gözləri önündən keçdilər. Döyüşlər zamanı hər yerdən həyəcanlı xəbərlər gəlirdi və vilayətin bütün əhli zati-ali Naibüssəltənənin sağ-salamat qalması üçün nəzirlər verirdi. Hətta ağbirçək qadınlar belə fəqir-füqəraya qızıllar paylayırdı və şah əlahəzrətləri onların bu sədaqətini və iradəsini müşahidə etmişdilər. Buna görə *şəban ayının iyirmi yeddisində* dünya qədər qüdrətli ordunu Naibüssəltənəyə tapşırıb və sədri-əzəm Mirzə Şəfi Büzürgü o cənabın xidmətində qoyub öz gəlişləri ilə Təbriz darüssəltənəsinə təşrif buyurdular. Şəhər əhlinən yeddi min tüfəngçi qarşılamaq üçün hazır oldular. O gün qocadan-

---

növbəti dəfə öz sadəlövhlüklərinin və avropalıların hiyləgərliyinin və şərəfsizliyinin qurbanı oldular.

cavandan kimsə evdə qalmadı. Hər kəs malik olduğu hər şeyi hökmdarın ayağı altına qurban gətirdi, lakin heç kəsdən peşkəş qəbul etmədi. Kiçikli-böyüklü hamı iltifatlar gördülər. Vilayət əhli geniş Sərbaz meydanında tədarük görüb zənburəklərdən və toplardan atəş açdılar. Bu atəş-fəşanlıq zülmətli gecəni aydın günə çevirdi. Vilayət əhli bir-bir əhsənlərə və ehsanlara müşərrəf oldular. O biri gün bəxt-dövlətə süvar olub şəhərin kənarında tikilmiş silah anbarına, topxanaya və barıtxanaya yollandılar. Gəzib tamaşa edəndən sonra dünyanı bəzəyən Günəş Şir bürcündə olduğu kimi oradakı qəsrdə mənzil saldılar və qızılsəpən əlini açıb əyan-əşrafa və qara camaata, güclüyə və gücsüzə qızıllar, ənamlar və ehsanlar buyurdular. Adamlar qızılları yığıb dövlətin mayasının təbərrükü və təyəmmümü və öz kisələrinin ziynəti etdilər. O mənzildən hərəkətə keçib yenidən ordugaha humayun qədəmlərini basdılar və oradan mübarək ramazan ayının sonuncu günü qələbə və təmtəraqla Tehran darülxilafətinə yollandılar.

### *İngilis dövlətinin böyük elçisi ser Qor Uzli Brontun padşah sarayından mürəxxəs olması, onun İran və Rus dövlətləri arasında sülh danışıqlarına qoşulmaq üçün Tiflisdən və Peterburqdan yola düşməsi və həmçinin hökmdarın inayətinə və Naibüssəltənənin mehriban münasibətinə layiq görülməsi*

Elə ki, ingilis səfiri ser Qor Uzli Bront İranla Rusiya arasında dostluğun əsasını qoydu və bu mühüm məsələni boynundan atdı, ürəyində daha bir nigarançılığı qalmadı. Səfirliyin işində bir nöqsan və natamamlıq qalmamış və İngiltərə dövləti hərəkət etməyin və ya dinc oturmağın

ixtiyarını onun öz əlinə vermişdi. O, sözdə və əməldə düzlüyü əsas tutaraq iki dövlət arasında dostluqla əmin-amanlığa xələl gətirməyi qəbuledilməz sayırdı ...[1] Padşah əlahəzrətləri ona həddindən artıq hüsn-rəğbət göstərdiyindən onun öz sarayından getməyinə rəva bilmirdi və yalnız bir müddət sonra böyük həsənatlarla mürəxxəs olmasına razılıq buyurdular. Padşahın heç kəsə müyəssər olmayan nəvazişlərin içində o oldu ki, şahanə ziyafətlər üçün qızıl qab-qacağı ona inayət etdilər və öz mübarək əli ilə bağışladılar. Nəvvab Naibüssəltənə də öz yaxınlarından, qohum-əqrəbasından və sirdaşlarından heç birinə göstərmədiyi iltifatlar nümayiş etdirib minalı aftafa ilə ləyəni ona hədiyyə buyurdular.Dövlətin yüksək rütbəli məmurları ilə elçi arasında hədsiz səmimi münasibət yaranmışdı və onun ayrılması onları sonsuz kədərləndirmişdi. O, İran məmləkətini tərk etsə də, onunla görüşmək arzusu ürəklərindən silinməmişdi. O, həqiqətən də insanlıq və ədəb-ərkan baxımından nöqsansız bir şəxs olmuş və sədaqət, vəfa və haqq-ədalət bayrağını həmişə uca tutmuşdu.

Xülasə, ingilis dövlətinə yazılmış dost məktubunu onun vasitəsilə göndərdilər. Mirzə Əbülhəsən xan Şirazi Rus dövlətinə səfir təyin olunmuş və qərara alınmışdı ki, adıçəkilən elçi ilə bir yerdə gedib Rus dövlətində lazım və vacib olanları yerinə yetirsinlər ki, İran dövlətinin qarşısında duran məqsədə çatsınlar. Adıçəkilən elçi öz

---

[1]Bundan sonra müəllif ingilis səfirini tərifləməyə davam edir. Əlbəttə, əgər Əbdürrəzzaq Dünbüli Qor Uzlinin məlum sülh müqaviləsinin Abbas Mirzəyə təkidlə "sırımasını"n əsl səbəbini bilsəydi və onun İranı tərk edəndən sonra bu ölkənin xalqını necə "vəhşi" adlandırmağını eşitsəydi, onda o avropalı şovinistin və xaçpərəst təəssübkeşin ünvanına arasıkəsilməz gözəl ibarələr yazmaq üçün o qədər kağızla qələm korlamazdı.

yerinə gəlmiş mister Muryeyə İranda qalmaq tapşırığını verdi, onu lazımi təlimatlarla təmin etdi, özü isə yola düşdü ki, Peterburq yolu ilə məqsədə çatsın. O, yolüstü birincisi Tiflisdə rus sərdarı ilə görüşüb müqavilənin bağlanması üçün zəmin hazırladı[1], ikincisi isə Peterburqda Mirzə Əbülhəsən xanın vəzifəsinin yerinə yetirilməsinə və İran dövlətinin Rus dövlətindən istədiyini hasil etməsinə dair üzərinə aldığı öhdəliyi icra etmək üçün səy göstərdi[2] və işin gedişatından xatircəm olub öz yoluna davam etdi. Tehran darülxilafətindən İrəvan vilayətinin axırınadək bütün yol boyu böyüklü-kiçikli bütün əhali adıçəkilən elçini əzizləyib qarşısında təzim edirdi. İş elə gətirdi ki, Naibüssəltənə Təbrizə daxil olan gün həmin elçi də gəlmişdi və o həzrətdən sonsuz iltifatlara layiq görüləndən sonra vətəninə yola düşdü.

---

[1]Rus sərdarı Rtişşev Qor Uzlini Tiflisə böyük iftixarla qarşılamışdı. Onun şərəfinə səhər yeməyi vermiş, o biri gün də onu şam yeməyinə dəvət etmişdi. Həmin vaxt toplardan atəş açılmış, meydanda düzülmüş alay ingilis səfirini "hurra" sədaları ilə salamlamışdı. Şərab məclisində o iki tərəf dost olmağa and içmişdi. Əbdürrəzzaq Dünbülinin yazdığına xilaf olaraq həmin görüş vaxtı rusların İran torpağından çəkilməsi barədə heç bir danışıq baş tutmamışdı.

[2]1814-cü ilin avqustun 28-də ingilis səfiri digər rəsmi şəxslərlə yanaşı rus imperatorunun sarayına dəvət almışdılar. Qor Uzli öz xatirələrində (Bax: A memoir of the late right hon. Sir Gore Ouseley. ss.199-200 və 203-204) bu görüş barədə yazarkən göstərmişdi ki, I Aleksandr onu görüb saray pəncərəsinin kənarına çəkdi və fransız dilində dedi ki, ruslar üçün çox mühüm və faydalı işlər görmüş adamla görüşmək onun üçün xoşdur və o, sülhün bağlanmasına görə öz sevincini ifadə etmək üçün söz tapa bilmir. Həmin günlərdə Rusiyaya göstərdiyi xidmətlərə görə Qor Uzli Rusiyanın ən qiymətli mükafatlarından olan Aleksandr Nevski ordeni ilə təltif olunmuşdu. Bu bir daha onu sübut edir ki, Türkmənçay sülh müqaviləsi İran tərəfindən çox ruslara lazım idi.

*Min iki yüz iyirmi doqquzuncu ilin[1] hadisələri haqqında*

Həmin ildə padşah Xorasana yollanmış və İsmayıl xan Damğani Qullarağasını oranın sərdarı yerinə təyin etmişdi. Herat ilə Fərah fəth olunmuşdu. Məhəmmədzaman xan İzzəddinlu Qacar Türkmən və Yəmut camaatı ilə Astrabadda üsyan etmişdi. Sonda yerli əhali onu tutub hökmdarın sarayına göndərmişdilər. Orada Məhəmmədzaman xanı və bir neçə qohumunu gözlərini çıxardıb cəzalandırdılar.[2]

*Türkün tonquz yılına müvafiq xoşbəxt min iki yüz otuzuncu ilin[3] hadisələri və Mirzə Əbülhəsən xanın Rus dövlətinə səfir getməsi*

Bu ilin yaz fəslinin əvvəlindəbundan əvvəl də işarə edildiyi kimi, Mirzə Əbülhəsən xan Şirazi iki zəncir fil[4] və bəzi töhfələr və hədiyyələrlə göylərə ucalmış saraydan Rus dövlətinə səfir göndərilmişdi. O, səfirliyin qaydalarına və adətlərinə bələd olsa da, bu sahədə bəzi mətləblər ona izah olunmalıydı və nəvvab Naibüssəltənə onu ali dövlətin şəninə layiq olan həmin qaydalarla tanış etdi. O, Peterburqun həndəvərinə çatanda rus imperatoru onun gəlişinin nə dərəcədə dəyərli olduğunu göstərmək məqsə-

---

[1]Miladi təqvimilə 1814

[2]Əbdürrəzzaq Dünbülinin hicri 1229-cu ildən bəhs etdiyi bölümdə bilavasitə Azərbaycana dair mühüm məlumat verilməyib.

[3]Miladi təqvimilə 1815

[4]Zəncir sözü burada filləri saymaq üçün bir numerativ mənasında işlənibdir.

dilə ona öz ordusunu və şəhərini nümayiş etdirmək istəmişdi. O, Peterburqdan iki-üç mənzillik aralı bir yerə mehmandarını[1] göndərib qonağıorada qarşlayaraq öz ehtiramını bildirmişdi.[2] Ordusuna, üst-başına və xalqına bəzək-düzək verəndən sonra onu paytaxta çağırmışdı. Onun gəlişi günü bir fərsənglik yol boyu iki tərəfdən əlli min saldat, on min atlı və altmış lülə top tərtiblə sıraya düzülmüşdü. Rus padşahının göstərdiyi ehtiram hələ heç vaxt heç bir elçiyə göstərilməmişdi və onun qayıdışını da bu yaxınlarda qələm bəyan edəcək.

*Mustafa xan Talışın vəfatı, onun ölümündən sonra oğullarının vəziyyəti, Cəfərqulu xanın durumu, Şəki əhalisi arasında çaxnaşma və onların başına gələnlər haqqında*

İtaətsizlik göstərməklə çoxlu müsəlman və rus qanının tökülməsinə bais olmuş Mustafa xan Talış bu il xəstələnib dünyasını dəyişdi. Onun oğulları Mir Həsən, Mir Hüseyn və Abbas bəy bir-birinə müxalif oldular. Anaları bunu görüb işləri öz əlinə aldı. O, hər gün bir oğlunu işə cəlb edərdi, digərləri isə ona kömək etməli və inadkarlıq göstərməməliydilər. Əlqərəz, iş bu minvalla davam edirdi.

Cah-calalı qalmaz o evdə ki,

---

[1]Mehmandar – qonaqları qarşılamağa cavabdeh olan saray xidmətçisi.
[2]Əbdürrəzzaq Dünbüli yazmır ki, Mirzə Əbülhəsən xan Rusiyaya çatanda rus imperatoru hələ Fransada öz müttəfiqlərilə bərabər Napoleonun hakimiyyətinin qalıqlarını dağıtmaqda idi və elçi 1814-cü ilin dekabrın 23-də Moskvaya gəlib bir müddət orada sərgərdan qalandan sonra o biri ilin mayın 25-də Peterburqa gedib çatdı və Birinci Aleksandrın qayıdışını gözləməli oldu. Onlar yalnız 1815-ci ilin dekabrın 24-ü (yəni bir ildən sonra) ilk dəfə görüşdülər.

Toyuqları xoruz kimi banlayar

Mustafa xanın vəfatından heç iki ay keçməmişdi ki, Cəfərqulu xan Şəkidə xəstələndi, ömrü başa çatdı və o, axırda ölümün tədarükünü görmək fikrinə düşərək dilbilən adamları yanına çağırıb Naibüssəltənənin astanına göndərdi, dilini üzüqaralığa və üzrxahlığa açdı ki, əcəl ona aman vermədi. Ondan sonra Şəkinin əyanları və əhalisi onun oğluna itaət etmədilər və onun törəmələrinin aralarından getməsini istədilər. Bundan xəbər tutan rus sərdarı Şəki əhalisini tutub Sibirə göndərdi və yenidən Şəkinin işlərini İsmayıl xanın ixtiyarına verdi. Cəfərqulu xanın qardaşı Əmiraslan çox dilbilən və vüqarlı adam imiş. O, öz qardaşlarını, qardaşıoğullarını və qohumlarını yığıb göyə qədər ucalan dərgaha üz tutdu və şahənşah əlahəzrətlərindən nəvaziş gördü. Nəvvab Naibüssəltənə də öz fitri qabiliyyəti, səriştəsi və qayda-qanunların bilməsi ilə onun digərlərin içindən seçdi. İndi o, böyük hörmət sahibi, xəlvətdə və aşkarda Naibüssəltənənin xidmətçiləri sırasına yüksəlib və ali rütbələrə qədər qalxıbdır.

### *Türkün siçqan ilinə müvafiq mın iki yüz otuz ikinci ilin[1] hadisələri, şahzadə Həsənəli Mirzənin Xorasana təyin edilməsi və digər işlər haqqında*

Əlahəzrət şahənşah Xorasandakı iğtişaşları yatırtmaq üçün nəvvab şahzadə Həsənəli Mirzəni oraya yolladı və şahzadə müqəddəs Məşhədi-Rəzəviyə gələndən sonra bütün gücünü vəziyyəti qaydaya salmağa yönəltdi ...

[1]Miladi təqvimilə 1816/17

*Türk təqvimində ud yılına müvafiq min iki yüz otuz üçüncü ilin[1] hadisələri, Mirzə Əbülhəsən xanın qayıtması, İran və Rus dövlətləri arasında sülhün bağlanması üçün rus sərdarı Aleksandr Yermolovun gəlməsi, Tehran darülxilafətinə getməsi və qayıtması*

Novbaharın təsirindən qoca dünyanın yadına cavanlıq düşdü, ağaclar qol-qanad atdı, yarpaqlar və güllər açıldı, Süleyman dərgahında bayram məclisi quruldu, qoca ilə cavanın xatirindən qəm tozu silindi. Əlahəzrət hökmdar novruz şənliklərindən sonra üzünü ölkənin və xalqın tədarükünə tutdu və nursaçan bayraq Çəməni-Sultaniyyəyə yönəldi. Həmin yerdə cəmiyyətə xəbər çatdı ki, Mirzə Əbülhəsən xan rus padşahından qayıtmaq icazəsini aldı. Aleksandr Yermolovu Gürcüstanın ixtiyar sahibi və əsgərlərin sərdarı yerinə təyin edib onun arxasınca İrana səfir göndərdi.

Bu xəbərin təfərrüatı belə idi ki, rus elçisi Yermolov dost məktubu, töhfələr və hədiyyələrlə Gürcüstana gəlib iki ay orada qaldı və hava mülayimləşən kimi Təbrizə yollandı.[2]

Nəvvab Naibüssəltənə bundan əvvəl Fransa dövlətində səfir olmuş Əsgər xan Əfşarı ki, dünya görmüş adam idi, onu qarşılamağa təyin etdi. O, Təbrizə gələndə Azərbaycan məmləkətinin bəzi əmirləri və xanları elçini qarşılamağa çıxmışdılar. Sağalan kəndinin həndəvərindən Naibüssəltə-

---

[1] Miladi təqvimilə 1817/18

[2]Xavəri Şirazi özünün məşhur "Tarixi-Zülqərneyn" adlı əsərində rus səfiri barəsində yazıb ki, o, özünü Çingiz xanın oğlu Cüci xanın qızının törəmələrindən sayırdı və Çəməni-Sultaniyyədə əksər vaxtlarda şah Xudabəndə adı ilə məşhur Olcaytu sultanın məqbərəsinə baş çəkməyə gedərdi.

nənin qapısınadək atlılar və piyadalar, topçular, sərbazlar və mücahidlər, o cümlədən on beş min nəfər sərbaz, iyirmi beş min nəfər atlı və mücahidlərdən iyirmi min nəfər ki, toplamda altmış min nəfər və qırx top nizamla və tərtiblə düzülmüş, Təbrizin və ətraf yerlərin sakinlərindən daha qırx min nəfər əsnaf və qeyriləri elçinin gəlişinə tamaşa etməyə toplanmışdılar. Bütün xalq qayda ilə sıralarda elə dayanmışdılar ki, onlardan nə bir hərəkət gözə dəyir, nə də bir səs çıxırdı.[1] Hamısı bir divar kimi səf çəkib əmrə amadə dayanmışdılar və elçini böyük ehtiramla mənzilinə gətirdilər. Həmin günün sabahısı elçi nursaçan nəvvab Naibüssəltənənin hüzuruna gəlmək şərəfinə nail oldu və dilində sülh sözünü tutsa da, o cənab bu söhbətə meyil göstərmədiyinə görə səmimiyyət və ürək yanğısı gözə dəymədi və məqsəd kimi qoyduğu sevinc və şadlıq hissini keçirmək də ona müyəssər olmadı. Təbrizdə bir neçə gün qalandan sonra Tehran darülxilafətinə yola düşdü və sədri-dövlətin qaimməqamından ona heç də sərf etməyən sözlər eşitdi. Həmin vaxtlar humayun ordu Çəməni-Sultaniyyədə yerləşmişdi.

Yermolov ordugaha daxil oldu və humayun hüzura müşərrəf oldu. O, bir sıra töhfəni, o cümlədən rus zərgərlərinin bədii surətdə qızıldan düzəltdikləri fil zəncirini, 2,5 zər' uzunluqda iki güzgünü və göndərilmiş digər hədiyyələrlə sovqatları, eləcə də sədri-əzəmdən və qaimməqamdan tutmuş Etimadüddövləyə və vəzirə qədər dövlətin yüksək məqam sahibləri və Həzrətə yaxın olanlar

[1]Abbas Mirzə bilmişdi ki, ruslar həmişəki kimi aldadıcı fənd işlədib işğal olunmuş ərazilərdən çıxmaq haqqında vəd etdikləri bəndi müqaviləyə salmaqdan boyun qaçırıblar və belə böyük ordu ilə Yermolovu qarşılamaqdan məqsəd ona öz gücünü nümayiş etdirmək idi.

üçün cürbəcür ərməğanları şah həzrətlərinə təqdim etdi. Rus padşahının töhfələri, hədiyyələri və dost məktubu humayun nəzərindən keçirildi. Təmənnası sülh, çağırışı isə iki tərəfin iti qılıncı qına, kin əlini paltarın qoluna salmaq imiş.[1] Buna görə də Xaqan əlahəzrətləri və Naibüssəltənə vəlxilafət fərman verdilər ki, rus imperatorunun xahişinə cavab olaraq bundan belə qılınc qına salınsın, iki tərəfin tüfəngləri saldatın və sərdarın üzünə tuşlanmasın və odlu piltələr qaladağıdan toplara yaxınlaşmasın. Nəhayət, dövlətin aliməqam məmurları bu mətləbi bir uğur kimi dəyərləndirib şadyanalıq etdilər.

Bu hadisələrin sonunda Azərbaycanın ağsaqqallarından biri, qədimdən bu dərgahın xidmətçisi və göylərə qədər ucalmış bargahın qulluqçusu olmuş bəylərbəyi Əhməd xan Marağada xəstələnib fani dünyanı tərk etdi. Nəvvab Naibüssəltənə bu vaxtsız ölümdən çox məyus oldu. O, xələflərinə və ailə üzvlərinə baş çəkdi. Fəqihlərlə müctəhidlərə mərhumun malının qadın və kişi cinsindən olan vərəsələri arasında bölünməsini tapşırdı. Mallar peyğəmbər şəriətinə müvafiq qaydada bölüşdürüldü. Dizəcrud mahalı atasının sağlığında uzun müddət ondan ayrı qalmış böyük oğlu Həsənağaya verildi. O, Təbriz darüssəltənəsinin sakini idi, ali günəşin kölgəsində oturmuşdu və Naibüssəltənənin yanında xüsusi xidmətləri olmuşdu. Təbrizdə bəzi divan xidmətləri də ona həvalə olundu. Marağanın hökuməti

---

[1]Yermolov bir neçə gündən sonra rus imperatoruna ünvanlanmış məktubda müharibənin yenidən başlanmasının tərəfdarı olduğunu bildirmişdi. O, həmçinin öz xatirələrində yazırdı ki, Mirzə Şəfi və Mirzə Əbdülvəhhabla danışıqlar apararkən onların işğal edilmiş əraziləri geri qaytarmaq iddiasını rədd etmişdi. Onların heç olmasa həmin ərazilərin bir qismini azad etməyini istəyəndə isə cavab vermişdi ki, rus imperatorunun silah gücünə aldığı torpaq geri qayıtmamalıdır.

digər oğlu Nurullah xana tapşırıldı. Marağanın və ətraf ərazilərin ordusu başçısı yerinə Rusiyaya qarşı və Balbasda döyüşlərdə qəhrəmanlıq və sabitqədəmlik göstərmiş Cəfərqulu xanı qoydular. Ondan əlavə Dehxarqan mahalını da onun ixtiyarında olan torpaqlara qatdılar.

*Türk təqvimində pars yılına müvafiq hicri min iki yüz otuz üçüncü ilin[1] hadisələri, şahənşahın günəş nişanlı bayrağının Xorasan işlərini qaydaya salmaq məqsədilə hərəkətə keçməsi, Fəth xan Əfğanın əzilməsi, Qəndəhar və Herat məmləkətlərinin dağıdılması, Rəhim xanın qaçması və Kamran Mirzənin əli ilə Fəth xanın kor edilməsi*

Dünyanı qızdıran günəş Həməl mənzilinə keçdi[2] və dünya qaranlığa qərq oldu. Torağayla sığırçın ərğəvanın budağında ərğənun çaldılar və füsunkar qızılgül çəmənlikdə cilvələndi. Süleymantəkin şahənşah qızıl taxtına əyləşib ənamlarla ehsanlar qapısını insanların üzünə açdı ... [3]

*Hicri min iki yüz otuz dördüncü ildə[4] baş vermiş hadisələr və sədri-əzəm Mirzə Məhəmmədşəfinin vəfatı* [5]

... Əlahəzrət şahənşah novruz bayramı sona çatan kimi Tehran darülxilafətindən Çəməni-Sultaniyyəyə köçməyə başladı. Bu vaxt sədri-əzəm Mirzə Məhəmmədşəfi bir

---

[1]Miladi təqvimilə 1817/18
[2]Yəni şəmsi hicri təqvimilə ilin və fərvərdin ayının ilk günü, miladi təqvimilə 21 mart 1818-ə müvafiqdir.
[3]Bu müqəddimənin ardınca başlıqda sadalanan hadisələrin təfərrüatları açıqlanır.
[4]Miladi təqvimilə 1818/19
[5]İxtisarla

xəstəliyə mübtəla olduğundan ordunu müşayiət etmək gücünü əldən verdiyinə görə humayun rikabdan ayrılıb Qəzvin darülxilafətinə yola düşdü ki, bəlkə o bölgədə mahir təbiblərin müalicəsilə şəfa tapıb rütbəsi göylərə yüksəlmişin xidmətinə tələssin. Qəzvinə gələndən sonra onun mərəzi gündən günə şiddətləndi və o, əbədi dünyaya üz tutdu. Yaşı yetmişi keçmişdi. O, mərtəbəsi göylər qədər uca olanın yaxınlarından, məğfur Xaqanın dövlətinin əvvəllərindən ən mötəbər qulluqçulardan olmuş, astanda işgüzarlığı və zəhmətkeşliyi ilə seçilən vəzir kimi məşhurlaşmış, cavanlıq illərini hökmdarın hüzurunda və səfərlərdə keçirmiş və bu xidmətdə göstərdiyi canfəşanlıqdan saçları ağarmışdı. Onun nəşini qarelərlə əminlər böyük hörmət-ehtiramla Nəcəfi-əşrəfə yola saldılar. Bir azdan vəzifələrin ən mühümü olan sədri-əzəm vəzifəsi Hacı Məhəmmədhüseyn xan İsfahaniyə tapşırıldı, bu mənsəb onun iftixarının və etibarının mayası olduvə digər vəzifələrinə əlavə edildi.

### *Xoşbəxt min iki yüz otuz beşinci ilin hadisələri* [1]

### *Hicrətin min iki yüz otuz altıncı ilinə*[2] *müvafiq yılan yılda baş vermiş hadisələr və ... Nəvvab Naibüssəltənənin müzəffər bayrağının Rum tərəfə yönəlməsinə bais olmuş bəzi Rum sərhədçilərinin ali dövlətin böyükləri ilə pis rəftar etməsi*

İki dövlət arasında dostluğa xilaf və nalayiq hərəkətlərdən biri o oldu ki, paşaların hər il Beytüllahül-harama

[1]Bu il Azərbaycan üçün mühüm hadisələrlə yadda qalmamışdı
[2]Miladi təqvimilə 1820/21

gedən zəvvarlara və hacılara qarşı bəd rəftarı ildən ilə daha da pisləşirdi. O dövlətin başçılarına dəfələrlə izah edilməsinə və paşaların Osmanlı vilayətlərin hər birində zəvvarlara və tacirlərə lazımi xoş və mehriban rəftar etməli olduqlarına dair çoxsaylı hökmlərin çıxmalarına baxmayaraq bütün bu hökmlərdən sonra hakimlərin əməllərində şiddət o yerə çatmışdı ki, ötən il padşah hərəmxanasının bir dəstə xadimi Hicaza səfər edərkən Ərzurum və Hələb vilayətində gömrük işçilərindən bir neçəsi hərəmxananın içinə girib orada mal tapdıqlarına görə onun da gömrük haqqını almaq istəmişdilər və həm dövlətin qanunlarına etinasızlıq, həm də hərəmxananı müşayiət edənlərə qarşı hörmətsizlik göstərmişdilər və hətta Həzrətin yaxın adamlarından olan Mirzə Əlirzaya ki, sabiq mötəmədüdövlə Hacı İbrahim xan Şirazinin övladlarındandır, ehtiram nümayiş etdirməmişdilər. Bu hadisə o dövlətin məmurlarının qulaq sırğası olandan sonra heç bir vəchlə üzrxahlıq istəyən olmadı, baiskarların siyasət edilməsinən isə heç söz də gedə bilməzdi. Həmin vaxtlar Ərzurum yaxınlığında bu tərəfin tacirlərindən birinin malı o məmləkətin oğrularının natəmiz əlinə keçmişdi. Xosrov Məhəmməd paşa bu məsələni heç araşdırmamış, amma mallar cinayətkarların əlindən alınandan sonra hamısını zəbt etmiş, sahibinə isə heç nə verməmişdi. Daha birisi, Hafizəli paşa hacılarla həddindən artıq kobud davranmağına əlavə Səlim paşanı aldatmaqla, habelə Səbiki və Heydəranlu kürdlərini təhrik etməklə məşğul olur, Səlim paşaya bir neçə məktub yazır və o vilayətin müsəlmanlarına küfr, zındıqlıq və bidətlə dolu sənədlər verir. O yazılar indi də dövlət rəsmilərinin əlindədir. Səlim paşa da təhrikçilikdə və kələkbazlıqda ondan geri qalmayıb Heydəranlu tayfası-

nın hamısını və Səbikinin də çoxusunu aldadıb o tərəfə apardı və iki dövlət arasında bağlanmış əhd-peymana zidd olaraq onlara sahib çıxdı. Dövlət rəsmilərinə və hərbi başçılara ard-arda şikayətlərınərz edilməsi heç bir fayda vermədi. Onda Həsən xan Qacar Naibüssəltənənin əmrilə bir dəstə piyada və atlı götürüb Heydəranlu tayfasını İrəvandan gətirmək üçün o bölgəyə yollandı və lazım olan bütün diqqətini o işə yönəltdi ki, köç əsnasında yol boyu hala, mala, dənəyə, zərrəyə qıl qədər zərər yetməsin. Həqiqətən də Həsən xan orada elə rəftar etmişdi ki, heç bir qafilə ya karvan edə bilməzdi. Məqsədi əmin-amanlıqla elatı köçürmək imiş və onlar çadırlarda və xeymələrdə istirahət edərkən Səlim paşa bütün adamlarıyla qəflətən üzərlərinə cumdu. Həsən xan da çar-naçar onların müdafiəsinə qalxdı. Hər halda Səlim paşa bu sövdadan bir xeyir görmədi, amma fitnə-fəsad törədərək Heydəranlu tayfasını ələ keçirməyə cəhd etdi. Xosrov Məhəmməd paşa Ərzurumun ordu başçısı yerinə təyin olunandan sonra bu dövlətin rəsmiləri onun rəftarının Hafizəli paşanınkından yaxşı olacağınıvə bundan sonra işin xilaf getməyəcəyini güman etdilər və o dövlətin başçlarına və sərkərdələrinə buna dair bir məktub yazdılar. Bu dövlətin kargüzarları aradakı əhdə riayət ediləcəyinə ümidli idilər. O tərəfdən gah belə söz gəlirdi ki, Heydəranlu Osmanlı elatlarından biridir, gah da cavab gəlirdi ki, adıçəkilən tayfa bu vilayətdə öz xoşu ilə yerləşib və yüyəni öz əlindədir. Lakin onlar bu yüyəni öz əllərində saxlamaqla əziyyətdən və fitnə-fəsaddan başqa bir şey görmürdülər və bu iki sözün bir-biri ilə ziddiyyət təşkil etməsi apaçıq aydın görünürdü. Üstəlik sözügedən tayfa bir neçə il əvvəl Cəfərqulu xanla ittifaq qurub Naibüssəltənəyə qarşı vuruşurdu. Əgər onların

Osmanlı dövləti ilə əlaqəsi olmuşdusa, onda bu dava-dalaş iki dövlət arasında dostluğa zidd idi və o tərəfin əhdi pozmağından xəbər verirdi. Daha bir məsələ: Hafizəli paşa kürdləri Salmas əhalisinin malını aparmağa təhrik emişdi. Salmasın Çəhri adlı yerində oğrular və qarətçilər üçün bir sığınacaq düzəltdilər və oğrular oradan çıxıb Salmasın camaatını və digər müsəlmanları öldürməyə və mallarını talamağa başladılar.

Xosrov Məhəmməd paşa Ərzurumun ordu başçısı təyin olunandan sonra öz müvəkkilini Təbriz darüssəltənəsinə göndərib Çehri iddiasını irəli sürdü. Bu tərəfdən bütün kədxudaların adından Hacı Əli bəy onun elçisi ilə bərabər Ərzuruma getib orada Çehri məsələsində haqq-hesab çürütmək tapşırığını aldı ki, onun qayıdışından sonra məsləhətləşib sözügedən işi qaydaya salsınlar. Adıçəkilən paşanın ağlına isə Hacı Əli bəyi həbs edib ondan Çehrini təhvil verməyi təklif etməkdən yaxşı bir yol gəlmədi. Ondan başqa: Hafizəli paşa Ərzurumun ordu başçısı vəzifəsindən çıxarılandan sonra Qarsa təyin edildi və oranın camaatını İrəvana tərəf göndərib ətrafdakı kəndlərin sakinlərini və oradakı kürdləri qarət edib qətlə yetirdi. Daha birisi: Bəsrə ilə Bağdadın sabiq vəzirinin, o diyarın ərəblə əcəmi arasında məşhur olan Süleyman paşanın oğlu Sadiq paşabu hüdudlara gəlib vilayətin sərhədində sakin olmaq istədi. Bu dövlətin rəsmiləri cavab verdilər ki, sənin iddianı qəbul etmək mümkün deyil və sənin məsələni həll etmək üçün ən ədəbi şəkildə o dövlətə müraciət olunacaq. Həmin şəxsi vilayətin tanınmış adamlardan birinin mehmandarlığı və vəsatətnamə ilə böyük ümidlərlə o dövlətə yolladılar. Onu və mehmandarını dörd ay Rumda ən dözülməz şəraitdə dustaq saxladılar. Ondan sonra mehmandarı cavabsız geri

qaytardılar, Sadiq paşanın isə yoldaşları ilə birlikdə ki, təxminən iyirmi nəfər idilər, Ərzurumun meydanında qoyun kimi başlarını kəsib İslambula göndərdilər.

*Xoşbəxt min iki yüz otuz yeddinci ilin[1] hadisələri, Rum paşalarının Nəvvab Naibüssəltənə ilə Torpaqqalada döyüşü və keçən ilki hadisələrdə bəyan olduğu tərzdə o tayfanın Barinin köməyi ilə məğlub edilməsi*

Nəvvab Naibüssəltənənin Rum tərəfə yönəlib o ərazinin sərhədçilərinə ondan ötrü cüzi tənbeh vermişdi ki, onlar yekəxanalıqvə bədrəftarlıq etdiklərinə görə peşman olsunlar. O əhvalat baş verəndən sonra onların tərslikləri və inadkarlıqları daha da artdı. İran əhlindən olan tacirləri və sahibkarları İslambulda və Rumun digər bölgələrində həbs edib mallarını evlərdə və karvanxanalarda əllərindən aldılar, hacılara qayıdan yolda Şamda böyük əziyyət verdilər, onlara məxsus malları apardılar. Bir-iki aydan sonra onlardan bəziləri zindanda öldülər, bir neçəsi xilas olub, malını orada qoyub, tək-tək gedib yolda canlarını tapşırdılar, lap kiçik qismi isə əliboş, zəlil və rəzil halda vətənlərinə qovuşdular. Məhəmmədrauf paşa qeysər sarayından Ərzuruma, o bölgənin ordu başçısı vəzifəsinə təyin edilmiş və yazın ortalarınadək ordunun, topxananın, cəbbəxananın hazırlanmasına, hərbi avadanlığın, azuqənin, barıtın, güllənin və ehtiyacı olan digər malların toplanmasına məşğul oldu. Nəvvab Naibüssəltənə şəban ayının sonlarında darüssəltənə Təbrizdən hərəkət etdi. O, Xoyun həndəvərinə daxil olarkən təsadüfən Həsən xan

[1] Miladi təqvimilə 1821/22

Qacarla qarşılaşdı. Həsən xan İrəvan süvarilərindən ibarət qoşunla Qarsa, Nərimana (?) və o zamanlar məşhur qalalardan olmuş Mağazberd[1] qalasına hücum çəkmişdilər və Rum ordusu döyüşmək üçün onların müqabilinə çıxmışdı. Həsən xan Qacar həmin çaxnaşmada o camaatın sərkərdəsi Səid Ağa adlı Sivasini min nəfərə yaxın adamıyla birlikdə əsir almış, qalanları da qaçmağa məcbur etmişdi. Bundan sonra Səid Ağanı digər əsirlərlə əzəmətli saraya yola saldı və o camaat Xoyda möhtərəm rikaba yetişdilər.

Naibüssəltənə Səid Ağa Sivasini ki, sözqanan və üzüyola adam imiş, yanına tələb etdi və ona bəzi faydalı nəsihətlər verdi ki, Ərzurum paşaları ilə sərkərdələri sonu acınacaqlı olan bu ədavətdən və bədrəftarlıqdan vaz keçib iki ali dövlət İran ilə Rum arasındakı münasibətləri islah etməyə çalışsınlar. Ardınca bütün əsirlərə vətənlərinə mürəxxəs olmaq üçün izin buyurdular. O camaat gedəndən sonra paşalar yenə də öz inadkarlığından əl çəkməyib bəlkə bu dəfə arzuları iddia güzgüsündə parıldayacağına ümidvar olaraq davaya hazırlıq görməyə başladılar. Nəvvab Naibüssəltənə məğrur paşaların bu hərbə-zorba maddəsini sakitləşdirməyin yeganə yolunu qantökən qılıncın qalxmasında və əjdəhaağız top-tüfəngin od püskürməsində görüb nizami süvarilərlə piyadaların və Azərbaycan ordusunun toplanmasına fərman verdilər. Orucluq ayının ortalarında müzəffər bayraq Xoy bölgəsindən göylərə ucaldı. Məqsədi o idi ki, işə Van tərəfədən başlasın. Ordunun böyük hissəsini Albaq[2] və Salmas tərəfə göndərdi. Bu vaxt xəbər gəldi ki, Rum paşaları Cəlaləddin Məhəmməd paşa, Hafizəli paşa və İbrahim paşa Rum

---

[1]Mağazberd – Gümrünün yaxınlığında bir yerdir.
[2]Albaq – İran ilə Türkiyənin sərhədində bir dərədir.

ordusunun piyadaları və atlıları ilə Topraqqalanın həndəvərində iqamət çadırları qurublar. Bu arada oranı almağa can atdılar. Yüz nəfər sərbaz və on doqquz nəfər Xələc tüfəngçisi Topraqqalanı mühafizə etmək tapşırığını almışdılar. Mühasirə vaxtı onlara təklif gəlmişdi ki, qaladan çıxıb sağ-salamat öz diyarlarına yola düşsünlər və qalanı təslim etsinlər. Bu kiçik dəstə cavabında bəyan etdi ki, nə qədər ki, bədənimizdə can var, döyüşəcəyik və qalanı əldən vermərik. Nəvvab Naibüssəltənə paşaların qalanı almağa cəhd göstərməsi xəbərini eşidən kimi Van tərəfləri tərk etdi və ali qafilə Çaldırandan Alaşkerdə[1] yollanaraq Avacıqa[2] daxil oldu. Xoy bəylərbəyisi Fətəli xanın nəzdində o elin mühafizəsinə məşğul olmuş sərbazlar və süvarilər dəstələri də rikaba qoşuldular. Bu vaxt dərgahın xidmətçilərinə xəbər çatdı ki, Hafizəli paşa Topraqqalanı zəbt etmək üçün mühasirə edib və səngərlərdən keçib. Qalanın mühafizəsində duranların işi çətinləşib. Üç tərəfdən qalaya toplarla qumbaralar yağır, divara qədər lağım atılıb ancaq barutu doldurmaq qalıbvə indi qala məsələsi bitmək üzrədir. O yerlərin erməniləri də ümidi Osmanlıların köməyinə bağlayıb ayaqlarını itaətsizlik dairəsinə basıblar. Topraqqaladan səkkiz fərsəngliyində, Bayəzid yolunda yerləşən Qarakilsədə[3]bir yerə toplanan iki minə yaxın tüfəngdar kilsənin ətrafında səngər qazıb oturublar. Nəvvab Naibüssəltənənin adamlarının əksəriyyəti təzəlikcə Vandan, Hakkaridən və Alpaqdan qayıtmış, orada düşməni əzib, mal-davarını talayıb özü ilə gətirmişdi və əldən düşmüş

---

[1]Alaşkerd (Alaşkird, Ələşkürd) – Topraqqalanın digər adıdır.
[2]Avacıq – Çaldıranın qərbində, İranla Türkiyə sərhədinə yaxın, Maku bölgəsində bir kənddir.
[3]Qarakilsə – Maku tərəfdə bir kənddir.

halda Avacıqdan hərəkət etməkdə idi. Onlar köçhaköç edib Qarakilsədən keçəndə erməni əhalisi, könüllü-könülsüz, xaçı, İncili və keşişi qabağa verib onları qarşılamağa tələsdilər. Naibüssəltənə öz camaatının bir yerdə qalmağını məsləhət görməyib ayrı-ayrı dalanlarda və məhəllələrdə yerbəyer olmalarına əmr vermişdi. O gecə müzəffər ordu həmin yerdə qaıb o biri gün hərəkətə keçdi. Şərafətli nəzər sahibinin məqsədi o idi ki, Həsən xan Qacarın ordugahında gecələyib çətin yolun yorğunluğunu alsınlar və rahatlıqla döyüşə girişə bilsinlər. Yolda birdən xəbər gəldi ki, Osmanlı paşalar xoşbəxt qafilənin gəlişini bilib var-güclərini qalanın alınmasına və onu qoruyanların oradan qovulmasına sərf etməyə tələsirlər ki, zəfərnişan bayrağın daxil olmasından öncə qalanın işini bitirsinər. Bu arada qalanın keşiyində duranlar Həsən xana bir neçə peyğam göndərdilər. Bunu eşidən Naibüssəltənədə dinc oturmaq üçün taqət qalmadı və o, dərhal Hüseyn xan Sərdarla, Həsən xanla və rikabında olan bir neçə zabitlə döyüş meydanıyla tanış olaraq topları təpələrdə yerləşdirməyin, sərbazların yürüşünü asanlaşdırmağın yollarını axtarmağa başladı və top-tüfəngi osmanlıların səngərinə və ordugahına elə yaxın gətirdilər ki, çadırların arasında libasların rəngini görə bilsinlər. Bunu müşahidə edən Osmanlı paşalar da vurhavura hazırlaşmağa başladılar. Dörd lülə topu dəlibaşlardan, heytadan (?) və qorxmaz döyüşçülərdən ibarət dörd minlik ordu ilə pənah gətirdikləri dərədən çıxarıb təpənin yamacına gətirdilər. Məqsədləri o idi ki, yüksəkliyi ələ keçirib müzəffər qoşunun üstünə od yağdırsınlar və əgər bacarsalar, islam ordusunuməğlub etsinlər. Naibüssəltənə əmirləri, qulamları, tüfəngçiləri və xidmətçiləri ilə döyüşə girişdi. Onun rikabının qulluqçuları

dağ kimi səbat ayaqlarını dağın yamacına basıb onların üzərinə yağan güllələrin cavabını Qasım xanın tüfəngçi qulamlar dəstəsinin gülləläri ilə verdilər. Bir fərsənglik məsafədə arxada olan sərbazlar, süvarilər, piyadalar və topçular dayanmadan irəliləyərək özlərini oraya yetirdilər. O tərəfdən də Osmanlı paşaların hərbi hissələri müzəffər qoşunun gəlişindən əvvəl təpələrdə və yüksəkliklərdə mövqe tutdular, hər yerə topları çəkdilər, piyadaları da dava-dalaşa və vurhavura hazır vəziyyətdə durdular. Naibüssəltənənin məqsədi dərələrin arası ilə dağlara qalxmağa əmr verməк idi və bu iş yorğun sərbazlar və susuz topxana atları üçün çox çətin olacaqdı, çünki onlar həmin gün səkkiz fərsəng yolu çox isti havada, susuz, piyada keçmişdilər, bir fərsəngi isə qaçaraq qət etdilər. Nəvvab Naibüssəltənə bu şəraitdə Xaliqə təvəkkül edib və şahənşahın xoşbəxt taleyinə ümid bəsləyib Həsən xan Qacara İrəvan, Naxçıvan və Xoy atlıları və piyadaları ilə təpəyə yürüş etməyi tapşırdı. İran igidləri dua edib və bir həmlə ilə rumluların toplarını ələ keçirib döyüş meydanındakı tozun içindən günəşlə ayı təpənin zirvəsinə qaldırdılar. Dəlibaş və heyta döyüşçüləri ləşgərin bu şücaətini görüb top-tüfəngin atəşləri arasında qəhrəmancasına davaya atıldılar. Qırma ilə güllə odsaçan ildırım kimi üstdən-altdan yağır, igidlərin canı bədəndən qaçmaqda idi. Sərbazların cəsurluğunu və qoçaqlığını görən Rum qoşunu ehtiyatı və qorxunu kənara atıb üş tərəfdən İran ordusunun ortasına atıldı və hamısı birləşərək İran igidləri ilə əlbəyaxa oldular, iş bıçaqla xəncərə gəlib çatdı. Baş bədəndən ayrıldı. Həqiqətən də hünər meydanında zəfər bayrağı qalxdı. Rum sipahının igidləri İran sərbazlarına üstün gəlib onların rəşadət qollarını bağladılar, coşqun sel

daşları aparan kimi onları yüksəklikdən dərəyə yuvarladılar, öz toplarını geri aldılar. Vəziyyəti müşahidə edən nəvvab Naibüssəltənənin beynində qəzəb dəniz kimi qaynadı. O, Cəfərqulu xan Mərəndinin, Qasım xan Türkmanın və sərtip İbrahim xanın qardaşı Məhəmmədrza xan Bakuvinin rəhbərliyi ilə Təbriz və Mərənd sərbazlarından ibarət iki dəstəni Qacarın və əzilən sərbazların köməyinə göndərdi və qorxmaz pəhləvanlar Həsən xanla birlikdə aslanlar kimi yenidən o yüksəkliyə hücum çəkdilər. Qeyrət ilə mərdlik anı və ağıl ilə zəka zamanı idi. Atəş yağdırıb ildırım çaxdılar. Birləşib atəş açdılar. Birinci yürüşdə rumluların 6 lülə topu və bir mərmini aldılar, hamısını yerindən qovub dağın başından aşağı atdılar. Bu vaxt Rum ordusu cərgə-cərgə düzülmüş halda dayanıb, əzəmətli paşalar gözlərini döyüş meydanına dikib İran pəhləvanlarının qəhrəmanlığına tamaşa edirdilər. Səlim paşanın qoşunu sol cinahda Rum kürdlərindən ibarət on min nəfər piyada və atlı ilə İsgəndər səddi kimi durmuşdular. Sərdar Əmir xan Qacar da öz qoşunu ilə onlarla üzbəüz dayanmışdı. Səlim paşanın dünyanı sarsıdan topları mərmilərini Əmir xanın cərgələrinə atırdılar. Nəvvab Naibüssəltənə böyük qoşunla bir parlayan günəş kimi mərkəzdə yer almış və zəfər mehi nəhəng bayrağı dalğalandırırdı. Bəhramtəkinin göndərdiyi adamlar sərdar Əmir xan Qacara Səlim paşanın qoşunu üzərinə hərəkət etmək əmrini gətirdilər. Naibüssəltənə sultanlıq davası əzmilə əmr və işarə etdi ki, böyük qoşunun əmirləri, sərdarları və sərkərdələri əllərinin altında olan piyadalar və atlılarla mərkəzdən və cinahlardan, pusqulardan və marıqlardan, sağdan və soldan Rum paşalarının üstünə birdən hücuma keçsinlər. Sərbazlarla süvarilər, əsgərlərlə əmirlər

hər tərəfdən hərəkətə keçdilər. İgidlər qan tökmək üçün qollarını çırmaladılar və rumlular canlarını qurtarmağın yolunu boyunlarını arxaya çevirib qaçmaqda gördülər.

Hökmdarın məhşər kimi dəhşətli qoşununun ilk hərəkətində kutval[1] Lütfəli xan rumluların topxanasını ələ keçirmək üçün əlinin altındakı bir neçə qulamla atlarını mahmızladılar. Topları alıb iki nəfər Rum igidini tapanca gülləsilə yerə sərəndən sonra onun ağzına tuş gələn güllə onun özünü yerində dondurdu və o, mərd və cəsur adam olmuşdu. Naibüssəltənənin əmrilə başçıları İsgəndər xan Qacar olan topçular dağ kimi güclü, ildırım kimi sürətli atların gətirdiyi topları çevirib alov şölələrini rumluların canına yağdırdılar.

Qalayaran güllələr bir süvarini yəhərindən yerə saldı, digərini isə kəmərindən çıxartdı, ayaqları üzəngidə qaldı. Şişuclu sərnizələr sərbazların sinəsini deşir, başı bədənsiz, bədəni başsız qoyurdu. Müzəffər sabitqədəm ordunun hücumuna tab gətirməyən məğrur paşalar yerindən durub hamısı birdən üzü vadiyə fərarilik etdilər. Cəlaləddin Məhəmməd paşanın iyirmi min piyada və süvaridən, habelə iyirmi topdan ibarət qoşunu sərbazların yürüşündən və qarşısını yaxan atəşdən öz səngərlərinə tərəfqaçdı. Hafizəli paşanın Topraqqalanı almaq məqsədilə qalanı əhatəyə almış on min nəfərə yaxın adamı da qaçmağa başladılar. Onların ordugahı süvarilərə və qulamlara[2] mal oldu. Onlar qalanın ətrafından qaçanda qalanın qoruyucuları içəridən və müzəffər qoşun çöldən onları atəşə tutdular. Cəlaləddin Məhəmməd paşanın səngərini mühafizə edən İbrahim paşanın yeddi-səkkiz minlik qoşunu hamısı qalxıb səngərə

[1]Kutval – qalabəyi.
[2]Yəni İran ordusunun süvarilərinə və qulamlarına

qaçdılar. Müzəffər ordunun süvariləri onların arxasınca düşdülər və Naibüssəltənə ehtiyat etdi ki, birdən İbrahim paşanın tüfəngçiləri və topçuları süvarilərə öz əyri gözlərini dikərlər və Cəlaləddin Məhəmməd paşanın qoşunu səngər-də yerini möhkəmlədib qələbə bayrağını oğurlayarlar. Buna görə o, rikabında olan bütün topçularla sərbazları qaldırıb sərdar Hüseyn xanın başçılığı altında səngərin üzərinə göndərdi. Müzəffər sərbazlar ildırım kimi dörd tərəfdən səngərə daxil olub iyirmi bir topa, qumbaralara, cəbbə-xanaya, silah-sursata, avadanlığa, çadırlara, mal-qaraya və orada olan hər şeyə yiyələndilər. Cəlaləddin paşa müqa-vimət göstərə bilmədi, onun qoşununun şirazəsi söküldü və camaat silahını atıb qaçdılar. Sərdar Əmirxan Qacar da Naibüssəltənənin əmrini yerinə yetirərək bütün var-qüvvəsi ilə Səlim paşanın üstünə hərəkət etdi. Səlim paşa Rum kürdləri ilə baş alıb səhraya qaçdılar. Əmirxan o camaatı aşırımadək təqib etdi, saysız-hesabsız baş, silah-sursat və at ələ keçirtdi, üstəlik bütün toplarına da sahib çıxdı.

Ümumilikdə məhşər həngaməsinə bir nümunə olmuş o şiddətli qovğada o qədər diri və ölü düşmən, at və silah-sursat ələ keçmişdi ki, onun miqdarını saymaq mümkün deyildi. Rum ordusunun işini dəyərləndirəndə demək olardı ki, onun hesab-kitab dəftəri müzəffər ordunun əlinə düş-müşdü. Əllərinin altında 51 min nəfər piyada və süvariləri var imiş. İnanmaq çətin idi ki, onlardan 10 min nəfərə yaxın adam sap-sağlam, yarasız-zədəsiz, yaraqlı-silahlı, atın üstündə mərəkə meydanından qaça bilib öz əsl vətəninə üz tutmuşdu. Bu bir ordu idi ki, Rum dövləti uzaq vilayətlərdən, o cümlədən Şamdan, Hələbdən, Trabzondan, Rumelinin bu tərəfindən, Ərzurumdan, Ərzincandan, Sivasdan, Malatyadan, Antebdən, Həmadan, Hümsdən və

sair ucqar bölgələrdən min bir cidd-cəhdlə və əzab-əziyyətlə doqquz ay ərzində toplayıb döyüş meydanına gətirmişdilər. Şahidlərin təxminlərinə görə bütün bu topların, mərmilərin, barıtın, silahların, bayraqların qiyməti 60 min tümənə çatırdı. Bütün bu silah-sursat və avadanlıq üç saat qarət və talan oldu. İraq ordusundan bircə nəfər belə müzəffər orduya qoşulmamışdı və qələbənin pənah gətirdiyi ordu özünün piyadaları, atlıları, topxana döyüşçüləri və qulamları ilə və İrəvan sərdarının qoşunu ilə və, əlbəttə, ağruqla bir yerdə 30 min nəfərdən də az idilər. Rum paşaları təsəvvürə gəlməz bir qürurla, lovğayla, təkəbbürlə və cəhalətlə ayaqlarını döyüş meydanına basdılar. Nəvvab Naibüssəltənə və qələbənin pənah gətirdiyi ordu əllərini möhkəm iplərlə aydın dinə, doğru yola dəvət edən peyğəmbərə, dost əmirülmömininə və pak imamlara bağlamışdılar. Qələbənin yar olduğu qazilərin əllərinə düşən fərmanlardan məlum olurdu ki, qeysər sarayının kargüzarları paşaları qızışdırmaq üçün hələ alınmamış Azərbaycan məmləkətini alınmış və paşaların arasında bölünmüş kimi göstərmişdilər və Rum ordusu rəhm boyunbağını boynundan çıxarıb qətli, əsir götürməyi, talançılığı, qantökməni və özbaşınalığı özlərinə rəva bilmişdilər. Amma bu işi hərəkətə gətirən O Tək Olan Tanrıdır və fəth ilə zəfəri əta etmək hüququ da O Qüdrətli Hakimin əlindədir. Nəvvab Naibüssəltənə Cəmşidlərin və Xosrovların iş dəftərinə yazılmağa layiq bu qələbəni əldə edəndən sonra bir gün o məqamda dayanıb ordu başçılarının hər birini qabiliyyətinə və xidmətinə görə əzizləyərək onlara xələtlər, ənamlar və mərhəmətlər buyurdu. Sabahısı gün ən yaxşı yaylaq olan Xalyaz mənzilinə köçüb orada dayandı. Ağıl və zəka sahibləri gördülər və bildilər ki, işin başından

sonunadək Naibüssəltənənin əsas məqsədi lovğabaz paşalara onlara layiq qulaqburması vermək, onları məzəmmət etmək və ardınca iki dövlət arasında sülh ilə dostluğun təməlini qoymaq olmuşdu. Bu dostluqla məhəbbəti əvvəlkidən də möhkəm etmək iradəsilə nəvvab Naibüssəltənə müstövfi Mirzə Məhəmmədtəqini həvəsləndirici nəsihətlərlə və aydın buyuruqlarla Ərzuruma yolladı. Şərqi cinahın sərkərdəsi, qoçaq, səriştəli, sözqanan, məsləhət bilən və xeyirxah kişi kimi məşhur Məhəmmədrauf paşa ərz etdi ki, müzəffər ordunun hücumu ilə heç bir sülh və islah əldə etmək mümkün olmayacaq. Naibüssəltənə köç əmrini buyurdular və iki tərəfin orduları öz başçıları ilə birlikdə öz mövqelərinə qayıdıb bir neçə gün orada dincəldilər. Ondan sonra tərəflərin mötəbər şəxsləri bir məclis qurub atəşkəs haqqında razılığa gəldilər və hər iki tərəfdən ixtiyar sahibi olan bir vəkil təyin olundu ki, işi həll etsinlər. Mirzə Məhəmmədtəqi xəbər yetişənədək o diyarda qalmağı münasib bilmədi və bu səbəbdən humayun dərgaha qayıtdı. Bundan sonra, inşallah-təala, qələm kağıza toxunub bütün baş verənləri təsvir edəcək və gələn ilin yazında hər tərəfdən bir etibarlı vəkil təyin olundu və tərəflər sülh məsələsində razılığa gəldilər. Naibüssəltənə bu qələbənin təfərrüatlarını humayun dərgaha ərz etdi və döyüş mərəkəsində canları ilə oynayan sabitqədəm qəhrəmanlara xanın məktubu və xələtlər çatdı. Hamıdan artıq səy göstərmiş, qoçaqlıq və mərdlik nümayiş etdirmiş Həsən xan Qacar padşahın məclisində mübarək dildən Sarı Aslan ləqəbini aldı. Qərara alındı ki, şahənşahın fərmanlarından birində bu hadisə öz əksini tapsın. Nəvvab Naibüssəltənə fəth və zəfərlə Xoy mahalına qayıtdı və oradan darüssəltənə Təbrizə yetişdi.

*Hicrətin xoşbəxt min iki yüz otuz səkkizinci ildə*[1] *baş vermiş hadisələr və İran ilə Rum dövlətləri arasında sülh müqaviləsinin bağlanması*

Bu il yazın əvvəlində ki, bülbüllər qızılgül ətrafında qanad çalıb min bir dastan oxuyar və qırqovul sərv ağacının budağında oturub sevgi-məhəbbət nəğmələrini qoşar, Rumun uca padşahından Şərqin sərkərdəsi və Ərzurumun valisi Məhəmmədrauf paşaya iki əbədi dövlət arasında ümumi sülh və dostluq anlaşmasının bağlanması üçün ixtiyar sahibi olmasını təsdiqləyən bir məktub daxil oldu. Adıçəkilən paşa bir igid kişi, ağıl-kamal sahibi, dünyanın istisini də, soyuğunu da görmüş adam olub. O, həmin mətləbi əbədi dövlətin kargüzarlarına çatdırdı. Nəvvab Naibüssəltənə qürurlu Rum paşalarına məzəmmət verərkən ki, əslində onun əsas məqsədi olmuşdu, geniş əraziyə malik bir neçə mülkü doğma məmləkətinə qatmışdı. Amma buna baxmayaraq həzrət vəliəhdin dünyanı bəzəyən rəyi belə olmuşdu ki, islam ümmətinin mənafeyi və iki əbədi dövlətin birliyi xatirinə düşmənçilik həyəcanını yaymağa, günahsızların qanını tökməyə, yolların və keçidlərin təhlükəsizliyini pozmağa son qoyulmalıdır. O, Rumun ali padşahının qəlbindəki istəyini şahənşah əlahəzrətlərin səltənət taxtının payalarına ərz etdi. Qibleyi-aləm və aləmiyan həzrət vəliəhdi tam ixtiyar sahibi buyurub izn və icazə

[1]Miladi təqvimilə 1822/23

verdilər ki, hər halda və istənilən məqamda doğru bildiyi yolla hərəkət etsinlər. Göylər kimi uca saraydan icazəsini alan nəvvab Naibüssəltənə özünün yaxın adamı müstövfi Mirzə Məhəmmədəli Aştiyanini işi tamamlamaq və möhkəm sülh bərqərar etmək məqsədilə Ərzuruma göndərdi və tapşırdı ki, adıçəkilən paşanın dairələrində sülh və müharibə barədə dost və həmfikir tərzdə danışıq aparsın və müsəlmanların xeyri, məmləkətin və dinin inkişafı, habelə iki əbədi dövlətin rifahı və əmin-amanlığı üçün lazım olanları özünün ağıl dəftərindən uzaqgörən fikirlərlə qızıl kimi qiymətli rəylər oxusun. Adıçəkilən Ərzuruma daxil olan kimi Məhəmmədrauf paşa ilə xəlvətdə bir iclas keçirib iki əbədi dövlət arasında dostluqdan söz açdı. Bu danışıqların nəticəsi sülh ilə istiqrarın əldə edilməsi oldu.

*İki dövət arasında bağlanmış sülhnamənin zəkalı vəzirlər sülaləsinin nümayəndəsi, əzəmətli seyyidlərin nəticəsi qaimməqam Mirzə Əbülqasım tərəfindən təqdim edilmiş surəti*

Bu yazını hazırlamaqdan məqsəd odur ki, bir neçə il ərzində iki ali islam dövləti arasında baş vermiş bəsi hadisələr səbəbindən qədimdən gələn sülh ilə səmimilik əlaqələri və dostluq ilə həmrəylik ənənələri nifrət ilə ədavətə dönüb hərb ilə savaşa gəlib çıxmışdı. İslam camiəsinin tələbi və iki tərəfin nahaqq qan tökülməsinə və bu cür hadisələrə və qovğalara razı olmaması üzündən anlaşma ilə sülhə qayıtmaq, habelə dostluq ilə məhəbbəti yenidən bərpa etmək istəyi hər iki tərəfdən izhar olundu. Əzəmətli əlahəzrət, mülkalan və mülkbağışlayan, tac ilə taxtın bəzəyi, məkan ilə zamanın hakimi, islam ilə

müsəlmanların gözəlliyi, dünya ilə dinin calalı, haqq ilə yəqinin köməyi, su ilə torpaq meydanının qəhrəmanı, Allahın yerə uzanmış kölgəsi, Süleyman hövzəsinin qoruyucusu, cahan büsatının yiyəsi, Süleyman qədər ədalətli hakim, islamın pənah gətirdiyi ordunun ulduzu, Kəyanlar taxtının zinəti, dünya mülkünün maliki, xoşbəxt taleyin tacı, İran məmləkətlərinin şahənşahı, qazi Xaqanın oğlu xaqan Fətəli şahın (Allah onun malını və gələcəyini qorusun!) fərmanı və dövlət ilə hökmdarlığın parlaq ulduzu, şövkət ilə cahandarlığın uca ağacı, dünya malının xoşbəxt sahibi, Keyvan[1] kimi himmətli və Bürcis[2] kimi bəsirətli cənab, şan-şövkətin iki rüknünün rüknü, gələcəyin novcavan fidanı, azad padşahzadə, ali İran dövlətinin vəliəhdi Abbas Mirzənin (Allah ona yar olsun!) tapşırığı ilə bu mülk sahibinin bəndəsi və canını qurban verməyə hazır nökər xüsusi vəkalətnamə ilə yetişərkən ali Osman dövləti tərəfindən də Keyvanabənzər əlahəzrət, hökmranlıq fələyinin günəşi, tacdarlıq üfüqünün bədri[3], islamın pənah gətirdiyi padşah, qurunun və dənizlərin sultanı, hərəmeyni-şərifeynin[4] xadimi, hörmət ilə nəcabət sahibi, əs-sultan bin əs-sultan bin əs-sultan, qazi Mahmud xanın (Allah onun mülkünü və bəxtini artırsın!) əmri və fərmanı ilə izzət, nəcabət və cəlalət sahibi, xalqın işini öz parlaq fikri ilə həll edən, işlərin əsasını öz dürüst rəyi ilə möhkəmləndirən, Ərzurum vilayətinin valisi, Şərq tərəfin sərkərdəsi Məhəmmədəmin Rauf paşa cənaba (Allah onun şöhrətini artırsın!) vəkalətnamə əta və bəxş edildi. Bu bəndə sözügedən

---

[1]Keyvan – Zühəl, Saturn planeti.
[2]Bürcis – Müştəri, Yupiter planeti.
[3]Bədr – on dörd gecəlik ay, bütöv ay.
[4]Hərəmeyni-şərifeyn – Məkkədəki hərəm və Mədinədəki hərəm.

şəhərdə adıçəkilən cənab sərkərdə ilə bir-birinin mübarək vəkalətnamələrini oxuyandan sonra məclis qurub dahışıq apardılar və mübarək sülhnaməni aşağıdakı qaydada tərtib etdilər:

Əsas: min yüz əlli doqquzuncu ildə[1] bağlanmış sülhnamədə və əhdnamədə iki ali dövlət arasında göstərilən qədim sərhədlər, habelə hacıların və tacirlərin gediş-gəlişinə, fərarilərin rədd olunmasına, əsirlərin qaytarılmasına və müəyyən şəxsin [o biri tərəfin ərazisində] yerləşdirilməsinə dair sabiq şərtlər tamam-kamalla olduğu kimi etibarlı qalmaqdadır və onlara riayət edilməlidir, onların əsaslarına heç bir vəchlə xələl gətirilməməlidir, iki ali dövlət arasında dostluq, həmrəylik və məhəbbət qüvvədə qalmalıdır. Bundan sonra ixtilaf qılıncı qında qalmalı, iki dövlət arasında düşmənçiliklə ədavətə bais olacaq və sülhlə əmin-amanlığa zidd olacaq müamilə üz verməyəcək, ali Osmanlı dövlətinin qədim hüdudlarında olmuş və müharibə əsnasında əzəmətli İran dövlətinin əlinə keçmiş ərazilər, o cümlədən qalalar, qəzalar, qəsəbələr və kəndlər azad edlib hazırkı mötəbər sənədin imzalanmasından sonra altmış gün ərzində tamamən Osmanlı dövləti tərəfinə təslim edilməlidir. Bu xeyriyyə sülhnaməsinə hörmət əlaməti olaraq tərəflər əllərinə keçənləri açıq-aşkar surətdə təxliyyə edirlər, yol əsnasında onlara lazım olanlar, o cümlədən yeyəcəklər və qeyrisi, onlara əta olunur və onlar tərəflərin sərhədlərinədək ötürülür.

Birinci maddə: ali dövlətlərin bir-birinin işinə müdaxilə etməyə icazələri yoxdur; bundan belə Bağdad və Kürdistan tərəfdən müdaxiləyə icazə verilmir. Sancaqın və Kürdüstanın hesab-kitab dəftərinə daxil olan mahalların

[1]Miladi təqvimilə 1746-cı ilə müvafiqdir.

işlərinə ali İran dövləti tərəfindən müdaxiləsinə və təcavüzünə yol verilmir və adıçəkilən ərazilərin yaylaqları ilə qışlaqlarından iki tərəfin əhalisi keçdiyi halda adi rüsumlara, yaylaqiyə, qışlaqiyə və digər davalara dair məsələlər İran dövlətinin vəliəhd nəvvabı və Bağdad vəzirinin vəkilləri arasında həll edilib ortadan qaldırılır ki, iki dövlət arasında kin-küdurətə bais olmasın.

İkinci maddə: islam Rum ölkələrinin əhalisi İran əhalisindən Kəbeyi-mükərrəməyə, Mədineyi-münəvvərəyə və sair islam ölkələrinə gedib-gələn kəslərlə, o cümlədən hacılar, zəvvarlar, tacirlər və müsafirlərlə, öz əhalisi kimi müamilə edərlər və o camaatdan şər'i qanunlara xilaf olan durmanı[1] və digər bac-xəracları əslən tələb etməzlər. Həmçinin ətəbati-aliyyat zəvvarlarından (əllərində ticarət malı olmadığı halda) heç bir bac və s. tələb olunmur. Ticarət malı olduğu təqdirdə gömrük haqq-hesabına müvafiq vergidən başqa heç nə tələb olunmur. İran dövləti tərəfindən də Osmanlı dövləti tərəfinin tacirlərinə və oranın əhalisinə həmin qaydalar tətbiq olunur. Sabiq tələblərə müvafiq olaraq ali İran dövlətinin hacılarına və tacirlərinə ali Osmanlı dövlətinin vəziri-əzəmləri, əmiri-hacları, mirmiranları və sair məmurları və hakimləri diqqət göstərib qaydalara riayət edirlər, Şami-şərifdən Hərəmeyni-möhtərəmeynə və oradan Şami-şərifə gedənlərə humayun maliyyə məmurları nəzarət edirlər və şərtlərə zidd heç bir işə yol vermirlər. Onlar himayə altında olurlar və əgər onların arasında bir münaqişə yaransa, buna nəzarət edirlər. Məkkeyi-müəzzəməyə və ətəbati-aliyyata hərəkət edən şahənşah hərəmxanasına, böyük şahzadələrin hərəmxanalarına və İran dövlətinin digər böyüklərinə onların

[1]Durma – vergi növü.

rütbələrinə müvafiq surətdə hörmət ilə ehtiram göstərirlər. Xoşbəxt İran dövləti əhalisinin və tacirlərinin gömrük rüsumlarına gəldikdə, onlara ali Osmanlı dövlətinin qaydaları tətbiq olunur vəticarət mallarına görə onlardan bir dəfə yüz quruş və dörd quruş gömrükhaqqı alınır və bunun müqabilində onların əlinə təzkirə[1]verilir. Onların əlindən başqa ələ keçmədiyi halda onlardan təkrar gömrükhaqqı alınmır. Darüssəadətə ticarət məqsədilə çubuqi-Şiraz (?) aparan İran əhlinə onun alqı-satqısına məhdudiyyət qoyulmur və onlar onu istədiyi adama sata bilərlər. İki tərəfin məmləkətinə gedib-gələn iki ali dövlətin tacirləri, təbəələri və əhalisi ilə islam cəmiyyətinin tələblərinə uyğun, dostcasına müamilə edilir və onların hamısı hər cür əziyyətdən və zərərdən qorunurlar.

Üçüncü maddə: mübahisə hədəfinə çevrilmiş və bu gün ali Osmanlı dövlətinin torpağında məskunlaşmış heydəranlu tayfası[2] İran ərazisinə təcavüz edib ziyan vurduğu təqdirdə sərhədçilər onları dayandırıb tərbiyə verməyə diqqət yetirməlidirlər. Əgər təcavüz etməkdən və xəsarət yetirməkdən əl çəkməsələr və sərhədlərdə onlara qadağa qoyulmasa, ali Osmanlı dövləti onlara sahib çıxmaqdan imtina edir. Əgər onlar öz istəyi və razılığı ilə İran tərəfinə keçsələr, Osmanlı dövləti onlara bunu qadağan etməməlidir. Onlar bərəkətli İran dövləti tərəfinə keçəndən sonra Osmanlı torpağına gəlsələr, onları qətiyyən qəbul etməz və onlara sahib çıxmaz.Əgər onlar İran tərəfə keçdikləri halda ali Osmanlı dövləti hüdudlarından təcavüz edib xəsarət

[1]Təzkirə – (burada) qəbz.

[2]Heydəranlu tayfası – İran və Osmanlı dövlətlərinin sərhədində yaşayan bir kürd tayfasıdır. Onların mütəmadi şəkildə sərhədləri pozma hərəkətləri əsrlər boyu iki dövlət arasında mübahisələrə bais olmuşdur.

yetirsələr, ali İran dövlətinin sərhədçiləri diqqətlərini onlara mane olmağa yönəltməlidirlər.

Dördüncü maddə: qədim şərtlərə müvafiq olaraq tərəflər dövlətlərin fərarilərinə yiyələnmirlər və beləliklə, bu tarixdən etibarən ali Osmanlı dövlətindən bərəkətli İran dövlətinə və bərəkətli İran dövlətindənali Osmanlı dövlətinə keçən elat və tayfalardan köçənlərə yiyə çıxmamalıdırlar.

Beşinci maddə: darüssəltənədə və ali Osmanlı dövlətinin digər məmləkətlərində İran tacirlərinin qanuna müvafiq saxlanılan malları mövcud olduqları yerdə bu tarixdən etibarən 60 gün ərzində İran dövlətinin mötəbər dəftərlərindəki qeydlərə və qanunlara əsasən onların sahiblərinə təslim edilir. Saxlanılan mallardan başqa ədavət olan müddətdə Osmanlı məmləkətlərində bəzi məmurların İranın hacılarından, tacirlərindən və digər əhalidən zorla aldıqları mallar ali İran dövlətinin müraciətindən sonra Osmanlı dövlətinin fərmanına əsasən hər məntəqədə müsadirə edilir və qanuni yolla sübuta yetirilərək onların vəkillərinin öhdəsinə təslim edilir.

Altıncı maddə: ali Osmanlı dövlətinin məmləkətlərində hər iki dövlətin məmləkətlərindən vəfat edənin qanuni varisi və vəsisi[1] yoxdursa, beytülmal məmurları ondan qalan mirası qanuna müvafiq qaydada dəftərdə qeyd edib həmin malı təhlükəsiz yerdə bir il saxlayırlar ki, onun qanuni varisi və ya vəkili gələndə qanuni qeydlər əsasında həmin miras qalmış əşyaları onlara təslim etsinlər və o yerin kirayəsini və rüsumu ondan alsınlar. Əgər göstərilən müddətdə miras yansa ya tələf olsa, heç bir iddia qəbul

[1]Vəsi – vəfat edən adamın vəsiyyətini yerinə yetirməyə məmur olunmuş şəxs.

olunmaz. Əgər göstərilən müddətdə varis və ya vəkil gəlməsə, beytülmal məmurları həmin mirasıali İran dövlətinin mötəbər şəxsinə satıb pulunu özlərində saxlayırlar.

Yeddinci maddə: sabiq şərtlərə müvafiq olaraq və sevgi ilə dostluğu təsdiqləmək və əbədiləşdirmək naminə hər üç il bir nəfər hər tərəfdən o biri tərəfdə qalıb sakin olur və bu xeyriyyə sülhnaməyə hörmət əlaməti olaraq iki ali dövlətin təbəəsindən verilmiş söz xatirinə onlara qarşı heç bir pis siyasət yeridilmir.

Xatimə: yuxarıda zikr olunan əsaslar, şərtlər və maddələr müzakirələr nəticəsində qərara alınmış və iki dövlət tərəfindən qəbul edilmişdir. Tərəflər "olan oldu" deyərək bütün qarət olunmuş malların və bütün cüzi məsrəflərin təzminatını nəzərdən keçirirlər və iki ali dövlət adət üzrə təsdiqnamələr mübadiləsini yerinə yetirmək üçün aşağıda göstərilmiş tarixdən etibarən altmış gün ərzində səfirlər vasitəsilə sərhədlər üstündə görüşüb iki tərəfin astanasına təqdim və təslim edirlər. Beləliklə, hazırkı xeyriyyə sülhnaməsi həqiqi sülh müqaviləsi ilə əvəzlənir, etibar qazanır və ona riayət edilir. Küdurət və ədavət alovu hərtərəfli söndürülür, iki dövlət tərəfindən dostluğa zidd və bağlanan bu əhd və şərtlərə xilaf olan heç bir hərəkətə yol verilmir. Yuxarıda adı çəkilmiş cənab vəkil tam səlahiyyət alaraq Osmanlı dövləti tərəfindən 1238-ci ilin ziqədeyi-şərifə ayının 19-da[1], bazar günü bu sənədi imzaladı. Xatimə xeyir və səadətlə, əlhəmdüllah, əvvəldən axıra kimi, zahirdə 1239-cu ilin məhərrəmül-həram ayında[2] yazıldı[3].

---

[1]Miladi təqvimilə 28 iyul 1823-cü ilə bərabərdir.

[2]Miladi təqvimilə sentyabr/oktyabr 1823-cü ilə bərabərdir.

[3]Əslində sülhnamənin mətni Məhəmmədəmin Rauf paşa və Mirzə Məhəmmədəli müstövfi Aştinayi tərəfindən imzalandıqdan sonra Os-

## *Türk piçi yılına müvafiq hicrətin xoşbəxt min iki yüz otuz doqquzuncu ilin hadisələri*[1]

*Ziqədətül-həram ayının birində* xoşbəxt şahənşahın bayraqları Çəməni-Sultaniyyəyə yetişdilər və bəzi məşvərətlər aparmaq üçün həzrət vəliəhd humayun rikaba dəvət olundu. Naibüssəltənənin dünyanı fəth edən rikaba gəlməyinə yaxın yerinə yetirilməsi vacib olan fərman ətrafdakı bəzi şahzadələrə çatdırılmaq şərəfinə nail oldu. Amma naxoşluq Xalxalın Ağkənd mənzilində həzrət vəliəhdin mübarək məzacına o qədər təsir etdi ki, o, yeriməyə və ata minməyə macal tapa bilmədi. Təxti-rəvana əyləşdilər və zəfər taleli xidmətçilər təşviş ilə iztirab içində ətraflarına toplaşdılar. Xidmətlərində olan həkimlər müalicəyə və dərman verməyə məşğul oldular. Sübhi-sadiq gün çıxana yaxın halı yaxşılaşsa da, kefsizlik və ümumi zəiflik qalırdı. Həzrət Zəncana gələndə onun xəstəliyi xəbəri həzrət şahənşah sarayında oturanların qulağına çatdı. Müsəlmanların səbr ilə rahatlığı əmin-amanllıq sütunlarından kənara çəkildi və fərmana əsasən həkimbaşı Mirzə Məhəmmədhüseyn xüsusi təxti-rəvana oturub Zəncana

---

manlı nümayəndəsi vasitəsilə İstanbula aparılmışdı. Osmanlı sultan ona imzasını qoyandan sonra mətn 1238-ci ilin sonlarında Fətəli şahın hüzuruna Tehrana gətirilmişdi. Şah Qacar əhdnaməni nəzərdən keçirib bəzi dəyişikliklər edilməsini istəmişdi. O, Mirzə Əbülqasım qaimməqama və Rauf paşaya həmin düzəlişləri edib yeni mətni hazırlamağı tapşırmışdı. Mətn hazır olandan sonra şah ona imzasını qoymuş və Rauf paşa mətni yenidən İstanbula aparıb Osmanlı sultana imzalamaq üçün təqdim etmişdi.

[1]Miladi təqvimilə 1823/24. Yuxarıda qeyd etdiyimiz səbəb üzündən bu fəslə 1240-cı ilin ilk aylarında baş vermiş hadisələr də daxil olunubdur.

yollandılar. Yüksək taxtın payalarının münəccimləriilə ulduzşünasları həzrət vəliəhdin Sultaniyyəyə gəlişini Günəşin batmasına bir saat qalmışa təyin etmişdilər və Samanarxı deyilən yerdə fərmana əsasən vəliəhdin gəlişi münasibətilə padşah çadırı qurulmuşdu və Naibüssəltənə həmin məkanda cah-calalla dayandılar. Görüş istəyi həyəcanı və həzrət vəliəhdin naxoşluğuna görə nigarançılıq dövran hökmdarının rahatlığını və məiyyətin əmin-amanlığını tamamilə pozmuşdu. Onlar Çəməni-Sultaniyyədə taysız oğulun xoşbəxt qədəmlərini səbirsizliklə gözləməkdə idilər. Həzrət padşah şahzadə Əlixanı İran Naibüssəltənənin halını soruşmaq üçün Samanarxına göndərmişdi ki, oradan vəziyyəti olduğu kimi yazıb təsvir etsin vəböyük qardaşı ilə birlikdə humayun ordugaha yetişsin. Gün batmasına yaxın ki, həzrət vəliəhdin gəlişinin vəd olunan vaxtı idi, nizami ordunun başçısı topxana və bütün ordusu ilə yolun bir üzündə bayraqları qaldırıb dayanmışdılar və vəzirlərlə əmirlər, habelə süvarilər xanları öz dəstələrilə yolun o biri üzündə səflərə düzülüb Naibüssəltənəni qarşılamağa hazır olmuşdular. Humayun qəsrə yaxın yerdə isə böyük şahzadələr və Qacar əmirləri durmuşdular. Həzrət vəliəhd sağlıqla daxil olub şahənşahın xəlvətxanasında şərəfli hüzura yetişdilər. Padşahi-aləmpənah həyəcan içində əziz oğlunu mehribancasına bağrına basaraq o həzrətin salamatlıq nemətindən özləri də yenidən rahatlıq tapdılar. Həmin günün sabahısı Naibüssəltənəyə bütün bu nasazlıqların və rahatsıqlıqların aradan qaldırılması üçün dincəlib istirahət etməyi tapşırdılar və bir dəstə keşikçi o cənabın xidmətində dayandılar. O biri gün humayun Xaqanın qaldığı Süleyman qəsrinin yanında çadır qurdular və həzrət vəliəhd orada rahatlıqla əyləşdi. Bütün

böyük şahzadələr, vəzirlər, əmirlər, müstövfilər, həzrət Xaqana yaxın şəxslər, dəftərxana xidmətçiləri və digər dövlət qulluqçuları böyük ehtiramla vəliəhdin salamına şərəfyab oldular. O da qulluqçularından hər birinə layiqli iltifat və həddi-hüdudu olmayan mərhəmət təqdim buyurdu. Naibüssəltənə qardaşlarını əyləşməyə dəvət etsə də ədəb qaydalarını nəzərə alıb oturmadılar və kəmərlərini o həzrətə xidmətə bağladılar. Şahzadə Həsənəli Mirzə də başqaları kimi ədəbqaydalarını əldən vermədi. Şahi-aləmpənah da hər gün təzə ənamlarla, saysız-hesabsız ehsanlarla, fəxri xələtlərlə, cürbəcür inayətlərlə, atla qılınc bağışlamaqla vəliəhdin halından xəbər alardı. Həzrət vəliəhdin rikabında yer almaq şərəfinə nail olan üç nəfərin – Nəvvab əmirzadə Məhəmməd Mirzənin, Seyfülmülük Mirzənin və Xosrov Mirzənin – hər birinə həmçinin atla qılınc əta olunmuşdu və onlar hər gün ordunun məşqləri vaxtı humayun şahənşahın hərbi dəstələrinə təlim keçərdilər ... *Zihiccənin on altısı* şahənşah əlahəzrətləri Tehrana, nəvvab Naibüssəltənə isə Azərbaycana tərəf yola düşdülər.

### *Həmin ildə baş vermiş bədbəxt hadisələrdən biri olan sədri-əzəm Hacı Məhəmmədhüseyn xan İsfahaninin vəfatı*

O, özünə məxsus biliyi, səriştəsi və alicənablığı hesabına mülk ilə mal məsələlərində həyatın əvvəlindən son gününədək böyük işlər görməklə hüsn-rəğbət qapılarını öz üzünə açmışdır. Həmin ilin axırlarında darüssəltənə Tehranda xəstələnib vəfat etdi və onun oğlu Nizamüddövlə Abdullah xan hal-hazırda canla-başla həzrət şahənşahın xidmətində durub.

*Xoşbəxt min iki yüz qırxıncı ildə[1] baş vermiş hadisələr*

Bu ilin məhərrəmül-həramı sona çatandan sonra xoşbəxt Xaqanın bayraqları əylənmək və ova çıxmaq məqsədilə darülxilafət Tehrandan Sultanabada yollandılar. Sözügedən şəhər kamına çatmış Xaqanın əmrilə İraq sepahdarı Yusif xanın bina etdiyi möhkəm qaladır və bu məkan Dəstgird adlı kəndi ilə məşhurdur. Həmin mahalda və onun ətrafında yeddi böyük kəhriz var ki, hamısının suyu Sultanabada axır. Onun bütün küçələri və dalanları pak və təmiz saxlanır. Onun bazarlarında və dükanlarında sənətkarlar görünür, bürcləri və divarı ucaldılıb. Şəhərin içində dörd böyük xiyaban olduqca möhkəm və əsaslı şəkildə salınıb. Canını qurban verməyə hazır sipahdar irəli çıxaraq xidmətində dayandı və ziyafətlər verib peşkəşlər təqdim etdi.

*Sədri-əzəm vəzifəsinin Allahyar xan Qacara həvalə edilməsi*

Şahənşah həzrətləri kəramətli əmirlərin fəxri, Mirzə Məhəmməd xan bəylərbəyinin oğlu Allahyar xan Qacarın fitri istedadını və qabiliyyətini nəzərə alaraq onu sədri-əzəm mənsəbinə təyin etmişdi. Allahyar xan əlahəzrətin kürəkəni olmağa və onun inayətinə şərəfyab olmuşdu. O, bu gün də təkbaşına divanın sədarətində oturubdur və öz gözəl rəyi və uzaqgörən fikri ilə ən mühüm məsələləri həll edərək gözəl rəftarı, dərin biliyi və idrakı sayəsində aləm kimi möhtəşəm dərgahda bütün vəzirlərin, əmirlərin və nüfuz sahiblərinin hüsn-rəğbətini qazanıbdır. Layiqli olan

---

[1]Miladi təqvimilə 1824/25

hər kəsə hörmət edər və heç kimin işini, istər rəiyyət olsun ya hərbçi, süründürüb təxirə salmaz. Bütün işini məqsədə uyğun şəkildə görür və cahandar əlahəzrətin yanında ad-san sahibi olubdur.[1]

*Türk təqvimində taxaquy yılına müvafiq olan hicrətin xoşbəxt min iki yüz qırx birinci ildə[2] baş vermiş hadisələr*

Rus padşahının kargüzarları İrəvan Göyçəsinin bir qisminin bizim tərəfimizə düşdüyünü bəhanə gətirərək sülhnamənin qüsurlu olması fikrinə gəlib onun şərtlərinə yenidən baxılması üçün danışıqlara başladılar. Gediş-gəliş və deyib-eşitmə çox uzun çəkdi və İran dövlətinin kargüzarları dedilər ki, sülhnamənin şərtlərinə əsasən yer kimin əlində olmuşdusa, olduğu kimi qalmalı idi və tərəflər öz mövqelərindən tərpənib təcavüz etməməliydilər. O camaat gah üzr istəyirdilər, gah deyirdilər ki, onların işı nəvvab Naibüssəltənə ilə baş tutmur, gah də tələb edirdilər ki, İran padşahı onların istədikləri yeri onlara bağışlasın. Dövran dövlətinin kargüzarları da onlara müsbət cavab verdilər. Söhbət həmişə bu tərəfin əlində olmuş Balıqlu, Güni və Göyçədəniz adlı yerlərdən gedir.

Həmin xoşbəxt ildə Çəməni-Sultaniyyədə salınmış ordugahda kamına çatmış hökmdar Nəvvab vəliəhdi hüzuruna çağırdı. Nəvvab Naibüssəltənə əlahəzrətin astanını öpmək şərəfinə nail olandan sonra aparılmış danışıq-

---

[1]Əbdürrəzzaq bəy Dünbülinin ömrü ikinci İran-rus müharubəsinədək davam etmədiyindən onun, təbii ki, Allahyar xanın döyüş meydanından qaçaraq Abbas Mirzəyə xəyanət edəcəyindən və buna görə kötək yeyəcəyindən xəbəri ola bilməzdi.

[2]Miladi təqvimilə 1825/26

larda rus dövlət kargüzarlarının əhdə xilaf çıxmaq üçün bəhanə axtarmaları müqəddəs diqqətə ərz edildi. Həzrət şahənşah qayda bilən, danışmağı bacaran, elçilik, işgüzarlıq və kargüzarlıq məsələlərinə bələd olan, cah-calal sahibinin etimadını qazanmış, dəfələrlə Bağdada və Xorasana elçiliyə təyin olunmuş və orada bütün işləri nöqsansız-eybsiz görmüş, humayun dəftərxananın darğası Mirzə Məhəmmədsadiq Mərvi Vəqayenigarı o tərəflərə göndərmək qərarına gəldi ki, o, Gürcüstana kimi Rus dövləti kargüzarlarının müşayiətilə sərhəddə gedib oradakı vəziyyəti nəzərdən keçirsin və göylər kimi uca olana ərz etsin. Onda məlum olar ki, iki tərəfin arasındakı ədavətə bais olan nədir və kiminlə bu barədə danışılmalıdır. Adıçəkilən mirzə Təbrizdən İrəvana və oradan Gürcüstana yola düşdü.

Nəvvab Naibüssəltənə qışın əvəllərində rus ordusunun ayaq üstdə olmağından ehtiyatlanaraq ki, bəlkə onlar yenidən ədavət salmaq üçün fürsət gözləyir və onun özünü əhdi pozmaqda günahlandırmaqdan ötrü bəhanə axtarırlar, ova getmək adı ilə darüssəltənə Təbrizdən çıxıb Kürdəştə yollandı, oradan isə ovçular Naxçıvana və İrəvana istiqamət aldılar.

### *Rus imperatoru Aleksandr Pavloviçin[1] ölümü barədə və bir neçə kəlmə onun özü və onun əxlaqı haqqında*

---

[1]Birinci Aleksandr (1777-1825) – rus imperatoru. Ənənəvi rus işğalçılıq siyasətini davam etdirərək Gürcüstanın bir hissəsini, Finlandiyanı, Bessarabiyanı, Polşanın böyük hissəsini və s. Rusiyaya birləşdirməyə nail olmuşdu. Məhz onun hakimiyyəti illərində rus ordusu Azərbaycan torpaqlarına soxulmuş və bunun nəticəsində İranla Rusiya arasında bədnam Gülüstan müqaviləsi bağlanmışdı.

*Həmin ilin rəbiüləvvəlin 21-də* rus imperatoru Aleksandr Pavloviç, təəssüf ki, o biri dünyaya köçdü. O, bir ədalətli və rəiyyətpərvər padşah olmuşdu. Moskvanın kəmağıl və kütbeyin əhlini özünün məzhəbi olan isəvi (xaçpərəstlik) yoluna yönəltmişdi. İngiltərə və Fransa məmləkətlərindən bilikli və zirək müəllimləri gətirib əhaliyə ədəb-ərkan qaydalarını və sənətkarlığı öyrətmişdi. Onun ölümündən sonra qardaşı Konstantin Pavloviç taxt-tac həvəsinə düşdü, lakin rus paytaxtının vəzirləri onun kobud, səriştəsiz və hiddətli olduğunu görüb digər qardaşı Nikolay Pavloviçi padşahlıq taxtına əyləşdirdilər.

*Məlikül-vəhhabın köməyi ilə kitabın tamamlanması*

Allahın hökmü və sonsuz fəzilətinin təzahürü idi ki, əbədi şahənşahıq dövlətinin zamanında nəvvab vəliəhd və tacdar şahzadə Firəng diyarının bütün sənətlərinin ölkədə geniş yayılması üçün xəzinələri açıb sərvətlər tökdü və cürbəcür əcaib və qəraib fənnləri inkişaf etdirməyə başladı. Mühəndislər və mühəndisxana, top və topxana, barıtxana, mahudxana, yeni nizamım tətbiqi, Firəng və İran ustalarının üsulları ilə silahların və hərbi avadanlığın düzəldilməsi – bütün bu işlər onların ustadlarından da yaxşı görülürdü. O cümlədən qəribə fənlərdən biri çap işi idi ki, ona “basma” deyərdilər və “Məasiri-sultaniyyə” adlanan bu yeni nüsxə Təbriz darüssəltənəsinin darülintibasında[1] həzrət vəliəhdin dəftərxanası kargüzarlarının səyi və bu vilayətin maarifpərvər insanlarından olan cənab Molla Məhəmmədbaqirin ustalığı ilə *hicri min iki yüz qırx birinci*

---

[1]Darülintiba – mətbəə.

*ilin rəcəbül-mürəccəb ayının sonlarında*[1] bitmə və tamamlanma şərəfinə layiq görüldü. İnşallah-təala, bu tarixdən sonra taysız Xaqanın həyatında baş verənlər başqa bir cilddə yazılacaq və mütaliə edənlər mətbəəyə gedib ondan bəhrələnə biləcəklər. Bu mühüm kitabdan savayı Tehran darülxilafətində üfüqlər sultanının (Allah onun mülkünü və səltənətini əbədi etsin!) şəfəqi və lütfü ilə Mirzə Zeynəlabidin Təbrizi Mənuçöhr xanın səyi ilə hədis kitablarının cildlərini "basma" edib, ticarət və müamilə əhli isə onları ətraf vilayətlərə apararlar və alış-veriş başlayar. Bunlar hamısı ədalətli padşahın dövlətindən və aləmpənah padşahın himmətindən irəli gəlir. Yoxsa kimdə o himmət ilə qüdrət var idi ki, altıaylıq və ya birillik yolu qət edib o avadanlığı İrana gətirsin və xalq arasında yaysın? Ümidvarıq ki, nə qədər ki, səma var və günəş ilə ay öz nurlarını saçmaqdadırlar, İranın qüdrətli əlahəzrət dövlətinin sayəsi və nəvvab Naibüssəltənə əzəmətinin kölgəsi kiçiyin, böyüyün, rəiyyətin, qulluqçunun və bu dövləti sevənlərin başından əsirgəməz, Məhəmmədin və onun pak ailəsinin haqqı ilə!

---

[1]Miladı təqvimilə 1826-cı ilin əvvəlləri

## Qeydlər

**Abbas Mirzə** (1789-1833) – Fətəli şah Qacarın oğlu, Qacarlar sülaləsinin ən parlaq siması. Atası səkkiz yaşından onu özünün vəliəhdi yerinə təyin etmişdi. Naibüssəltənə ləqəbli Abbas Mirzə İran-rus müharibələrində İran ordusuna rəhbərlik etmiş və bu vəzifədə xüsusi bacarıq göstərmişdi, lakin ordunun zəif təchiz olunması səbəbindən məğlubiyyətlə barışmalı olmuşdu. Dövrünün ən tərəqqipərvər dövlət xadimi olmuş bu şəxs bütün ömrünü vətənin inkişafına həsr etmişdi. Xalqın və xüsusilə ordu əmirlərinin və sərbazların sevgisini qazanmış, İrana gələn avropalıları öz zəkası və uzaqgörənliyi ilə həmişə valeh etmiş Abbas Mirzə hələ cavan yaşında mübtəla olmuş ağır xəstəlikdən vaxtsız vəfat etmişdir.
**Ağa Məhəmməd xan (şah) Qacar** (1742-1797) – Qacar hakim sülaləsinin banisi, Kərim xan Zəndin ölümündən sonra İranda yaranmış hakimiyyətsizlikdən və hərcmərclikdən məharətlə istifadə edərək taxta çıxmışdı. 1794-1797-ci illərdə İran şahı olan vaxtda çox cəsarətli siyasət aparmışdı. Rus işğalçılarını Qafqazdan qovmaq üçün Qarabağa gələn Ağa Məhəmməd şah Şuşa şəhərində suiqəsdə məruz qalıb qətlə yetirilmişdi.
**Ağoğlan** – Hadrutun (əslində farsca "hədde-do rud" – iki çay arası, sərhədi) əvvəlki adıdır.
**Ağruq** – ev ləvazimatı, yola düşəndə özünlə aparılan şey-şüy.
**Axtarma** – qənimət.
**Aleksandr (İsgəndər) Mirzə** (1770-1844) – Baqrationi sülaləsindən gürcü şahzadəsi. İran-rus müharibələrində qardaşı Tehmuras Mirzə ilə Abbas Mirzənin ordusu tərkibində

döyüşmüşdü və hətta Türkmənçay müqaviləsi bağlanandan sonra dəfələrlə Gürcüstan ərazisində qiyam qaldırmışdı. Sonralar Dağıstana, oradan da İrana köçmüşdü.

**Aleksandr (Birinci)** (1777-1825) – rus imperatoru. Ənənəvi rus işğalçılıq siyasətini davam etdirərək Gürcüstanın bir hissəsini, Finlandiyanı, Bessarabiyanı, Polşanın böyük hissəsini və s. Rusiyaya birləşdirməyə nail olmuşdu. Məhz onun hakimiyyəti illərində rus ordusu Azərbaycan torpaqlarına soxulmuş və sonra bunun nəticəsində İranla Rusiya arasında bədnam Gülüstan müqaviləsi bağlanmışdı.

**Asəf** – rəvayətə görə Süleyman peyğəmbərin (ə) Asəf ibn Bərxiyə adlı çox müdrik vəziri olmuşdu.

**Astanbusi** – astan öpmək, müqəddəs və ya hörmətli yerə baş çəkmək.

**Bürcis** – Müştəri, Yupiter planeti.

**Çəməni-Sultaniyyə (və ya Cəməni-Sultan)** – Qacarlar dövründə padşahların yay iqamətgahı. Bu kənd Bürucirdə yaxın yerdədir.

**Çəndovul** – ordunun arxasında mühafizə məqsədilə gələn hissə. Öndə gələn hissəyə qarovul deyilir.

**Fərsəx (və ya fərsəng)** – ağac, təqribən 6 kilometrə bərabər uzunluq ölçüsü.

**Fətəli şah Qacar** (1772-1834) – Xan Babaxan Hüseynqulu xan oğlu. Hakim Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Şuşada qətlə yetiriləndən sonra taxta keçmiş və ömrünün sonunadək İran şahı olmuşdu. Cavanlıq çağında çox cəsur və döyüşkən olmuş bu şəxsin vaxt ötdükcə başı əsasən eyş-işrətə qarışmış, oğlu və vəliəhdi Abbas Mirzənin bütün səylərinə baxmayaraq dövlətdə və orduda islahatlar aparmağı

maliyyələşdirməkdən boyun qaçırarmış. İranın Rusiyaya məğlub olmasının əsas baiskarlarından biridir.
**Firidun** – Firdovsinin “Şahnamə” əsərinin qəhrəmanı.
**Hüseynqulu xan** (1774-1845) – Bakıxanovlar nəslindən olmuş, 1792-1806-cı illərdə Bakı xanlığını idarə etmişdi.
**Hüseynqulu xan Qasımlı-Əfşar** (1821-ci ildə vəfat etmişdir) – Urmiya hakimi.
**Hüseynqulu (Hüseyn) xan Qacar** (1742-1831) – Məhəmməd xan Qacarın oğlu, 1806-1827-ci illərdə İrəvan xanı və ya İrəvan sərdarı olmuşdur. Azərbaycan xanlarından ən uzun müddət Rusiyanın istilasına inadla qəhrəmancasına müqavimət göstərmişdi. Türkmənçay müqaviləsinə görə Naxçıvan xanlığı ilə birlikdə İranın tərkibində qalmış İrəvan xanlığı yalnız 1827-ci ildə ruslar tərəfindən işğal edilmişdi. Bədnam Gülüstan müqaviləsi bağlanandan sonra Fətəli şah öz sadiq qulluqçusu Hüseynqulu xanı Xorasana göndərib orada da onun igidliyindən və döyüş bacarığından istifadə etmişdi.
**İbrahimxəlil xan Cavanşir** (1732-1806) – atası Pənahəli xandan sonra Qarabağın hakimi taxtına çıxmışdı. Onun hakimiyyəti dövründə Qarabağ xanlığı inkişaf etmiş və qonşu xanlıqlara da öz təsirini artırmışdı. İbrahimxəlil xan Rusiyanın himayəsi altına girməyə çalışmış, ardınca Ağa Məhəmməd xan Qacarın hücumuna tab gətirə bilməyib Şuşanı ona təslim vermiş, Ağa Məhəmməd şah Şuşada öz xidmətçiləri tərəfindən qətlə yetiriləndən sonra yenidən ruslaa meyl edib Sisianova tabe olmuş, ancaq Sisianovun başı Bakıda kəsiləndən sonra təkrar İran tərəfinə keçmiş və sonda ruslar tərəfindən Şuşanın həndəvərində ailəsi ilə birlikdə vəhşicəsinə öldürülmüşdür.
**İslambul** – İstanbul.

**İşpoxdur** – Rus ordusunun başçısı gürcü əsilli general Sisianov. Onun ordudakı vəzifəsi "inspektor", yəni müfəttiş adlandırdığına görə Azərbaycanda ona istehza ilə "İşpoxdur" adını qoymuşdular.
**Keyvan** – Zühəl, Saturn planeti.
**Kəlbəli xan Kəngərli** – fasilələrlə 1787-1820-ci illərdə Naxçıvan xanı olmuş bu şəxs daim hakimiyyət uğrunda əmisioğlu Abbasqulu xanla mübarizə aparmışdı.
**Kodoviç** – qraf İvan Qudoviç (1741-1820), rus ordusunun ukrayna mənşəli generalı. Müxtəlif cəbhələrdə (Fransa. Prussiya, Qara dəniz sahili, Qafqaz) döyüşmüş, Hacıbəy (indiki Odessa), Anapa, Dərbənd, Şəki, Bakı şəhərlərinin işğalına başçılıq etmiş, lakin İrəvanı almaq istəyərkən məğlubiyyətə uğrayandan sonra ordusunu Gürcüstana aparmağa məcbur olmuşdu. Bu uğursuzluq onu ruhən sarsıtdığına görə xəstələnmiş və bir ildən sonra istefaya çıxmışdı.
**Kotlərovski** – Pyotr Kotlyarevski (1782-1851), sonradan general rütbəsini almış bu şəxs 1795-1813-cü illər ərzində Qafqazda rus işğalçı qoşunlarının tərkibində vuruşmuş, dəfələrlə yaralanmış, Lənkəranın zəbt edilməsində xüsusi qəddarlıq göstərmiş və o döyüşdə şox ağır yaralanandan sonra istefaya çıxmışdı. O, bütün qalan ömrünü Lənkəranda aldığı yaralardan əziyyət çəkmiş və həmin səbəbdən cəmiyyətdən uzaqlaşaraq ucqar bir yerdə yaşamışdı. Müəllif bundan sonra onu sadəcə Polkovnik adlandırır.
**Qoy yılı** – qədim türk təqvimində Qoyun ili.
**Lar** – Fars ostanında bir şəhərdir.
**Məğfur Xaqan** – günahları bağışlanmış xaqan, yəni Ağa Məhəmməd şah Qacar.
**Mənzil** – (bu mətndə) hərəkətdə olan ordunun durma yeri, dayanacaq.

**Mərrix** – Mars planeti.
**Mir Mustafa xan** (1747-1814) – Talış (Lənkəran) xanı. İranla Rusiya arasındakı qarşıdurma zamanı gah bir tərəfə, gah o birisinə meyl göstərmiş və sonda rus işğalçılarına üstünlük verib Rusiyanın himayəsini istəmişdi. Bunun əvəzinə şəxsi əmlakın toxunulmazlığını və rus ordusunun general-leytenant (ictimai yerlərdə rəsmi libas və fərqləndirmə nişanlarını geyinməmək şərtilə) rütbəsini əldə etmişdi.
**Mirzə Məhəmmədşəfi Mazandarani** – Fətəli şah Qacarın dövründə 20 ilə yaxın İranın sədri-əzəmi olmuşdur. Nadir Mirzə Qacar öz kitabında onun haqqında geniş məlumat verib. Bax: Şahzadə Nadir Mirzə Qacar. "Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri". Fars dilindən tərcümə edən Hacı Rauf Şeyxzamanlı. Bakı. "Elm". 2019.
**Misqal** – təqribən 4,5 qrama bərabər olan çəki vahidi.
**Mustafa xan Şirvani** – Mustafa xan Xançobanlı (1768-1844). 1792-1820-ci illərdə Şirvan xanı olmuşdu.
**Müqəddimə** – (bu mətndə) ordunun önündə gələn dəstə, avanqard.
**Münşiyülməmalik** – Qacarlar dövründə bütün münşilərə başçılıq etmiş şəxs. Onun vəzifəsi ölkənin möhürlənmiş sənədlərini Ali möhürə göndərməkdən ibarət olmuşdu.
**Napoleon (Birinci)** (1769-1821) – Napoleon Bonapart. 1804-1814-cü illərdə və qısa müddət 1815-ci ildə Fransanın imperatoru olmuşdu. 1812-ci ildə, yəni Qafqazda İran-rus müharibəsinin qızğın vaxtında Avropadan Rusiyaya hücuma keçdiyinə görə Qacarlar dövləti ilə Fransa bir növ müttəfiq oldular və fransızlar İran ordusunun yenidən qurulmasında və silahlanmasında fəal iştirak etməyə başladılar. Lakin Fransanın əzəli düşməni olmuş Britaniya eyni zamanda bunun əksinə olaraq Rusiyanın Qafqazdakı hərbi

əməliyyatlarına son qoyub var gücü ilə Napoleona müqavimət göstərməyini istəyirdi. Nəticədə ingilislərin təkidi və tələbi ilə Fətəli şah rüsvayçı Türkmənçay müqaviləsini bağlamağa razılıq verəndən sonra Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının ilk mərhələsi başa çatdı.

**Nəsəqçibaşı** – Qacarlar dövründə nizam-intizama nəzarət etməyə və cəzaları yerinə yetirməyə məsul olan xüsusi bölümün rəhbəri.

**Pars yılı** – qədim türk təqvimində Pələng ili.

**Pənbək** – hadisələr baş verdiyi zəmanədə Borçalının bir bölgəsi.

**Piçi yılı** – qədim türk təqvimində Meymun ili.

**Sadiq xan Şəqaqi** (1746-1800) – 1786-1800-ci illərdə kürd şəqaqi tayfasının başçısı olmuşdu. Dəfələrlə Ağa Məhəmməd şaha, sonra isə Fətəli şaha xəyanət etmiş, məğlubiyyətə uğramış, müxtəlif üsullarla əfvə müvəffəq olmuş, ardınca yenidən xəyanət yolunu seçmiş və sonda Fətəli şahın Xorasan yürüşü əsnasında namərdliyinə görə zindana atılmış və orada ölmüşdü.

**Sari** – hal-hazırda İranın Mazandaran ostanının mərkəzidir.

**Sarı** (eləcə də Səri, Səru və s.) – əsərdəki hadisələr baş verən zaman Lənkəranın şərqində yerləşmiş ada olub. Şura hökuməti dövründə sahillə torpaq yolu ilə birləşdikdən sonra yarımada şəklini almışdır.Təsvir olunan hadisələr 1805-ci ilin sentyabrın əvvəllərində baş vermişdi.

**Səlim xan** (vəfatı 1826) – iki dəfə qısa müddət (1795-1797 və 1805-1806 illərdə) ərzində Şəkinin hakimi olmuş, lakin rusların hücumlarına tab gətirə bilməyib sonda Təbrizə, oradan da Ərdəbilə köçmüşdü.

**Sisianov Pavel** (1754-1806) – gürcü əsilli rus generalı. 1802-ci ildən Qafqazda işğalçı rus qoşununun başçısı ol-

muşdu. Vəzifəsinin rəsmi adı “inspektor” olduğuna görə Azərbaycanda onun adını istehza ilə “işpoxdur” qoymuşdular. Azərbaycanda əraziləri ələ keçirən zaman xüsusi qəddarlıq göstərmişdi. Bakını zəbt etdiyi gündə qala divarının qarşısında Bakı hakimi Hüseynqulu xanın qohumlarından biri ona ani həmlə edib başını kəsərək Tehrana aparmış və Fətəli şahın ayaqları altına atmışdı.

**Sultanbud** – hal-hazırda Ağdam rayonu ərazisində bir təpədir.

**Şahrux Mirzə** – Nadir şahın nəticəsi və Şah Sultan Hüseyn Səfəvinin nəvəsidir. Nadir şahın qardaşı oğlu İbrahim xanın qətlindən sonra Məşhəddə taxta əyləşdi, lakin Seyyid Məhəmməd adlı bir şəxs tərəfindən devrildi və kor edildi. Ardınca öz sərdalarından birinin köməyi ilə yenidən hakimiyyətə gəldi. O, Ağa Məhəmməd şaha tabe olmayan yeganə yerli hakim olduğuna görə Ağa Məhəmməd şah Xorasana gəlib onu əsir etdi və işgəncə verib Nadir şahın xəzinəsinin yerini öyrəndikdən sonra Tehrana göndərdi. 63 yaşlı Şahrux Mirzə yolda vəfat etdi.

**Şeyxəli xan** (1778-1820 və ya 21) – 1791-1806-cı illərdə Quba xanı olmuşdu. Hakimiyyətə gələndən sonra rusların tələblərinə boyun əymək istəməyib Ağa Məhəmməd xan Qacarla dostluq əlaqəsini qurmağa çalışdı. Qısa müddət ərzində Dərbəndi, Bakını və digər torpaqları özünə tabe etdirdi. Lakin Rusiya öz ordusunu Qubaya yeridəndən sonra Şeyxəli xan dağlara çəkilib Qubada, Gilgildə və digər yerlərdə baş vermiş döyüşlərdə onları əzmişdi. O, Türkmənçay müqaviləsi bağlanandan sonra da mübarizəsini Şimali Qafqazda davam etdirmişdi.

**Şoragöl (və ya Şorayel)** – hadisələr baş verdiyi dövrdə İrəvan xanlığının (vilayətinin) bir bölgəsi.

**Taxaquy yılı** – qədim türk təqvimində Toyuq ili.
**Tonquz yılı** – qədim türk təqvimində Donuz ili.
**Tormasov Aleksandr** (1752-1819) – qraf, süvari generalı. Krımda Krım tatarlarına qarşı, Dunayda və Qafqazda osmanlılara qarşı, Avropada Napoleonun ordusuna qarşı müharibələrdə böyük nailiyyətlər əldə etmiş, hətta bir müddət Rusiyanın bütün Avropadakı qoşunlarının başında durmuşdu. Yüksək inzibati vəzifələrə də (Kiyev, Riqa, Moskva general-qubernatoru) sahib olmuş, çox yüksək dövlət ordenləri ilə təltif edilmişdi. Lakin Qafqazda Abbas Mirzənin ordusu ilə mübarizədə döyüş meydanında uğursuzluğa məruz qalmış, əsasən hiyləgərliyi ilə yadda qalmış və axırda general Rtişşevlə əvəzlənmişdi.
**Ud yılı** – qədim türk təqvimində Öküz ili.
**Yunut yılı** – qədim türk təqvimində At ili.
**Zənburək** – adətən dəvənin üstündə daşınan kiçik top.
**Zər'** – təqribən 104 sm-ə bərabər uzunluq vahidi.
**Zöhrə** – Venera planeti.
**Zühəl** – Saturn planeti.

## Adlar göstəricisi


Abbas Mirzə Naibüssəltənə – bütün mətn boyu
Abdullah xan Qacar 200, 201, 215, 217, 227, 281
Ağa İbrahim (şeyxülislam) 156, 157
Ağa Məhəmməd şah (xan) Qacar (məğfur Xaqan) – bütün mətn boyu
Ağa Seyyid Əli Müctəhid 93, 94
Ağoğlan 98, 99, 120, 230, 233
Axırkələk (Axalkələk) 136, 205
Axısqa 106, 107, 136, 140, 164, 180, 185, 186, 189, 205, 229
Alaşkerd (bax: Torpaqqala) 262
Aleksandr (imperator) 252, 284
Aleksandr Mirzə 120, 214, 229
Allahyar xan Qacar 282
Amanullah xan Əfşar 122, 126, 143-145, 147, 150, 153, 154
Aslandüz 90, 92, 123, 124, 184, 207, 214, 220, 230, 232-234
Astara 223, 227
Astrabad 12, 14-20, 23, 25-27, 31, 143, 152, 175, 186, 196, 249
Avacıq 262, 263
Bakı 110-112, 126, 129, 168
Baron Verdi 140, 159
Başaçuq 164, 179, 180, 185, 186, 189
Borçalı 165, 166
Car 64, 132, 134
Cavad xan (Gəncə) 64
Cəfərqulu xan Dünbüli 40, 42
Cəlaləddin Məhəmməd paşa 261, 266, 267
Cürcan 11
Çəməni-Abaran 165, 182
Çəməni-Sultaniyyə 25, 43, 47, 72, 78, 140, 181, 192, 193, 218, 240, 252, 253, 255, 278, 279Ş, 282, 284
Çəməni-Ucan 86, 162,

163, 175, 181, 183, 186, 238, 240, 242
Çingiz xan 11-13
Çors 144, 146, 149, 153
Çuxur-Səəd 40, 63
Dağıstan 34, 200, 201
Drığ 222
Eldəgiz (dərə) 236
Əbülfəth xan Cavanşir 122, 167, 168, 181, 203
Əhməd xan Müqəddəm 54, 68, 117, 120, 127, 128, 133, 134, 144, 146, 155, 199, 200, 214, 218, 254
Əli xan (şahzadə) 78, 181, 182, 239, 240
Əli xan Qacar 62, 74, 100, 147-149, 153, 154, 156
Əli xan Nuri 221, 237
Əliqulu xan Şahsevən 36, 74, 75
Əmir xan Qacar 144, 157, 169, 194, 207, 212, 221-223, 265
Ərğun xan 11,12
Ərkivan 222, 227
Əsgər xan Əfşar 112, 137, 158, 161, 198, 214, 252
Əsgəran 91, 99, 100, 104, 120, 179, 184, 212
Əşrəf xan Dəmavəndi 103, 152, 193, 227
Fərəcüllah xan Əfşar (nəsəqçibaşı) 143, 145-147, 150, 165-167, 170, 174, 175, 239, 240
Fərəcüllah xan Şahsevən 118, 119, 132, 156
Fətəli xan Qovanlu-Qacar 197, 198, 262
Fətəli xan Nuri 138, 143, 154, 160
Fətəli şah (xan) Qacar – bütün mətn boyu
Gəncə 14, 32, 61, 64, 91, 97, 99, 102-106, 111, 114-116, 120, 123, 124, 130, 132, 134, 164, 165, 167, 169, 170, 181, 182, 200-202, 207, 215, 221
Gərəgin (Koryakin) 99
Gilan 18, 19, 23, 25, 27, 41, 108-110, 174, 216, 221, 222
Gorus 221, 222
Göyçə 165, 167, 169, 171, 282
Hacı Məhəmməd xan Qaragözlü 108, 114, 115, 169, 184, 202-205, 221, 226

Hacı Məhəmmədhüseyn xan İsfahani 15, 18, 35, 46, 95, 256, 280
Hafizəli paşa 257-59, 261, 262, 266
Hamamlu 164, 165, 182
Həsən xan Qacar 46, 73, 74, 85, 122, 123, 129, 143, 150, 151, 258, 260, 261, 263-265, 269
Hövdər (qala) 52, 53
Hüseynqulu xan (Bakı hakimi) 110-113, 126, 130, 146, 167, 183
Hüseynqulu xan Dünbüli (Xoy hakimi) 11, 29
Hüseynqulu xan Əfşar (Urmiya hakimi) 34-36, 43-46, 48, 50-52, 114-116
Hüseynqulu (Hüseyn) xan Qacar (İrəvan sərdarı) 92, 112, 124, 125, 134, 136, 142-144, 147, 150, 153, 165, 171, 185, 186, 205, 214, 221, 239, 240, 263, 267, 268
Xoy 29, 36, 38, 40, 44, 46, 47, 51-55, 78, 84, 89, 114, 120, 142-144, 157, 197, 198, 205, 260-262, 264, 269
Xudafərin (körpü) 97, 118, 122
İbrahim xan Bayat 170, 199, 200
İbrahim xan Qacar 181, 183
İbrahim paşa 261, 266, 267
İbrahimxəlil xan 32, 34, 47, 91, 96, 97, 99, 117-119, 201, 203, 204, 227, 288
İrakli xan 32
İrəvan 14, 36, 53, 55, 61-78, 85, 90, 92, 103, 106-108, 114-116
İsfahan 120, 127, 133, 134, 136, 139, 141-153, 159, 165, 166, 170-172, 182, 184, 189, 197, 201, 202, 205, 215, 217, 221, 227, 229, 239, 240, 248, 258-260, 264, 268, 282, 283, 288, 289, 293
İsmayıl xan Damğani Qullarağası 15, 16, 18, 20, 23, 26, 27, 30, 45, 46, 48, 50, 56, 95, 159
İsmayıl xan Qacar 40, 103-114, 153
Kəlbəli xan Kəngərlu 76,

114-116, 128
Kərbəla 60,
Kərim xan Zənd 19-22, 31
Kodoviç (Qudoviç) 85, 92, 130, 133-145, 149-154, 159, 161, 164,
Kotlərovski (Polkovnik) 91, 99-101, 230, 238
Qamışavan 222-226
Qaracadağ 29, 37, 38, 120, 144, 145, 178-180, 184, 185, 195, 196, 202-204, 207, 214, 222, 227, 228, 237
Qarakilsə 187, 262, 263
Qardan 137-142, 149, 158-161
Qazax 106, 107, 164, 181, 182, 202
Qazan xan 11
Qəzvin 23, 26, 27, 37-39, 47, 52, 63, 137, 138, 143, 256
Qor Uzli Bront 216, 217, 227, 229, 246
Quba 110, 126, 157, 183, 201, 213
Larican 20, 23, 25
Lənkəran 117, 173-175, 216, 222-224, 226, 238
Linzi 189, 228
Lisanoviç 215
Lütfəli xan 28-32
Mağaviz 194, 196, 119, 221, 236
Maku 54, 150
Marağa 35-37, 44, 54, 68, 127, 143, 200, 209, 234, 235, 255
Markiz (Pauluççi) 208, 213, 214, 216
Mazandaran 11, 12, 17-26, 30, 36, 175, 223
Meğri 179-181, 191
Mehdiqulu xan Dəvəlu-Qacar 24, 49, 62, 66Ş 67, 78, 100, 114, 115, 120, 127, 143, 200, 209, 234, 235, 255
Məğfur xaqan (bax: Ağa Məhəmməd şah)
Məhəmmədrauf paşa 260, 269-271
Məhəmmədhəsən xan 18, 19, 97, 175, 176, 203
Məhəmmədtəqi Mirzə 15, 52, 239, 269
Məhəmmədzaman xan İz-zəddinlu-Qacar 18, 249
Mir Həsən xan (Lənkəran) 167, 173, 223

Mir Mustafa xan (Lənkəran) 92, 116, 117, 119, 130-132, 134, 146, 157, 164, 165, 167, 172-175, 208, 216, 220, 220-226, 250, 251
Mirzə Büzürg
Mirzə Əbülhəsən xan Şirazi
Mirzə Əbülqasım Capiləqi
Mirzə Məhəmmədşəfi 36, 68, 70, 135, 255
Mirzə Məhəmmədrza Qəzvini
Mirzə Musa Münəccimbaşı
Muğan
Mustafa xan (Şirvan) 32, 111, 117, 119, 124-131, 173, 183, 208, 213
Nadir şah Əfşar 17-19, 33, 34, 81, 194
Naxçıvan 55, 82, 92, 142-149, 153-157, 168-170, 181, 182, 193-197, 221, 236, 237, 283
Napoleon 138, 157, 158, 160-162, 238
Nebolsin 120, 123, 131, 142, 153, 154., 170, 182
Nəcəfi-əşrəf 41, 58, 59, 161, 256
Nəcəfqulu xan Gorus 99, 119, 124, 146, 222, 228
Nəzərəli xan Şahsevən 146, 156, 165-167, 193, 209, 221, 236
Pənbək 67, 75, 114-116, 128, 140, 141, 164, 186, 187, 214, 215, 221, 239
Pirqulu xan Qacar 55, 75, 100, 106, 111-113, 124, 126, 129, 131, 169, 181, 184, 195, 201, 231, 235
Rəşt 27, 41, 109, 226, 227
Rtişşev 161, 215-217, 227, 230, 248
Sadiq xan Şəqaqi 29, 34, 35, 37-43, 100
Sainqala 31, 44, 53, 54, 93, 189, 197, 198, 259, 261
Salmas 214
Sari 20, 25, 117, 167
Sarı 96, 111-113, 116, 223, 225
Sarı Aslan (bax: Həsən xan Qacar)
Sisianov (İşpoxdur) 64, 65, 67, 69, 71, 76, 90, 97, 102, 104, 105, 108, 111,

113, 114, 117, 133, 146
Sulduz 37, 44, 214
Sultanbud 207-209, 212-214, 216, 227, 234
Süleyman xan Qacar Nizamüddövlə 34-36, 41, 43, 46, 47, 54, 55, 62
Süleyman paşa 41, 60, 61, 199, 259
Şah Sultan Hüseyn Səfəvi 15, 16
Şah Təhmasib (İkinci) 13, 16, 18
Şeyx Cəfər Nəcəfi 13, 93, 94
Şeyxəli xan (Quba) 110, 111, 113, 124, 126, 156, 183, 200, 213
Şəki 32, 119, 120, 124-127, 130-132, 134, 177, 183, 207, 208, 231-233, 236, 250, 251
Şirvan 25, 32, 42, 111, 117, 119, 123-134, 173, 200, 207, 208
Şoft 108, 110, 112, 113, 116, 117
Şoragöl 114-116, 164, 166, 214, 215, 221, 239
Şuşa 34, 37, 91, 97, 98, 196, 201, 203, 204, 207, 212, 213, 230
Tala (Zaqatala) 64, 132, 134
Taycu 11
Tehran 16, 21, 23, 25-28, 32, 33, 36, 50-52, 62, 77, 78, 108, 109, 135, 139, 159, 160, 162, 173, 175, 192, 193, 217, 218, 240, 246, 248, 252, 253, 256, 280, 281, 285
Təbəsəran 200
Təbriz – bütün mətn boyu
Təxti-Tavus 99, 102-104
Tərtər 102, 104, 184, 207, 232
Tiflis 181
Uğurlu xan Qacar 181, 215, 217
Unk xan 12, 13
Urmiya 29, 42-44, 147
Van 197, 199, 261, 262
Yermolov 81, 252, 253
Yəsuge 13
Yəzdabad 82
Zuvand 222

## Mündəricat

Ön söz ............................................................................ 3
[Müəllifin dibaçəsi (ixtisarla)] ....................................... 9
Qacarlar nəsli haqqında ............................................. 11
Ölkənin xaqanı Fətəli xanın aliməqam cəddi ............. 14
Sərdar Fətəli xanın Şah Sultan Hüseyn Səfəviyə əfqanları qovmağa kömək etmək üçün İsfahana getməsi ...... 15
Yeri cənnət olan xaqan Məhəmmədhəsən xan haqqında . 18
Məğfur Xaqan Məhəmməd şahın Kərim xan Zəndin vəfatından sonrakı fəthləri və əməlləri haqqında, bu kitab yazılmağa başlayan gündən o cənabın şəhadətinə qədər ........ 21
Sadiq xan Şəqaqinin fitnəsi haqqında .......................... 37
Taxta xoşbəxtanə əyləşmənin ikinci ilində baş verənlər və dünya qədər geniş hökmdar alayının üsyançıları cəzalandırmaq üçün Azərbaycana hərəkət etməsi ........................ 41
Üfüqlər hökmdarının dərgahına yaxın olanların qulağına Hüseynqulu xanın tüğyan etməsi xəbərinin yetişməsi və humayun qafilənin Azərbaycandan İraqa yola düşməsi ..... 44
Qacar qəsrinin tikilməsi və bəzi digər məsələlər ........... 50
Naibüssəltənə vəlxilafət Abbas Mirzənin bayraqlarını Azərbaycana tərəf döndərməsi, Hövdər qalasının alınması və Cəfərqulu xanın məğlub olması .................................. 52
Uğurlu min iki yüz on beşinci ildə baş şahzadə Abbas Mirzə Naibüssəltənənin Azərbaycan istiqamətinə təyin edilməsi ............................................................... 55
Hicri min iki yüz on altıncı ildə baş vermiş hadisələr ..... 55
Qısa olaraq ərəb şeyxi Əbdüləziz haqqında .................... 55
Taxta xoşbəxt əyləşmənin yeddinci ili olan hicrətin min iki yüz on doqquzuncu ilində baş vermiş hadisələr ............. 61

Gəncə ermənilərinin müxalif olmaları səbəbindən Gəncə qalasının Rusiyanın əlinə keçməsi ................................ 64
Mehdiqulu xana İrəvan camaatını köçürmək tapşırığının verilməsi və onun dəstəsinin Firiduntəkin şahzadənin xidmətinə varması ............................................................... 66
İşpoxdurun irəvanlı Məhəmməd xanın imdadına yetməsi və Xaqanın ordusu ilə vuruşması ..................................... 67
Vəzir Mirzə Məhəmmədşəfinin təşviqi ilə İrəvan bəylərbəyi Məhəmməd xan Qacarın itaətə gəlməsi .................. 69
Rus qoşununun İrəvan qalasının üzərinə yürüşü vəqala əhalisi ilə müharibə etməsi ............................................... 70
Şahənşahın müzəffər bayraqlarının İrəvan üzərinə dönməsi və islam ordusunun Rusiya qoşunu ilə müharibə etməsi . 72
Ordunun bir hissəsinin İrəvan qalasına yollanması ........ 73
Rus qoşununun fələk kimi əzəmətli ordugaha gecə vaxtı basqın etməsi ........................................................... 73
Nəvvab Naibüssəltənə vəlxilafətin Azərbaycan məmləkətində ruslarla müharibəyə məmur olması .............................
Nəvvab Naibüssəltənəyə din ilə dövlət və mülk ilə millət yolunda Tanrının razılığı müyəssər olmasına yol açmış şanlı əməllər haqqında ....................................................... 77
Hündür qalaların tikilməsi ............................................ 79
Birincisi, möhkəm Abbasabad qalasının inşa edilməsi ... 82
Əlincəq qalasının təmiri ............................................. 83
Genişsahəli Ərdəbil qalasının tikilməsi ......................... 84
Gözəl Xoy bölgəsində mətanətli qalanın tikilməsi ...........84
Azərbaycanın mətanətli qalalarından olan, əmin-amanlıq ilə səadət rəmzinə çevrilmiş möhkəm İrəvan qalası haqqında .....................................................................85
Darüssəltənə Təbriz qalasının təmiri və ətrafın fransız tərzdə tikilməsi ........................................................... 85

Ucanda bir qəsr layihəsinin hazırlanması vəTəbriz darüssəltənəsi qalasının xaricində əbədi qalacaq qəsrin və cənnət bağına bənzər bağın salınması ........................................ 86
Məzlumlar gününün təsis edilməsi .................................86
Çaparxanalar .......................................................................87
Mehmanxanalardakı vəziyyət .......................................87
Şəriət işlərinin nizama salınması, elm əhlinə, fəqihlərə və bilik adamlarına özlərinə layiq hörmət edilməsi ............. 87
[Nəvvab Naibüssəltənənin yeddi dəfə ruslarla döyüş meydanında qarşı-qarşıya gəlməsi] ....................................... 90
Əvvəlincisi, hicri min iki yüz on doqquzuncu ildə İrəvan uğrunda rus sərdarı İşpoxdurla baş vermiş döyüş ........... 90
İkincisi, hicri min iki yüz iyirminci ildə ......................... 90
Üçüncüsü, yenə də həmin ildə ..................................... 91
Dördüncüsü, hicri min iki yüz iyirmi birinci ildə baş vermiş döyüş ...............................................................................91
Beşincisi, hicri min iki yüz iyirmi üçüncü ildə rus sərdarı Kodoviçin gəlişi ......................................................... 91
Altıncısı, min iki yüz iyirmi səkkizinci ilin aylarında ..... 92
Bu illərdə əsr müctəhidlərinin Rusiya ilə müharibəyə dair fətvaların bəyan olunması və cihad risaləsinin tərtib edilməsi ................................................................................. 92
Firəngistan əhlindən Yusif adlı padre haqqında ............. 94
İbrahimxəlil xanın müxalif olması, Həzrətin yaxınlarından olan İsmayıl bəyin nəvvab Naibüssəltənənin əmri ilə Qarabağ qoşununa qarşı müharibə etməsi və Naibüssəltənənin bayrağının onun ardınca Qarabağa yürüməsi ............... 96
Naibüssəltənənin rus ordusunun sərdarı Polkovniklə döyüşməsi, o qoşunun qalaya sığınması və onların səngərlərinin ələ keçməsi ........................................................... 98

Dünyanı fəth etmiş şahənşah Təxti-Tavus mənzilində dayanarkən baş vermiş bəzi hadisələr ................................ 103
Naibüssəltənə vəlxilafətə Gəncəni və Gürcüstanı ələ keçirməyin tapşırılması, Gəncə rəiyyətlərinin köçürülməsi və digər hadisələr .......................................................... 103
Rus sərkərdəsi Şoftun Gilanla sərhəddə gəlişi, onun yerli əhali ilə müharibəsi və İşpoxdurun yenilib qaçması ......108
Dünya Xaqanının fərmanı ilə Nəvvab Naibüssəltənə vəlxilafət şahzadə Abbas Mirzənin Azərbaycan hakimiyyəti başında əyləşməsi və habelə müxtəlif xəbərlər .................109
Naibüssəltənənin Muğan səmtinə irəliləməsi, rus sərdarı İşpoxdurun qətli və rusların pərən-pərən düşməsi ........... 111
Bəzi Azərbaycan əmirlərinin İrəvana getmək tapşırığını alması və o vilayətdəki vəziyyətin icmalı .........................114
Talış hakimi Mustafa xanın Mirzə Büzürg qaimməqam ləqəbli taysız vəzir Mirzə İsa ilə ünsiyyət yaradıb arxayın etməklə könlünü almaq səyləri .........................................116
İbrahimxəlil xanın rusların əli ilə qətlə yetirilməsi ........117
Ali qafilənin Qarabağda Rusiya ilə növbəti dəfəmüharibə etmək üçün hərəkətə keçməsi .......................................119
Elatları köç etdikləri məqamda Rusiyanın və qarabağlıların Əbülfəth xanla döyüşmələri ..........................................122
Uca bayraqların Şirvan səmtinə dönməsi .....................123
Pirqulu xan Qacarın və Şeyxəli xanın Dərbəndə göndərilməsi, Səlim xan Şəkinin qorxuya düşməsi və onun arxayınlaşması ..........................................................................126
Xoşbəxt qafilənin Şirvandan geri qayıtmasına bais olmuş bəzi məqamlar haqqında ................................................127
Ali qafilənin yürüşündən sonra Mustafa xan Şirvaninin bəzi nalayiq hərəkətləri, onun Pirqulu xanla müharibəsi və məğlub olması ........................................................... 129

Rusların Şəki hakimi Səlim xanla döyüşməsi və onun qalib gələndən sonra ləzgilərin yenilməsi səbəbindən məğlub olması ....................................................................131
Bəzi yeni halların zühur etməsi, rus sərdarı Kodoviçin Stepanov adlı elçisinin nəvvab Naibüssəltənənin dərgahına gəlməsi və oradan möhtərəm Xaqanın dərgahına yollanması ....................................................................133
Şahzadə nəvvab Naibüssəltənənin müzəffər qafiləsinin Təbriz darüssətənəsindən hərəkət etməsi və Rusiyanın Osmanlı ordusunun əlindən məğlub olması xəbərinin gəlməsi ....................................................................135
Zəfərnişan qafilənin Təbriz darüssəltənəsinə qayıdışı, işbilən səfir Mirzə Məhəmmədrza Qəzvininin general Qardanla və digər sözbilən elçilərlə kamına çatmış Xaqanın sarayına gəlişi və Əsgər xanın səfirliyə təyin edilməsi ................137
Xoşbəxt hicri min iki yüz iyirmi üçüncü ildə baş verən hadisələr: rus sərdarı Kodoviçin əhdinə xilaf çıxması, onun saysız-hesabsız qoşunu ilə İrəvanın üstünə gəlməsi və orada məğlub olması ...........................................................139
Kodoviçin əhdnaməni pozması, onun İrəvanın üzərinə gəlməsi və sərdar Hüseyn xanın ruslarla müharibəsi .........142
Nəvvab Naibüssəltənənin Naxçıvandakı ruslarla müharibəsi ....................................................................146
Naibüssəltənənin Araz çayından keçməsi və müsyö Lajarın general Qardanın yanından Kodoviçin yanına gəlməsi ..148
Rusların İrəvan qalasına yürüşü, tayı-bərabəri olmayan Xudavəndin köməyi ilə onların darmadağın edilib qətlə yetirilmələri, Gürcüstan tərəfə qayıtmaları və güclü şaxta səbəbindən yolda bəzilərin aradan getmələri .................150

Nəzərəli xanın və Fərəcüllah xan Şahsevənin xətalarının əfv olunması, Şeyxəli xan Qubanın Rusiya ilə müharibəsi və Xoy şeyxülislamı Ağa İbrahimin ali Osman dövlətinə səfərdən qayıtması ........................................................156
Hicri min iki yüz iyirmi dördüncü ilin hadisələri və general Qardan xanın Napoleondan icazəsiz İrandan qayıtması .157
Xaqan bayrağının Çəməni-Ucana yönəlməsi və nəvvab Naibüssəltənə vəlxilafətin xoşbəxt Xaqanın astanbusisinə yetişməsi ..............................................................................162
Xaqan əlahəzrətin fərmanıyla nəvvab Naibüssəltənənin Gəncəyə üz tutması, o qələbə ilə dolu günlərdəbaş verən hadisələr və Mustafa xan Talışın sözünə xilaf çıxması ..164
Şahzadə Məhəmmədəli Mirzənin rusların üstünə döyüş səfəri, Borçalıdan bəzi ellərin basqını və onun İrəvana qayıtması ..........................................................................165
Fərəcüllah xanın səfəri ................................................166
Nəvvab Naibüssəltənənin Göyçə ilə Gəncəyə yollanması və orada baş verənlər .....................................................167
Mustafa xan Talışın itaətə gəlməsi və bəzi işlərin qaydaya salınması ..........................................................................172
Əlahəzrət Xaqanın Mirzə Məhəmmədhəsəni Naibüssəltənə vəlxilafətin vəziri yerinə təyin etməsi və baron Vredenin işə əncam vermək üçün gəlişi ...........................................175
Hicri min iki yüz iyirmi beşinci ilin hadisələri, Tormasovun xahiş etdiyi atəşkəsin əsasını qoymaq üçün qaimməqam Mirzə Büzürgün təyin olunması və atəşkəsin baş tutmaması .......................................................................178
Bəzi hadisələrin şərhi, habelə Nəvvab şahzadə Əli xanın Qazaxın bir neçə elatını çapması və o cənabın qayıtması ..........................................................................181

Şeyxəli xan Qubanın və Mustafa xan Şirvaninin üzərilərinə aldıqları öhdəliklər və İbrahim xan Qacarın Kür çayının sahilinə yollanması ........................................................183
Tormasovun Başaçuqun valisi Süleyman xanı tutması, sərdar Hüseyn xanın Axısqada ruslara məqlub olması, bunun əvəzini çıxmaq üçün sərdarın rusların üstünə gəlməsi, Hacı Qara səngərinin ələ keçirilməsi və bu səngərdə çoxlu rusun qətlə yetirilməsi və pərən-pərən salınması ......................185
Məlkom Bəhadirin gəlişi, ingilis topxanasının dünyanın pənah apardığı saraya gətirilməsi və həmin topxananın Naibüssəltənəyə təhvil verilməsi ........................................188
Tormasovun Axısqanı almaq cəhdi və Şərif paşanın ona qalib gəlməsi ..............................................................189
Bir dəstə sərbazın Şeyx Aviz ruslarının üstünə göndərilməsi və sərbazların əli ilə rusların oradan qovulması .190
Humayun qoy yılına təsadüf edən min iki yüz iyirmi altıncı ilin hadisələri və ali Osmanlı dövlətinin elçisi Yasinzadə Əbdülvəhhab əfəndinin gəlişi ........................................191
Çəməni-Sultaniyyədə şahzadələrin toy şənlikləri .........192
Xoy və Salmas bəylərbəyi Fətəli xanın Vana basqını və o işin təfərrüatları haqqında ...............................................197
Şeyxəli xanın və ləzgilərin ruslarla savaşması və bu işin təfərrüatları haqqında ..................................................200
Gəncədə Abdullah xan Qacarın xilas olması və Rusiyanın İranla barışmaq istəməsi ...............................................201
Qarabağa yetirilmiş bəzi zərər və dağıntılar, eləcə də oradakı ruslara vurulmuş bəzi zərbələr haqqında ................202
Nəvvab Naibüssəltənənin Təbrizdən hərəkət edib Qarabağa yollanması ..................................................................205

Nəvvab Naibüssəltənənin Sultanbud üzərinə hərəkət etməsi, Rusiya ilə böyük mücadiləsi və müzəffər ordunun qalib gəlməsi ....................................................................208
Əhməd xan Müqəddəmin və Əsgər xan Əfşarın Bəlbas fitnəkarlarını tənbeh etmək tapşırığını alması ....................214
Vali Aleksandr Mirzənin Rusiyaya qarşı mücadiləsi, Qəsəq(?) əhalisinin ruslarla davası və rus sərdarı qərargahının sülh istəməsi ............................................................214
Xoşbəxt hicri min iki yüz iyirmi yeddinci ilin novruzunun gəlişi və yeni sərdar Rtişşevin ingilis dövlətinin elçisi ser Qor Uzlinin vasitəsilə sülh istəməsi ...............................216
Hökmdar bayraqlarının Çəməni-Sultaniyyəyə gəlişi və digər işlər haqqında .......................................................218
Talışda Lənkəranın və Ərkivanın ələ keçirilməsi və Mustafa xanın Qamışavana qaçması .......................................222
Dövlət nümayəndələrinin rus sərdarı ilə sülh danışıqlarının aparması və sülhün bağlanmaması ................................227
Aslandüz əhvalatı və orada baş vermiş hadisələr ...........230
Təbrizə daxil olandan sonrakı hadisələr, xoşbəxt bayraqların hərəkətini şərtləndirənlər və Talışda baş verənlər. 236
Şahzadələrin ulduzlar qədər çoxsaylı qafilənin önündə Azərbaycana göndərilməsi, şah bayrağının Çəməni-Ucana yollanması və hicri min iki yüz iyirmi səkkizinci ilin hadisələri .....................................................................239
Rus sərdarının şah qafiləsinin Ucana gəlişindən ingilis elçisi ser Qor Uzli Brontdan xəbər alması və onun sülh istəməsi ......................................................................242
Şah əlahəzrətləri qafiləsinin Təbriz darüssəltənəsinə daxil olması və o Həzrətin yerli əhaliyə iltifat göstərməsi ......245
İngilis dövlətinin böyük elçisi ser Qor Uzli Brontun padşah sarayından mürəxxəs olması, onun İran və Rus dövlətləri

arasında sülh danışıqlarına qoşulmaq üçün Tiflisdən və Peterburqdan yola düşməsi və həmçinin hökmdarın inayətinə və Naibüssəltənənin mehriban münasibətinə layiq görülməsi ..........................................................................246
Min iki yüz iyirmi doqquzuncu ilin hadisələri ................249
Türkün tonquz yılına müvafiq xoşbəxt min iki yüz otuzuncu ilin hadisələri və Mirzə Əbülhəsən xanın Rus dövlətinə səfir getməsi ..................................................249
Mustafa xan Talışın vəfatı, onun ölümündən sonra oğullarının vəziyyəti, Cəfərqulu xanın durumu, Şəki əhalisi arasında çaxnaşma və onların başına gələnlər haqqında .....250
Türkün siçqan ilinə müvafiq mın iki yüz otuz ikinci ilin hadisələri, şahzadə Həsənəli Mirzənin Xorasana təyin edilməsi və digər işlər haqqında ..........................................251
Türk təqvimində ud yılına müvafiq min iki yüz otuz üçüncü ilin hadisələri, Mirzə Əbülhəsən xanın qayıtması, İran və Rus dövlətləri arasında sülhün bağlanması üçün rus sərdarı Aleksandr Yermolovun gəlməsi və Tehran darülxilafətinə gedib qayıtması ........................................................252
Türk təqvimində pars yılına müvafiq hicri min iki yüz otuz üçüncü ilin hadisələri, şahənşahın günəş nişanlı bayrağının Xorasan işlərini qaydaya salmaq məqsədilə hərəkətə keçməsi, Fəth xan Əfğanın əzilməsi, Qəndəhar və Herat məmləkətlərinin dağıdılması, Rəhim xanın qaçması və Kamran Mirzənin əli ilə Fəth xanın kor edilməsi .......................255
Hicri min iki yüz otuz dördüncü ildə baş vermiş hadisələr və sədri-əzəm Mirzə Məhəmmədşəfinin vəfatı ...............255
Xoşbəxt min iki yüz otuz beşinci ilin hadisələri ............256
Hicrətin min iki yüz otuz altıncı ilinə müvafiq yılan yılda baş vermiş hadisələr və ... Nəvvab Naibüssəltənənin müzəffər bayrağının Rum tərəfə yönəlməsinə bais olmuş bəzi

Rum sərhədçilərinin ali dövlətin böyükləri ilə pis rəftar etməsi ..........................................................................256
Xoşbəxt min iki yüz otuz yeddinci ilin hadisələri, Rum paşalarının Nəvvab Naibüssəltənə ilə Torpaqqalada döyüşü və keçən ilki hadisələrdə bəyan olduğu tərzdə o tayfanın Barinin köməyi ilə məğlub edilməsi ....................................260
Hicrətin xoşbəxt min iki yüz otuz səkkizinci ildə baş vermiş hadisələr və İran ilə Rum dövlətləri arasında sülh müqaviləsinin bağlanması ..................................................270
İki dövət arasında bağlanmış sülhnamənin zəkalı vəzirlər sülaləsinin nümayəndəsi, əzəmətli seyyidlərin nəticəsi qaimməqam Mirzə Əbülqasımın tərəfindən təqdim edilmiş surəti ............................................................................ 271
Türk piçi yılına müvafiq hicrətin xoşbəxt min iki yüz otuz doqquzuncu ilin hadisələri ...........................................278
Həmin ildə baş vermiş bədbəxt hadisələrdən biri olan sədriəzəm Hacı Məhəmmədhüseyn xan İsfahaninin vəfatı ....280
Xoşbəxt min iki yüz qırxıncı ildə baş vermiş hadisələr ..281
Sədri-əzəm vəzifəsinin Allahyar xan Qacara həvalə edilməsi ...........................................................................281
Türk təqvimində taxaquy yılına müvafiq olan hicrətin xoşbəxt min iki yüz qırx birinci ildə baş vermiş hadisələr ............................................................................ 282
Rus imperatoru Aleksandr Pavloviçin ölümü barədə və bir neçə kəlmə onun özü və onun əxlaqı haqqında ..............283
Məlikül-vəhhabın köməyi ilə kitabın tamamlanması .....284
Qeydlər .............................................................................286
Adlar göstəricisi ...............................................................294
Mündəricat .......................................................................300